NƏRİMAN HƏSƏNZADƏ

Ш6
Н63

SEÇİLMİŞ ƏSƏRLƏRİ

234117

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"ŞƏRQ-QƏRB"
BAKI-2004

*Bu kitab "**Nəriman Həsənzadə. Taleyin töhfəsi**" (Bakı, Gənclik, 1993) və "**Nəriman Həsənzadə. Gəlimli-gedimli dünya**" (Bakı, Şərq-Qərb, 1995) nəşrləri əsasında təkrar nəşrə hazırlanmışdır*

Ön sözün müəllifi: **Nizami Cəfərov**

894.3611 - dc 21
AZE
Həsənzadə Nəriman. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2004, 336 səh.

Bugünkü Azərbaycan poeziyasının keyfiyyətcə hansı səviyyədə olmasının məsuliyyətini birinci növbədə böyük yaradıcılıq təcrübəsinə malik sənətkarlardan biri kimi Nəriman Həsənzadə də daşıyır.

Ənənəvi poeziya məktəbinin görkəmli nümayəndəsi olan şairin lirik həsbi-hallardan başlayıb epik dramatik mükalimələrə qalxan əsərləri, üslubu müasir Azərbaycan ədəbiyyatının ideya-estetik əsaslarını müəyyən etməklə qalmır, milli ictimai şüura əhəmiyyətli təsir göstərir.

Günümüzün ağrılarının, faciələrinin, qəhrəmanlıqlarının dastanını yazan şair Azərbaycan poeziyasının həqiqətən qiymətli nümunələrini yaradır. Sözlərinə çoxlu sayda musiqi bəstələnməsi şair Nərimanın dilimizin zəngin söz xəzinəsindən necə məharətlə istifadə etdiyini göstərir.

Oxuculara təqdim olunan bu kitaba Nəriman Həsənzadənin muxtəlif illərdə qələmə aldığı şeir və poemalardan seçmə nümunələr daxil edilmişdir.

ISBN 9952-418-00-8

© "ŞƏRQ-QƏRB", 2004

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

ÖN SÖZ

Nəriman Həsənzadə haqqında danışmaq ümumən müasir Azərbaycan poeziyası barəsində danışmaq deməkdir, – XX əsrin ikinci yarısının sosial-estetik problemlərini yaradıcılığında bütün miqyası ilə əks etdirən Nəriman Həsənzadə, böyük Səməd Vurğundan sonrakı dövrün ən gözəl şairlərindəndir; şerində də, nəsrində də, dramaturgiyasında da, hətta publisistikasında da o məhz şairdir. 50-ci illərin əvvəllərindən bugünə qədər onun poeziyası eyni səmimiyyətlə, eyni mətləblərin "təfsir"inə xidmət edir. Şairlik N.Həsənzadənin stixiyasıdır – o, təkcə şerində, nəsrində, dramaturgiyasında, publisistikasında deyil, adi məişətdə də şairdir, yazanda da, yazmayanda da şairdir...

"Azərbaycan harayı"nı "bütün millətlərə" çatdıran diplomatlar arasında ən böyük şair, şairlər arasında ən böyük diplomat N.Həsənzadə olmuşdur.

N.Həsənzadənin yaradıcılığı güclü etnik-mədəni əsaslara malikdir; onun hər hansı şerini götürüb şairin mənsub olduğu etnosun xarakterinin "mətn"i kimi təhlil etmək mümkündür. N.Həsənzadə poeziyasındakı etnik-etnoqrafik həssaslığı, emosiya naturalizmini ancaq qədim türk poeziyasındakı etnik-etnoqrafik həssaslıq və emosiya naturalizmi ilə müqayisə etmək olar.

Qədim türk emosiyanın arxaik (və arxaik olduğu qədər də müasir) etnik kompleksinin təzahürü olan bu hisslər N.Həsənzadəyə nə qədər məxsusdursa, Oljas Süleymenova, Çingiz Aytmatova da o qədər məxsusdur. Və "Azərbaycan harayı"nın bu cür ümumtürk "kompleks"indən gəlməsi N.Həsənzadənin şair diplomatiyasının nə qədər möhkəm əsaslara dayandığını göstərir.

N.Həsənzadə yaradıcılığının ikinci xüsusiyyəti onun müasirliyidir – Azərbaycan xalqının ictimai həyatında elə bir mühüm problem olmamışdır ki, N.Həsənzadə ona biganə qalsın. 50-ci illərdən bu günə qədər xalqın tarixi marağı, emosiyası onun poeziyasında olduqca mükəmməl şəkildə öz inikasını tapmışdır. N.Həsənzadə yaradıcılığının müasirliyi tarixilikdən təcrid olunmayan bir müasirlikdir; şair Azərbaycan tarixinin qədim dövrlərinə müraciət edəndə də, orta əsrlərdən, XIX əsrdən, XX əsrin əvvəllərindən danışanda da olduqca müasirdir, olduqca bugünün şairidir: "Atabəylər"ə qədər, "Atabəylər"dən "Nəriman"a qədər, "Nəriman"dan "Bəyanat"a qədər N.Həsənzadə Azərbaycan millətinin bugünkü ovqatını nümayiş etdirir.

Muasirlik, heç şübhəsiz, o zaman mükəmməldir ki, tarixi-etnoqrafik köklərdən qopmur; təfəkkür genotipini inkar edən müasirlik isə hər hansı halda şübhəli (və məsləksiz) müasirlikdir.

N.Həsənzadə yaradıcılığının üçüncü xüsusiyyəti onun milli-estetik normativliyidir – bu o deməkdir ki, N.Həsənzadənin sözü ancaq bir şairin sözü deyil, millətin (və hətta həmin millətə məxsus dövlətin!) sözü olaraq təzahür edir, subyektiv "axtarış"lardan, eksperimentlərdən uzaqdır.

Müstəqil Azərbaycan dövləti var: təbii ki, həmin dövlətin nüfuzu səviyyəsində duran ədəbiyyat da olmalıdır. N.Həsənzadənin yaradıcılığı bu gün məhz həmin səviyyədədir: milli dövlət quruculuğunun hazırkı məqamında Azərbaycan xalqına onun demokratik dövlətçilik duyğusunu zənginləşdirən ədəbiyyat daha çox lazımdır. N.Həsənzadə bugün həmin ədəbiyyatın ən gözəl nümunələrini yaratmaqdadır: "Azərbaycan harayı", "Bütün millətlərə", "Salam, Azərbaycan", "Bəyanat" və.s.

Şairlik – özünəməxsus bir diplomatiyadır və bu mənada N.Həsənzadə Azərbaycanın ən səmimi diplomatıdır...

Hər cür "diplomatiyalar"ın tüğyan elədiyi bir dövrdə "şair diplomatiyası"nın rolu, mövqeyi nədən ibarətdir? "Şair diplomatiyası" hər cür "diplomatiya"dan daha humanistdir, daha demokratikdir, daha bəşəridir – şair özü aldanmasa "aldada" bilməz, "aldanaraq aldatmaq" isə hər cür "diplomatiyadan fərqli olaraq "şair diplomatiyası" əlamətidir. Və dünyanın böyükləri cərgəyə düzüləndə əvvəl peyğəmbərlər, onların arxasınca isə şairlər gəlirlər...

Azərbaycan xalqı, Azərbaycan milli ictimai təfəkkürü əsrlər boyu Azərbaycan şairinə yalnız "nazimi-ustad" kimi yox, həm də mənsub olduğu xalqın tarixi, taleyi üzərində ardıcıl olaraq düşünən mütəfəkkir kimi baxmış, ondan çox şey gözləmişdir. Peşəkar tarixçilər bu və ya digər hökmdarın, yaxud qeyri-milli hakim ideologiyanın təzyiqi altında bu günə qədər bizim ruhumuza, mənəviyyatımıza, hətta əxlaqımıza təzyiq göstərən tarix kitabları yazanda Nizami, Nəsimi, Füzuli, Vaqif, Sabir, Cavid, Vurğun kimi dahilər xalqın, millətin həqiqi tarixinin əsas müddəalarını təqdim etməyə çalışmışlar... Və Nəriman Həsənzadənin tarixçilik təfəkküründə mənşəyində bu böyük mənəvi-ideoloji zənginlik, bu güclü bədii fəlsəfi potensiya dayanır. Onun "Pompeyin Qafqaza yürüşü", "Atabəylər", "Zümrüd quşu", "Bütün Şərq bilsin"... əsərləri, daha çox, Azərbaycanın həqiqi tarixini yaratmaq iddiasının nəticəsidir ki, Nəriman Həsənzadənin buna haqqı vardır. Birincisi ona görə ki, o, şairdir; ikincisi ona görə ki, böyük şairdir, mütəfəkkir şairdir...

Nəriman Həsənzadə, doğrudan da, yalnız şair kimi deyil, araşdırıcı – tarixçi kimi də orijinaldır – onun tarixi poemaları, Azərbaycanın ən mötəbər teatr səhnələrində oynanılmış tarixi dramları – xronikaları artıq neçə illərdir ki, Azərbaycan cəmiyyətinə milli tarixin heç bir peşəkar tarixçinin verə bilməyəcəyi həcmdə faktını, başlıca olaraq isə məntiqini təqdim edir. O, hamının

bildiyi "tarix"i nəzmə çəkmir, tarixi araşdırır, bərpa edir, onun məntiqini ortaya çıxarmağa çalışır.

Mütəfəkkir şair yaxşı bilir ki, tarixçilər adətən mənsub olduqları elmi-ideoloji məktəb qarşısında, şairlər isə bilavasitə xalq qarşısında məsuliyyət daşıyırlar. Bir tarixçinin səhvini ondan yüz il sonra gələn başqa bir tarixçi düzəldə bilər, şairin səhvi isə xalqın, millətin dünyagörüşünə çökür, onun ruhunu sarsıdır. Ona görə də Nəriman Həsənzadənin tarixə müraciətində böyük bir mütəfəkkir məsuliyyəti var ki, o, həmin məsuliyyəti tarixçilərdən də, siyasətçilərdən də tələb etməkdə tamamilə haqlıdır.

Nəriman Həsənzadə mənsub olduğu millətlə, həmin millətin tarixin hər hansı mərhələsində qurduğu dövlətlə fəxr edən vətəndaş-şairdir. O xalqın ki, Nəriman Həsənzadə kimi şairi var, onun dövləti də olmalıdır, çünki Nəriman Həsənzadə kimi şairi olan xalqın dövləti olmaya bilməz. Elə şairlər var ki, onların yaradıcılıq yaddaşı yalnız fərdi hisslərdən, fərdi yaşantılardan, yaxud da millətə yad siyasi-ideoloji təbliğatdan ibarətdir. Nəriman Həsənzadənin fəlsəfi-ideoloji yaddaşı isə, əgər belə demək mümkünsə, "milli-fundamentalizm" nümunəsidi – onun tərənnüm etdiyi milli dövlət, vətəndaş idealı bugün milli bir idealdır!..

Tarixə inanmaq lazımdır, lakin tarix o səviyyəyə qaldırılmalıdır ki, epizodik faktların, yer üzündən silinmiş mübahisəli etnosların, mənşəyi (və tipologiyası!) məlum olmayan süni qəhrəmanların deyil, bu günün tarixi olsun. Çünki tarix bugünə gətirir!.. Bugünə gətirməyən "tarix" – tarix deyil, məğlub olmuş iddiaların, ehtirasların elegiyasıdır...

Nəriman Həsənzadənin təfəkküründə bütün parlaqlığı ilə seçilən mükəmməl (və müqəddəs!) bir Tarix obrazı var – həmin Tarixi mürəkkəb kolliziyalar, qlobal ziddiyyətlər, zaman-zaman müxtəlif formalarda təzahür edən ehtiraslar və bütün bunların fövqündə dura bilən Şəxsiyyətlər yaratsa da, Tarix öz-özlüyündə müstəqildir, yenilməzdir, onu yaradan qüvvələrin şıltaqlıqlarından asılı deyil. Ona görə də böyük şair – mütəfəkkir Tarixi qarşısıalınmaz bir maraqla tərənnüm edir, ondan ilham alır, onun xarakterini açıb göstərməkdən, onun obrazını yaratmaqdan sonsuz mənəvi ləzzət duyur. Nəriman Həsənzadənin bütün yaradıcılığının baş qəhrəmanı Tarixdir.

Nəriman Həsənzadə yalnız bugünün şair-mütəfəkkiri deyil, o, Tarixin övladıdır, onun yaradıcılığı Azərbaycan ədəbiyyatının məhz hadisəsidir.

Nizami Cəfərov

Durnalar vurulur qaqqıldaşanda

BÜTÜN MİLLƏTLƏRƏ
BEYNƏLXALQ MƏHKƏMƏYƏ

Adıgözəlov Hafiz Ramiz oğlu 1990-cı ilin yanvarında Qazax rayonunun Bağanis Ayrım kəndində anadan olub, 1990-cı il martın 24-də ermənilər bələyinə benzin töküb yandırıblar. Dünyada cəmi iki ay yarım yaşayıb. Gənc anası köməyə gələndə onun da üstünə benzin töküb yandırıblar. Kənddə danışırdılar.

Müəllif

İki aylıq bir çağa
həsrət qaldı qucağa,
atdılar bir ocağa,
qıydılar bir qundağa,
silahlı
beş-on dığa!
Təzə androniklər,
drolar və zorilər.
İyrənc imiş nə qədər!
Çağanı yox, milləti
yandırmaq istərdilər.

Günahı, cinayəti
nəydi bəs?!
Milliyyəti, –
bir Məhəmməd hümməti,
bələkdə bir müsəlman,
Azəri türk balası.
Yarımçıq qaldı gülüm,
çalınmadı laylası.
Yellənmədi yürgəyi,
yandı könül dünyası.
Təbəssümü, gülüşü,
qığıltısı...
hamısı.

Dünya xəbər tutmadı
naləsindən ananın.
Ən uzaq guşəsidir
Qazax – Azərbaycanın.
Taleyinə bax onun,
qismətinə bax onun, –
millət vətən yolunda
həlak olan çağanın.
O, qundaqda döyüşdü,
ocağı – odlu səngər.
Dahilərə bərabər,
şəhidlərə bərabər.
Yaşa mənim millətim,
həyatım, heysiyyətim!
Sən qundaqdan, beşikdən
təhlükəsən ey Vətən!

MƏN Kİ, TANRI ŞAİRİYƏM

"Səhv düşəndə yeriniz"
Qabil

Niyə məndən inciyibsən, a mehribanım,
məndən başqa inciməyə adammı yoxdu?
Məni mənsiz yaşadanım, məni duyanım,
mən ki, Tanrı şairiyəm, Tanrınmı yoxdu?!

Bəlkə sənin gündüzünü axşam elədim,
məndən Günəş istədin sən, mən şam elədim.
Gedib sonsiz harda salam-kəlam elədim?
yoxsa küsüb-barışmağnan aranmı yoxdu?

İndi məni paklıq üstə asıb-kəsən var,
indi yerin altdan çıxıb, üstə gəzən var.
Çətindi bir baş saxlamaq, yüz başkəsən var,
əyrini düz çıxarmağa yalanmı yoxdu?

Taladılar, dağıtdılar, söküb yığdılar,
aşağılar yuxarıya qohum çıxdılar.
Hərəsi bir mülk tikdirib, yüz ev yıxdılar,
sənə qurban, and içməyə Quranmı yoxdu?

Payız tökən yarpaq kimi mən ələnmişəm,
xırmanlarda sovurublar, dənələnmişəm.
Zəmanəni tərifləyib şübhələnmişəm,
desəm, məni başa düşən xalqımmı yoxdu?

Mən nə deyim, tanıyırsan mən deyənləri,
baş saxlayıb başsızlara baş əyənləri.
Keçi kimi, qoyun kimi mələyənləri,
bu sürünü otarmağa çobanmı yoxdu.

Ürəyimin infarktından gördüm məhşəri,
bilən bildi, deməsəm də mən bu xəbəri.
Eşitdim ki, eşitməyib Zat-Aliləri,
mənim ona deyiləsi ağrımmı yoxdu?

Mən ki, vətən davasında qeyrət demişəm,
sənin lənət dediyinə lənət demişəm.
Azərbaycan demişəm mən, millət demişəm,
millətimə mən üz tutsam, haqqımmı yoxdu?

Bir sənətkar ömrü qoydum mən bu xalq üçün,
haqq istədim, danladılar məni "haqq" üçün,
İndi gedib bayquş üçün, yapalaq üçün,
haqqı harda sübut edim, harammı yoxdu?

Qonşuların biri zəlil, o biri xəstə,
zənginlərin içi boşdu, zahiri xəstə.
Belə qullar dünyasının şairi xəstə,
döyüş günü öndə gedən misrammı yoxdu?

Niyə məndən inciyibsən a mehribanım,
məndən başqa inciməyə adammı yoxdu?
Məni mənsiz yaşadanım, məni duyanım,
mən ki, Tanrı şairiyəm, Tanrınmı yoxdu?!

ARXADA UÇURUM, QABAQDA ZAMAN

Keçirəm Bakının küçələrindən,
bu günü qürbətdi, dünəni Vətən.
Varlılar, kasıblar zəmanəsidi,
zalımlar, yazıqlar zəmanəsidi.
Hacılar, tacirlər zəmanəsidi,
təzə mühacirlər zəmanəsidi...

Sökülür, tikilir Bakı yenidən;
Onu ictimai bir mülkiyyətdən
şəxsi mülkiyyətə keçirir Zaman,
gözümün önündə dəyişir insan.

Təzə dükanlarda hər nə istəsən,
satan çox, alan yox, bazara əhsən!
Satıcı danışmır, qiymət üstədi,
milləti soymaqda millət ustadı.
Yüzillik satılan mehmanxanada,
tərcümə edilib: "həyat" "hiyat"a.
"Patronun" dilinə yatmır Naxçıvan,
təki rahat yatsın xarici mehman.

Bəzəkli bir ledi mey-məzədəydi,
yellər oynayırdı mavi telində.
ofisant – elmlər namizədiydi,
pivə paylayırdı padnos əlində.
Filan kafedrada onu bir zaman,
tərif eləyərdi hörmətli dekan.
Parlaq gələcəyi, milli şüuru,
Bir də deyərdi ki, kişi qüruru...

Gecənin yarısı qəhqəhə, gülüş,
polisin əlində rezin dəyənək.
Çıxır kazinodan bir ütülənmiş,
təzə mülkədardı, köhnə dümbələk.
Dünən tanıyırdım o dələduzu,
bu gün bankir olub, ləqəbi "Arzu".

"Halallıq" deyəndə tərpənir bığı,
əvvəl rəhmi gəlir, sonra acığı.
Ali məclislərdə ali bir nəfəs,
adını demirlər, "Hacı filankəs!"
Öz əli, öz başı, öz ixtiyarı –
nə məni tanıyır, nə Bəxtiyarı.

Yubiley keçirir kimsə vurhavur,
Ədalət Allahın yadından çıxır.
Bir şəhid evində yasin oxunur,
burda can bəslənir, orda can çıxır.
Biri "Mersedes"ə hissə axtarır,
o biri çörəyi nisyə axtarır.

Budur, bir qocanın qoltuqağacı,
satır medalları qəpik-quruşa.
Xarici bir turist – kolleksiyaçı,
alır o medalı, əsayla qoşa.
Baxır aldığına – əla suvenir, –
qoca qəhərlənir, xanım sevinir.

Üzü təbəssümlüm, gözü suallım,
"doğmalar" içində sən necə təksən.
Qoltuqağacını satan zavallım,
qalxsan, indi nəyə söykənəcəksən?!
Arxada uçurum, qabaqda Zaman,
İNSANDAN İNSANLIQ İSTƏYİR İNSAN.

noyabr, 1995

QALX

Dəvəsi ölmüş ərəbə

Qalx, ərəb, qalx, yeriyək,
külək qalxacaq, külək.
Səhra – qum çadrasını
başımıza örtəcək.

Qalx, ərəb, qalx, yeriyək
içindəki ağrılar,
acılar, yükdü, ərəb.
Qayğını nə bilibsən,
bu yük dəvə yükündən
daha böyükdü, ərəb.
Dizində taqətini,
qolunda qüvvətini,
yoxla, qalx,
birtəhər qalx,
Büdrəsən, uçsan əgər
özünə söykən ancaq.
Qalx, özündən özünü
xilas elə, qalx, ərəb.
Getdiyin yol uzaqdı,
bələdçisi yox, ərəb.
Taleyin oyunudu, –
iki gözdə qəm olsa:
ərəb, ya qeyri-ərəb –
birləşdirir kim olsa.
İtir sonra arada
rəngin ağı, qarası,
tək burda deyil ərəb,
Ərəbistan səhrası.
Bu səhradan uzaqda
düşdüm səhraya, ərəb.

Bir eşqin mənzilində
yıxıldım mən, ya ərəb!
Gün yandırır səhrada,
külək qalxacaq, külək
Qalx, ərəb,
qalx,
yeriyək!

DİLƏNƏNLƏR

Nə gəzirsən arsız-arsız
cənab sahə müvəkkili, –
Qəbir üstə mən qoymuşam
göz tikdiyin o əkilli.

Qəbristana yolum düşür,
kədərliyəm nə zamandı.
Üzdə sakit görünsəm də,
ürəyim çox nigarandı.

Qadın keçir, dilənçidi,
o zəlilə, naxoşa bax.
Çiynindəki boz örpəyə,
ayağında qaloşa bax.

O əl açır sənə, mənə
gör nə deyir, zavallıdır.
Harda ölü basdırsalar,
orda əli uzalıdır.

O dilənir, o yalvarır:
Babək fərman verən dildə.
Qoca Sabir asta-asta
ağladıb güldürən dildə.
Vurğun şeir yazan dildə.
Ozanlardan gələn dildə.
"Hoydu, dəlilərim, hoydu!"
Qoç Koroğlu dinən dildə.
Nənələrdən qalan dildə,
anan layla çalan dildə,
dövlət himni olan dildə!

Necə sığır qeyrətinə
cənab sahə müvəkkili, –
Dil deyirsən, ana dili!

Qoyma keçsin bu yollardan
fəxri adlar alanları,
Vəzifədə olanları,
natiqləri, nazirləri.
"Millət", "Millət" əzbərləyən
şairləri, nasirləri.
Müxbir üzvü olmaq üçün
imza yığan dilçiləri.
Dilinizdə dilənirlər
cənab millət elçiləri!

Yox, öyrəndim, bacarmazsan, –
sən də sahə müvəkkili,
pul yığırsan altdan-altdan.
Səndən kömək ummaq hədər!
hərə bir cür dilənirmiş:
vəzifəni dilənənlər,
fəxri adı, elmi adı
dilənənlər!
Yuxarıdan sənə qədər.
Cibimdəki bu, manatdı.
Gəl, dilənçi, buyur görək,
mən dilənim sonra gərək.

AĞRI

Asya xanıma

"Can verən o idi, canı çıxan sən..."

Məktubdan

Böyük bir alimin həyat yoldaşı
təzədən duz səpib bu yaram üstə.
Deyirlər, qurumur gözünün yaşı,
oxuyub ağlayır hər misram üstə.

Elə qurban olum, el saxlayandı,
yıxılsan, əlindən tez tutar sənin.
Təkləyib əysələr – qucaqlayandı,
saymasan – el özü unudar səni.

Qanadlı bir quşdu ömür sən demə,
tez sınır, bu qanad o qanad deyil.
Hardasa qəm gəldi mənim şerimə,
qəm də sevinc kimi mənə yad deyil.

Qəzetdə şerimi görüb bir nəfər,
mənim göz yaşıma gülüb deyirlər.
Şikayət eyləyib, gör nələr yazır,
ölən arvadına şeirlər yazır...

Nə deyim duyğusuz yaşayan kəsə,
yeyir süfrəmizdə çörəyimizdən –
Gərək millət oğlu əvvəlcə qəlbən
millətin qızına heyifsləyəydi!

Çəkidə yüngüldü bəlkə də almaz,
torpağın varıdı, yerin qiyməti.
Qadınsız kişiyə ər deyən olmaz,
qadındır kişinin ər ləyaqəti.

Sənsə ağlayıbsan... o qəlbə əhsən,
insanda insanı duymayan bir kəs, –
ədalət naminə kömək istəsən
o hər kim olsa da, rəhm edə bilməz!

Bir şeyə inandım mən bu dünyada,
bu bir həqiqətdi – üzə deyilmir;
Elin arxası var – şairdir o da,
şair yas tutanda el dözə bilmir.

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"KİMİN SUALI VAR?" – YAZMIŞDIM O VAXT, CAVABI ÖZÜMDƏN İSTƏYİRDİLƏR

(*Bir vəzifəliyə*)

Eşitdim, o deyib, sən dinləyibsən,
bir xoş üz gözləyib o dəmdə səndən.
Amma soyuq baxıb qəlbə dəyibsən,
bunu gözləməzdim ömrümdə səndən.

Əhdə, sədaqətə o, bel bağlayıb,
ona təsəlliydi sənlə bu görüş.
O deyib sözünü, sonra ağlayıb, –
qadın ürəyidi özün başa düş.

Uzun gecələrdə qalmışdım oyaq,
məni budaq kimi bərk əyirdilər.
"Kimin sualı var?" – yazmışdım o vaxt,
cavabı özümdən istəyirdilər.

Fərəh istəyirdim, sındı vüqarım,
tək qaldım səhrada, yol qırağında.
Qurdu məhkəməmi "qələm dostlarım", –
O vaxt Yazıçılar İttifaqında.

Qalxdı kürsüsündən bir laureat,
öz doğma dilində yazmayan ədib.
– Əsər gərəklidir, amma gəl anlat, –
birinci katibdi burdakı hədəf.

Qalxdı o biri də, ayağı şikəst,
sonra şeir yazdı alt-altda, sərbəst!
Mavi ekranda da tərif dedilər,
öləndə evindən götürmədilər.

– İttifaqda rəhbər... bu mənəm hökmən,
Katibə qohumam arvad tərəfdən.

"Aldığı arvada ərə gedənlər,
sizə kiçik olsun, bizə də rəhbər".

Bu mənəm, mənimdi burdakı surət...
Deyirdim yozmayın, başqadı söhbət!
"Bu nədir, bəs bu nə?..."
sualları çox,
üstümə yağırdı istehza, gülüş.

O zaman yaxşı ki, otuz yeddi yox,
ya səksən ikiydi, ya da səksən üç.
Filankəs, filankəs, bir də filankəs,
hələ filankəs də ordaydı, qərəz.

Yanına gəlmişdi sənin, o zalım!
ayağa qalxaydın gərək o dəmdə.
Millətin ən gözəl qızıydı gələn
filan vəzifədə sənsə – bir gədə!

Onda başım üstən yellər əsirdi,
onda çəkilmişdi, çoxu qınına.
Arxa axtarırdı, kömək gəzirdi, –
o dəmdə gəlmişdi sənin yanına.

Uzun gecələrdə qalmışdım oyaq,
məni budaq kimi bərk əyirdilər.
"Kimin sualı var?" – yazmışdım o vaxt, –
cavabı özümdən istəyirdilər.

1983

MƏNSİZ YAŞA

Öyrən mənsiz yaşamağa,
mənim gülüm.
Bir az mənsiz yaşa daha,
mənim gülüm.

Bu həyatda
hər kəsin öz həyatı var,
hər dildə bir bayatı var.
Bəlkə də hər bayatıda
bir torpağın fəryadı var.

Amma nə qəm əbədidir,
nə də sevinc,
sevinc qəmə hamilədir, –
bu hikmətdir, demə nədir.
Deyirik ki, "həyat bizik",
amma bəzən biz həyatdan
xəbərsizik.
Guya hər şey apaydındır bizim üçün,
fəqət sonra
yaman olur yaxşı, bir gün,
soyuq olur isti, bir gün,
Dünya özü xoşdu bir gün,
pisdi bir gün.

Darda kömək, –
insanın öz inamıdır,
bu mənim yox,
müdriklərin kəlamıdır.

Külək gördüm,
yağış gördüm həyatımda,
neçə alqış eşitdim mən,
qarğış gördüm həyatımda.

Salam verib
əleyhimə danışdılar,
ilhamıma qarışdılar.
Mən bərkidim,
sən bəlkə də itirərdin inamını,
itirərdin məramını,
lap adicə salamını.

Bu həyatdır, sərtdir üzü,
Sınaqlardan keçiririk
ömrümüzü-günümüzü.
Öyrəş mənim sağlığımda
bir az mənsiz yaşamağa,
bir az mənsiz yaşa daha,
mənim gülüm.

XƏBƏRSİZ

Yatırsan dünyadan yoxdu xəbərin,
taleyin qəribə tilsimə düşüb.
Bir qadın, qəsdinə durubdu sənin,
mənim də hər yerdə izimə düşüb.

Bəzən ovsunlayır şirin dilləri,
deyir ki, nə bilim, könül səsiyəm.
Mən nə birinciyəm ondan ötəri,
nə də... axırıncı əyləncəsiyəm.

Gözünün altına qəm ələnibdi,
dindirsən gah susar, gah qiyam eylər.
Bütün kişilərdən şübhələnibdi,
bütün qadınları ittiham eylər.

Kimsə ürəyini vaxtsız oyadıb
gözündə qalıbdı
sevinci, nazı.
Kimsə nəzakətlə aldadıb, atıb,
qarışıb dünyada onun dünyası.

Mənim nəzərimdə o, taleyi kəm,
günü-güzəranı acınacaqlı.
Onun nəzərində mən sadəlövhəm,
mən daim haqsızam, o daim haqlı.

Qadın nəzərində başqaymış aləm,
O öz gözlərində açır səhəri.
Yeganə ümidi dünyada mənəm,
Yazıq aldanıbdı... yoxdu xəbəri.

ZƏRİFLİK

Qızlar səhəng götürüb
getdilər buz bulağa.
Fikir tutdu əlimdən,
çəkdi məni uzağa.
Vaqifin gözəlləri
yada düşdü, ay haray!
O əsrdən bu əsrə
səda düşdü, ay haray!
O zəriflik,
o şuxluq,
o gözəllik,
o surət,
o təbəssüm,
o qamət,
o nəzakət,
o ismət,
Yaşayır o zamandan
bu zamana,
mərhaba!
Yaşayana mərhaba!
Yaşadana mərhaba!
Siz ey əziz analar,
siz ey ulu nənələr!
Sizin tərbiyənizdən
çıxdı bu tər sinələr.
Dünyanın harasında
belə qız var, ay oğul!
Sevsən, onu sev ancaq
ona yalvar, ay oğul!
Qızlığı nə zərifdi,

gəlinliyi nə əziz.
Analığı əvəzsiz,
nənəliyi əvəzsiz.
Yaşayın siz, a qızlar!
bu gözəl torpaq üstdə.
Düzülsün misralarım,
yol olsun, körpü olsun
siz gedən bulaq üstdə.

1978

ƏSA GÖTÜRMƏ

" ...çəkilmişəm qınıma.
... qorxuram mən, –
yalan desəm Tanrıdan,
doğru desəm həndədən".

B.Vahabzadə

Sən belə demədin bir zaman şair, –
başında şimşəklər çaxanda belə!
Qırx il sətiraltı qışqıran şair,
susarmı səngərdən qalxanda belə?!

Bəndənin evini yıxdı yalanlar,
o başa düşmədi faş olanacan.
Özün deyirdin ki,
heykəl olanlar
daşa basılıblar daş olanacan.

Qoy daşa bassınlar, o daş arxadır,
zirvənin himnini tufanlar deyir.
Qartal – ildırımla əlbəyaxadır,
yerdə – çəyirtkəni sərçələr yeyir.

Şair qəsddən ölür, əsgər güllədən,
neyləmək, talelər başqadır, şair.
Əsgəri sağaldıb yaşadan vətən,
şairi öldürüb yaşadır, şair.

Almaz İldırıma Bakıda heykəl! –
millət gah ağ deyir, gah qara yazır.
Adını hər yerdən qaralayan əl
indi hər qapıya, divara yazır.

Mənə "qəbahətin" birtəhər gəlir,
görüb namərdləri çox köks ötürmə.
Üstünə qalxanlı gürzələr gəlir, –
əldən qılınc verib, əsa götürmə.

aprel, 1994

TƏRCÜMEYİ-HAL

Döyüldüm dəmir kimi,
döyüşdə gərək oldum.
Yoğruldum xəmir kimi,
gördülər çörək oldum.
Əkildim torpaq kimi,
göyərdim, çiçək oldum.
O qədər dandılar ki,
axırda gerçək oldum.

BOŞ SƏBƏTLƏR

Bir şəkil çokdirdik...
nümayəndələr!...
filankəs, filankəs, bir də filankəs.
Mən keçdim arxaya, kimsə inciyər,
mənim anam ölsün, xətrimə dəyməz.

Baxışlar, duruşlar, münasibətlər...
burda bir qoltuğa qısılmışdılar.
İnsan cilidində bu boş səbətlər,
elə bil dirəkdən asılmışdılar.

İstədim xəlvəti aradan çıxım,
şəkildə boş qoyum arxa yeri də.
Baxdım, səbətlərə,
gəldi yazığım, –
gördüm boş səbətin mənəm biri də.

YASİN

Görkəmli alim dostum Rüstəm Əliyev
Saraya yasin oxudu

Müəllif

"Yasin" oxuyurdun, ey sinədəftər!...
yazana min rəhmət, deyənə əhsən.
Sənə süfrə açan o zərif əllər
çəngəl tok
torpağa düşdü süfrədən.

Köhnə qəbristanın yeni bəzəyi –
can deyib yandığım, can sirdaşıydı.
Birinci hədiyyəm – nişan üzüyü,
sonuncu hədiyyəm – bu baş daşıydı.

Nədir bu dünyanın gizli oyunu,
kimdir bais olan bu göz yaşına?
Mən burda torpağa basdırdım onu,
o, evdə yuxuda çıxdı qarşıma.

Bir az gecikəydim, gözü yol çəkər,
adı yox, o özü yeganəm idi.
Bir düyməm qopsaydı, əlüstü tikər,
çiynim əzilmişdi, biganə idi!

Beləcə ilahi bir ağrı ilə,
kökləndim mən Quran surəsi üstə.
Bu necə kitabdı, –
oxunur hələ
ölünün, dirinin süfrəsi üstə?!

Qəbrilə üz-üzə canlı bir insan! –
bəlkə də sözümün canı bundadır:
Bu necə hikmətdi, –
dünyada qalan
dünyadan gedənin hüzurundadır.

Böyük kürsülərdə adı çəkilən,
"Yasin" tapşırırdı bir ada burda.
Millətin toyuna, yasına gələn
yaraşır toya da,
yasa da burda.

25 dekabr, 1993

GƏNCƏ ÜSYANI

Tarix qisas aldı tarixçilərdən,
yaşadı yaddaşda Gəncə üsyanı.
Öldük, içimizdə ölmədi vətən,
torpaqda və daşda Gəncə üsyanı.

Gəncə şəhər deyil, Gəncəbasardı,
əriş-arğacıyam mən bu yolların.
Kürəyi – zirehli dəmir hasardı
Gəncədə doğulan mərd oğulların.

Sinələr güllələ hədəf oldular,
gəlinlər vuruşdu əlində silah.
Yeridi üstünə "qızıl" ordular,
göy susdu, yer dindi: Allah, ay Allah!

Millətə şöhrətdi qadın hünəri,
bir canın sözünü neçə can deyir.
Gəncə darvazası gedəndən bəri,
burda hər darvaza bir üsyan deyir.

Həmid Sultanovun dar ağacından,
Moskva razıydı, xain razıydı.
Bir gözəl özünü asdı saçından, –
Gəncənin dünyaya etirazıydı.

Torpağın bəlkə də son səngərini
namərdin əliylə dağıtdı namərd.
Gəncədə sınadı mauzerini,
Əlheydər Qarayev...
ağırdı bu dərd!
Şeyxi hüzuruma çağırın görək,
səsində, sözündə bir az od olsun.
Özü bir fatihə oxusun gərək,
şəhid gedənlərin ruhu şad olsun.

Mən sənə heyranam Gəncə torpağı,
karvanın kəhrizdi, dağdı, çinardı.
Asın eyvanlardan üçrəng bayrağı,
GƏNCƏ ÜSYANINDAN
bir yadigardı.

noyabr, 1992

ƏGƏR

Yaxşılığın başa qaxmaq üçündüsə,
ya qaşqabaq üçündüsə,
eləmə heç.
Məsləhətin,
ya diləyin
yada salmaq üçündüsə,
diləmə heç.
Bir xoş sözün sonra minnət üçündüsə
söz demə heç.
Ya xoş üzün başqa məqsəd üçündüsə
göstərmə heç.

TƏLƏSMƏYİN

Bəd xəbəri verməyə tələsməyin dünyada,
nə yaxına, nə yada.
Yüngül olur ayağı onsuz da bəd xəbərin
üzü bozdu kədərin.
Bir qəlbin şüşəsini qırmağa tələsməyin.
bir gülüşü yanaqda,
bir söhbəti dodaqda,
bir yerişi ayaqda
heç yarımçıq kəsməyin.
Biri gül bəsləyirsə,
biri yol gözləyirsə,
tufan olub əsməyin,
ləngiyin, tələsməyin.

SÖYÜD

Hüseyn İbrahimova

Yenə Təbriz sözü gəldi dilimə,
babam Xətayinin şəhəridir o.
Qurşayın Arazı mənim belimə,
Təbrizin açılmış kəməridir o.

Araz qırağında, küləkli gündə,
mən bir söyüd gördüm çayın üstündə.
Dağılmış saçını gah yel yolurdu,
gah da ki, tikanlı məftil yolurdu.
Əyilib o tayı öpürdü söyüd,
əyilib bu tayı öpürdü söyüd.
Saçını o taya səpirdi söyüd,
saçını bu taya səpirdi söyüd.

Yüz belə küləklər əsib üstündən
birdi bahar ona, birdi qış ona.
Sərhəddə bitdiyi birinci gündən
tikanlı məftillər sarınmış ona.

Söyüd bitdiyinə peşiman olmuş,
söyüdü görənlər pərişan olmuş.

Söyüdüm, əyilib o tayı öpdün,
gətir saçlarından öpüm, söyüdüm.
Söyüdüm, saçını bu taya səpdin,
gətir saçını də öpüm, söyüdüm.
Üstünə gül-çiçək səpim, söyüdüm.

Fikrə qərq olduğum sərhəd boyunda,
sərhədsiz göründü dünya gözümə.
Əsr yarım keçdi bu bircə anda,
külək toz-torpağı çırpdı üzümə.
Sandım ki, yel əsir əsr yarımdı,
söyüdün saçları öz saçlarımdı.
Dondu damarımın elə bil qanı,
demə, qanunlara mən qulaq asdım.
Bölmədim, bölünmüş Azərbaycanı,
söyüdlə birlikdə bağrıma basdım.

ƏZİZİM

Məhəbbəti satın alır pul verən,
Məhəbbətə can verənin əlindən.

(İrandan, Türkiyədən gələn binamus "qardaşlarımız" qadınları şirniklərdirməklə gün keçirirlər)

Müəllif

İnsaf elə, məhəbbətdən az danış,
yeni sevdan mübarəkdi, əzizim.
El sözüdü: əyri otur, düz danış,
dost arası düz gərəkdi əzizim.
Deməməyin nə deməkdi, əzizim?!

Yad ellərə dəvət edir filankəs,
sevən kimdi, sevilən kim, bilinməz.
Ağ köynəyə ləkə düşsə, silinməz,

yeri qalsa, o da pisdi əzizim,
gedən gedir, qalan izdi, əzizim.

İndi zaman dəyişibdi doğrudan,
bilmirsən kim uduzandı, kim udan?
Oyansan da bu yatdığın yuxudan,
daha gecdi, sən xumarsan, əzizim,
yuxulardan nə umarsan, əzizim.

Məhəbbəti satın alır pul verən,
məhəbbətə can verənin əlindən.
Səndən ötrü nə məhəbbət, nə vətən? –
Vətənsizsən vətəndə sən, əzizim,
cəbhədədir indi vətən əzizim.

Bizim qızlar papaq qoyub başına,
kəklik kimi yatır qaya qaşına.
Körpələrin tökülən göz yaşına,
dözə-dözə döyüşürük, əzizim,
dərdimizi bölüşürük, əzizim.

Qazan orda, bəzən orda, gəz orda,
kimə kəniz olacaqsan bəs orda?!
Əhd-peyman bağla orda, kəs orda,
bundan sonra fərqi nədir, əzizim,
arifə bir işarədir, əzizim.

Bəsdi şair, rəhmin gəlsin özünə,
qızın doğma ocağına, közünə.
Göz həkimi baxsın özgə gözünə,
birləşməmiş ayrılırıq əzizim,
tanıdırlar, tanıyırıq əzizim.

30 aprel, 1992

HƏLƏ AND İÇİR

Almas İldırımın adına küçə! –
keçirəm, ildırım içimdən keçir.
Bu necə millətdi, ilahi, necə?
ocağı söndürüb külə and içir.

Natiq əl-qolunu yellədir yenə,
hər sözü "mərmidir", "güllədir" yenə.
Lenin Sarayında əl gedir yenə,
hakim fərman verib, kölə and içir.

Özgəni doyurub ac qaldı vətən,
meydana axışır ölkə yenidən.
Əsrin əvvəlində inqilab edən,
əsrin axırıdır... hələ and içir.

TEHRANDA AZƏRBAYCAN SƏFİRLİYİ, ÜÇRƏNGLİ BAYRAĞIMIZ

Səni qaldıranacan,
can verdik, nə qədər can.
Məzar-məzar gətirdik,
səngər-səngər ötürdük.
Belimizə bağladıq,
qoynumuzda saxladıq.
– Bir kərə qalxan bayraq
bir daha enməz, – dedik.
Millətin andıydı bu,
bu andı dinməz dedik.
Bir bayraq qalxsın deyə,
milyon əl qalxdı göyə.
O gün göründü vətən,
dünyanın hər yerindən.
Görmədi bu günləri,
Qarabağ şəhidləri,

Səttarxan, Məmmədəmin
Bu da sənin taleyin.
Allah, Allah bu bina,
bu binada bu bayraq,
necə əzizdir Allah!
Tərcümə olunacaq
rusun, farsın dilləri,
Sərhəd boyu lokələr.
Bu bayrağın dilində
danışacaq ölkələr.
Tehran... bizim səfirlik! –
dünya mənə sirr gəlir.
Qalx ayağa, şairim,
görüşə səfir gəlir!

fevral, 1993

ELƏ DURMA

Uzunsaçlım,
"qaçqınım",
"köçkünüm" elə durma.
Boynuyoğunlar görüb,
durna boynunu burma.

Səni gözlətdirirsə
qəbul otaqlarında, –
icra hakimi quldu,
polis rəisi gəda!

Ünvanın ermənidə –
evin, bağın, kilidin.
Qapının açarıdı
götürüb gətirdiyin.

Qurulu bir ev verib
bir ad aldın: "Didərgin".

Burda Bakı sənindi,
orda Füzuli sənin.

Burda bazar bahadı,
hələ çörək növbəsi.
Bazar alverçisidi,
siyasət alverçisi.

İnsaf elə zülümkar,
bəs deyilmi əzabı, –
səngər-səngər qaçanı
qovdurma qapı-qapı.

Qoru ləyaqətini,
uzunsaçlı sənindi.
Özü dünya gözəli,
adı "qaçqın" sənindi.

Nə Bosniya qaçqını,
nə İraq, nə Fələstin.
Ermənin əlindən
üstünə qaçıb sənin.

Arzum, Laləm, Zeynəbim,
Nəsibəm... elə durma.
Sənə qurban qələmim,
vəzifəm, elə durma.

Səni gərək dinləyən,
səni söylədən olsun.
Ər itirdin, ər bacım,
tapdığın vətən olsun.

ZİRVƏ

Zirvəyə qalxıram dolama yolla,
bu yol əziyyətdi, tamaşa deyil.
Qalxıram təbdirlə, hisslə, ağılla,
zirvənin mənzili birbaşa deyil.

Kosir qabağımı gah sis, gah duman,
gözümdə yorğunluq, saçlarımda dən.
Qalxıram, daş qopur ayağım altdan,
dağ mənə söykənir, mən dağa hərdən.

İllər pillələrmiş bizdən ötəri,
Yollara gah bürkü, gah şaxta düşür.
Şöhrətin sevinci, yaşın kədəri,
tərs kimi, ikisi bir vaxta düşür.

Keçir icazəsiz ömrün səddini,
keçirir bizi də alovdan, oddan.
Sağlamlıq, gözəllik ləyaqətini
alır əlimizdən yaş soruşmadan.

Ah, zirvə hardadı, görəsən harda?
nədir mən getdiyim bu cığır, bu iz?
Mən də bir zirvəyəm aşağılarda,
nə mən zirvəsizəm, nə zirvə mənsiz.

Gedirəm... illərə sorağım düşür,
insan öz-özündən ayrılır demək.
Yuxarı baxıram – papağım düşür,
aşağı baxıram – gözümdən eynək.

1979

ANKARADA MƏMMƏD ƏMİN RƏSULZADƏNİN MƏZARI

Daş üstə yazı: "İnsanlara hürriyyət, millətlərə istiqlal!". Son nəfəsində o üç dəfə "Azərbaycan!" – dedi, gözlərini əbədi yumdu.

Məmməd Kəngərlinin dediklərindən

Fərdlər ölür, lakin ölməz "Cəmiyyət".

Z.Göyalp

Qarşımda bir məzar, məzarda KİŞİ!
qəbristan daimi bir heyrətimdi.

Əsrin ən talesiz bir əzabkeşi, –
mənim Türkiyədə ziyarətimdi.

Yerə də zinətdi düşünən bir baş,
o yatır bir ana köksündə belə.
Qəbristan hər yerdə qürbətdi, qardaş,
qürbətdi vətənin özündə belə.

Bəs niyə doğmadı mənə bu kümbəz? –
pak vicdan sahibi, üstə şər yatır.
"Bir yol qalxan bayraq, bir daha enməz!" –
bayrağı qaldıran bir rəhbər yatır.

Türkiyə vətəndi, türkəm deyənə,
namərdin ürəyi partlasın gərək.
Vətəndən qovdular, qaçdı vətənə,
qaçdı beşiyindən məzarınadək.

İlahi, nə qədər böhtan yazdılar,
Mənə nələr deyir bu kiçik məzar.
Hayana döndüksə, şüar asdılar,
Hanı kommunizm, o şanlı şüar?!

Nə qədər yubiley oldu Bakıda,
təriflər, təltiflər yapdıq, Əfəndim.
Sənin yubileyin düşmədi yada.
biz səni itirib tapdıq, Əfəndim.

Hanı bu beşiyin ana laylası?!
Hanı Azərbaycan...
yat, quzum, laylay.
Yerin behişt olsun, daş ağrıtmasın,
mənim "xalq düşmənim", "məhbusum" laylay.

Ağırdı millətdən üzr istəmək,
yalanlar əbədi puç olmalıydı.
Heykəl var – məzara gömülsün gərək,
məzar var – heykəli ucalmalıydı.

Ankara, 13 may, 1990

QIZ QALASI

"Qız qalası" həqiqətdir,
əfsanə yox!
Bu əfsanə xəyanətdir,
əksinə yox!
Azərbaycan torpağında,
ola bilməz dillər töksün,
ya diz çöksün,
ata qızı qabağında.
Öz qızına, balasına,
doğma ciyərparasına
"Sevgilim ol", "arvadım ol" desin ata.
Bu ləkədir həm ataya, həm övlada.
Bu ləkədir mənim üçün,
sənin üçün,
onun üçün, –
bəşər üçün.
Namərd özü ləkəlidir bu şər üçün.
Düşmənin söz ləkəsidir, ədavətdir.
Amma adı əfsanədir,
rəvayətdir.
Onun adı,
Qız qaladı! –
Bu torpağın qızlığıdır,
bakirədir!
Dəyə bilməz düşmən əli, nəkarədir!
Mən şairəm –
bu millətin oğlu mənəm.
Mən atayam –
qız atası, haqlı mənəm.

Yansın düşmən, haqsız odur,
yalan odur!
Qız qalası saxlayıb öz qızlığını,
durur yenə,
qalan odur.

CƏBHƏ BAYATILARI

Oxuma, sarı bülbül,
itirdim yarı bülbül.
Burda mən qərib oldum,
ŞUŞADA Xarı bülbül.

A dağlar, ulu dağlar,
kəsdiniz yolu dağlar.
Əvvəl çeşməli-sulu,
indi qorxulu dağlar.

KƏMƏRLİDƏN verdilər,
Meşə, mədən verdilər.
Erməni yer istədi,
bunlar vətən verdilər.

Qonşum erməni oldu,
dedi yer mənim oldu.
And içdim, "qardaş" dedim,
and mənə qənim oldu.

GƏNCƏYƏ fişəng düşər,
ev yanar, dirək düşər.
Qoyma hönkürən olsun,
çiyindən tüfəng düşər.

Gəmi gələr, yan gedər,
yüz yerə güman gedər.
Səngərindən qaçanın
vətəni qurban gedər.

Yer qazıram qum çıxır,
bal yeyirəm, mum çıxır.
Şeytandan danışırlar,
erməni qohum çıxır.

Bulaqlar orda qaldı,
yaylaqlar orda qaldı.

Oğlan səngərdə öldü,
Qız ölmüş burda qaldı.

AĞDAMDAN üzü bəri,
yol gəlir izi bəri.
Ağdamda yer yarıldı,
addadı yüzü bəri.

Erməni dərddə yansın,
xeyirdə-şərdə yansın.
Ağdamı yandırdılar,
qoymayın BƏRDƏ yansın.

Zülümdür yerim, haray!
kimə can verim, haray!
Erməni əlindəyəm,
gəl qurtar, ərim, haray!

XOCALIDAN gələn var,
ağlayan var, gülən var.
Bakıda toy qurmayın,
Xocalıdan ölən var.

Paltar əyinə gərək,
köçəm ƏYİNƏ gərək.
Atı əldən gedənin,
yəhər nəyinə gərək.

Yol gəlir QUBADLIDAN
Xəbər alın atlıdan.
Nəbi, Həcər hardadı? –
itdi namus, batdı qan.

İgidlər ölməsinlər,
ayrılıq görməsinlər.
Siz yerə tikiş qoyun,
torpağı bölməsinlər.

Ocaq deyim, köz deyim,
yanır, necə döz deyim.
Gedib üzü dönənə
üzüm gəlmir söz deyim.

Bir xanım var, əri yox,
Başqa dərdi-səri yox,
Dükanda dünya satır,
dünyadan xəbəri yox.

Deyirəm ayıb çıxır,
demirəm hayıf çıxır.
İRANDAN tacir gəlib,
BAKIYA sahib çıxır.

Dünya, tamaşa dünya,
beləcə yaşa, dünya.
Başlar ayağa keçdi,
ayaqlar başa, dünya.

İTKİN DÜŞƏNLƏRİN YERİ BİLİNMİR

Xırda qəzetlərin birində
qərəzli yazılar oxudum

Zalım, ilan kimi dilin haçadır,
qoy əfi ilanlar qoynunda yatsın.
Boyun – bir qurulu dar ağacıdır,
as məni çiynindən, bir şəhid artsın.

Bu qədər HƏRİSLİK,
bu qədər QƏRƏZ,
bu qədər İDDİA,
bu qədər İŞTAH,
bu qədər PAXILLIQ,
bu qədər MƏRƏZ,
bu qədər BƏDXAHLIQ
Hardandır, Allah!

Bığ yeri təzəcə tərləmiş əsgər,
döyüşür, səngərin sirri bilinmir.
Siyahı dərc edir böyük qəzetlər,
itkin düşənlərin yeri bilinmir.

Gedir oğulları Azərbaycanın,
qışın soyuğu var, yayın atəşi.
Fikirdən, infarktdan həlak olanın,
atılmır üstündə yaylım atəşi.

Mən kiməm – bu yurdun bir vətəndaşı,
bir az ümidliyəm, bir az intizar.
Kürün qırağında bir mamır daşı.
ya da qəbristanda uçuq bir məzar.

Getmir ürəyimdən bu söz yarası,
gördüm,
yaranın da sızlar gözü var.
Nə hürən itlərdə ürək ağrısı,
nə çalan ilanda ürək özü var...

iyul, 1993

ŞƏHİDLƏR XİYABANI

Dayanın, Şəhidlər xiyabanıdı,
yas toya qarışıb, toy yasa burda.
Qızıl qumaşlarda qara xonçalar, –
nişan gətiriblər bir qıza burda.

Nigaran gedənlər yatır xəbərsiz,
yatağı boş qalıb, atı yəhərsiz.
Ana var, oğulsuz, gəlin var ərsiz,
nəydi bu müsibət, bu cəfa burda?

Qızıl qan ləkəsi qalır gül üstə,
bir qurğu qurdular fitnə-fel üstə.

İl təhvil olubdu qərənfil üstə,
verib öz yerini qış yaza burda.

Kim bilir, nə qədər ölən-qalan var,
Vətəndə bir vətən şəhid olan var.
Hələ bir-birini xəbər alan var, –
dil yox, sual verir, göz-gözə burda.

Şəhriyar əlində bir əsa gəlsin,
çağırın Babəki bu yasa gəlsin.
Qisas istəyəni qisasa gəlsin,
Yer özü çağırır qisasa burda.

Bir yandan məğrurluq, bir yandan həya,
yası bir boyadı, toyu bir boya.
Neçə Koroğlular gəldi dünyaya,
cavan Babək yatır, hardasa burda.

Kim belə qarğadı bu bağça-bağa,
qaralar bağlanıb min bir budağa.
Sürtüb ağ saçını qara torpağa,
dəyməyin, Nəriman ağlasa burda.

fevral, 1990

QANLI KİTAB

Hərbi hospitalda yaralı cəbhəçi Elxan Mirzəyev danışdı ki, həlak olan bir əsgərin qoltuq cibindən qana bulaşıq "Fikir eləmə" kitabım çıxıbdı, başqa sənədi yox idi. "Fikir eləmə"dən sonra vergül qoyub, "Vətən, fikir eləmə" yazıbmış.

Müəllif

Qan ağlayan şeirlərim,
kitab sinəm batdı qana.
Qarışdı bir şair qanı
bir əsgərin al qanına.
Mən bilsəydim, –

dəmirdən üz çəkdirərdim o kitaba,
misdən, tuncdan tökdürərdim misraları,
ya poladdan kəsdirərdim vərəqləri,
təki namərd bir güllədən
saxlayaydı o əsgəri.
Yarasına tənzif kimi
vərəqləri sarıyaydım,
ağrıyanda ağrıyaydım.
Sözlərimi bu sinədən o sinəyə
tökə-tökə,
"Fikir eləmə" oxusa da,
gizli fikir çəkə-çəkə
mən kitaba yazdığımı
o torpağa yazdı fəqət:
tüfənginin darağıyla,
bu Azadlıq sorağıyla.
İkilikdə bir səngəri
qorudu bu məmləkətin
bir şairi,
bir əsgəri.
Hansı sözüm,
hansı şerim
istəyindən xəbər verib? –
Döyüşlərdə qoluna güc,
ürəyinə təpər verib?!
Görüşümə gələsiymiş bəlkə elə, –
təzə cəbhə şeri ilə?!
Mən görmədim o əsgəri,
sən o yeri göstər mənə.
Vətəndəki o vətəni, –
o səngəri göstər mənə.
Qoy zəvvarın qəbul olsun ziyarəti,
o zəvvardı.
Mənim Kəbəm, ziyarətim
o məzardı.

EKRAN ÖNÜNDƏ

Pişiklərin yeməyini göstərirlər,
Pişiklərə xüsusi bir hörmət ilə.
Pişiklərin xörəyini göstərirlər
Ləzzətindən danışırlar ləzzət ilə.

Qucaqlarda əzizlənir, xumarlanır,
Əl-üzünü yuya-yuya cənab pişik.
Səhər-axşam sığallanır, tumarlanır
Yedin, doydun, get yuxuya, cənab pişik.

Dünya bəlkə it-pişiyin dünyasıdır? –
Dərk etmirik burda bəlkə insan kimi.
İnsana it, itə insan qayğısıdır,
Nəfəs alır yüz bədəndə bir can kimi.

İndi gəlib qonşu çörək növbəsindən,
Ömür sürür Allah verən arzusuyla,
Acqarına zəhər yağır çöhrəsindən,
Gülümsəyir pişik olmaq arzusuyla.

Fransalı, Nyu-Yorklu ledilərin,
Səsi ipək, əli zərif, gözü xumar.
İtlər kimi tumarlanar qaçsa yəqin,
Yatsa yəqin, pişik kimi xumarlanar.

Düşmən gəlir qıra-qıra, döyə-döyə,
Mərd oğullar həlak olur kişi kimi
Kimsə gizli tumar çəkir ermənıyə,
Kimsə gizli xumarlanır pişik kimi.

KÜR AXIR

Tale məni əzizləyir
sığalı qapaz qarışıq.
Külək əsir, yağış döyür,
gələn qışdı yaz qarışıq.

Mən bal yedim dadı zəhər,
gülüş gördüm yarı qəhər.
Mən yas gördüm gülürdülər,
mən toy gördüm yas qarışıq.

Tale mənə bata bilmir,
qovur hələ tuta bilmir.
Nişan alır, ata bilmir, –
Kür axır Araz qarışıq.

HASAR

Hansı qapıdan girdim,
divarda qoç Koroğlu,
yanında Qaçaq Nəbi.
Hansı türkdən soruşdum,
zindanda yatıb, – dedi.

– Nadir şah kim olub?
– Türk.
– Fətəli şah?
– O da türk.
– Şah İsmayıl, şah Abbas,
Nəsrəddin şah, ya Qacar? –
bütün bu sülalələr?
Türkdü, türkdü, – dedilər.

– Türklər kimdi?
– Müsəlman.
– Farslar kimdi?
– Müsəlman.
– İran kimindi, İran?
– İran, fəqət farsların.
Dünyaya boylan, yazıq,
içindən bu hasarın.

1993, Tehran

ÖLDÜRÜRLƏR YAXŞILARI

Bir güldana qoymuşdular
Qızılgülü,
cır gül ilə.
Soldu bir gün
o gül də gül xiffətilə.
Yrək açdı, göz oxşadı, ətir yaydı,
ürəksizlər, kor olmuşlar dünyasına.
Soyuq canlar Allah, Allah, necə qıydı.
Qızılgülü cır güllərin sırasına?!

Sonra gördüm nə deyirmiş bu "qayğılar"? –
içimizdə qoruyurlar naşıları.
Qızılgülü cır gül ilə solduranlar,
nadanlara qata-qata öldürürlər yaxşıları.

GÜLƏ-GÜLƏ

Darıxma, sənə qurban,
gülüm, gülüşüm mənim.
Saçı – sapsarı qızıl,
üzü – gümüşüm mənim.

Ürəyinə salma sən,
kimdi ki, o eybəcər?
Ürəyində olanlar
sonra səndən inciyər?!

İkiyə bölünmüşəm, –
canımda bir canım var.
Səndə bir yuva qurdum,
səndə bir ünvanım var.

Üstünə qəm yerisə,
qarşıla gülə-gülə.
O gülüşü mənə də
aşıla gülə-gülə.

Qəm – üzündə lalədi,
saçların şəlalədi.
Qəm də bir piyalədi, –
nuş elə gülə-gülə.
Qoyma xətrinə dəysin, –
qəddini kədər əysin,
Rəqibin qara geysin, –
qəşş elə gülə-gülə.

DAŞ ÜRƏKLƏR GÖRDÜM, ÖLÜ BAXIŞLAR

Bir qələm dostumu apardı dünya,
daş ürəklər gördüm, ölü baxışlar.
Adımı yazmadı başsağlığına,
"unutdu" başları sağ olmamışlar.

ƏCƏL GƏLİNCƏ SƏN GƏLDİN

Təzə ili tək keçirdim,
yuxuma gecə sən gəldin.
Yanıma gələ bilmədin,
evə gizlicə, sən gəldin.

Ayrı saldı illər bizi,
necə tapdın yolu, izi,
tanıdınmı evimizi?
əcəl gəlincə, sən gəldin.

İndi bildim nədir vəfa,
bitmədi bu cövri-cəfa.
Nə çoxdu qohum-əqrəba,
bircəmsən, bircə sən gəldin.

DƏVƏ, SUSMA

Dəvə, sənin dəvə yükün ağır oldu,
açılmadı orda düyün,
ağır oldu.
Yazıq, bəlkə uca boyun,
böyüklüyün ağır oldu?!
Ovsarını bağladılar
bir eşşəyin quyruğuna,
tapşırdılar müntəzir ol buyruğuna.
Yəni bir az üzüyola,
bir az lal ol,
əhli-hal ol.
Ya əllərdə bir alət ol,
yəni bir az,
bir az eşşəkxasiyyət ol.
O, qalxanda diz çökdüyün,
baş əydiyin,
yerə yatıb bel bükdüyün,
dayananda dayandığın,
oyananda oyandığın,
danışmamış eşitdiyin,
cənnətdiyin, behiştdiyin
qoca Sarvan!
Çıxdı heçə-puça Sarvan.
Bir halallıq istəyir o
indi ölüm ayağında.
O baş əyir, o diz çökür
gəlib sənin qabağında.
O bilmədi qədirini, qiymətini.
O bilmədi ağır olur
dəvə kini.
Dəvə, indi o mütini bağışlama.
Bir eşşəyin yedəyinə verdi səni,
bağışlama.
Mən yalvarsam, dəvə, məni bağışlama.
Səndən vətən xahiş etsə,

o vətəni bağışlama.
Dəvə, susma.
Mən uduzdum bağışlaya-bağışlaya,
sən uduzma.
Dəvə, susma.

DAŞ VAXTI DEYİL

Zəmanə dəyişib ay sənə qurban,
tərs kimi yaşın da o vaxtı deyil.
Kəsdi düz sözümü sözü əyrilər,
dava-dalaşın da o vaxtı deyil.

Yüz baş hiylə qurur, bir baş neyləsin,
dil-dodaq təpiyib, göz-qaş neyləsin.
Buna dost neyləsin, yoldaş neyləsin,
dostun-yoldaşın da o vaxtı deyil.

Nəriman, ürəyin başqadır sənin,
millət hörmətini yaşadır sənin.
Kimlər bostanına daş atır sənin,
səbr eylə, daşın da o vaxtı deyil.

YOXDU ƏVƏZİN, EY KÖNÜL

Çox yalvardın, az eşitdi,
daha nə desin, ey könül.
Səndən qeyri yalan şeydi, –
yoxdu əvəzin ey könül.

Taleyimə bir gün düşüb, –
bağlayıblar, düyün düşüb.
Hamı evdən sürgün düşüb,
batıbdı səsin, ey könül.

Qaralmasın od nəfəsin,
gəlməyən gəlmir, gəlməsin.
Buna bir bəndə neyləsin,
Allah neyləsin, ey könül.

MƏSCİDDƏN KİLSƏYƏ GEDİR

Bir qız bir ingilis tapıb,
bu xanım o bəyə gedir.
Boynuna təzə xaç salıb,
məsciddən kilsəyə gedir.

Kürəkən ayqırın biri,
qaynana fağırın biri,
qız beli yağırın biri,
mey içəndi, meyə gedir.

Hayıf, qızların niyyəti,
götürmək olmur minnəti.
Gah özünü, gah milləti
şair söyə-söyə gedir.

SAFRUHA

Asif Atanın xatirəsi

Deyirlər ki, bərk sancıbsan məni yenə,
bir "xanımın" ad günündə coşub qanın.
Əl çalıblar əlindəki qədəhinə,
yanındakı yalaq-yaltaq adamların.

Mən neyləyim, bir ömrüm var, bir həyatım,
oyna hələ havasına o qədəhin.
Sənə yaxşı qul olmağı bacarmadım,
yaxşı Ağan olardım mən çünki sənin.

ŞAİR

Deyirdin dünyadan yoxdu xəbərin,
Bakıdan yox imiş xəbərin, şair.
Toxlar tikdiyini, Aclar sökdülər,
hardadı "İçəri şəhər"in, şair?

Reklam fars dilində, alman dilində,
Mozambik dilində, yunan dilində,
Ana vətənində, ana dilində
pozuldu mübtədan, xəbərin şair.

Ocağı yandırdıq, közü nə oldu,
nə oldu, hər kəsin özünə oldu.
Bakını verdilər, kazino oldu,
bəs sənin nə oldu dəyərin, şair?

Biri "Mersedes"ə hissə axtarır,
o biri çörəyi nisyə axtarır,
kimsələr içində kimsə axtarır,
hardadı, xanların, bəylərin, şair?

Aşağı ac gəzir, yuxarı toxdu,
aşağı olalı, yuxarı yoxdu.
Yüz de, bir şeyin ki, axırı yoxdu,
nə sözün sayılır, nə şerin, şair.

Şair doğulmağın başa bəlaymış,
gərək başdıların başa salaymış.
Niyyət nə Məkkəymiş, nə Kərbəlaymış,
tapdılar yolunu gəlirin, şair.

Azadlıq istəyib, müstəqil olduq,
gəlmələr müstəqil, biz fəqir olduq.
Müqəssir axtarma, müqəssir olluq,
qarışar axşamın, səhərin şair.

Getdi sətiraltı yazan vaxtımız,
indi də minbərdən "Əzan" vaxtımız.

Bazarda qazanha-qazan vaxtımız.
sənin ki, yoxdu bir xeyirin, şair?

Xarici maşınlar dalbadal keçir,
lallar dil açıbdı, natiq lal keçir.
Könlümdən yeni bir İstiqlal keçir,
hardadı əzəlki hünərin, şair?!

23 yanvar, 1993

SƏN DƏ XİFFƏT EYLƏMİSƏN

Bülbül, yenə nə şivəndi,
bağı cənnət eyləmisən
Gəlişimdən xəbər tutub
Nə mərhəmət eyləmisən.

Oxuyursan sözlə-sazla,
sevinirsən gələn yazla.
Dedilər ki, bu avazla
məni dəvət eyləmisən.

Büküləndə budaqda gül,
açılarmı sevən könül?
Yəqin olub ana bülbül,
sən də xiffət eyləmisən.

Susduruldu şair-ozan,
bu torpaqda zaman-zaman.
Sus deyəndə susmamısan,
nə qiyamət eyləmisən.

Aşıb-daşsın o nəğmələr,
mənim sözüm haqdan gələr.
Mən dərdimi şirin-şəkər
sən də şərbət eyləmisən.

BAXT QAPIN AĞZINDA AYAQ ÜSTƏDİ

Baxtımız əbədi, həyat dəyişkən,
dünyanın özü də bir cür yuxuymuş.
Bir evdə nikahın, birində eşqin,
dünyanın iki yol ayrıcı buymuş.

Mən sənin içində, o yanındadı,
eşit bu vurğunu, hecanı, canım.
Mənə "can" deyirsən, canın ondadı,
kimə həsr elədin canını, canım?!

Bir cığır, ya bir iz varmı deyirsən,
ümidin şeh kimi yarpaq üstədi.
Evində oturub baxt gözləyirsən,
baxt qapın ağzında ayaq üstədi.

ALA PİŞİK

Sən nə mötəbərsən, ay ala pişik,
salam, hacı pişik, kərbəla pişik!
Deyirlər, Məhəmməd Əleyhissəlam,
oyadıb, yuxuna qatmayıb haram.
Kəsib çuxasının bir *tərəfini*,
qoruyub sənin də şan-şərəfini.
İndi televizor sənə yer verir,
yeyib gəməşirsən, onu göstərir.
Bığını yalayıb tumarlanırsan,
xumar qucaqlarda xumarlanırsan.
O hansı şöbədir, belə şən keçir? –
bizimki ədəbi şöbədən keçir.

Şeir demək üçün bir imkan olmur,
miyoldamaq üçün doyunca, buyur!
Pişiklər səsinə qulaq asacaq,
mənə miyoldamaq öyrətmə ancaq.

yanvar, 1993

BAXTA-BAXTDI

Gördüyümü mən görmüşəm,
yaxşı-yaman baxta-baxtdı.
Dünya durur, biz dururuq,
doğru, yalan baxta-baxtdı.

Yer qazırsan, daşa çıxır,
birdən əlin boşa çıxır.
Nadan gedir başa çıxır,
aqil, nadan baxta-baxtdı.

Ləkə yaxan ləkə yaxır,
görən görür, baxan baxır.
Biri enir, biri qalxır,
enən, qalxan baxta-baxtdı.

Yuxarılar coşar-çağlar,
aşağılar susar, ağlar.
O toy elər, bu yas saxlar
gedən, qalan baxta-baxtdı.

Nə şirindi söhbətimiz,
göz mehriban, ürək təmiz.
Baxta-baxtdı niyyətimiz,
sənə qurban, baxta-baxtdı.

SUBARDİNASİYA

Vəzifəyə gələndə,
baş əy, salam ver ona.
Vəzifədən gedəndə
atasının goruna...

HEYRƏT

Bir sözün ovsununa
düşdü başqa söz deyən.
Yüz qəlbə açar oldu
bir bayatı söyləyən.
Getdi orda əlimdən
şairlik ixtiyarım:
"Üzündə göz yeri var,
sənə kim baxdı, yarım?!"

...YAŞ KEÇİR, HƏKİM

Mən öz ürəyimdə bulaq görmüşəm,
İnsan ürəyindən su içir, həkim.
Deyirsən vaxt gərək sağalmaq üçün,
Vaxt gəlib keçincə, yaş keçir, həkim.

Məhəbbət hər yaşda deyir sözünü,
Tutulan bulağın açır gözünü.
İstər as özünü, öldür özünü,
Ürək bəyənsə də, göz seçir, həkim.

Bir gözəl yolumdan məni saxlayır,
Bir sinə söz deyib sinə dağlayır,
Deyirəm xəstəyəm, ürək ağlayır,
Mənim əvəzimə dil açır, həkim.

"DİLƏNÇİ"

Qovma, qovma "dilənçinin" xətrinə dəyər,
bəxti ona bir ömrü də qısa veribdi.
O əllərə, Qarabağda gedən döyüşlər
silahının əvəzində əsa veribdi.

Dünən onun son məramı qələbə idi,
səngər-səngər atılmaq da ürək istəyir.

Dünən vətən torpağını tələb edirdi,
bu gün gəlib vətənində çörək istəyir.

Həyatına, taleyinə o qəsd elədi,
Gedib orda sinə gərdi mənim yerimə.
Düşmən vurub ayağını şikəst elədi,
burda qırıb ürəyini şikəst eləmə.

Varmı onun vətənində yaşamaq haqqı,
dilənçitək dolaşırsa, o vətən olmur.
Niyə gedib döyüşənə – yapalaq haqqı,
niyə qalıb gizlənənə – söz deyən olmur?!

Qəlbin insaf damarını nə vaxt qırdılar,
bulud gəldi, üzümüzə kölgəmi düşdü?!
Ölsə, şəhid məzarında basdırardılar,
qaldı, əsgər şərəfinə ləkəmi düşdü?!

Müharibə qorxusu var ölkədə hələ,
millət yenə oğulları haraylayacaq.
Mən bir ölkə görməmişdim bu qədər belə
varlısı çox, hacısı çox, dilənçisi çox!

Qovma, qovma "dilənçini", xətrimə dəyər,
bəxti ona bir ömrü də qısa veribdi.
O əllərə, Qarabağda gedən döyüşlər
silahının əvəzində əsa veribdi.

DÜNYANIN HEÇ KƏSİ YOXDU

Gülər üzlüm, çox ağlama!
göz yaşı məlhəm olmayıb.
İnsan göstər yer üzündə,
üzündə bir qəm olmayıb?!

Mən səndə səni görmüşəm,
saçında dəni görmüşəm.

Mən bu naləni görmüşəm,
mənim bu naləm olmayıb.

Yaxşı seç qaranı ağdan,
Can üzülər ağlamaqdan.
Söz dilimə gəlib haqdan,
əlimdə qələm olmayıb.

Gedən getdi, səsi yoxdu,
təzəsi, köhnəsi yoxdu.
Dünyanın heç kəsi yoxdu,
heç kəsə məhrəm olmayıb.

Gözlərin bolluca qəmdi,
bu səbəbdən hava nəmdi.
Məndən ötrü cəhənnəmdi,
başqa cəhənnəm olmayıb.

29.07.2000

SƏNƏ QUL DEYƏNİ QUL KİMİ ÖLDÜR

Gəl mənim "qul" balam, "qul" pəhləvanım,
qullar bazarında necəsən oğlum?
O yandan qovdular, bu yana qaçdın,
bu yandan hayana qaçasan, oğlum.

Azadlıq olalı, sən qul olmusan,
dövlətin varlıdı, yoxsul olmusan.
Pulsuzluq dərdindən pul-pul olmusan,
bir qalıb, canından keçəsən, oğlum.

O kürək səndədi, əzələ səndə,
bir hünər görməyir göz hələ səndə.
Hardandı bu qədər hövsələ səndə,
sanma ki, tənhasan, təkcəsən, oğlum?!

Sən yaşamaq üçün əlsən-ayaqsan,
nə vaxt ölmək üçün yaşayacaqsan?
Nə vaxt şəhidlərə qovuşacaqsan,
nə vaxt gedəcəksən öncə sən, oğlum?!

Spartak qul idi, dilində cahat,
o qalxdı, diz çökdü Romada senat.
Qulları döyüşə çağırır həyat,
qısılma daldaya, küncə sən, oğlum.

Çamadan götürmə, get silah götür,
bağında-bağçanda bayquşlar ötür.
Sənə qul deyəni qul kimi öldür!
gərək torpaq andı içəsən, oğlum.

YERİN VAR ŞƏHİDLƏR XİYABANINDA

Qonşular evini kirayə verdi,
dinlər dilimizə min ayə verdi.
Torpağı xan aldı, xan bəyə verdi,
bəylərə, xanlara baş əyməlisən.

Taleyin nə deyib, yazan nə yazıb,
doğru söz deyibsən, kim qulaq asıb?
Ayağından çəkib, başından basıb,
başa çıxanlara baş əyməlisən.

Zəmanə qoçular zəmanəsiymiş,
seyidlər, hacılar zəmanəsiymiş.
Dərvişlər, falçılar zəmanəsiymiş,
nəzir yığanlara baş əyməlisən.

Nəriman, nə qədər can var canında,
zəiflik, soyuqluq yoxdu qanında.
Yerin var Şəhidlər xiyabanında,
qanı axanlara baş əyməlisən.

"BURJUA ŞAİRİ"

"Yerə ennəm də, səma şairiyəm"

Cavid

Nəfəsi benzin və kükürd qoxuyan,
çamırlıq içində şərqi oxuyan
bir sinfin şairi görün nə dedi:
"Burjua şairi!" –
Cavidə dedi.
Şairin paxılı durdu üzünə,
aşağı-yuxarı durdu üzünə,
üzünə gülənlər durdu üzünə,
teatra gələnlər durdu üzünə,
"İblis"ə pərəstiş eləyənlər də,
iblisə döndülər xeyirdə, şərdə.
İnsaf deyilən şey tamam yox idi,
kükürd olan yerdə ilham yox idi.

Bir deyən olmadı yoldaş Mir Cəfər,
yalandı!
Əksinə, yalan dedilər.
Cavid Mir Cəfərdən möhlət istədi, –
məni nadanlardan qoruyun, – dedi.
Mir Cəfər yazdı ki, araşdırılsın! –
dedilər: qələmi gərək qırılsın.
Mir Cəfər dedi ki, bir də yoxlayın! –
yoxlayıb dedilər: birinci xayın!
Oğlunun adı Toğrul,
qızının adı Turan.
Biz inqilab deyirik,
o deyir Allah, Quran.
Yazdığı "Teymur", "İblis",
türkçü, islamçı, vaiz..."

Siz ey Birincinin sağıyla solu,
amma birincidən daha qorxulu.
Allah dilinizi lal eləyəydi,
Allah əlinizi şil eləyəydi.

Sizin gözünüzü kor eləyəydi,
onun qulağını kar eləyəydi.
Sizə qənim olsun sizin andınız,
qovluqlar açıldı, siz qapandınız.

(Rəfail Hüseynov eşitsə əgər,
niyə adlarını çəkmədin deyər.
Gərək tanıdaydın bir-bir millətə,
Bəlkə də sir deyil bu sir millətə...)
İlahi, bu Yerin günahı nəymiş,
diri gün görmədi, ölü də ehsan.
Demə, "Qızıl meydan" daş döşəməymiş,
bir xırman yeriymiş əslinə baxsan.
Kremlin daşına da "qızıl" dedilər,
daşa əl çaldırdı daşa dönmüşlər.

Mir Cəfər dedi ki, məni dörd bölün,
inandım, aldandım deyilən sözə.
Tutduran
tutdurdu onu da bir gün,
hakimlə məhkumu qoydu üz-üzə,
ölünü dirildib qoydu üz-üzə,
latınla kirili qoydu üz-üzə...
Cavid gedən gündən söz şərə qaldı,
Caviddən
Cavidə MƏQBƏRƏ qaldı.

09.09.2003

ÖLDÜ DEMƏYİN ONA

Dünya bir pəncərəymiş,
İsmayıl baxdı getdi,
Şimşək kimi parladı, Ay kimi doğdu getdi.
"Dəli Kür" qoydu getdi, Dəli Kürə bərabər,
bir əsrin ağrısıydı, yanğısıydı bu əsər.
İsmayılın yerində qaldı Cahandar Ağa,
Öldü deməyin ona, var ol İsmayıl qağa.

Vicdan qurbanı oldu, həlak oldu sənətkar,
nitqinə əl çalanlar topuğuna çaldılar.
Torpağa qəsd, suya qəsd, tarixə qəsd, elə qəsd!
Ətrafında nə qədər çənəpərəst, dilpərəst.
Vətəndə vətənsizi, kürsüdə riyakarı,
gördü, qəzaya düşdü onun ömür qatarı.
Qırdılar millətini Bakıda rişə kimi,
Uğrunda can qoyduğu Moskva xayin oldu.
Baxa-baxa çatdadı büllur bir şüşə kimi.
Öldü,
arxayın olun,
o da "arxayın" oldu.
Aldığı medalları qaytarın özlərinə
"41-45" adında qoysun muzeylərinə.
Təriflərdən ucadı, təltiflərdən ucadı,
sənətkarın öz adı.
Tabutun qabağında bəsdi, bir şəkil gedir,
arxasınca el gedir.

Paklığa, cəsarətə, şəxsiyyətə çağırış!
Qırdı şüşə könlünü mənəvi qəsd, yad baxış.
təklik, bəlkə tənhalıq, biganələr, hərislər,
yaşamaq – günah oldu, ölmək şərəf və hünər.
Qırılan güzgülərdə dünya baş-ayaq oldu,
xalqa dayaq olana, bir əsa dayaq oldu.
Dərdlərə sinə gərən dərdlədi, dərdə düşdü,
Ədalətin sazından qopdu bir pərdə düşdü.
heykəl getdi dünyadan,
evində sıxılırdı, tabutda rahatlanan.

Yaşadı Vurğun kimi, bir də Mehdiyə əvəz,
Hüseynin yaşıdıydı, Osmanın əvəziydi.
Böyük sənət yolçusu ölməyib, ölə bilməz,
vətənin taleyinə Zamanın töhfəsiydi.
Avey dağı əyilməz,
ya Göyəzən əyilməz,
İsmayıl bir də gəlməz.

Dünya bir pəncərəymiş,
İsmayıl baxdı getdi,
Şimşək kimi parladı, Ay kimi doğdu getdi.

28 iyul, 1995

YANIMDA BİR QADIN

Bir ömür sürdün, şair,
özündən ixtiyarsız.
Ölənə – sədaqətlə,
qalana – etibarsız.
Yalvardın bir məzara,
o susdu, sən oxudun.
Dilavər qadınların
qabağında lal oldun.
Sənə könül verdilər
ürəkdən yana-yana.
Sən könül əvəzinə
vəd verdin çoxlarına.
Məcnun Leyli deyirdi,
Kərəm Əsli deyirdi,
həyatı səsləyirdi.
Sən – məzarı çağırdın,
heçlikdən səs istədin.
Bildin ki, o hardadı,
yenə hardasan? – dedin.
Bir ömrü verdin bada,
yorulmadın hələ sən:
"Allah, Allah, bu dünya
nə soyuqdu!" – deməkdən.

12.02.98

MƏHƏBBƏT

Qol-qola yeriyir iki mehriban,
oğlan ərk eləyir, qız naz eləyir.
Dəymə sən onlara Ulu Yaradan,
dünyanı dünyada taraz eləyir.

Nə qədər şeytan var, nə qədər məmur,
nə qədər qarışıb kiçik bir ölkə.
Onların heç nədən xəbəri yoxdur,
xəbərsiz gedirlər Səndən də bəlkə!

Bir daş ağrıtmasın ayaqlarını,
büdrəsə, qolundan mən tutum, Allah.
Bir az ürəyimin ağrılarını,
bir az Şeytanları unudum, Allah.

OYAN, ŞAİR!

"Necəsiniz?" –
xəbər alır
o qız məni hər görəndə.
Mənim də dilim açılır
dili dilavər görəndə.

O qədər qaş-qabaq gördüm,
baş yerində ayaq gördüm.
Ürəyini mən pak gördüm,
üzünü gülər görəndə.

Söz deməmiş, fikri duyan,
ürəkdi ürək oxuyan.
Oyan deyir, şair, oyan,
qabağında şər görəndə.

Bir az birtəhər oluram,
bir az xoşxəbər oluram.
Bir az bəxtəvər oluram, –
belə bəxtəvər görəndə.

BƏS EYLƏR

Dərdini hamıya demə,
bir nəfər bilsə bəs eylər.
Şərtdimi hamı "can" desin,
bir can "can" desə, bəs eylər.

Sözü-sözündən oxuyan,
səni özündən oxuyan,
dərdi gözündən oxuyan,
o dərdi bölsə bəs eylər.

Səni sevən, duyan hamı?
Anan ölsün, anan hamı?
Tanrım, saxla Nərimanı
bir şair bizə bəs eylər.

iyul, 2003

DAYIM OĞLU BAYRAM MƏSMALIYA

Bayram, hamıyla görüşdüm,
səni sonraya saxladım.
Dedim gəlləm qış gələndə,
qış keçdi, yaya saxladım.

Gəlib çatdı umu-küsün,
İçindəydim odun-közün.
Dedim uşaqlar böyüsün,
sünnətə, toya saxladım.

Dünya dəyişdi, nə bilim,
mən də itdim ilim-ilim.
Nə evdə bir gəvə-kilim,
nə əldə maya saxladım.

Molla keşişə qarışdı,
işdə iş işə qarışdı.
Başım yetmişə qarışdı,
zornan bir həya saxladım.

Ağstafa, Qarayazı,
təzə balıq soyutması.
Xəngələ qaldım tamarzı,
vağzal Poyluya saxladım.

Mən bir nəslin əvəziyəm,
"Dəli" Həsən nəvəsiyəm.
Kəsəmənə gələsiyəm,
Kürdə çimməyə saxladım.

İyun, 2002

XƏLİLİN GÖZ YAŞI

Xəlil Rza Ulutürkə

Dağlıq Qarabağdan qarlı yel əsdi,
gərdi Azərbaycan dağ sinəsini.
Xəlil haray çəkdi,
Təbriz tələsdi,
verdi mərmilərə sağ sinəsini.

O axşam bir xəbər sarsıtdı bizi,
Xəlil ağlamayıb el ağlayanda.
Xəlil ağlamayıb oğlu Təbrizi
tabuta qoyanda, yerə qoyanda.

Göz yaşı – göylərin ilk təsəllisi,
daşdaşan şairə son töhfəsiymiş.
İçinə yağırmış yağış əvəzi,
yerdən yox, o göydən görünəsiymiş!

Bəlkə də mənası budur heykəlin,
bu sirrin önündə zəka zəlildi.
Od saçır gözləri məğrur heykəlin,
içi – göz yaşıdı,
üstü – Xəlildi.

20 sentyabr, 2003

HAY-KÜY

İlahi, nə yaman o göylə gedir,
göydən qopanları görməyibdimi?
Hay-küylə danışır, hay-küylə gedir,
səsi batanları görməyibdimi?

Sirkədən tünd imiş onun hikkəsi,
elə bil, yuxarı-aşağı yoxdu.
Baxır, seçə bilmir yazıq heç kəsi,
gözü var, gözünün işığı yoxdu.

Əqrəb olmasa da, əqrəbfasondu,
çalmasa qorxulu, çalsa öldürən.
Onu ayaqlamaq bəlkə asandı,
bir ayaq istəyir, şikəstdi vətən.

DÜNYANIN ÜZÜ TOY, ASTARI YASDI

Kardioloq, prof. Fuad Əliyevə

Ölçüb təzyiqimi keçirsən belə,
bir dünya qan ağlar içimdə, həkim.
Sən hansı təzyiqi ölçürsən belə? –
təzyiqə təzyiq var içimdə həkim.

Əbədi yuxudan məni oyadıb,
təzədən dünyaya gətirdin, həkim.

Məndə yaşamağa inam yaradıb,
özün inamını itirdin, həkim.

Yəqin, ölüm quşu tanıyır səni,
hansı yastığa ki, sən baş çəkirsən, –
kölgələr içində seçir kölgəni,
o da o yastığa qonmur deyəsən.

Məni xəstəxana qapılarından,
evə yola saldın əlində Quran.
Səndəki o həkim mənəviyyatı,
səssiz musiqiydi, sözsüz bayatı.

Gördüm o dünyanı iki gün qabaq,
orda da İşıq var, Gün yoxdur ancaq.
Duman qarışıqdı gümüşü dünya,
günorta üstündən keçmir o yana.

Bağ-bağat salınıb, al-yaşıl çəmən,
amma nə əkən var, nə də becərən.
Adamlar danışır, səsləri yoxdu,
çiçək var, çiçəyin bir ətri yoxdu.

Təzə ölənləri çeşidləyirlər,
bir karvan gördüm mən, bir çiyin yolu.
Nə ad xəbər alır, nə söz deyirlər,
keçirsən bəşərin keçdiyi yolu.

Bir şikəst var idi, gördüm sappasağ,
piyada gəzirdi tabutda gedən.
Qonşumuz ölmüşdü otuz il qabaq,
qabağıma çıxdı orda qəfildən.

Ölülər içində diri mən idim,
qalmışdım "hə" ilə, "yox" arasında.
Amma ölənlərin biri mən idim,
infarktdan gedənlər siyahısında.

Əflatun deyib ki, bizim dünyamız,
o biri dünyanın əksidi yalnız.
Burda gördüyümüz yalançı dünya,
ordakı dünyanın şəklidi guya.

O da bizimkidi, bu da bizimdi,
yoxdu bu dünyanın bənzəri ancaq.
Bu Ulu qurğunun ustası kimdi?! –
bundan doymaq olmur, ondan baş açmaq.

(Nə qədər acgözsən ey insan oğlu,
görmürsən gəldiyin, getdiyin yolu.
Burda enə-enə siyahılardan,
sən o siyahıya yaxınlaşırsan.
Dünyanın əvvəli, axırı budur,
Yuxarı boylanma, "yuxarı" budur.)

Dünyanın üzü toy, astarı yasdı,
sizin əvəziniz yoxdu, həkimlər.
Heyif, maaşınız nə qədər azdı,
çəkiniz o qədər çoxdu, həkimlər.

1997

MƏN BİR ÖMÜR SÜRDÜM

Vətəni böldülər pisə, yaxşıya,
bezdik yabıların kişnəməsindən.
Oğul istəyirəm indi yaşaya,
dözə dözdüyünə bir də yenidən.

Bəsdi danışdığın tər tökə-tökə,
üfürmə, gözümə görük görünür.
Vətən siz tərəfdən kiçikdi bəlkə,
çadırdan baxanda böyük görünür.

Ərköyün doğulub bəzi adamlar,
vətən tərifləsin gərək onları.

Gülsün üzümüzə üzdə o ki, var,
biz də içimizdə söyək onları.

Həyasız hər yerdə bimərifətdi,
tanımaz qohumu-qardaşı tapsa.
O ki, bir sifətdə neçə sifətdi,
özünü təriflər bir naşı tapsa.

Daş daşa söykənsə, daş divar olar,
daş şikəst eləyər ayağa düşsə.
Yol getsən, yol uzaq, dünya dar olar,
keçinin axsağı qabağa düşsə.

Mənim dediyimi təkrar deyirdi,
çuğullar yozurdu qul ləhcəsində.
Dildən dərs deyənlər kəkələyirdi,
bəzi qəzetlərin səhifəsində.

Mən dözdüm, dedim ki, bir vaxt olacaq,
kürsüyə qalxacaq həqiqət özü.
Bilmədim, ürəyim infarkt olacaq,
İnfarktdan yatırmış cəmiyyət özü.

Gedin, tərifləyin bir-birinizi,
mən bir ömür sürdüm, siz sürün iki.
Satın ölünüzü və dirinizi,
Vətən mənimkidir, bazar sizinki.

QARATOYUQ

Biz necə oxşarıq, ay qaratoyuq,
biz eyni quşlarıq, ay qaratoyuq.
Yerdə dən gəzirsən, yem axtarırsan,
Çaşıb dimdiyini daşa çalırsan.
Boylanıb baxırsan gözün dörd olub,
Halal yaşamağın sənə dərd olub.
Yüyürüb balaca barmaqlar üstə,

Elə ki, qonursan budaqlar üstə
Təzədən coşursan, ay qaratoyuq,
Nəğmələr qoşursan, ay qaratoyuq.
Ötürsən, demirsən qısqanan olar,
Sənin bir nəğmeni yüz danan olar.
Bülbülün adı var, sənin adın yox,
Toyuqsan üstəlik, ay qaratoyuq.
Səsinə, nəğmənə heyran qalıblar,
Adını gör necə gözdən salıblar,
Yüyürə, yüyürə yerdə qaçırsan,
Şaqqanaq çəkirsən, qanad açırsan.
Sən ey insanlara nəğmələr deyən,
Qoru insanlardan özünü hərdən.
Quzğunlar havada pusquda durur,
Pişiklər gözüylə tələlər qurur.
Dillərə salıbdı, o dillər səni,
Elə buna görə yeyirlər səni.
Səni məhv etməyə hey əlləşirlər,
Taleyin hökmüdü bu əbədiyyət.
Təqib olunanlar heykəlləşirlər,
Ölümlə üz-üzə yaranır sənət.

AYRILIQ AYRILIQDI

Bu ayrılıq, ayrılıqdı,
istər elə, istər belə.
Nəfəs özü bir qonaqdı,
gedər elə, gələr belə.

Mən əssəm də külək kimi,
dərzi dünya şimşək kimi
biçər məni köynək kimi,
tikər elə, sökər belə.

Sən gələndə bahar gələr,
sən gedəndə qubar gələr,
içimdə bir quzu mələr
axşam elə, səhər belə.

ŞEYXİM

"Peyğəmbərdən sonra şairlər gəlir".
Nizami

Birinci sən keçdin o yolu, Şeyxim,
ulular içində ey ulu Şeyxim.
Dövranla şairin tutmur söhbəti,
o yalanı sevir, bu həqiqəti.
Ayağı öpürlər üz əvəzinə,
külü üfürürlər köz əvəzinə.

Şeyxim, səndən sonra dünya dəyişdi,
söz dedik, sözdəki məna dəyişdi.
Hər gələn zurnaçı bir hava çaldı,
nə çaldı, o bizim hesaba çaldı.

Bir yandan Quranı dandı hökumət,
bir yandan Qurana and içdi millət.
Bir yandan dinimiz lağa qoyuldu,
bir yandan adımız Məhəmməd oldu.
Bir yandan MK-ya getdik iclasa,
bir yandan mollanı çağırdıq yasa.
Bir yandan sürüldü şair oğullar,
bir yandan Kremlə and içdi qullar.
Ordenli, medallı şairlərimiz
ada möhtac oldu, tərifə həris.
Dəyişdi sözünü qəliz deyənlər,
getmişdim bir Allah evinə, Şeyxim.
Peyğəmbər adından hədis deyənlər
nəzir-niyaz yığır cibinə, Şeyxim.

İnsan yaşadıqca yaşamaq istər,
bədxəbər bir dəfə xoşxəbər olsa.
İkinci sırada şairlər gələr,
birinci sırada Peyğəmbər olsa.

MİLLƏT ÖZ-ÖZÜNƏ GÜLDÜ NƏHAYƏT

Heykəl uçuruldu, töküldü getdi,
heykələ bu baxdı, o güldü, getdi.
heykəlin mübarək günləri getdi,
altının, üstünün mərməri getdi.
Sənətlə üz-üzə gəldi siyasət,
daşüstü söküldü, daşaltı getdi.
Millət öz-özünə güldü nəhayət,
ürəyi doluydu, boşaldı getdi.

Güldü – əl çaldığı Açılışlara,
güldü tərif dolu o çıxışlara,
qırmızı lentlərə güldü doyunca,
əklili dəyişib əklil qoyunca.
Güldü "tarixinə", uğundu getdi,
gülüşü özünə toxundu, getdi.
Yerdən daş qaldırıb
insanı yıxdı,
bir dövran o biri dövranı yıxdı.

İllərin hökmünü dəyişdi illər,
millət daş atırdı, daşa dəyirdi.
dünən zəmanəyə əl çalan əllər
yenə əl çalırdı,
hədələyirdi...

1989

YAVAŞ DE, QIZIM

"On səkkiz yaşımı Sizə bağışlayıram, şöhrətinizdə gözüm yoxdu, yetmişi mənə verin, yaşayın, şair".

Oxucu məktubundan

Mənə bir xoş sözü pay verməyiblər,
payımı əlimdən alan "əmilər".
Dedim ürəksizə ürək sözümü,
daldada ağlatdı üzümə gülən.

Sizin Qubadlını, bizim Məzəmi
onlar ermənіyə pay verdi dünən.

Kimsə qələm çalır, sərəncam verir,
gör nəylə ölçülür ad-san ölçüsü?!
Nadan can bəsləyir, aqil can verir, –
budur, dövrümüzün vicdan ölçüsü.

Qızım, şairlər də qızlara bənzər, –
safdılar, pakdılar, sadəlövhdülər.
Sözü zəmanəylə düz gələ bilmir,
alçaqlar yanında yüksələ bilmir.

Misalmı?!
Firdovsi, Mahmud Qəznəvi!
"Şahnamə" yaşadı, şah cani çıxdı.
Qədim bir bayatı, ya bir məsnəvi,
Şahın fərmanından şahanə çıxdı.

Gizli qısqırırlar səmə itləri,
Bəhanə gəzirlər, bir qərəz üçün.
Yenə Müşfiqləri
Və Cavidləri
axtarıb tapırlar yeni qəsd üçün.

Hərislər sənəti, şeiri duymaz,
toyuğun tükünü yolallar, qızım.
Yaşını pay verdin,
yavaş de bir az, –
eşidib əlindən alallar, qızım.

FƏLSƏFƏNİN RİYAZİYYATI

Kitab da bir ömrün vəsiqəsiymiş,
gah sevinc bürüyər, gah kədər məni.
Ahım – taleyimin tül pərdəsiymiş,
hər nəfəs aldıqca yellədər məni.

Sizə səadətdi arzum, niyyətim
qəm nədir bilməyin bir ömür boyu.
Mənim gözüyaşlı bu məhəbbətim
axdı Araz boyu, getdi Kür boyu.

Sən demə, kişinin eşqi, həyatı
adi bir qadının əlində imiş.
Budur fəlsəfənin riyaziyyatı,
Allahdan aşağı o Bəxtə tay imiş.

Demə, dərd verirəm mən bu millətə
dərdi danışdıqca azalır, gülüm.
Satır "Azərkitab" baha qiymətə,
Mənim dərdimdən də qazanır, gülüm.

8.10.95

BİR QƏBİR NƏĞMƏSƏN, DƏRDİŞ

Şair dostum Şahmar Əkbərzadə ilə
"Dərdiş" rədifli şeir yazıb deyişmişdik.
O vaxtdan məni dərdiş deyə çağırardı.

Müəllif

Harda toyunu çaldılar,
Harda düşdü yasın, dərdiş.
Bir ananın balasıydın,
analar ağlasın, dərdiş.

Adını daşa yazdıran,
təpədə qəbir qazdıran
Şairi yerə basdıran
şairə nə desin, dərdiş.

Burdan boylandın Ağdama,
ağlayıb dedin ağlama.
Bir kitab naləydin, amma
bir qəbir nəğməsən, dərdiş.

Yas ələnib Qarabağa,
səni də bükdülər ağa.
Bu yolda şəhid olmağa
səndəmi tələsdin dərdiş.
Bir el misalı qalıbdı,
əlim uzalı qalıbdı.
Şahmarı şahmar çalıbdı,
Nəriman neyləsin, dərdiş.

Bilgəh, 31 avqust, 2000

CAMAL MUSTAFAYEV

filosof

Platon dedi ki, fanidi dünya,
Heraklit dedi ki, oddu təbiət.
Camal sübut etdi: mənadı dünya,
Yalanla vuruşur çünki həqiqət.

HAMLET İSAXANLI

riyaziyyatçı alim

Şekspir ovsundu şəksiz-şübhəsiz,
Hamleti "Hamletə bənzər" yaratdı.
Lakin ləngimədi Borçalı Prins, –
Xəzər sahilində "Xəzər" yaratdı.

BAKIDA "YAŞIL BAĞ" XƏSTƏXANASI VƏ ONUN HASARI

Bir addım var arada,
amma əsl möcüzə.
İki dünya dayanıb
bir dünyada üz-üzə.

Hasarın bu tayında
əsas şərtdi sağlığın.
Hasarın o tayında
ad, şöhrət üstə qırğın!

Orda ölüncə çalış,
burda çalış ki, yaşa.
Orda fəlsəfi dünya,
burda da son tamaşa!

Burda şair görürəm,
danışır həkim kimi.
Həkimin dərmanı yox,
gəzir müttəhim kimi.

Hasar azadlığı var,
əslində mavi qəfəs.
Azadlıq istəyirdim,
gördüm bir şeyə dəyməz.

1992

LALƏ RASİM QIZINA

"Nabat xalanın çörəyi" əsərinin oxucusuna

Nəriman əmiyə qılınc al, ata,
yubiley gününə hədiyyən olsun.
Gileyli bir ömür qoyub arxada,
ata, qoy bu dəfə o deyən olsun.

Kimsəsiz bir uşaq, on üç yaşında,
anası Allahdan ömür istəyib.
Harda dəmir görüb, o yığıb, ata,
ondan dəmirçilər dəmir istəyib.

Qızdırıb yolları buz ayaq izi,
özü rəvadırmı üşüsün, ata.

İstəyib, poladdan qılınc düzəltsin,
Məlikməmməd kimi döyüşsün, ata.

Kəsir qabağını əjdaha, quldur,
gör kimi kim sıxır, kim güdür, ata.
Niyə istedadlı arxasız olur,
niyə istedadsız güclüdür, ata?

Əlində sehrli, sirli qələm var,
ürəyi tər-təmiz, güzgüdür, ata.
Niyə gözlərində əbədi qəm var,
o ki şairlərin gözüdür, ata.

Hünər yox, dünyada deyir baxt olub,
dünya təlxəklərə xidmət eləyir.
Bəlkə buna görə o infarkt olub,
bəlkə buna görə xiffət eləyir?

De ki, "Nabat xala..." şirin nəğmədi,
mənim yerimə də qarşıla, ata.
Poyluda – balaca Məlikməmmədi
Bakıda – qılıncla alqışla, ata,
mənim yerimə də qarşıla, ata.

25.04.2001

İSTİQLAL LAYLASI

Otuzillik qonşum şair Əli Tudənin ölümündən sonra dünyaya bir oğul nəvəsi gəldi. Bir axşam divarın o tərəfində körpə ağlayırdı, dözməyib mən də divarın bu tərəfində ağladım. Şeri də bu əhval-ruhiyyə ilə gəlinin dililə yazdım.

Müəllif

– Şirin balam, körpə quzum, Əli Tudə,
Ay işığım, Dan ulduzum, Əli Tudə,
yum gözünü, yat yorğunum, yuxusuzum, Əli Tudə.

Sən Arazı keçən gündən yuxusuzsan,
taleyi buz, yatağı buz, yeri buzsan.
Sən səngəri verən gündən yaralısan,
anasızsan, ana deyib ağlayırsan.

O tay vətən, Bu tay vətən, Araz vətən,
vətənsizlər deyirdilər vətənsizsən.
İran sənə qənim ikən, deyirdilər İranlısan,
bu sözdən də yaralısan.

Baba, sısqa istedadlar səni dandı,
sərəncamla ad qazandı, Xiyabanda yer qazandı.
Əyilənlər qabağında əyilmədin,
şah sözünü şah yurdunda şaha dedin.
"Gülüstan"ın, "Türkmənçay"ın, "İyirmi bir Azər"in də,
ağrısını necə çəkdin şairim, hər əsərində?

Mən Arazı lent eləyib beşiyinə bağlamışam,
Savalanın nəfəsini nəfəsindən qoxlamışam.
Mən Təbrizi rəsm etdirib evimizə gətirmişəm,
orda bitən çiçəkləri mən dibçəkdə bitirmişəm.
Mən gəlninəm, mən ananam, Əli Tudə.
sənsən oğlum, qayınatam, Əli Tudə.
Mən bir əsgər anasıyam, Əli Tudə,
səndən ötrü nigaranam, Əli Tudə,
istiqlaldı mənim laylam, Əli Tudə.

Laylamızın dəyişilsin ruhu gərək,
səngərlərdə itənləri biz bcşikdə tapa bilək.
Yat desəm də, oyadıram səndə səni,
neçə yerə bölübdülər bir ölkəni:
Təbriz qolun, Şuşa qolun, Dərbənd qolun
Sənə qurban, sərhəd olub sağın-solun.
Azərbaycan deyəndə mən,
sən qalxasan gərək oğlum, Azərbaycan səngərindən.
İstəyirəm böyüyəsən, boy atasan,
Əli Tudə səngərində sən yatasan.

Şirin balam, körpə quzum, Əli Tudə,
Ay işığım, Dan ulduzum, Əli Tudə,
yum gözünü, yat yorğunum, yuxusuzum, Əli Tudə.

22 oktyabr, 2001

KİTABXANAÇI

Limon xanım gözəl-göyçək
kitabxana işçisiydi.
İşçilərin incisiydi,
bəlkə lap birincisiydi.

Qara uzun hörüyünü
gah açardı, gah yığardı.
Açanda biz tanımazdıq,
yığanda biz darıxardıq.

Oxu zalı işıqlıydı,
ütülüydü ağ pərdələr.
Oxucusu – aspirantlar,
müəllimlər, tələbələr.

Kitabları gətirərdi,
yoxlayardı sifarişi.
Biz oxuyub qurtarardıq,
qurtarmazdı onun işi.

Müdiriyyət çağırsaydı,
bizdən izn istəyərdi.
Sevinəndə bölüşərdi,
qəmlənəndə gizlədərdi.

– Limon xanım.
– Bəli, buyur.
– Limon xanım, filan kitab.

Stol üstə qoyulardı,
toz altında qalan kitab.

Çağırmamış gedər-gələr,
əli işdən soyumazdı.
Oturmaqdan biz bezərdik,
işləməkdən o doymazdı.

Dodaqaltı deyinərdi,
yəqin bir ehtiyat üçün:
– Gizlin kəsib aparırlar
qəzetləri sitat üçün.

Tariximiz çıxır yoxa,
sonuncu xəbər itirdi.
Müəllimlər pıçıldaşır,
aspirantlar eşidirdi.

Ali məktəb diplomunun
qazancı az, yeri dardı.
Bir təşəkkür eşitsəydi,
neçə sağol, – qaytarardı.

Oxudular, dağıldılar,
hərəsi bir adam oldu.
Bu, elmlər namizədi,
o, əməkdar xadim oldu.

Unuduldu Limon xanım,
unuduldu kitabxana.
Biri təbrik göndərmədi
ad günündə o qadına.

Saç ağardı Limon xanım,
eynək taxdın ala gözə.
Çağır Aşıq Ələsgəri, –
"Yandı bağrım, döndü közə".

2000

MİR CƏLAL HEYY...

Mir Cəlalın tək özüydü Mir Cəlala bərabər,
söhbətinin yarı həsrət, sevincinin yarı qəm.
Siz Şeytandan, siz İblisdən törədiniz, hərislər!
sizdən hansı "xatirələr" yaşayacaq, bilmirəm.

Yerdə yeri çox gördülər, vətənində vətəni,
Mir Cəlal heyy... çağır indi səsi gəlmir yer altdan.
Azərbaycan eşitmədi, Azərbaycan deyəni,
Azərbaycan deyənləri öldürürlər o vaxtdan.

Niyə şahlar vəzirlərə inanırlar, ilahi?
niyə Şərqə divan tutur Şərqin bu tərbiyəsi?!
Cəllad, nəydi bir günahsız qəhrəmanın günahı? –
Şah – Allahın kimsəsiymiş,
Cəllad-Şahın kimsəsi!

Mən nə qədər ömür sürüm bilmirəm bu "gileylə",
İstiqlalım, Hürriyyətim hardadı bəs, nəhayət?!
İmtahana çəkir yenə Zəmanənin əliylə,
Zəmanəyə şöhrət olan şairini cəmiyyət.

1992

ÜRƏYİM

Uçmaqmı istəyirsən,
hanı o işıq, o nur?
Yaralı qanadların
sinəmə dəyib qopur.

Allaha qurban olum,
yol uzaq, mənzil qısa.
Qanadı sənə verir,
səmanı qanadsıza.

Sinəmin üstü suvaq,
altı sümükdən qəfəs.
Orda vətən de, qışqır,
burda vətən eşitməz.

ÇADRALI QIZLAR

Örpək bağladılar sərhəddə, baba!
işığı zülmətə dəyişdi, qızlar.
Gün elə yandırdı Məşhəddə, baba,
Görüb qayıtdılar "behişti", qızlar.

Bu tayda çadraya meydan oxudu,
o tayda çadraya bürünən qızlar.
Nazı, nəzakəti, eşqi, ülfəti,
Nigardan, Həcərdən öyrənən qızlar.

Məscidlər torpağı bəzəyirdilər,
biz qədəm basmışdıq əhd-peyman ustə.
Gendən-pinqvinə bənzəyirdilər,
çadralı qadınlar dikdaban üstə.

Qohumlar tapışıb qovuşurdular,
tanınmaz olmuşdu, yad idi qızlar.
Susub bir-birinə baxışırdılar,
gizli fəryad idi, dad idi qızlar.

Məni bağışlasın ulu Şəhriyar,
qopartdım yaramın közünü, ustad.
Millət anasıdır bizim analar,
o kimdən gizlədir, özünü, ustad?!

O, sənə süd verdi döşündən, şair!
ana övladına yad ola bilməz.
Biz iki torpağıq,
bir vətən, şair! –

böyük Azərbaycan
kiçilə bilməz!

Bir Bakı qızıyla Təbriz qızını,
Tanıya bilmədim Danışqahda* mən.
Çadra birləşdirir,
sərhəd ayırır,
ədalət bu isə, neyləsin vətən?!

Təbriz, 1990

SƏS VER BAKIYA, TƏBRİZ

Sənə qurban Azərbaycan,
özün özünə qənimsən.
Baxma mənə yad gözüylə,
mən sənənəm, sən mənimsən.

Sən pələngsən, Azərbaycan,
tülkülərdi yanın-yörən.
Tanıyıbdı onlar səni,
bir az da sən tanı, öyrən.

Layla çalıb yatızdırır,
düşmənlərin axşam-səhər.
Millət qalıb ayaq altda,
yata bilməz qoç igidlər.

Tarix səndə, zəka səndə,
var səndədir, dövlət səndə.
Ən qədim dağlar, dərələr,
ad səndədir, hörmət səndə.

Yadda saxla sözümü,
unutmasın nəsillər.

*Təbriz Universiteti

Məğrur millət döyüşər,
məzlum millət əzilər.

Öyrən nifrət etməyi,
gör, o nədən başlayır.
Bəlkə milləti sevmək,
bu nifrətdən başlayır?!

Qulaq asma natiqə,
yatızdırır, sən ayıl.
Adı sənin olsa da,
dili sənինki deyil.

Danır o səni, məni,
üzündə qara ləkə.
Azərbaycan var oğlum,
yeddi milyon bir ölkə!

Neçə ki, əldə silah,
başda ağıl var, oğlum;
vuruşsun millət gərək,
yoxsa, yox olar, oğlum.

Yoxsa öz torpağında
bu millət günü qara, –
xörək paylayan olar,
bu fars qurumsaqlara.
Çay dəmləyən, aş süzən,
söz aparıb-gətirən,
mən varam deyə-deyə,
mənliyini itirən,
özgənin tarixiylə
fəxr eləyən kimsəsiz.
Vuruşur şanlı Bakı,
SƏS VER BAKIYA, TƏBRİZ!

Tehran, 13 fevral, 1993

ŞAİRLƏR AĞLAYACAQ

Evdə girovdu gəlin.
tərəddüdlər içində.
Səadət üzündədi,
amma qəhər içində.

İndi "yox!" deyə bilmir
bir "hə"nin müqəssiri.
O, ərinin əsiri,
mən əsirin əsiri.

Onunku ola bilmir,
mənimki ola bilmir.
Bu evə gələ bilmir,
o evdə qala bilmir.

Bir kəbin kağızıyla
dustaq bir mələk qalıb.
Bir alın yazısıyla
ikilikdə tək qalıb.

Dünya qan ağlayanı
axırda qana verir.
Evi – İbn Salama,
çölü – Məcnuna verir.

Ehey, şair Nəriman,
biznes əsridi, qoçaq.
Məhəbbət ağlayacaq,
şairlər ağlayacaq.

MƏNİM TALEYİMİ YAZAN AYRIDI

Sənə neyləmişəm it cənabları,
qızışıb hürürsən məni görəndə.
Sən ki, tanıyırsan yazıçıları,
bu köhnə binada oluram mən də.

Azadlıq yolunda mən can qoymuşam,
Onsuz da danışıb dinmirəm, ay it.
Niyə sən rahatsan, hürürsən müdam,
Mən rahat yaşaya bilmirəm, ay it.

Bilirəm, heç kimi oxumamısan,
bir həyat sürürsən həyətdə sakit.
Mənim də şerimi oxumamısan,
axı, it dilində yazmıram, ay it.

Sənin nəzərində yəqin adiyəm,
sənin tərəzində mizan ayrıdı.
Mən diri Cavidəm, diri Hadiyəm,
mənim taleyimi yazan ayrıdı.

Hür, hür qoy açılsın bir az nəfəsin,
hür, qana batınca o diş, o ağız.
İnsan it cildinə gərək girməsin,
biri var, necə də oxşayırsınız.

Burda mən dözürəm, orda din, Allah,
dilimdə saitlər samitə dönür.
Mənə nə verdinsə, sən verdin Allah,
niyə bəndələrin bəs itə dönür?!

ÇOBAN ƏFQAN

Şair dostum Şahmar Əkbərzadə soruşdu ki, Çoban Əfqan adlı adam tanıyırsanmı? Yuxuma girmişdi, dedi Nəriman məni niyə unudub? Ona şairlik ilhamı vermişəm. Eyni yuxunu altı yaşımda ikən anam görmüşdü, o da bu sözləri mənə demişdi. Nəhayət, 1955-ci ildə onun şeirlərini dillərdən toplayıb ayrıca kitab şəklində çap etdirdim. İyirminci illərdə vəfat edib. Bizim Ağstafa rayonunun Qıraq Kəsəmən kəndində yaşayıb.

Müəllif

Qazax, Ağstafa məskənin oldu,
sən orda kimiydin, ay Çoban Əfqan!
Aşığın dilində söz sənin oldu,
bir sarı simiydin, ay Çoban Əfqan.

Sürü qabağında, çomaq əlində,
Kəsəmən kəndində, Kür sahilində.
Dayısız, əmisiz yaxın gələndə,
dayıydın, əmiydin, ay Çoban Əfqan.

Mənə Çoban Əfqan bir salam deyib,
gah dostun çatdırıb, gah anam deyib.
Şairlər ölmürlər, mən sağam, – deyib,
Tanrı qədəmiydin, ay Çoban Əfqan.

Xan xana can deyir, yenə bəy bəyə,
kasıb namaz qılır üzü küləyə.
Tək qalıb yalvarır yerdə fələyə,
təkin həmdəmiydin, ay Çoban Əfqan.

Sən mənə dərd verdin ilham əvəzi,
nədir, sonra bildim dərdin töhfəsi.
Allah vergisiydin, Allah bəndəsi,
bir sinə qəmiydin, ay Çoban Əfqan.

Şair yox, Nəriman, şair təkilər,
ayağa düşəndə başa çəkilər.
Səni də unutdu vətəndəkilər,
nə baxtı kəmiydin, ay Çoban Əfqan.

DEYİRLƏR "DƏYİŞMİŞƏM"

– Dəyişməzmi gülüm, bəs
günün altında yanan, –
suyun, selin, küləyin
qabağında dayanan.
Çaqqalların səsini
eşidən bir pak ürək.
Tülkülərin üzünü
tanıyan dişi pələng.
Filə hürən tulalar
ayağa dolaşanda.
Qarğa-quzğun tökülüb
leş üstə daraşanda.
Gözüyün qabağında
bir igid təklənəndə.
Çəməndə gül soluxub,
qanqal çiçəklənəndə.
Hava bürkü, dünya dar,
günəşin ziyası yox!
Çalış, öldür özünü,
axırda mənası yox!
Mühacirin vətəni,
şairin arxası yox!
Cəmiyyətdə üşüyüb
şairlər,
həyatda yox!
Sürgün siyahısında,
başqa siyahıda yox!
Ariflər duya bilir
şairləri,
gəda yox!
Millətin döyüş günü
öndədir, arxada yox!
Müttəhimlə yanaşı,
taleylə üz-üzə,
Zəmanə kül üfürür
indi də gözümüzə.

Hər beyində bir hava,
hər ağızda bir avaz.
Hakimi rüşvət alan,
kərbəlası qumarbaz.
Toxunulmaz adamlar,
toxunulmaz maşınlar.
Gədalar, feodallar,
şirəyə yığışanlar!
Dəyişməzmi gülüm, bəs
ürəyi, beyni olan –
Və... şairi sevən kəs?

DÜNYADA TƏRİFLİ BİR GÜN OLMADI

Qələm qardaşım Bəkir Nəbiyevə

Nizami külüngü Fərhada verdi,
çapdı sinəsini dağ əvəzində.
Hökmdar möhürü cəllada verdi,
Doğmalar, ögeylər zəmanəsində.

Dillərdə yüz yerə bölündü torpaq,
əllərdə saxlamaq mümkün olmadı.
Qullar dünyasına tərif oxuduq,
dünyada tərifli bir gün olmadı.

Sən qələm götürdün sinəndə ilham,
qələm möcüzədir, hər əldə qalmır.
Dalğalar sahilə can atır müdam,
dalğanın biri də sahildə qalmır.

Haray, Zəmanənin əlindən haray! –
bir əsrin ağrısı bir daşda qalmır.
Nə fəxri xiyaban, nə büllur saray?! –
dillərdə hallanır, yaddaşda qalmır.

Ömrün yelkənidir hər yeni əsər,
soruş, şerimizdən imtahan verim.
Sən mənə bir uca mərtəbə göstər,
sən qalxan kürsünü mən nişan verim.

Dünya dünyasını dəyişib artıq,
baxıram, o deyil görünən, Bəkir.
Xəlilin toyundan nə vaxt qayıtdıq,
qırx il əvvəl olub, ya dünən, Bəkir?

Sənin zarafatın yadıma düşdü,
Heyif, bir zarafat bayramı yoxdu.
Yenə üzümüzdə həmən gülüşdü,
niyə bu gülüşün o dadı yoxdu?!

Niyə istedadsız düşür qabağa,
istedad arxadan ona əl çalır?
Sağlar yox, şikəstlər qalxır ayağa,
o buna, bu ona məəttəl qalır.

Niyə istedada tərif deyilmir,
o biri davakar olandan bəri.
Şairin lovğası hayıf deyilmi,
öldük, təvazökar olandan bəri.

Pozub kefimizi kefə baxırlar,
gözümüz gözlərə dikilib, Bəkir.
İndi ürəyə yox, cibə baxırlar,
sözümüz bazara çəkilib, Bəkir.

Bəlkə həsrət deyil, vüsaldı qorxunc,
bir də o yollardan keçəydim, Bəkir.
İsa bulağından sən ovuc-ovuc,
mən də diz qatdayıb içəydim, Bəkir.

Sözü mərd deyibdi bizim dədələr,
tənqid qələmini itilə, Bəkir.
Sənin sağlığına qalxsın badələr,
mən də qaldırmışam vaxtilə... Bəkir.

DEMİR HANI NƏRİMANIM

Allah, mənim al ağlımı,
ağıl məni dala salır.
Ağıllıyam deyənləri
ağılsızlar yola salır.

Kimə dedik boşdu başı,
başımıza saldı daşı.
Yalvarana gülür naşı,
zarafatla ələ salır.

Əyilməzi əyir Zaman,
seçilməyir yaxşı-yaman.
Qıl satanı, ələk satan
arxadan əvvələ salır.

Mənim dostum, mehribanım,
demir hanı Nərimanım?
Yüz yerə gedir gümanım,
məni yüz xəyala salır.

SƏN KÖÇDÜN DÜNYADAN

Mənə deyirdin ki, köçək xaricə,
bu zülmə dözərmi vətəndə insan?!
Doldu xaricilər biz tərpənincə,
sən köçdün dünyadan, dünyana qurban.

Onlar irişdikcə biz dedik əhsən,
külək kül üfürdü açıq gözlərə.
Üzdülük – onlarda nə qədər desən
qanacaq bizdəymiş, hayıf bizlərə.

Hayıf, nənələrin ağbirçəyinə,
hayıf, süfrəmizə, təndirimizə.

Bir gün ağlamadıq axırda yenə,
biz nə ölümüzə, nə dirimizə.

Gələn "qonaq gəlir" sahibkar gəlir? –
bazar onunkudur, ocaq onunku.
Hasarlar yanında hasar çəkilir,
bayraq bizimkidir, torpaq onunku.

Mənə mədh eləmə "Teksun"u, yetər,
kərə yağ onsuz da düşməyir ələ.
Pisləri hər yerdə tərifləyirlər,
yaxşılar tərifsiz yaxşıdır elə.

Halal yeməyimi haram eləyir,
burda xaricîyə bir sorğu yoxdu.
Fransız, toyuğu reklam eləyir,
guya bu millətin toyuğu yoxdu.

Təzə bir don biçir yenə əlimiz,
bilmirəm, Avropa belə geyirmi?
Rusdan ingilisə keçir dilimiz,
azadlıq deyənlər kölə deyilmi?!

"TƏZƏ" XALQ GƏLİR

...müğənni restoranda pişiyinə ad günü keçirirdi

Qəzetlərdən

Pişiyə ad günü keçirirdilər,
araqdan, konyakdan içirirdilər.
Müğənni pişiyə qulaq asırdı,
səsini səssizcə lentə yazırdı.
Pişik ləhcəsində, pişik dilində
xanımlar, ledilər məzələnirdi.

Pişik müğənninin bəy mənzilində
ruhlar pərvazlanır, təzələnirdi.

Təzə dil açanlar azadlığıydı,
pişiklər, siçanlar azadlığıydı.

Müğənni oxuyur, rəqqasə gəlir,
bu yarımvəhşidi, o yarıçılpaq.
Toyda "yallı" gedən "həvəsə" gəlir,
xarici ritminə rəqs edir əxlaq.

Bu cür Azadlığı başa salırlar,
bu cür İstiqlalı daşa çalırlar.
Bu cür Məmləkətə sahib çıxırlar,
bu cür başımıza qaxıb, çıxırlar.
Bu cür mənəviyyat, ya əxlaq gəlir,
bu cür xalq içinə "təzə xalq" gəlir.

Burda unudulub soyuq çadırlar,
burda xatırlanmır biz görən illər.
Burda gecə yeyib, gündüz yatırlar,
burda o məsələ... onu demezlər!

Dilənçi əl açıb küçədə inlər,
yazıq niyə gəlib dünyaya, bilmir.
Pişiyin dilini başa düşənlər,
millətin dilini anlaya bilmir.

HACININ QIZI

Görkəmli filosof, professor Camal Mustafayev kübar qadın Sara xanıma universitetdən aldığı maaşdan yardım əli uzatmış, bunun üstündə təqib edilmişdir.

Müəllif

Hacı bu millətin əl tutanıydı,
çörək verəniydi, oxudanıydı.
Millət atasıydı millətin oğlu,
indi sahib çıxır hər itin oğlu.

Əl tutan olmadı dünən, qızına,
"küçələr qızı"na dönən qızına.
İndi heykəl qoyub deyirlər: Yaşa!
millət hörmətini bildirir daşa.
Qızını öldürüb, daşa əl çalır,
tarix Zəmanəyə məəttəl qalır.

Əlində çamadan görmüşdüm onu,
Hacı atasının sənədləriydi.
Vətən tanımırdı vətən oğlunu,
boynu sınmışlara boyun əyirdi.

Kürsüdə keçmişdən dad çəkir millət,
yadıma Hacının o qızı gəlir.
Öldürüb, fəxrlə ad çəkir millət,
baxıram, özümə yazığım gəlir.

***

Bir şeir oxudum... mənim şerimi
dinlədi sonuncu misraya kimi.
Dedim Puşkin yazıb... açıldı qəlbən,
İstədi desin ki, dahiyanədir.
Dedim mən yazmışam... tutuldu birdən,
istədi desin ki əşi, bu nədir.

VAR

Çıxmaz, çıxa bilməz də bu adət başımızdan.

M.Ə.Sabir

Bu – iqtidar olub, o – müxalifət,
bizə babalardan qalıb bu adət.
Bu "ayrı" millətdi, o "ayrı" millət, –
Türkdü ikisi də, bir vətəni var.

Vəzifə üstündə didhadid gedir,
biri yıxıldımı, yüz şahid gedir.
Güdaza gah Müşviq, gah Cavid gedir,
nə qədər başsızın baş əyəni var.

Ölkədə fransız, alman, ingilis
mən vətən əsiri, sən pula həris.
Polis dəyənəkli, şair kimsəsiz,
bir külüng çalanın yüz yeyəni var.

Manatı dəyişib bazar "sent" qoyub,
qəzetçi vitrinə təzə "Kent" qoyub.
Varlı öz adını Prezident qoyub,
kimi dindirirsən, cangüdəni var.

İldırım Bəyazit, Teymur Əmirlə,
zaman vuruşdurdu gör kimi kimlə?!
Qızılbaş Xətai Sultan Səlimlə,
İndi də o yolun yol gedəni var.

Nə vaxt ayılacaq Oğuz tayfası,
qəbilə yarısı, tayfa yarısı.
Nə hirsi soyuyur, nə ehtirası,
nə əyri oturub düz deyəni var.

ASPİRANT DOSTUM ABDULLA ABBASOVUN QIZINA

A qızım, gülüşün necə təmizdi,
bu necə tilsimdi, bu necə ovsun?
Ananın taleyi qıza cehizdi,
qoy sənin cehizin səadət olsun.

Qızlar atasının anası olur,
qadınsız qalanda ata dünyada.
Bəlkə ömrümüzün mənası budur, –
bəxtin töhfəsidir bu da dünyada.

Mən haqq şairiyəm, sözüm də haqdı,
qoy deyim, dilimə bir Ayə gəlib:
Abdulla, Gülarə nə qədər pakdı,
sənin paklığındı, dünyaya gəlib.

QURBAN PİRİMOVUN XATİRƏSİ

Özünün yasında o tar çalırdı,
qatarından qalan "Qatar" çalırdı.
Biz də o qatarın "sərnişinləri"
Rəhmət oxuyurduq, əhsən – deyirdik,
Dünyada qalırdı dünya əsəri,
dünyadan gedənə sağsan, – deyirdik.

Ağır məclisini yola verirdi,
tabut ortadaydı, yanında tarı.
Zəmanə sərt əsən yelə verirdi,
Zəmanəyə şöhrət bir sənətkarı.

NƏ QƏDƏR DESƏK DƏ SƏNSƏN ARXAMIZ...

Öz ağrım ömürlük özümə bəsdi,
özgəyə yamanlıq gəlmir əlimdən.
Amma bu çarx ki, var – əvəz-əvəzdi
yıxanlar yıxılır o mərtəbədən.

Yerdə bəndəsini Göylər unudub,
Diz yerə dirənir, əl də yuxarı.
Qarğanı bülbülə bərabər tutub,
sən də yanılırsan ey ulu Tanrı!

Sənin dərgahına yazılmaq olmur,
sən təksən, biz yerdə saysız-hesabsız.
Adın arxamıza bir dayaq olmur,
nə qədər desək də sənsən arxamız.

Çəkir qılıncını qisas alanlar,
dərddi biri bilir, beşi də bilmir.
Mığmığa səsinə həssas olanlar,
şahin naləsini eşidə bilmir.

14.03.98

MƏNİ BAYRAQ KİMİ TUTUN YUXARI

Mənim həyatımın nə mənası var,
sizin üzünüzdə gülüş olmasa.
Babamın yadigar bir misrası var:
səngər nəyə gərək döyüş olmasa.

Həyatın əzəli qanunu budur,
bağı dolaşırlar bağ bağ olanda.
Hər torpaq dünyada məmləkət olmur,
parça var – yaşayır bayraq olanda.

İnsanlar olubdu dünyada bir vaxt,
kimidən ad qalıb, kimidən əsər.
Dibçəkdə bəslənən palıdlara yox,
çöldə – ağaclara meşə deyiblər.

Çətindir keçilən ömür yolları,
yaşamaq özü də istəyir hünər.
Məni bayraq kimi tutun yuxarı,
sizə lazım olsam... o parça qədər.

GİROV

Bilmirəm, bir ömrü yaşamışammı,
ya heç yaşamağa başlamışammı?
Bəlkə yüz ilim var hələ qabaqda,
bəlkə bircə həftəm qalıb o vaxta.

Deyirlər, söz qalır dünyada yalnız,
gəldi-gedəriyik qalan hamımız.
Deyə bilmişəmmi qalan söz olsun,
adımla çəkilən filan söz olsun.

Adım Nərimanın adıdır, nə qəm,
o şöhrət qazanıb getdi bu ada.
Şöhrətli bir adı yaşadan mənəm,
şöhrətsiz olan da mənəm dünyada.

Adlar yolumuza çıraq olurlar,
yolların mənzili kəsə olmayır.
Bir söz qəzasında həlak olurlar,
bu ömür – hər ömrə nəsib olmayır.

Ürəkdir bu eşqlə qaynayıb-daşan,
sinəmdə çırpınır alışmaq üçün.
Bir insan ömrünü girov qoymuşam
bir şair ömrünü yaşatmaq üçün.

PƏNAHİ MAKULUNUN DƏFNİNDƏ

Qaldırdıq biz onu günorta üstü,
bizim yazıçılar ittifaqından.
Bizi birləşdirib gedirdi özü,
saxlaya bilməzdi nə vaxt, nə zaman.

Bir az ağırlaşdı çiyinlərimiz,
bir tabut altında yerləşə bildik.
Bir torpaq üstündə ayrılsaq da biz,
bir tabut altında birləşə bildik.

Bu qəmin, bu sirrin, kökü dərindi,
gördüm, birləşibdi əllər – qarışıq.
Ömrümdə ilk dəfə mən yas yerində
belə sevinirdim, kədər qarışıq.

HAZIR OL

İncimə məndən, oğlum,
qaçdın, gəldin üstümə
öpmədim,
daşdı, demə.
İstəmirəm, doğrusu,
daima həyatda sən,
sığallı söz,
təbəssüm,
ya gülüş
gözləyəsən.
Sən kədərə hazır ol,
sevinc gözlədiyin vaxt.
Bəd xəbərə hazır ol,
məni səslədiyin vaxt.
Toyda yasa batanı
görüb pozulma bir an.
Yasda gülüş eşidib
mat qalma sən heç zaman
Öpüb oxşamayacaq.
Sınma, bərki əbədi.
Bacardın – qələbədi,
bacarmadın – uduzdun.
Gəl, öpüm...
niyə susdun?!

HEYRƏT

Bir heyrət bürüyüb məni bu yerdə,
dolub izdihamla Fəxri xiyaban.
Tabutu – çiyində, səsi – efirdə,
susan da Xan idi,
oxuyan da Xan...

QİYMƏT

Mənim kitabımı ucuz eləyin,
tələbələr üçün, fəhlələr üçün,
hardasa, lap kasıb bir nəfər üçün,
maaşı aşağı olanlar üçün,
şəhərdə kirayə qalanlar üçün,
oxumaqdan ötrü alanlar üçün,
çörək qiymətinə, duz qiymətinə,
qoy sonra qalxsın o öz qiymətinə.

1960

NİYƏ DEMƏDİNİZ

Sizi düşünürəm oturub bəzən,
ey mənim möhtərəm müəllimlərim.
Sən də, ey məzardan məzara köçən
anam... dünyadakı əzizim mənim.

Böyüyə, kiçiyə hörmət, ehtiram,
sadəlik, təvazö, abır... vəssalam.
Belə öyrətdiniz, yaxşı dediniz,
təəssüf,
həyatı düz görmək gərək.
Böyük var, kiçikmiş, siz demədiniz,
kiçik var, daha da kiçiltmək gərək.

Niyə demədiniz siz, əzizlərim,
təkcə, görüş üçün deyil, əl ancaq.
Əl bəzən əl verib görüşmək üçün,
bəzən yumruq üçün gərək olacaq.

Niyə demədiniz, bilmirəm niyə,
dünya sakit deyil, bir yuxu kimi.
Dost adlı düşmənlər ola bilərmiş,
düşmən adlı dostlar olduğu kimi.

Niyə demədiniz...
gizlin ha deyil,
həmişə günəşli açılmır səhər.
Şirin nəğmələri oxuyan bir dil
acı həqiqətlər söyləyə bilər.

Beynimdə, fikrimdə dolaşıb gəzən
oda da bələdəm, üşütməyə də.
Tərif eşitdiyin insandan bəzən
hazır ol, yüz təhqir eşitməyə də.

Yayda qar olmayır, qışda da yarpaq,
bunun müəllifi deyin: kim olub?
Həkimlər ilanın düşməni, ancaq
ilan tibb elminə emblem olub.

Eşit həqiqətin, düzün səsini,
həyat səngərdirsə, əsgər yatmasın.
Müəllim həyatda tələbəsini,
ana övladını qoy aldatmasın.

MƏHƏBBƏT

"Əlli beş ildir "Leyli və Məcnun"da tar çalıram".

Tarzən Bəhram Mansurov

Çal, çal yorulmasın qoy o barmaqlar,
sevinc pərdəsində qəm, qubar çalır.
Dünyada hər kəsin bir Leylisi var,
kimi qələm çalır, kimi tar çalır.

Mənə ürək verib, sənə qol-qanad,
Məhəbbət əylənсə, oyuncaq olmaz.
Sevmək – vətəndaşlıq borcudu ustad,
vətəndə vətənsiz yaşamaq olmaz.

Böyük Üzeyirin doğma sənəti,
xallar – Füzulinin fəryad səsiydi.

Bir qadın qəlbinin ilk məhəbbəti,
hələ oxunmamış Şərq nəğməsiydi.

Bəlkə də taleyi beləymiş onun,
bir əsrə bəs oldu bir ömrün qəmi.
Leylini səhrada itirdi Məcnun,
səhnədə sən tapdın ay Bəhram əmi.

Xətrinə dəyməsin qoy bu zarafat,
bilirəm böyükdü eşqin, ülfətin.
Bu əlli beş ildə amma ay ustad,
Leylini Məcnuna verə bilmədin.

SƏLİQƏ-SAHMAN

Qarşımda ən zəngin bir kitabxana,
Hər yerdə səliqə-sahman durubdu.
Rəfdə oxunmamış neçə sənətkar,
ortada oxumuş nadan durubdu.

Böyük bir sevincdi hər kiçik əsər,
hər roman bir ordu, hər söz bir əsgər.
Arxada Füzuli, Vurğun, Ələsgər,
qabaqda bəzəkli güldan durubdu.

Yığıb var xətrinə, dövlət xətrinə,
deyib söz xətrinə, sənət xətrinə.
Bəlkə mən dinməzdim hörmət xətrinə,
neyləyim, arada vicdan durubdu.

LAKİN

Şeir yazdığım gün məğrur oluram,
ilham ki, xəfifcə sinəmə dolur;
bir şeh damlası tək büllur oluram,
dünya dünyada yox, məndə əks olur.

Sonra... bir ağsaçlı sərkərdə kimi,
bəzi namərdləri bağışlayıram.
Mən öz üzərimdə öz qələbəmi,
düşmənimlə birgə alqışlayıram.

Çaylar damarımdan axır elə bil,
yollar ürəyimdən keçir dəmadəm.
Gecəni-gündüzü sanki yer deyil,
misradan-misraya fırlanan mənəm.

Bir sükut içində gurlayır səsim,
qışın buz qarında çiçəklənirəm.
Bəzən heç bilmirəm –
masam üstəmi,
ya yer şarınamı dirsəklənirəm.

Lakin...
mən dediyim xoşbəxt anımda,
elə bil qolumdan bir qol tutmayır.
Prometey can verir gözüm önündə,
qaniçən qartala gücüm çatmayır.

Bəlkə də yeridir, qoy deyim elə,
təəssüf, yanılıb bəzi şairlər, –
on məğrur oğullar bəzən qartala,
bəzən də poləngə bənzədiliblər.

Neçə... oxşardımı çayırla çəmən,
ya dağla səhralıq, ya sükutla səs?
Dünya elədir ki, qanı tökülən,
heç vaxt qan tökənə oxşaya bilməz.

Mənim taleyimdi bəlkə də ilham,
yerdə axtarmışam bəxt ulduzunu.
Bəlkə bir şeirlə parlayacağam,
qoy şair dostlarım desinlər bunu.

İlham ürəyimin aynasındadır,
ilhamsız bir sözə meylim yox mənim.
Fikrim səyyarələr dünyasındadır,
lakin yerdən ayrı yerim yox mənim.

Bəzən yolum üstə duman, sis oldu
mən bildim: gecələr səhərsiz olmaz
Dünyaya gəlməyim xəbərsiz oldu,
dünyadan getməyim xəbərsiz olmaz.

OĞLUMA CAVAB

Soruşdu bir gün oğlum.
– Ata, ağlamısanmı?
Döyüblərmi səni heç?
Danlayıblarmı səni?
Söyüblərmi səni heç?

Nə deyim indi, oğlum,
eşidərsən sonradan, –
özün ata olanda
bilərsən ağlayıbmı,
gülübmü sənin atan...

ATA SƏRVƏTİ

Yoxlayın siz mənim şeirlərimi,
nəyim var yaxşını, yamanı seçin.
Göstərin siz mənə mənim yerimi,
qorxmayın, üstümdən adlayıb keçin.

Mən nədən qorxmuşam, deyin, siz nədən,
Nəyi deməmişəm, çıxıb yadımdan.
Mənə yad gözüylə baxmağı bəzən
öyrənin ən doğma saydıqlarımdan.

Mənə qulaq asın hər şeydən qabaq,
bir səs qulağıma görün, nə deyir:
Bəlkə də qüsuru bağışlamamaq,
bağışlamaq qədər hünər istəyir?

Ən böyük əsərdir dünyada hünər,
o da övlad kimi doğulsun gərək.
Bir hərbi qayda var –
son ana qədər
hissənin bayrağı qorunsun gərək.

Sən ey mənim xalqım, ən qədim bayraq!
qismətimə düşən ata sərvətim –
Sənin hüzurunda keşikdə durmaq –
dünyada ən böyük vəzifəm mənim.

YAŞAMAQ ÖYRƏDİR TƏBİƏT BİZƏ

Badam çiçəkləri, nə zərifsiniz,
elə bil hər budaq bir ağ işıqdı.
Burda səma işıq, torpaq işıqdı,
soyuqdan bir azca göyəribsiniz.
Martın şaxtasında, boranda, qarda
siz necə qaldınız, o budaqlarda?
Necə qopmadınız, ya düşmədiniz,
necə donmadınız, üşümədiniz?!
Həyatda pisliyi gördünüz... fəqət,
sizin çiçək qaldı yenə adınız.
Zəriflik dözümmüş, bir də dəyanət,
kobud olsaydınız, məhv olardınız.
Bəlkə də dünyanın mənası budur
zəriflik, kobudluq gəlir üz-üzə.
Zəriflik yaşayır, kobudluq ölür, –
yaşamaq öyrədir təbiət bizə.

ÇILPAQ KRAL

Olur yəqin hər bir yerdə –
çılpaq kral.
Olur bütün sahələrdə.
Olmur ancaq hər əsrdə:
uşaqlarda böyük ağlı,
böyüklərdə
uşaq hökmü, cəsarəti, –
desin ona həqiqəti.

SEVİN

Evdə bikef olur yoldaşım hərdən,
bir soyuqluq hopur qana, iliyə.
– Dünən qonşuluqda səni istəyən
bu gün əleyhinə danışır, niyə?

Eh, həyat belədir, düzü belədir,
bəzən yağış döyür, bəzən qar, külək.
Sən o söz-söhbətə öyrəş arabir,
yağışa, küləyə öyrəşdiyin tək.

Göydən dolu töksə, mat qalma buna,
qoy gülər gözlərin batmasın yasa.
Qar yağsa, şərfini dola boynuna,
get, qalma, gedəsi bir yerin olsa.

Həyatda təhqirə, tufana öyrəş,
qoy üzün alışsın oda, küləyə.
Sözünü kəssələr, sən ona öyrəş,
çalış uyğunlaşma amma heç nəyə.
Bir də... məndən ötrü xiffət hədərdi,
əksinə, sevin.
Düşmən – qələbəmin sayı qədərdi,
dost – mənim səhvimin,
əksinə, sevin.

MƏNƏ OXŞASAN

Mən səndən narazıyam,
sən məndən inciyirsən, –
aramızda söz olur.
Sən gülmək istəyirsən,
qışqırmaq istəyirsən, –
Görürəm ki, səs olur.
Mən sükut istəyirəm,
sən fışqırıq, haray, səs.
Sənin qəlbində həvəs,
mənim beynimdə fikir,
sənin uşaqlığınla
yola gedə bilmirəm.
Sənsə, oğlum, görünür
Mənim böyüklüyümlə.
Oxşamaq istəmirsən
görürəm, sən heç kimə.
Mən səni istəyirəm
salım öz qəlibimə:
yeri mən yeriyəntək,
dayan mən dayanantək,
özün olma, mən ol, mən.
Demirəm, –
belə çıxır
mənim istədiyimdən.
Lakin bilirəm, oğlum,
yalnız mənə oxşasan,
dünya yerində sayar.
İstedadlar, şüurlar
bir-birinə oxşayar.
Beləcə yaşayırıq:
bu ziddiyyət içində,
bu məhəbbət içində.

PAYIZ

Deyirəm, saralıb solduqca bağlar,
niyə qan qaynayıb-qarışmayır heç?
Dünən ağaclara bəzək yarpaqlar
indi budaqlara yaraşmayır heç.

Buludlu, çiskinli açılır səhər,
Günəş şüasını yeridə bilmir.
Sular buz bağlayır, –
salxım söyüdlər
yuyub saçlarını quruda bilmir.

Kimsə xəbər verir: qar yağacaq, qar...
yozur dekabrın havalarını.
Bir az kip bağlayır bizim qonşular
eyvana açılan qapılarını.

İstisi getdikcə candan baharın,
isti paltarını geyir camaat.
Nəinki özünü,
gözəl qızların
palto yaşını da dəyişir, heyhat!

Hava, görürsən ki, xeyli sərindir,
başqadır ürəyin əhvalı indi.
Qocalar sahildən azalır bir-bir
gənclər iki-iki çoxalır indi.

Gecələr parlayır sular – gümüşü,
işıq səpələnir şəhərə kimi.
Bakıda dənizlə Ayın görüşü
uzanır axşamdan səhərə kimi.

Hər rəng min ürəyə, min qəlbə sirdaş,
hər fəsil ən gözəl bir duyğu kimi.
Hər şey öz vaxtında dəyişəydi kaş,
hər şey... təbiətdə olduğu kimi.

NİGARANAM

Oturmuşuq
radionun qabağında
oğlumla mən.
Biz dünyanın marağında,
xəbərsizdi dünya bizdən.
Efirləri dolaşırıq
səsdən iti sürət ilə,
ölkə-ölkə, qitə-qitə,
Gah itirik tapa-tapa,
gah tapırıq itə-itə.
Oğlum deyir:
dayan, dayan.
əl saxla, əl!
Musiqidir ata, ata,
Necə gözəl!
Gözlərində cilvələnir,
dünya xoşbəxt
bir müğənni cilidində
gülümsəyir.
Elə bilir
dünya bir gənc bəstəkarın
mahnısıdır.
Dünya bu gün
nəğməkarlar, bəstəkarlar
dünyasıdır.
Son xəbərlər axtarıram
qitə-qitə, ölkə-ölkə.
Orda...bəlkə?
Burda... bəlkə?
Efirləri gəzən yerdə
sonra birdən
alışırıq.
BMT-nin kürsüləri
boş qalar, boş.
Sonra Nuhun gəmisinə

doluşarıq.
Təyyarədən vaxtsız düşüb,
sonra uçan xalçalara
qayıdarıq.
Metroları itirərik,
mağaralar axtararıq.
Qırı verib Dürü allıq,
bəşərik biz.
Məlikməmməd düşən dərin
quyulara
düşərik biz...
Saxla – deyir, –
oğlum tutur əllərimdən, –
bir mahnımız keçdi deyən, –
Narahatam, dedim, oğlum.
– Kimdən ata?
– Elə Səndən.

BELƏ DEYİRMİ HƏYAT

Dünyada bir təmiz ad,
dünyada bir sağlam can.
Boş şeydi yerdə qalan...
Belə dedi bir nəfər,
belə deyirmi həyat?!
Sağlam can saxlayasan,
üstəlik də təmiz ad?!
Mən görmüşəm dünyada
bir təmiz ad üstündə
canlar gedibdi bada,
mən əsgər görmüşəm ki,
döşündə bir medalı,
Canında yüz yara var.
Adam da görmüşəm ki,
adını yox, dünyada
tək canını saxlayar.

Yox, adı can üçün, yox
canı gərək ad üçün
qurban verəsən hər gün,
girov qoyasan hər gün.
Dünyada bir təmiz ad,
dünyada bir sağlam can.
Yox, ikisi bir yerdə
çətin olur,
doğrudan.

YAZIQ FİL

Nə qədər yaşayırsan...
Fərqi yox uzun ömrün.
Yalnız öləndən sonra
qiymətlidir sümüyün.

AQAVA

Lvovda görmüşdüm ilk dəfə
o çiçək açmışdı, ağ çiçək.
Bir qoca dedi ki, yaxşı bax,
soluxub, quruyub gedəcək.
Qəribə taleli ağacdı,
bu dəfə ağ açdı.
Yaşayır,
on yaşda gül açsa, onun da
yüzündə gül açsa,
quruyur yüzündə.
Aqava çox deyil,
azdı yer üzündə.
Eh, qoca...
dedim mən sonradan,
biz necə? Çoxuqmu?
O xoşbəxt ağacdı, sən inan.

Bu tale,
kaş elə
hamının qisməti olaydı,
gül açıb sonradan solaydıq.

HEYİF

Evimdə bir dəstə gül-çiçək:
sarı, ağ, qırmızı.
Canlısı, cansızı.
Su tökdüm güldana,
canlılar yaşadı, su içdi.
Gah ətir saçdılar,
gah ürək açdılar.
Evimdə dünyanın havası dəyişdi.
Sonra da bir səhər,
soluxub, quruyub, getdilər,
cansızlar, sünilər qaldılar.
Gələnlər gül dedi,
görənlər gül dedi.
Gül adı bunlara verildi.

ƏN ŞİRİN NEMƏT

Açılan toplara diksinməyiriz...

Sabir

Bir ziyafət günü, ya bir ad günü
gedib cansağlığı arzulayırıq.
Şüar eləmişik sağlıq sözünü, –
həyatda ən şirin nemət sayırıq.

Ağır cəbhələrdə yıxılan əsgər
bayrağı tapşırır yalnız birtəhər.
Orda haray çəkir odlar, alovlar,
orda cansağlığı arzulamırlar.

Prometey can verib od aldı bir vaxt,
həyatın mənası bax, budur, – dedi.
Cordano Bruno ölümdən qabaq,
Kainat sonsuzdur: – hökmünü verdi.

Kimsə Prometey oldu, yaşadı,
kimsə tonqallarda yandı, yaşadı.
Kimsə adi əsgər oldu, dünyada,
kimsə yaşasa da... öldü dünyada.

Mənə cansağlığı diləməyin, yox,
həyatda "ən şirin nemət" o deyil.
Dünyada doxsan il, yüz il yaşamaq,
necə? Cürətdimi? Cürət o deyil...

MÜŞFİQİN OĞLU

Moskvada Müşfiq gecəsində hörmətli Əziz Şərif məni qucaqlayıb Müşfiqin oğluna oxşatdı, dedi ki, atana necə oxşayırsan, bilməzdim onun oğlu sağdır... Bu sözlər o vaxtdan, şeir olunca, ürəyimdə dolaşırdı.

Müəllif

Dindim, qulağına tanış gəldi səs,
güldüm, bu gülüşüm saxladı onu.
Dayandım – duruşum, baxdım – baxışım,
yeridim – yerişim saxladı onu.

Müşfiqdən danışır bütün bir ölkə,
ürəyi doluyuq, Əziz müəllim.
Mən yox, şerimizin bir nəsli bəlkə,
Müşfiqin oğluyuq, Əziz müəllim.

Hər axşam qoynunda bir səhər yatır,
səhərsiz, dünyanın üzü gülməmiş.
Bizim sinəmizdə cilidlər yatır,
hələ vərəqlərə köçürülməmiş.

Yaş ötür, dəyişir daha nəslimiz,
yenidən söz verir zaman Müşfiqə.
Ata gözüylə də baxmalıyıq biz
oğlumuz yaşında qalan Müşfiqə.

YANAŞI GETMƏYİMİZ ELƏ SƏADƏT İMİŞ

Sən burda, mən şəhərdə,
hava soyuq, yol uzaq.
Evimizdən ozizdir
sənin yatdığın otaq.

Dərmanlar – xörəklərin,
xalat – təzə paltarın.
Həkimlər – əzizlərin,
xəstələr – qonşuların.

Sənə xidmət eləmək,
burda, xəstəxanada, –
alnıma yazılıbmış,
qismətim olub o da.

Saçlarını daramaq,
sonra paltonu tutmaq,
bir az qoluna girib
təmiz havaya çıxmaq...

Mənə sual versələr,
deyərdim, həyat nədir.
Həyat – həyatda deyil, –
sənin gözlərindədir.

Qalxanda yorulursan,
yeriş səninki deyil.
Özgənin yerişini
öyrənirsən elə bil.

Səadət axtarmışıq,
(eh o da bir dərd imiş),
yanaşı getməyimiz
əsl səadət imiş.

Uşağa ana gərək,
kişininki qadındı.
Yol getsən – o, qüvvətin
uçsan – o, qanadındı.
Başında tufan olsa
kişinin –
qadın duyur.
Fəlakət onu qovur,
ildırım onu vurur.

Kövrəlirəm arabir,
güc eləyir qəm, qubar.
O qədər güldürübsən,
bir az ağlat: nə olar!

Kişilər ağlamazlar, –
kimsə deyib bir zaman;
Məhrum olub o yazıq
ailə duyğusundan.

BAKI

"Dünya oddur"
Heraklit

Bakı – mənim qara zəncim,
neft qitəsi!
Yer üzünün
qara mazut xəritəsi!
Səpələnir gecələrə
bu zəncinin ağ gülüşü,

həm qızılı, həm gümüşü.
Qara büllur məşəl yanır
yer üzündə
Bakı adlı.
Hey çırpınır,
o, Səməndər quşumuzdur
od nəfəsli, od qanadlı.
Yaşayırıq neft içində,
od içində,
qaz içində.
Arabir də
tüstülərə boğularaq,
hifz eləyir bizi torpaq.
Xəzər neftin,
Xəzər odun içindədir.
Odu neftdən alırıq biz,
nefti oddan, odu sudan.
Qoy çıxmasın bu da yaddan:
neft kimiyik elə bir az
özümüz də –
alışırıq adicə bir
qığılcımdan;
odla, neftlə gübrələnir
ata-baba torpağımız.
Yanğınlarda bitir bizim
taxılımız, pambığımız.
Bostanlara alov axır
su yerinə
arxlar ilə.
Od içində şirələnir
üzümümüz
qumlar üstə gilə-gilə.
Azərbaycan
özü boyda bir ocaqdır.
O yandıqca yaşayacaq,
yaşadıqca yanacaqdır.

O kimisə üşüdəcək,
o kimisə yandıracaq,
o yanacaq.
Gül, ey mənim qara zəncim!
Yan, ey mənim
Qara büllur məşəlim, yan!
Yer üzündə yanır qədim
bərəkətli bir məmləkət –
Azərbaycan.

CƏNGİ

Yenə ürəyimdə bir həyəcan var,
görün nələr deyir, bir qulaq asın.
Babəkin qanından qanımda qan var,
çalın, Koroğlunun cəngi susmasın.

Zurnanın zil səsi düşüb dağlara,
buludlar dağılır, atlar kişnəyir.
"Taraq-taq", "taraq-taq" – dinir nağara,
Qıratmı, Düratmı nallanır nədir?!

Dərin dərələrə selmi tökülür,
dolumu olonir, evlər üstünə?
Yoxsa, qoç Koroğlu ol çalıb gülür
qaçışan paşalar, bəylər üstünə!

Laylayı anamız çalıb, yatmışıq,
cəngi havasıdır ata nəğməmiz.
Birində – beşikdə xumarlanmışıq,
birində – səngərdə vuruşmuşuq biz.

Birində – süd içdik böyümək üçün,
bizə ad verdilər məhəbbət ilə.
Birində – and içdik döyüşmək üçün,
özümüz ad aldıq şücaət ilə.

O mənim söhbətim, o mənim sazım!
Atamın, babamın nəfəsidir o,
Çalın, Koroğlunun cəngi susmasın –
Xalqımın inqilab nəğməsidir o.

DƏYMƏ

Uşağı danlama onun səsindən,
qoy sevinc yayılsın bütün aləmə.
Sizin etikalar çərçivəsindən
o çıxmaq istəyir,
məcbur eləmə!

Danlaqla qalxmayıb heç kəs, a qardaş,
gözdən salınıbdı, əksinə, insan.
Hələ görməmişəm kölə adamdan,
bir qəhrəman çıxa, ya bir vətəndaş.

Qaçmaq istəyirsə, sən imkan yarat,
qaçmaq arzusuna insan qovuşsun;
uçmaq istəyirsə, köməyinə çat,
qırma qanadını, səma ver uçsun.

Yıxılıb əzilsə, qorxma sən ondan
bərkisin, sınaqdır hər yeni sahil.
Danlaya-danlaya böyütmə, dayan,
Bu, qul böyütməkdi, tərbiyə deyil.

Ucadan güləndə kəsmə arada,
ən qızğın dəmidir bəlkə oyunun.
Sənin baş əydiyin başsızlara da,
dəymə, hökm eləyən vaxtıdır onun.

Baxıb öz yaşıdı ona əl çalır,
nələr, amma nələr öndədir hələ.
Birinci zərbəni o səndən alır,
sonuncu zərbələr öndədir hələ.

GÖRƏSƏN

Yoldaş yolda sınanır,
qardaş yolda sınanır.
Övlad harda, görəsən?
Kim tapdı,
kim itirdi
bu yollarda görəsən?

QAMÇI VURUR

Hey görürəm,
öz içimdə lağ eyləyir
biri mənə.
Mən danışmaq istəyirəm
kiri deyir,
mən susuram,
danış deyir biri mənə.
Ağlayıram, göz yaşıma
inanmayır.
Ağız büzür
ağzımdan söz çıxan kimi.
Elə bil ki,
kimsə qamçı vurur mənə:
qaç deyir, qaç!
Sonra kimsə
cilovumu çəkir mənim:
dur deyir, dur!
cilov çəkir,
qamçı vurur...

EHTİYAT

"Qorxan gözə çöp düşər"
El sözü

Ehtiyat deyiblər, bəzən susmuşam,
min canın qorxusu bir cana düşüb.
Ehtiyat eləyib mən uduzmuşam,
şöhrət ehtiyatsız olana düşüb.

Ehtiyat sözünü gətirmə dilə,
qabağa özün düş döyüş zamanı.
Ehtiyat eləyən xalqların belə
nə vətəni olub, nə qəhrəmanı.

Ehtiyat etdikcə tutub əyiblər,
uduzub qeyrəti girov qoyanlar.
Yüz il ehtiyatla ömr eləyiblər
bir gün hünər üçün vaxt tapmayanlar.

Sözümü, sirrimi mən danmamışam,
hardasa düşmüşəm bəzən şərə də.
Mən birinci gündən inanmamışam
ehtiyat eləyən şairlərə də.

Kimsə xatırlayıb məni yad etməz
ümid eləmə ki, doğma yad olmur.
Azadlıq istəyən ehtiyat etməz,
sonqərdə, unutma, ehtiyat olmur.

MƏN ELƏ TORPAĞAM

Ona sual verdim: nədir məhəbbət?
Mənə cavab verdi: sənə sədaqət.
Soyumur ürəyin isti nəfəsi,
sinəmin odudur bəlkə bu həvəs?

Var ol,
ey gözəllik mücəssəməsi,
məni yaşamağa ruhlandıran səs.

Mən toxam, mənəvi ehtiyacımla,
sən də ən ətirli təzə çiçəksən...
Hardan biləydilər –
bu ağ saçımla
sən məni bu qədər bəyənəcəksən.

Deyirsən yaraşır, mən xoşlayıram,
sağ ol bu söz üçün, bu deyim üçün.
Gərək düşmənimə minnətdar olam
mən sənin xoşuna gəldiyim üçün.

Kiminsə "əməyi" gedibdi hədər,
sevinc əvəzinə qəm yeyibdilər.
Saçımı ağardan qaragünlülər
yaraşıq veriblər,
bilməyibdilər.

Dərk etdim həyatı mən bu yaşımda,
bir şeyi bilmədin sən ey bixəbər;
mən elə torpağam –
mənim başımda
fəlakət əksilər, səadət bitər.

MƏHƏBBƏT QƏDƏR

Mən insan görmüşəm, ürəyi buzdu,
nə sözə yatıbdı, nə də söhbətə.
Məntiqi mənasız, fikri ucuzdu,
satmaq istəyibdi baha qiymətə.

Məhəbbət şərimi lağa qoyubdu.
Özünü qaldırıb dağa qoyubdu.

Guya sənət üçün məhəbbət azdı,
guya məhəbbətdə ləyaqət azdı.
Guya ictimai dəyəri yoxdu,
guya cəmiyyətə bir xeyri yoxdu.

Deyin, Françesko Petrarka gəlsin,
həpəndə göstərsin onun yerini.
Gözəl Lauraya şeir oxusun, –
İntibah dövrünün Şah əsərini!

Yox, yox məhəbbətə plan qoyulmur,
kiminsə nə bilim mədəsi dolsun.
Məhəbbət, hardasa istehsal olmur,
üstündə keyfiyyət nişanı olsun.

Başqadır həyatda duyub yaşamaq,
ürək sevindikcə insan yüksəlir.
Cəmiyyət adından danışma nahaq,
mənim cəmiyyətə yazığım gəlir.

Səndə ürək yoxdu, səndə bədən var,
şəkilsən, gözündə bir həyat sönüb.
Yəqin səni sevən, səni öpən var,
yanında bəlkə də o, daşa dönüb.

Soyuyub, elə bil buzdu o nəfəs,
desəm müqəddəssən, ədalət olmaz.
Bədənsiz ürək də bir şeyə dəyməz,
hörmət doğursa da məhəbbət olmaz.

Bir eşqə möhtacdı insan və zaman,
döyüşür əzəldən xeyir ilə şər.
Lakin ictimai dəyəri olan
hiss varmı dünyada
məhəbbət qədər?!

QALAN QAPILARDI

Sənin telefonun sənինki deyil,
ordakı nömrələr neçə əl görüb.
Dartıb heç özünü qurutma, qafil,
o masa nə qədər daş heykəl görüb.

Demə sən atlısan, kimsə piyada,
zamandı dəyişir, dönür tərsinə.
Kimsə səndən qabaq əyləşib orda,
kimsə səndən sonra gələcək yenə.

Çatıb qaşlarını elə baxma gəl,
çalış ki, gülməsin üstünə yadlar.
Adını yazdırıb gözə soxma gəl,
qalan qapılardı,
dəyişən adlar...

MƏNİM TARİXİM

Mən öz tariximi varaqlayıram,
Romanın ən qədim kitablarında.
İgid oğullara yas saxlayıram
beş yüz il, ya min il sonra olsa da.

Onların adını yanlış yazıblar
hələ Heredotun vaxtından bəri.
Burda hakimlərə qulaq asıblar
dünyanın ən böyük tarixçiləri.

Nə qədər knyazlıq, şahlıq və xanlıq...
gəlib soxulublar ərazimizə.
"Dostluq", "bərabərlik", "əmin-amanlıq".
"sülh" təklif eləyib fatehlər bizə.

Bizə "vəhşi" deyib qoca Plutarx,
Pompeyə sərkərdə...

de, haqqı varmı, –
doğma torpağında vuruşan bir xalq
beşiyi başında vəhşi olarmı?!

Dağıldı babamın ulu vətəni,
divanlar quruldu burda xalq üçün,
Qafqaz vəhşi oldu, Roma mədəni,
o öldü, bu qaldı, yaşamaq üçün.

Talandı el-oba xəyanət ilə,
suları lal axdı Kürün, Arazın.
Gərək əsr-əsr ədalət ilə
borcunu qaytarsın Roma Qafqazın.

VƏTƏNDƏN SORUŞ

Məni imtahana çəkdi təbiət,
yollarda bərkiyə-bərkiyə gəldim.
Könlümdə təsəlli, gözümdə ülfət,
bu dünya sərgidir, sərgiyə gəldim.

Taleyi kimiyə adi bir çomaq,
kimiyə qiymətli firuzə verdi.
Harda ki, dinmədim, susdum heç nahaq,
ağardı saçlarım, büruzə verdi.

Gördüm həyatımda kimsəsizliyi,
yaxşılıq axtarıb dadım pisliyi.
Göydə yox, yerdəki çəkisizliyi
eşidən nə bilər, görəndən soruş.

Mən tənha bir evdə həyata gəldim,
gəldiyim yolları piyada gəldim.
O qədər susdum ki, fəryada gəldim,
sevincin qədrini sən məndən soruş.

Həyat, əzizimsən, sən mənimkisən,
sən məndən ötəri, həyat, ikisən.
Qalsam – kimliyimə cavabdehəm mən,
getsəm – kimliyimi vətəndən soruş.

ÜRƏYİM

Niyə ağrıyırsan, nədir möhnətin?
Nəğməsi dilində qalan ürəyim.
Ey məni buz bilib yola getməyən,
ey məni odlara salan ürəyim.

Mənim ola-ola mənə qənimsən,
mənmi səninkiyəm, sənmi mənimsən!
Gah adi bir nöqtəm, gah bədənimsən,
gah bütöv bir dünyam olan ürəyim.

Göz doymur dünyadan, bu tamaşadan,
bir yerdə vursaydıq ömrü başatan.
Ey mənim sinəmdə məni yaşadan,
ey mənim əlimdə ölən ürəyim.

ADSIZ BULAQ

Bulaq suyu, nə sərinsən, nə ətirli bir dadın var,
Nə bir qulluq eloyənin, nə də məşhur bir adın var.
Bulaq suyu, ovuc-ovuc qoy doyunca içim səndən
Kaş ki, bir də yolum düşsün, bir də gəlim keçim səndən.
Bulaq məni dinləyərək dilə gəldi elə bu dəm
Dedi: sən ki, oturmusan, bir-iki söz deyəcəyəm.
Bu dağların ətəyində qərar tutub mən qalmışam.
Bu gördüyüm qayalara gecə-gündüz səs salmışam.
Mən güllərin, çiçəklərin özəyindən süzülərək,
Axa-axa duruluram, bir gözəlin göz yaşıtək.
Nə gələn var, nə də gedən, tanımayır məni bir kəs,
Belə getsə mən bataram, bir kəsə də xeyrim dəyməz...

Bu söhbəti dinlədikcə öz-özümə düşündüm mən:
Belə şərbət içməmişdim bulaqların heç birindən.
Bulaqlar var, səsi çıxıb, suyununsa dadı yoxdur,
Əsl bulaq burda qalıb, hələ onun adı yoxdur.

XARİCİLƏR

"Daşkənd" mehmanxanası...
gəlir növbətçi rəis:
– Xaricilər gələcək,
boşaldın otağı siz.
Boşaldın...
– Mən, axı mən...
sözüm ağzımda qalır.
Gedir növbətçi rəis,
bir başqası zəng çalır:
– Boşaldın otağı siz.
Xaricilər...

Boşaldaq.
Bəli, qonaqpərvərik,
onların olsun otaq.
Bəs biz?
Biz özümüzük,
keçinərik birtəhər.
"Boşaldın, xaricilər..."

Ən gözəl otağımız,
ən isti yatağımız,
çörəyimiz, yerimiz
xaricilər üçünmüş
demək ki, yoldaş rəis!
Mən dünən cəbhələrdə
tökəndə al qanımı,
səngərdən səngərlərə
sürüyəndə canımı
bilməzdim heç doğrusu

xaricilər üçün sən,
mənə çıx, – deyəcəksən –
öz pulumla qaldığım
üçnəfərlik otaqdan.
Bilməzdim mən o zaman.
Mən xarici olsaydım,
qalardım demək... nə var, –
təzim, hörmət, əyilmək
və nələr...
eh, yazıqlar!
Qorxuram, sabah səni,
ya başqa bir rəisi
göndərib deyələr ki:
xaricilər gəlibdi,
boşaldın,
evinizi...
sonra da ölkənizi.

NİKOLAY

Heykəli önündə donub qaldım mən,
hirsimdən beynimə sıçradı qanım.
Asıldı daş kimi
iki çiynimdən,
ikiyə bölünmüş Azərbaycanım.

Başında qızıldan dövlət quşu var,
oturub, bir qızıl yəhər üstədi.
Əlidəyənəkli, əliqanlı çar
yenə də başqa bir səfər üstədi.

O gedir...
qaralıb gözlərində kin,
necə də tanışdır o qaş, o qabaq,
Görəsən yenə də hansı millətin
taleyi silahla həll olunacaq?

Leninqrad. 1960

VAXT GƏLİR

Dilimi susdurub dillər tökürsən;
yorulmur, maşallah, səndə çənə var.
Qorquddan, Babəkdən misal çəkirsən,
Qorquddan, Babəkdən özündə nə var?!

Deyilən hər sözə ürək qızınmaz,
mən çox eşitmişəm düzü, yalanı.
Nümunə göstərmək asandı bir az,
nümunə olmaqdı çətin olanı.

Qolumdan tutursan guya çətində,
mənə vəd verirsən, dövran verirsən.
Amma mənafeyin tələb edəndə,
mənim taleyimi qurban verirsən.

Pozursan adların siyahısından,
Mən xəbər tutunca dəyişir aləm.
Sonra da ziyalı etikasından
mənə dərs deyirsən, mən ki, şairəm!

Həyatdan, insandan varmı xəbərin,
düzlüyü, paklığı o nişan verir.
Həyatda imtahan götürənlərin
vaxt gəlir, özü də imtahan verir.

"QƏLƏM YOLDAŞIMA"

Danışırsan nə mehriban-mehriban,
iki suyun arasında qalmışam.
Sən bilirdin; dünən məni dananda,
mən dünyanın harasında qalmışam.

O üzəmi, bu üzəmi inanım?
O sözəmi, bu sözəmi inanım?

Gecəyəmi, gündüzəmi inanım?! –
Fikir, xəyal dünyasında qalmışam.

Külək vurdu, sən də vurdun arxadan,
yağış döydü, sən də döydün bir zaman.
Elə bildin, əbədidi o tufan,
sən dənizsən, mən də ada qalmışam.

SINMA

Sən uca boyunu şax tut, şax dayan,
dost var, dost yanında düşmən var qərəz.
Amma ucada dur son öz boyundan,
şəxsiyyət olmasa,
boy da görünməz.

Şax yeri, görünsün qoy o ucalıq,
boyunu əlborcu almamısan ki?!
Adam var, gödəkdir, başı dik qalıb, –
özündən bayıra boylanır sanki.

Xotrinə dəyməyib təbiət sənin,
sümüyə çəkibsən, bundan sıxılma.
Sən atan Nəriman Həsənzadənin,
çalış davamı ol, təkrarı olma.

Mənim də taleyim çox həssas deyil,
nə bilim, elə hey məni sınardı.
İnanma, desələr boy əsas deyil,
kola-kol deyiblər, çinar çinardı!

Bir şeyi unutma: uca, ya qısa,
boyların içində boynunu axtar.
Arxadan vurulur arxasız olsa,
cismani boylar yox, mənəvi boylar.

Mənim düşmənim var, dostum var, ancaq
sənsiz qazanmışam səndən ötəri.
Düşmənim rastına özü çıxacaq,
dostdan özün öyrən xəbər-ətəri.

Kitaba öyrəşdin, həyata öyrən,
enişi, yoxuşu var ömrün, oğlum.
Sınma cənazəmin altına girsən,
orda da şax yeri, şax görün, oğlum.

FƏLƏSTİN NƏĞMƏLƏRİ

Fələstinli şair Mahmud Dərvişə

Vətənsizdi Mahmud Dərviş,
ürəyində bu dağ gəlib.
Şair uzaq bir diyardan
qonaq gəlib.
Gəlib şeir günlərinə,
Sarayevo şəhərinə.
Dünya onun nəzərində
Fələstindi,
şəhər – kürsü.
gözlərində –
taleyindən umu-küsü.
Fələstinin faciəsi.
hiss etməyə, ya duymağa
nə var, Dərviş,
vətəni yad tapdağında
olan kəsi.
Ondan ünvan istəyirlər,
yaz-deyirlər.
Elə bil ki,
toxunurlar yarasına.
Bulud gəlir

ilhamının səmasına.
Durub baxır,
gülümsəyir həzin-həzin.
Eh, neyləsin.
Sığal çəkir
qara, şəvə saçlarına.
Şeir deyir gülümsəyə-gülümsəyə,
yana-yana.
Ürəyimə tufan salır
od nəfəsi.
Sevincin nə tərcüməsi,
Mahmud Dərviş,
ya dərdin nə tərcüməsi...

MÖCÜZƏ

Xarici turistlər... qəşəng qadınlar
bəli, okeanın o tərəfindən!
Məhəbbət, əyləncə axtarır onlar
ya burda Hindistan, ya orda vətən!

Biri asılıbdı fil xortumundan,
birinin boynuna sarılıb ilan.
Biri mavisaçdı, biri sarısaç,
birinin bərq vurur sinəsində xaç!

Toxdular, aclara baxıb gülürlər,
gülüşün zərbəsi arxadan imiş.
Tulalar fillərə qorxub hürürlər,
tula cəsarəti qorxudan imiş.

Ədayla danışıb, asta dinirlər,
(görən nə deyirlər dodaqlar altda!)
Tulalar yerimir, diyirlənirlər
futbol topu kimi
ayaqlar altda.

Xanımlar bilmirəm nə niyyətdədi,
bayaqdan ürəyim od tutub yanır,
Tulalar xarici səyahətdədi,
fillər vətənində əsir saxlanır.

Əyilib tulaya xanım dil verir,
fillərin üstünə o, hürsün deyə.
Tulalar sonradan şəkil çəkdirir,
fillərin yanında görünsün deyə.

Dağ kimi durmuşdu meydanda fillər,
bu da təbiətin möcüzəsiydi.
Tulalar fillərlə əylənirdilər,
bu da cəmiyyətin möcüzəsiydi.

Dehli

MƏN ORDA ŞEİR DEDİM

Okean sahilində,
Bombeydə, bir görüşdə,
sadəcə,
hind dilində
soruşdu tərcüməçi, –
Hansı dildə danışaq?
– İngiliscə – dedilər.
– Yox, hind dilində, ancaq!

Bir salonda elə bil
iki bölündü vətən,
hakim, müstəmləkəçi
baş qaldırdı yenidən.
Nə ingilis var idi,
nə ingilisin xəbəri, –
Salonda Hindistanın
ingilispərəstləri.

İngiliscə! – deyirdi
təkid ilə üç nəfər, –
"mədəni" yamsılayıb
və "mədəni" geyənlər,
(mən orda xariciydim) –
özünü xariciyə
göstərmək istəyənlər.

Bir an nə səmir, nə səs,
gözlərdə şübhə, qərəz.
Nehrunun silueti
ağsaçlı İndiranın
qərəzsiz portreti.
"Cənab 420"
Rac Kapurun nəğməsi,
nəğmə dedim, naləsi!
Mən cavab gözləmədim,
Mən Vurğunun dilində
qalxıb bir şeir dedim.
Mən bir az iztehzalı,
bir az qəzəbli, gülər, –
dediyimi səsimdən
yəqin başa düşdülər.

Çiçək bağışladılar,
yerdən alqışladılar.
Birləşdi ayrılanlar
yatanlar,
ayılanlar.
Şerimin ünvanına
qoy olsun daş atanlar.
Minlərə, milyonlara
qoşulduq iki nəfər.
İki nəfər çox oldu
Hindistanda
hindlilər.

TACMAHAL

Ağ mərmərdi, ağappaq,
təptəzə, qar kimi ağ,
nazik cuna kimi ağ!
Üstündə əl işləri:
qırmızı,
yaşıl,
qara.
Güllər zərifliyilə
köçürülüb divara, –
təbiətdən birbaşa,
təkcə ətrindən başqa.
Baxırsan xeyli gendən:
divarda bir dalğa var,
əl vurursan-hamardı,
divar elə divardı.
Lalələrin saplağı
Divar üstə damardı.
O divar da hamardı.
Övladıdır bu əsər
ən müqəddəs bir hissin.
Tac kimi qoyulubdu
üstə yer kürəmizin.
Burda xatırlayıram,
ən qədim rəvayəti, –
qadınına həsr edib,
hökmdar bu sənəti.
Ölən şan-şöhrətdir,
yaşayan məhəbbəti.
Gör gəlib harda gördüm
gücünü etibarın.
Özünə yox,
qəlbinə
baş əydim hökmdarın.

AYNUR

Tərlan* ürəyində həyəcan duyur
Yuxusuz qalıbdı Qaxda bir ana.
Aynur "şah!"-söyləyib meydan oxuyur,
Belçika mat olur
Azərbaycana.

Açsın qucağını vətən torpağı,
nəğməm ləpələnsin Kürün səsində.
Şərqin çadrası yox, Aynur bayrağı,
qalxır Avropanın tən mərkəzində.

Yeridi mehriban, dayandı məğrur,
Gül tutan əlləri əllər içində.
Öz ətrin güllərdən təzədi Aynur,
Gül kimi açımışdın güllər içində.

Burda cəbhə yarıb təmiz ad qoyur
mənim millətimin bu sadə qızı.
Kral öllkəsində şahı mat qoyur
şahsız bir ölkənin şahzadə qızı.

Brüssel, 1983

ADƏT EDƏNƏ KİMİ

Biri sübut elədi,
qatıq qaradır, – dedi,
Günəş bombozdur, – dedi.
Dedi: dəmir içməli,
ağacsa yeməlidir,
Su əynə geyməlidir.
Nə dedisə, az oldu.

* Tərlan Musayeva (*Müəllif*)

Əvvəl etiraz oldu,
sonra təsdiqlədilər,
yenilikdir, – dedilər.
Sonra adət etdilər.
Qatığı qaraltdılar,
Günəşi bozartdılar.
Dəmir içməli oldu,
ağac yeməli oldu,
su da geyməli oldu.
Yaşadılar beləcə;
çətinlik oldu lakin
arada bir balaca –
adət edənə kimi.

ADƏT

Toyda oynadılar, ürək açdılar,
sonra gecəyarı dağılışdılar.
Yolda gileyləndi biri əlbəəl;
– Qız çörək yeyirdi.
– Mən ölüm?
– Sən öl!
– Oğlanı görmüşdüm neçə il əvvəl,
gəzənin biriydi.
– Mən ölüm?
– Sən öl!
– Onlar evlənsə də yaşayan deyil.
Qız on yaş böyükdü.
– Mən ölüm?
– Sən öl!
Ölməyin, ölməyin, yazıqsınız siz,
ölsün birdəfəlik bu adətiniz.

SƏS-SƏSƏ

"Qah-qah gülməlisən
xaniman xərab!"
Sabir

Yubiley keçirdik, təriflər yazdıq,
təbriklər elədik verib səs-səsə.
Doyunca əl çaldıq bir-birimizə,
yenə yubileyə hazırlaşırıq.

Görəsən kim indi haray salacaq,
ardı kəsməyəcək güzar-gileyin.
Bir para məddahlar namaz qılacaq,
tutub ətəyindən bir para "şeyxin".

Hardasa yetim var, hardasa çılpaq,
hardasa infarktdan yatır oğullar.
Bir yetim qarnını doyurmayacaq,
kürsüdən deyilən şüar-nağıllar.

***

Heç kəsə oxşamayın, –
deyə-deyə
sonradan;
özünü tələb etdi
o, axırda hamıdan.

***

"Gül qönçəliyində xar iləndi,
açılanda özgə yar iləndi..."
Mən qulaq asıram, deyin bir qədər,
bu necə güldü ki, saralıb solmaz.
Gəlsin sağlığında ölən şairlər,
qoca Füzulini dinləsin bir az.

"NAZİM HİKMƏT" SİLSİLƏSİNDƏN

1. SABAH GƏLƏSİYDİ

İri, mavi gözlərində çəhrayı eynək,
sarı, tüklü əllərində yazı var idi.
Sinəsində sağlam ruhlu xəstə bir ürək,
bir ürəkdə
min ürəyin sözü var idi.

Bir də dümağ həb var idi dilinin altda,
gərək o nə danışaydı, nə də dinəydi.
Gərək bir az uzanaydı
o, susmuş halda,
gərək o nə qəmlənəydi, nə sevinəydi.

Divan üstə süfrə kimi açıq sərilən,
"Humanite" qəzetinin bir nömrəsiydi.
Masa üstə makinanın türk əlifbası,
bir də çoxlu ağ vərəqlər gözümə dəydi.

Biz görüşüb-qucaqlaşdıq ata-bala tək,
o üzündən, bu üzündən doyunca öpdüm.
O da öpdü saçlarıma sığal çəkərək,
yanağında seyrək tüklü bir xal da gördüm.

– Şəkərim, nə yapıyorsan, de, yakşımısan?
– Mən yaxşıyam, çox sağ olun, – dedim Nazim can
İşlərim də yaxşı gedir, ev-eşik də var,
hələ evdə necə deyər... bir beşik də var.
Nazim güldü, mən utandım.
– Ha, bir bana bak!
Niyə susdun? –
sevincimdən susmuşdum, ancaq
nə deyəydim, heç özüm də bilmirdim düzü.
Ah, necə də doğma idi onun dost üzü!

– Evinə bən gələcəyəm qonaq kibi yok,
öz evimə gələn kibi....
– Gəl, – dedim Nazim.
Gəl ki, səndən yadigardı o ev, o otaq,
gəl ki, bir yol mən sənlə duz-çörək kəsim.

Qulaq asdı ürəyində başqa bir maraq,
duydu mənim sevincimi, mənim qəlbimi.
Nazim sabah gələsiydi... mən evdə ancaq
Nazim ilə danışırdım səhərə kimi.

2. MƏN BİLSƏYDİM

Şəklimizi qoydum bu gün qabağıma,
gülüşlərin gəldi birdən qulağıma,
sənin şeir deməyini xatırladım,
"Eniyor, çıkıyor kayık"
sandım biz də qayıqdayıq.

Şeir dedin sən o gecə
aram-aram,
heç bilməzdim
ölümünə
bu gün şeir yazacağam.
İstəyirdim, məktub yazam üç-dörd günə,
sən gələsən
barı beş-on günlüyünə.
Azərbaycan dağlarını gəzəsən bir,
görəsən bir,
duz-çörək də kəsəsən bir.

Biz son dəfə görüşmədik,
qucaqlaşıb öpüşmədik.
Mən bilsəydim,
son gedişin olacaqdı,
çox saxlardım o gün səni.

Mən bilsəydim,
biz əbədi ayrılıq,
qucaqlardım o gün səni.
Qollarımın arasında saxlayardım,
gözlərimin –
bu ağında, qarasında saxlayardım.

Aman Nazim!
Ata, – deyib mənə baxır körpə qızım.
İlk dəfədir gözlərimdə o yaş görür,
doluxsunub bərk hönkürür.
O hələ lap körpə ikən,
qucağına almısan sən.
Şəkliniz var.
Saçınızı qarışdırıb əsən külək,
gülürsünüz ən bəxtəvər adamlar tək.
İndi mənim qucağıma qısılmışdır
bu körpə quş.
İndi bildim, bu yazıya pozu yoxmuş.

"Mən yanmasam,
sən yanmasan,
biz yanmasaq,
Necə çıxar
qaranlıqlar aydınlığa?"
Yandın Nazim!
Yana-yana bağırdın sən,
bütün Şərqi çağırdın sən.
Qulaqlarda qalıb səsin,
düz deyiblər:
ölüm çox da sevinməsin! –
Sən ölmədin,
yer dəyişdin ulduz kimi şütüyərək.
Səndən dedi
yağan yağış,
qopan tufan,
əsən külək.

Sönəndə də sən parladın.
Oğlum olsa, qoyulacaq sənin adın.
Qoy eşqini
min millətin ürəyində arasınlar,
Nəfəsini bu dağların
küləyində arasınlar.
Sən ölmədin...
Aman Nazim!
gör dilimə nələr gəlir.
Yox, yazmıram,
şerin sonu kədər gəlir.

1963

AZƏROĞLU

Səndən ötrü çəkilib
o sərhəd dirəkləri,
məftillər, Azəroğlu.
Necə narın şumlanıb
o ləklər, Azəroğlu.
Səndən ötrü qoyulub
sərhədçi butkaları,
o gur işıq selləri,
o xətlər, Azəroğlu.
Sahillər dayanıbdı
səndən ötrü üz-üzə,
Birdən kefin istəyər
adlayarsan o üzə;
birdən külək olarsan,
tikanlı məftilləri
keçərsən, Azəroğlu.
Arazı ovuc-ovuc
içərsən, Azəroğlu.
Sən nə qorxulu düşmən,
nə böyük qəhrəmansan.

Sən axı, sadə, həlim,
sən axı, mehribansan,
şairsən, Azəroğlu.
Niyə qorxuya düşüb
bu qədər yağı, səndən?
Sərhədin dirəkləri,
məftili özgədəndi,
daşı-torpağı səndən,
Eh, daşı! – Azəroğlu.
Qatar gedir, hardasan,
qardaşım, Azəroğlu.

SƏN DƏ

Təbabət dərsliyini
gətirdim bir gün yada.
Deyir: yaşamalıdır
canavarlar dünyada.
Ceyranların xəstəsi,
maralların dəstəsi
onlara yem olacaq,
sağları yaşayacaq...
Xəstəsənsə, bu başdan
yem ol sən də, Nəriman!

BÖYÜK PERİKLİN ƏN AĞIR CƏZASI

Uzaq Afinada, qədim zamanlar,
Perikl adlanan böyük hökmdar,
böyük bir sərkərdə ömr eləyibdi,
o, bütün dünyaya əmr eləyibdi.
Bir yol gülməyibdi deyirlər, üzü,
Nə toya gedibdi, nə yasa bir gün.
Ən ağır zülümü çəkibdi özü,

onu təqib edib bu cəza hər gün.
Həyata səsləyib onun sərtliyi,
bir ölkə qızıldan başmaq geyibdi.
Elin gərginliyi, səfərbərliyi
qorxub ki, azala, –
o gülməyibdi.
Ağsaçlı tarixin dediyi budur,
nə ad istəyibdi, o nə bir əvəz.
Ən ağır cəzanı çəkməli olur,
özünü xalqına həsr eləyən kəs.

YAŞA

Niyə tutulubsan qurbanın olum,
yaşına yaraşmır bu boyda fikir.
Nəyi düşünürsən, nə olub, oğlum,
əlin çənəndədi, gözün yol çəkir.

Sən əl qaldırıbsan dinməz-söyləməz,
bəlkə müəllimin söz verməyibdi?
Bəlkə başqasını tərifləyən kəs,
sənin qiymətini düz verməyibdi?

Qızdırmaz əlini hər alışan köz,
içməli deyildir hər şəffaf bulaq.
Hər sözdə rəng axtar, hər rəngdə bir söz,
bəli, aldanmaqdı bəzən inanmaq.
Amma inamı da itirmə heç vaxt,
daha dəhşətlidir, şübhəli qalmaq.

Yaşayaq, ömr edək dünyada bahəm,
bizim bəxtimizə görək nə düşür?
Mənli günlərinə cavabdeh mənəm,
mənsiz
öz taleyin öhdənə düşür.

ADƏT NƏDİR

"Əcnəbilər göydə balonlarla gəzir..."
Sabir

Molla gəlir yas yerinə, təsbeh əlində,
dodaqaltı pıçıldayıb neçə ad çəkir.
Azərbaycan məclisində ərəb dilində
saqqalını tumarlayıb salavat çəkir.

Yenə kimin cənazəsi qalıbdı yerdə,
yenə kimin astarına üz olan bizik?!
Filan ərəb sərkərdəsi
filan əsrdə
həlak olub,
ləbbey deyib yas tutan bizik.

Zəncir vurub baş yarırsan, ey cavan oğlan,
bu həqiqət qarşısında pozulur halım.
Müstəmləkə zənciridir, qopub qolundan,
elə çırpma ikiəlli başına, zalım.
Kimsə sənə istehzayla baxıb yan keçir,
bu dəm mənim ürəyimdən qara qan keçir.

Nələr deyir, bir qulaq as, bu çəmən, bu dağ,
nəğməmizin mayasıdır layla deyən səs.
Nəsimisi dərisindən soyulan bir xalq,
haqqı yoxdur,
zəncir vurub baş yara bilməz.

Dünən şeir məclisində, söz məclisində,
ahənginə valeh oldum mən doğma səsin.
Mənə bir xalq göstərin siz,
yas məclisində
danışanı qulaq asan başa düşməsin.

HƏYAT

Görüşəndə öpüşdülər,
köyrəldilər,
can dedilər.
Amma sonra
nə bu, onun ölüsündən,
nə o, bunun dirisindən
tutdu xəbər.
Bir-birinə
dost salamı göndərdilər.
Salam çatdı, ya çatmadı,
çıxdı yaddan.
Yaşadılar və köçdülər
bu dünyadan.
Tanıyırdım mən onları,
qınayırdım mən onları.
Sonra gördüm,
dünya özü dedi sirrəm.
Eh, mən onu dərk etməyə tələsirəm...

EHTİYACI VAR

İnsan cavanlıqda şərəf-şan gəzir,
hər kəsin bir ada ehtiyacı var.
Elə ki, ağardı saçı, saqqalı,
atanın övlada ehtiyacı var.

Tələsmə bir məqam düşsə əlinə,
inanma dünyanın gəlhagəlinə.
Arvadın – uşağa, qıza, gəlinə,
kişinin – arvada ehtiyacı var.

Yaş gəlib yetişir əlliyə, yüzə,
ürək həssas olur əyriyə, düzə
Qulağın bir səsə, gözün bir üzə,
ağızın bir dada ehtiyacı var.

Zəmanə hikmətdi, mənası dərin,
arxayın olma ki, istidi yerin.
Əlində bir ordu, ortada Şirin,
Xosrovun Fərhada ehtiyacı var.

Böyüklər iş görüb, uşağam deyib,
basılıb o kəs ki, qoçağam deyib.
Nəriman, çox qızma, ocağam deyib,
ocağın bir oda ehtiyacı var.

OXUCUMA

Sözün nə ucası, nə alçağı var,
Əziz dost, şerimi asta oxu sən.
Səs-küylə özünə əl çaldıranlar
Səssiz-küysüz çıxır sonra cərgədən.

Fikir ver sətirə, adi sözə də,
Duyan kəs səssiz də gərək eşitsin.
Sıxılma, qulağın eşitməsə də,
Ürəyində oxu, ürək eşitsin.

1959

AZƏRBAYCAN

himn

Hər millətin, hər torpağın öz adı var, öz ünvanı,
yağılara baş əyməyib Azərbaycan qəhrəmanı.
Vahid Vətən himnimizdi Şəhidlərin axan qanı,
Nəsillərə yadigardı, zaman yazdı bu dastanı.

Nəqərat: Millətlərə hürriyyəti, istiqlaldı şüarımız,
Azadlığı, səadəti qorumaqdı qərarımız.

Respublikam – ana torpaq, qədim Odlar diyarımız!
Yaşadıqca – vətənimiz, ölsək – şəhid məzarımız.

Üç rəngdədi bayrağımız, qalxan bayraq enən deyil,
mərd oğullar dar ayaqda öz andından dönən deyil.
O vətən ki, tapdalanır ayaq altda, vətən deyil,
O torpaqda bağ becərsən, ot göyərib bitən deyil.

Nəqərat: Millətlərə hürriyyətdi, istiqlaldı şüarımız,
Azadlığı, səadəti qorumaqdı qərarımız.
Respublikam – ana torpaq, qədim Odlar diyarımız!
Yaşadıqca – vətənimiz, ölsək – şəhid məzarımız.

Ana Kürün, Xan Arazın böyümüşük laylasına,
sərvətimiz ayna tutub göy Xəzərin aynasına.
Dünya baxsın – tarix olmuş Azərbaycan dünyasına,
mübarizə zinət verir ömrün-günün mənasına.

Nəqərat: Millətlərə hürriyyətdi, istiqlaldı şüarımız,
Azadlığı, səadəti qorumaqdı qərarımız.
Respublikam – ana torpaq, qədim Odlar diyarımız!
Yaşadıqca – vətənimiz, ölsək – şəhid məzarımız.

ƏBƏDİYYƏT

Zərifə Əliyevanın xatirəsinə

Sükut içindədi muzey qəbristan,
heykəllər, türbələr durur yan-yana.
Daim yaraşıqdı torpağa insan, –
burda məzarda da, sağlığında da.

Düyün var, hələ də açan olmayıb,
dünya günahkardı deyən görmədim.
Suyu – axıracan içən olmayıb,
çörəyi – doyunca yeyən görmədim.

Yatır Nazim Hikmət son mənzilində,
çoxdan görüşmürük, ay ustad, salam!
Daşla danışıram insan dilində,
dünən o canlıydı, sabah mən daşam.

Budur təbiətin sonu, əzəli,
itir gör insanın güzarı harda?
Yatır eldən uzaq bir el gözəli,
beşiyi hardadı, məzarı harda?!

Bu neçə dibçəkdi, bu neçə çiçək,
torpaqda gül bitib torpaqdan ayrı.
Yarpağı gün döyər, meyvəni külək,
bağban uzaq düşsə bir bağdan ayrı.

Gözü yolda qaldı doğma ellərin,
o şəfa paylayan loğman qızıydı.
O bizim ən böyük vətənpərvərin
dünyada yeganə bir dünyasıydı.

O, yüksək kürsüdən nitq eləyəndə,
bu, yerdə oturub alqışlayardı.
Xalqın şərəfinə o söz deyəndə
bu ona səadət bağışlayardı.

Özü oxuyardı öz adətilə
şerini, sözünü doğma diyarın.
Heç vaxt onun-bunun zəmanətilə
qəlbinə dəyməzdi bir sənətkarın.

Dağlıq Qarabağda şeir məclisi!
Vaqif günləriydi... başqaydı dağlar.
Mən də şeir dedim, sevirdi bizi,
özü tanıyırdı, tanıtmırdılar.

Ucaykən hər qəlbə hörmətlə enmək,
ürəyin ürəyə səyahətiymiş.

Mən onda gördüm ki, sevmək, sevilmək,
insanın ən ali təbiətiymiş.

Gör kimi itirdik, ey Ulu dostum,
axtar indən belə qışda, baharda.
Bir dünya tapmışdın,
taleyin onu
bir qarış torpağa dəyişdi,
harda?!

Gedəni saxlamaq olsaydı mümkün,
bir el yeriyərdi bəlkə də o gün.
Məlhəmi olsaydı gül-çiçək ətri,
çəmənlər dil açar, yoxdu, – deməzdi.
Ürək istəsəydin, səndən ötəri,
heç kəs ürəyini əsirgəməzdi.
Su gərək olsaydı, Arazla Kürdən –
Araz, Kür o səmtə axardı hökmən.
Od gərək olsaydı, günəşdən əgər,
töhfə gətirərdi günəşli əllər.

O yatır qoynunda əbədiyyətin,
məzarı dünyadı, dünyası məzar.
Eşqin ürəyində yaşayır sənin,
bir eşqi bir ürək yüz il yaşadar.

Yanında olmadım, ağır günündə
qəminə şərikəm, sonsuzdur o qəm!
Yalnız eşq önündə, torpaq önündə
əyilən o başa mən baş əyirəm!

noyabr, 1985
Moskva

"AĞLAĞAN"

"Yandıran bilirdim, yanan bilirdim,
Mən belə ağlağan bilməzdim səni".
Zivər Ağayeva

Bu dünya bir sirdi, mən də bir sirrəm,
əsir etdiyimə özüm əsirəm.
Mənim Allah verən bir paklığım var,
hər yaşda gizli bir uşaqlığım var.

Anasız qalmışdı ana deyənim,
həyatı bir uşaq öyrətdi mənə.
Bir qadın – əvvəlcə onu sevməyi,
sonra da ağlamaq öyrətdi mənə.

Ürək nəğməsini səssiz oxuyub
kimsə can qoyanda, sən əl qoymadın.
Yan ötdün adımı "Ağlağan" qoyub,
silib göz yaşımı məhəl qoymadın.

6 iyun, 1995

DƏRDDİ Kİ,
DƏRDLİNİN YOXDU YİYƏSİ

Sənin dərdin alım, "nisyə dərd" dedin,
gözündən oxudum: çəkənə yazıq!
Bəlkə dediyini duya bilmədin, –
biçən yaman biçdi, əkənə yazıq.

Kim ki, dərddən qaçır, o dərdə qaçır,
dedim, eşitmədi kara, dərdimi.
Bir pərdə bağlayır, bir pərdə açır,
barmaqlar saydıqca,
Sara dərdimi.

Kimsə araşdırsın qoy bu dünyanı,
dərdin hüzurunda qalxsın ayağa.
Dərdi kitablardan oxuyanların
nə dərdini soruş, nə dərd de ona.

Dünya bir sərgidi seyr etmə hədər,
dərdliylə dərdsizi çağır yanına, –
oxşar – gün işığı, ay işığına,
biri qızdırandı, biri üşüdər.

Təbiət hər dərdi çəkənə verər,
bədbəxtlik – ağlayıb yaş tökəndədi.
Bir ömrün mənası –
o, varsa əgər,
dərd çəkəndədi.
kim bilir, bəlkə də.

Verir öz hökmünü gələn hər fəsil,
soyuyur dilimdə sözün nəfəsi.
Dərdin yiyəsi var – bu, dərd ha deyil,
dərddi ki,
dərdlinin yoxdu yiyəsi.

ŞAİRLƏR TABUTDA BÖYÜK GÖRÜNÜR

Mən suya heyranam, torpağa heyran,
bir tənək əkirsən, yüz qanad verir.
Ədalət istəyir şair Zamandan,
o da əvəzində fəxri ad verir.

Əyir tərəzini qiymət ölçüsü,
qınq şüşələri naxışlayırlar.
Korlara – işığı, karlara – səsi,
lallara – kürsülər bağışlayırlar.

Şairlər fillər tək bir ömür sürür,
sümüyü gərəkdi özündən qabaq.
Şairlər tabutda böyük görünür,
təriflər tabuta deyilir ancaq.

Deyin, məclisimə gəlməsin mənim,
ilhamsız ilhamlı iddiasında.
Adlar, təxəllüslər oxunmur, deyin, –
Hüseyn oxunur el arasında.

Hüseyn güllərin öz nəfəsiydi,
qəbrinə səpirdik sükut içində.
Hüseyn güllərin ən təzəsiydi,
torpağa basdırdıq tabut içində.

O yerdən gül bitdi şairə nişan,
dünyanın çərxini döndərən şair.
Yer altda çürüyən, yerə qarışan,
yer üstə ətrini göndərən şair.

Vətən bir sinəyə köçürülürdü,
vətəndi şairin ürək parçası.
Hər cığır bir misra şerə dönürdü,
var ol, şerimizin on bir hecası!

Namərd sözlərimi yozub keçməsin,
axtarıb tapmadım sənə bir əvəz.
Qışqıran şairlər yüz şeir desin, –
bircə "Meşəbəyi" şerinə dəyməz.

Yaşayır bu eşqin, bu etibarın,
eşq dedim, hər canda bu yoxdu, şair.
Bizim kürsümüzdü sənin məzarın,
kürsülər məzardan soyuqdu şair.

"İRAN ŞAHI"NA MƏKTUB

Mən dəmir yol fəhləsinin
oğluyam, şah!
Ürəyimə dünya boyda
bir mərhəmət
verib allah.
Mən heç kəsin kədərinə
şad olmadım,
şərik oldum mən əksinə,
yad olmadım.
Ancaq sənin pis gününü
gözləyirdim,
mən deyirdim
gün olacaq, –
şaha da toy tutulacaq.
Amma indi sən nə şahsan,
nə hökmdar.
Səni İran torpağından
qoyladılar.
Tüfənglə yox,
tanklarla yox,
tüpürcəklə,
anaların qarğışıyla,
oğulların çağırışıyla,
qadınların çadrasıyla,
laylay deyən dillər ilə,
təsbeh tutan əllər ilə!
Firdovsinin vətənindən
qovuldun sən.
Yer üstündə nə bir yer var,
nə bir ada, –
yaşayasan indi orda.
Yer altda da yoxdu yerin,
yer altında pak ruhu var
Azərlərin,
Ruzbehlərin,

öldürdüyün, asdırdığın
igidlərin.
Saflıq sevir torpaq fəqət,
qismətinə bir məzar da
düşmədi heç,
əlahəzrət!
Mən ədalət qanununa
inanıram
bu illərin.
Axırını belə gördüm
şöhrətpərəst qatillərin.
Xaricdə də mühacirlər,
sən qovduğun didərginlər
səni görər,
səni didər.
Qorxuludur mühacirət.
Bu dünya borc dünyasıdır,
sən bilmədin,
əlahəzrət!

CAVİDİN

Naxçıvanda Cavid çıxdı qarşıma,
türbəsiydi indi vətən Cavidin.
Şahlıq quşu gördüm qonub başına,
sürgünlərdə qəbri itən Cavidin.

Tutdurdular, öldürdülər şairi,
yasaq oldu o şairlər şairi.
Türbəsinə qoymayın hər şairi,
ruhu pakdı ilahidən Cavidin.

Qılıncını üstə çəkdi xəyanət,
köməyinə nə dost çatdı, nə millət.
İlhamından qisas aldı cəmiyyət,
taleyindən üzü dönən Cavidin.

Gedən getdi, qalanları qaldılar,
Xiyabanda fəxri yerlər aldılar.
Atabəylər torpağında yadigar
Cavid qaldı fəxri adı Cavidin.

Başqaları bir ağ günə çıxdılar,
tamaşaydı, səsə-ünə çıxdılar.
Yer altından, yer üstünə çıxdılar,
dalısınca Müşfiq, Hadi Cavidin.

Naxçıvan,
14-16 may, 1999

AŞIQ ƏDALƏTƏ

Ədalətdən mən ədalət istədim,
ürəyimin dağı yaman dağ idi.
Eşq oduna yandırırdı Kərəmi,
yandırmasa, Kərəm hələ sağ idi.

Təzənəyi sağ əlində əsirdi,
Xan Əslini pərdə-pərdə gəzirdi.
Barmaqları soruşmaqdan bezirdi,
hardan keçib, gördüm deyən yox idi.

Bazarı qəm, Kərəm qəmə müştəri,
yolu uzaq, ara düşmən çəpəri.
Qul olmuşdu Xan Əslidən ötəri,
"can" deyirdi, eşitdiyi lağ idi.

Mən qul oldum, xan oğlu Xan Kərəmə,
Rəhm eliyin, siz Nəriman Kərəmə.
Toy çalırdı toysuz qalan Kərəmə,
güləni az, ağlıyanı çox idi.

Şəmkir,
4 aprel, 1998

ŞAİR TALEYİNDƏN YARIYA BİLMİR

"Mənə bir it hürür, bir qara çaqqal"
Ə.Cavad

Ulamaq azaddı, hürmək də azad,
itin it mərəzi dəyişmir, Ustad!
İti qısqıranlar dəyişir, Ustad!
gizli asqıranlar dəyişir, Ustad!

Allah, yer ləkəli, göy ləkəliymiş,
bir cavab yox imiş suallar üçün.
Bir şair nə qədər təhlükəliymiş, –
bir sürü bu "qara çaqqallar" üçün?!

Mən indi bildim ki, nədir bu cəza,
niyə ürəyimiz gizli çat verir.
Niyə istedadlı istedadsıza,
ya qanan qanmaza hesabat verir.

Yaşadın bu ruhla, yandın bu ruhla –
bu eşq mənzilində döyüldün, Ustad!
Sən də yol gedirdin qaragüruhla,
amma o karvandan deyildin, Ustad!

Bir səmə it gördüm, boynunda qatma,
Ağsaqqal dedi ki, ona daş atma.
O itin səsini tanıyır itlər,
o çoxdu, sən təksən, çox təki didər.

Şirin xatirədir indi o xiffət,
şair taleyindən yarıya bilmir.
Niyə sağlığında susur cəmiyyət,
şairi itlərdən qoruya bilmir?!

1992

...YA İKİ

Dost-mehriban ya bir olar, ya iki

Molla Cümə

Uzaq eldə gedib yatan xəstəni
gəlib görən ya bir olar, ya iki.
Sayma mənə sinəsinə döyəni,
sinə gərən ya bir olar, ya iki.

Can dediyin axtararsan, yox olar,
sən ac olsan, o dar gündə tox olar.
Düz deyiblər, ürək verən çox olar,
çörək verən ya bir olar, ya iki.

Yaxşı şeydi bir yaxşı dost, mehriban:
gələ-gedə ayrılmaya yanından.
Hər yetənə çox üz vurma, Nəriman,
üz göstərən ya bir olar, ya iki.

ALMAN ƏSGƏRİNƏ

Tikanlı məftilləri
görəndən,
kirpiklərim
tikan olub hər yerdə
gözümə batır mənim.
Harda sərhəd görürəm,
təzələnir bu yaram.
Ah, adı bir, adı bir,
özü iki Astaram.

Astara
Astarada,
məftillər gözümdədir.

hələ narın şumlanan
o ləklər gözümdədir.
Avtomatı çiynində
o əsgər gözümdədir.
Bu dirəkli, məftilli,
avtomatlı gözümlə,
gördüm Berlin, səni də.
Gördüm Almaniyanı,
bu keşik çəkəni də.
Çiynində avtomatı,
bir də mavi paqonu.
Brandenburq qapısının
ağzında gördüm onu.
Astara əsgərinin
Berlindəki yaşıdı!
O daş hansı binanın
Uçan özül daşıdı?
O kərpic hardan düşüb?
O küçəylə kim keçib?
Kim o susuz bulaqdan
sulu vaxtı su içib?
Mən cavab istəmirəm
bunların heç birinə.
Ancaq Almaniyanın
gələcək şairinə
cavab hazırla barı.
Onun gözü görməsin:
sənin avtomatını,
tikanlı məftilləri,
bir də
bu daş hasarı.
Mənim kimi o yazıq
gəzdirməsin gözündə
dirəkləri, milləri,
tikanlı məftilləri,
bir də
bu daş hasarı.

Qoy Berlinin şerini
yazdığı zaman yalnız, –
sənsiz yazsın o şair –
məftilsiz, avtomatsız.

Potsdam, 1962

VAXT

Sən gələndə yanıma,
istəyirsən daima
vaxt dayana,
vaxt dura.
Vaxt da bizə qoşula,
yanımızda otura.
Sən olsaydın, bir də mən,
bu dünyada ikimiz, –
Qoşulub oturardı
vaxt da bizə,
şübhəsiz.
Vaxt gələni gətirir,
vaxt gedəni ötürür.
Vaxt dayansa, bircə an
hardasa bir səadət
yarımçıq qalar, inan.

BİR AZ MÖHLƏT İSTƏYİRƏM ÖMÜRDƏN

Saçlarımın rəngindədir gödəkçəm,
yarı bozdu, yarı qara, yarı ağ.
Təbiət öz saydığını sayacaq.
Bir ömürün fəsilləri qarışmış, –
yarı yazdı, yarı payız, yarı qış.

Uzaqdımı, yaxındımı mənzilim,
mən dağ qalxdım, dağı aşan kimiyəm,

dünya gördüm, dünyalaşan kimiyəm,
bələd oldum hər üzünə həyatın,
gecəsinə, gündüzünə həyatın.

Bir az möhlət istəyirəm ömürdən,
nə qədər ki, bu dünyada biz varıq,
bu dünyanı yaşadarıq, yaşarıq, –
sən olarsan, mən olaram – ikimiz
həyat şirin, dünya gözəl, sən əziz...

DURNALAR VURULUR QAQQILDAŞANDA

Jurnalist Mir Şahinə

Bakıda döyürlər jurnalistləri,
siz xəbər tutunca, Zat-Aliləri.
Bizə daş atırlar sizdən bixəbər,
yetmiş il döyüldük, söyüldük, yetər.
Araz qırağında, Kür sahilində,
yetmiş il danışdıq Ezop dilində.
Sətiraltı yazdıq düz sözümüzü,
özgəyə dedirtdik öz sözümüzü.
Qələm dəyənəklə üz-üzə gəlir,
axırda yenə də söz-sözə gəlir.
Əyriyə əl çalıb, düzə gülən var,
bir çömçə tutana yüz bükülən var.

Qurtara bilmədi nitqini pəltək,
Natiqin ağzında dili qısaydı.
Bu qədər qürurlu olmazdı pələng,
o da pişik kimi miyoldasaydı.

Qələmlə yazdınız tariximizi,
qılıncla yazılan tarixə əvəz.
Qələm dəyənəyə xidmət elәsə,
"İstiqlal" sözünü o yaza bilməz.

Qabağı kəsilir, sular daşanda,
durnalar vurulur qaqqıldaşanda.
Ceyranlar görünür düzə çıxanda,
istedad qovulur üzə çıxanda.

Şahidlər unutmaz o şəhidləri,
çoxunu doyurub öldük acından.
Seçildi vətənin mücahidləri,
asıldı vətənin dar ağacından.

Ağrı canımdadı, dərd ürəyimdə,
daim üz-üzədir yaxşı pis ilə.
Jurnalist döyüşür mülki geyimdə
Gündə "vətən" deyən vətənsiz ilə.

Niyə hücum çəkir, gecə gündüzə,
niyə qənim olub işığa zülmət?
Həqiqət böhtanla gəlir üz-üzə,
qışqıran BÖHTANDI, susan HƏQİQƏT!

Vay sənin halına ay qızıl öküz,
öldürdü bu qədər işləmək səni.
Çaqqallar xəbərçi, tülkülər üzsüz, –
ya şir dağıdacaq, ya pələng səni.

Cavidin, Müşviqin vaxtından bəri,
içimdə tufan var, gözümdə xiffət.
Döyün, millət deyən jurnalistləri,
bəlkə yuxusundan oyana millət.

AY HARAY

İllərim arxada qaldı,
arxada qan-qada qaldı.
Əkdim-biçdim yada qaldı,
doğma torpaqlar, ay haray.

Kol dibində bənövşələr,
dağlara qalxan meşələr!
Gedən oğullar, kişilər,
sönən ocaqlar, ay haray.

Düşmən aldı solu-sağı,
kar olsun yerin qulağı.
Şuşada İsa bulağı,
yenəmi qaynar, ay haray.

Ay Qubadlım, Kəlbəcərim,
hardasan Nəbim, Həcərim!
Dindirmə çölüm, içərim
od tutub yanar, ay haray!

Füzulidən Cəbrayıla,
şəhid oğullar ayıla.
Qışqıram, səsim yayıla,
bata qulaqlar, ay haray.

Yandı Ağdamın ağ daşı,
köhnə yurdun ocaq daşı.
Ağdamın Qarabağ yaşı,
o köklər, soylar ay haray.

Müsibət oldu Xocalı,
hacıleyləklər uçalı.
Yandı cavanlı, qocalı,
mərdlər, qoçaqlar ay haray.

Zəngilanda zəngi tutun,
at minin, üzəngi tutun.
Bir Koroğlu cəngi tutun,
tərpənsin dağlar, ay haray.

Tovuz, Qazax, Ağstafa,
Sədərək çox çəkdi cəfa.

Ermənini qova-qova,
ölümlə oynar ay haray.

Od içindən keçə-keçə,
Laçını da verdik heçə.
Bir gözüm gülər beləcə,
bir gözüm ağlar, ay haray.

20 aprel, 1997

GETDİ

Ziya Bünyadovun xatirəsi

Tarix deyə-deyə tarixə döndü,
başında başının havası getdi.
Çıxardın lüğətdən "vəfa" sözünü,
insanın insana vəfası getdi.

Əzbərçi natiqlər "namus" dedilər,
götürüb ölkəni casus dedilər.
Ağzından vurdular və sus! – dedilər,
ağzında yarımçıq loxması getdi.

Millətə qəsd oldu millət içində,
bəsdi, nitq elədik bu dərd içində.
Mərdiydi bu qədər namərd içində,
arxasız mərdlərin arxası getdi.

İranda vurdular, qayıtdı gəldi,
yatan şüurları oyatdı gəldi.
Gözündə bir nisgil sovqatı gəldi,
Gözün ağı qaldı, qarası getdi.

Mərd dur Azərbaycan, başın sağ olsun,
o yerdə yatır ki, yer oyaq olsun.
Səndən iraq olsun, dərd iraq olsun,
o sənin dərdindən narazı getdi,
biz ona, o bizə tamarzı getdi.

MİR CƏLAL MİSAL ÇƏKƏRDİ

İş axtarma, adam axtar, –
Mir Cəlal misal çəkərdi.
Sonra bildim, ustadımın
gözü niyə yol çəkərdi.

Tələbənin atasıydı,
yerdə Tanrı sədasıydı.
"Zaçot" vaxtı qaydasıydı, –
soruşmamış qol çəkərdi.

Sayardı, onu sayanda,
hörmətə hörmət qoyanda.
Ürəyinə yatmayanda
əl verməzdi, əl çəkərdi.

Gah xeyiri şər olardı,
gah balı zəhər olardı,
Amma zəri zər olardı,
o zəhərdən bal çəkərdi.

"Hal-əhli" kef eləyəndə,
özünü məhv eləyəndə,
Nəriman səhv eləyəndə,
dərdi Mir Cəlal çəkərdi.

may, 2003

QAÇDIQ QARA SAÇDAN AĞ SAÇA QƏDƏR...

Şair qardaşım Məmməd Arazın 70 illiyinə

Ürək o Sahildə bu Sahildədir,
Araza qovuşdum Məmməd Arazla.
"Bu dünya nə sənin, nə mənim" – deyir,
sevir bu dünyanı bu etirazla.

Mənim dualarım şeirlərimdi,
sənə həsr edirəm behişt duamı.
Yerdə yerim yoxdu, göylər yerimdi,
Tanrının yanından eşit, duamı.

Sənin görüşündən saflaşır insan,
ürək dilə gəlir bir niyyət ilə.
Yanımda bəlkə də Göy adamısan,
yerə göndəriblər ünsiyyət üçün?!

Şairin əlindən alın əsanı,
alın, yüz yaşına saxlayın, qızlar.
Şair hikmətinin qız həyasını
ipək sap gətirin, toxuyun, qızlar.
Əsanı yüzünə saxlayın, qızlar.

Məmməd elə bilmə, adi bəşərdi,
o şeir deyəndə, dahiləşərdi,
yalnız dost yanında adiləşərdi.
Millətə qalx deyən şair Məmmədi,
birinci eşitdi onun milləti.

Şair hünəridi hər yeni əsər,
minnəti göstərmə, görməsin, Tanrım.
Məmməd, kürsülərə qalxıb desinlər,
Şahbuz balı kimi söz desin Tanrım.
Ekrandan Nizami, Metrodan Tağı,
versin bir-birinə göz aydınlığı.

Tanrım, o ki sənin üzünə baxır,
O, Homer dövründən bu günə baxır,
O ki vətəninin vətən daşıdı,
Cavidin, Müşfiqin şair yaşıdı.

Hanı tələbəlik illəri, Məmməd,
biz ki, unutmadıq bu yaşa qədər.
Yağışlar altında qaçdıq nəhayət,
qaçdıq qara saçdan, ağ saça qədər...

29 GÜLLƏNİN YİYƏSİ

Atəş!
Şəmkirdə atəş!
havada, yerdə atəş!
Vurdular Aslanovu,
bir icra başçısını,
ailə başçısını.
Yarıda saxladılar
atasının yasını.

Millət, qır millətini,
göstər tayfa üzünü,
kölə xasiyyətini,
qəbilə niyyətini.
Arzu dolu ürəyi,
həyat dolu gülüşü,
məhəbbət dolu gözü
atəşə, atəşə tut,
bir az hikkəni soyut.
Nəfəs al, toxta bir az
sənin tərəfindədi
dediyin haqq da bir az.
Haqqa, vicdana and iç,
tökdüyün qana and iç.

And içirlər başına,
burda maya qoyurlar:
Aslanın baş daşına,
ananın göz yaşına,
gəlinin göz yaşına.
Yaxşılıq, mehribanlıq,
mərdlik, cəsarət, hünər!
Tikir, qurur, yaradır, –
öldürün onu, yetər!
Millətə nə deyəcək
xəbər tutsa, gürcülər?!
Şəhid ailələri,
onu xəbər alanlar,

ehtiyacda qalanlar,
orda, soydaşlarımız,
düşünən başlarımız,
Səkkiz milyonluq ölkə?
Biz köçüb gedəcəyik,
getməyəcək bu ləkə.

Bir para vəzifəli,
bir para vəzifəsiz,
qərəzli, ya qərəzsiz
qısqanır nüfuzuna,
adına, ünvanına.
Süfrəsində "Tost" deyən
susayıbdı qanına.
Şıxəlinin dalınca
göndərin, getsin o da.
Maqsud Əlizadənin,
ya Qəşəm Aslanovun
dalınca... Aslanı da!

...Yolboyu tanış edir
sözarası o, məni.
O günü yada salır
bu gün əsən sərin külək.
Maşında yeri qalıb
29 güllənin
pencəyindən kəsilən
düymələrin yeri tək.
Yenə yardım aparır,
yenə haraya gedir?
Burdan buraya qaçır,
ordan oraya gedir.
Qəlbində İstiqlalın
odu, eşqi, həvəsi.
29 güllənin –
mükafatın yiyəsi.

Şəmkir, iyun, 1999

Yaşa, hayıfsan

İSMƏT

Yox oldu o gülərüz,
o ağ, bakirə bədən.
Evdə də gizlədərdi
özünü öz ərindən.

Sən həya saxlayırdın, –
arada abır, ismət.
Səni mənim əlimdən
torpaq aldı, nəhayət.

İtaliya, dekabr, 1986

ÜRƏYİM
ANANI İSTƏYİR, QIZIM

Ürəyim ananı istəyir, qızım,
sən yaşa, dünyada qəmsiz, kədərsiz.
Bir səs qulağıma döz deyir, qızım,
mən dözdüm,
yaş ötdü məndən xəbərsiz.

Qaşlarım qaradı, saçlarım ağdı,
təbiət şəklimi çəkir yenidən.
Hamı bu dünyada qocalacaqdı,
amma tək qocalmaq dərd verir hərdən.

"Dağlar" deyə-deyə mən dağ aşmışam,
Hanı tale dostum,
ürəkdən gülən?!
Dünyada yaşayıb dünyalaşmışam,
dünyayla düz gəlmir daha mən deyən.

Daddım acısını şirin həyatın,
Hələ bu acıdan doyan olmayıb.

Qızım, qardaşınla sən olmasaydın, –
deyərdim, dünyada anan olmayıb.

Daha yaş artdıqca, səbrim azalır,
yaş yaşdı...
neyləsən yaş əyir, qızım.
Qadınsız – ata da anasız qalır,
ürəyim ananı istəyir, qızım...

YAŞA, HAYIFSAN

Bir gözəl qadına heyran qalmışam,
sağ ikən, ölənə həsəd çəkirdi.
Saranın adını şerə salmışam,
oxuyub gizlində o dərd çəkirdi.

Qalan bədbəxt imiş, ölən bəxtəvər...
özü öz oduna qalandı yazıq.
Yerində deyibdi Aşıq Ələsgər:
"Ölən də yazıqdı, qalan da yazıq".

Təzədən qılıncı daşa da çaxsan,
onu nə oyadar, nə də tərpədər.
Sən yaşa dünyada,
yaşa, hayıfsan,
bir günün sağlığı yüz şerə dəyər.

Mən sənə nə deyim, canlı şeirsən,
gülüşün çoxuna xoş olub yəqin.
Məhəbbət əsiri, eşq əsirisən,
qabağına çıxan daş olub yəqin.

Məhəbbət qaranquş yuvası qurur,
o da ilham kimi qısqancdı, gülüm.
Məhəbbət – ürəkdən ürəyə yoldur,
ürək də üroyə möhtacdı gülüm.

1993

MƏN

Kimsə salam verdi mənə rəhm ilə,
Allahın nə yazıq bəndəsiyəm mən.
Tüstüsüz yandım mən odlar içində,
təndirin küt gedən kündəsiyəm mən.

Məndən inciməsin dostlar, tanışlar,
daha yadlaşıbdı doğma baxışlar.
Ey əsən küləklər, yağan yağışlar,
tökülün üstümə, dözəsiyəm mən.

Yatır süfrəmizə çörək gətirən,
ailə yükünü təkcə götürən.
Mən boynu büküyəm, o köks ötürən,
Yeganə arxası, kimsəsiyəm mən.

Qadındır hər evin isti nəfəsi,
qadın anadırsa – yoxdur əvəzi.
Ağırdı ananın ağır xəstəsi.
Atayam, ananın xəstəsiyəm mən.
Bəlkə bədbəxtlərin təzəsiyəm mən.

MƏNƏ DÜŞMƏYİR

Məni sevindirməyin,
gülmək mənə düşməyir.
Nədir arzum, diləyim,
dilək mənə düşməyir.

Sıxır amansız həyat,
tale sərt, can amanat.
Can de, köməyimə çat, –
kömək mənə düşməyir.

Nədir məni söylədən? –
Başa düşməz hər yetən.
Nə deyim əvvəlcədən,
demək mənə düşməyir.

QAYIT

"Bir qadın ömrünü girov qoymuşam,
bir şair ömrünü yaşatmaq üçün"

Sara

Tək çəkə bilmirəm can əzabını,
sənsiz ürəyimi əzir ayrılıq.
Mən zəngi basanda, sən aç qapını,
bəxtimə çıxıbsan, qarşıma sən çıx!

Tək sənin səsinə həsrətəm evdə,
susub dinləsəm də dostu, tanışı.
Oğul-qız yanında mən təkəm evdə, –
başqadır həyatda həyat yoldaşı.

Uşaqlıq yoldaşım, gözümün nuru,
könlümün həyanı, ülfəti sənsən.
Qalxsam, ailədə ata qürurum,
Yıxılsam, dizimin taqəti sənsən.

Həyat çox sınadı xeyirdə, şərdə,
mən dara düşəndə ilk həyanımsan.
Sən "Nabat xalanın çörəyi"ndə də
mənim Fərəh adlı qəhrəmanımsan.

Yayın istisində – sərin günlüyüm,
qışda od nəfəsin hərarət verir.
Mənim məğrurluğum, ərköyünlüyüm
ancaq sənə görə, sənə görədir.

Qayıt, adamları təzədən tanıt,
səhvimin üstündə danla xəlvəti.
"Mənsiz nə olacaq sənin axırın!" –
bir də təkrar elə bu həqiqəti.

Evimin bəzəyi, qayıt evinə,
pəncərə, döşəmə eləcə durur, –

Nə qədər silirəm toz basır yenə,
sənin sildiyintək heç təmiz olmur.

Bəzən qohumların yanır ürəyi,
Deyirlər gəl çay iç, çörək ye, hərdən.
Sənin bişirdiyin dadlı xörəyi
mən tapa bilmədim o süfrələrdən.

İlhamım, qələmim danışan deyil,
qayıt, öz gözümdə itirəm sənsiz.
Ünvan mənimkidir, ancaq elə bil, –
özgənin evinə gedirəm sənsiz.

Qoşa hacıleylək yuvası olur,
heç qaranquşu da tək qoymur həyat.
Bütün canlıların dünyası olur, –
sən mənim dünyamsan, dünyama qayıt.

İŞIĞA CAN ATSAM

Mən öz taleyimlə döyüşməliyəm,
taleyim namərddi, vurur arxadan.
Sənlə hər səhər görüşməliyəm,
taleyim bir yana,
sən bir yanasan.

Mənim nə qılıncım, nə qalxanım var,
amma taleyimlə gəlsəm üz-üzə, –
Uğrunda qoymağa hələ canım var,
sən özün şahid ol döyüşümüzə.

Məni bərk izləyir hər addımbaşı,
sızlayıb inləsəm, qəfildən vurur.
Dostları qaldırır o, mənə qarşı,
bütün düşmənlərim səfərbər olur.

Adımı çəksələr bir məruzədə,
orda vərəqləri qarışıq salır.
İşığa can atsam,
dönür zülmətə,
zülmətin yoluna o, işıq salır.
Uzaq ölkələrə səfər üstəyəm,
yolumu, izimi yıxıb uçurur.
Görür ki, qalxmışam,
yəhər üstəyəm,
atın ayağına o, çidar vurur.

Mənim məhəbbətim, mənim həyatım,
azarın, bezarın tamam gedəcək.
Mən öz taleyimi bir də tanıdım –
Sən məni tək qoysan,
o, təklənəcək.
Bizim oyunumuz hələ çəkəcək.

YOXDU

"Xəstə yox, xəstədir xəstəyə baxan" –
atalar sözünün əvəzi yoxdu.
Təbiət gücsüzdü, həkim köməksiz,
kimin ki, yaşamaq həvəsi yoxdu.

Xəstə var, dindirsən yaxşıyam deyər,
xəstə var, səni də xəstə eləyər.
Oturub inləyər, qalxıb inləyər,
dilində bir həyat nəğməsi yoxdu.

Hardasa əyilmir, məğrurdu insan,
bir ömür nədir ki, qorxasan ondan.
"Boşalır bir yandan, dolur bir yandan",
hələ qanunların təzəsi yoxdu.

İnsan var, yaşayır yüz il, yüz beş il,
həyata çağırır hər təzə fəsil.

Ömür – imtahandı, danış, ya kəsil,
həyatın heç kəslə qərəzi yoxdu.

Dünyaya gələnə dünya dar deyil.
dünyadan gedənə günahkar deyil.
Eşidir şairi, dünya kar deyil:
görünür, bir özgə çarəsi yoxdu.

SÖZ YARASI

– Məni evə apar,
– Mən sənə qurban.
– Elə bu gün apar.
– Lap elə bu gün!

Çıxartdım mən onu xəstəxanadan,
qanad axtarırdı o, uçmaq üçün.
– Maşını asta sür... Lap aram-aram,
gözüm işıqlandı... nə xoşdu külək.
Mən sənə dedimmi sağalacağam,
mən sənə dedimmi evə tez gedək.

Budaq yırğalanır, yarpaq əsirdi,
həsrət çağlayırdı gözündə mənə.
O, bir az ləngiyir, vaxt tələsirdi,
Təzə görünürdü bu köhnə dünya.

Quşlara qoşulub göylərə qalxır,
sonra mayak olub suda üzürdü.
Yüz dəfə gördüyü ağaca baxır,
yüz dəfə gördüyü yolu süzürdü.

Yad səyyah kimiydi bu doğma xilqət,
nə od qızdırırdı, onu nə ocaq.
Elə bil kim isə demişdi xəlvət, –
yaxşı bax, əlindən dünya çıxacaq.

Ona demişdilər, mənə yox ancaq
evdən ayrılmışdıq nə vaxtdan bəri.
– Yaxşı bax, əlindən Sara çıxacaq, –
tale gizləmişdi bu bəd xəbəri.

Baxırdı... başqaydı bu baxış fəqət,
dünyaya həm alqış, həm qarğış idi.
Doğmalıq, istehza, ayrılıq, həsrət, –
hamısı qarışıq bir baxış idi.

Onda bəs edərdi adi bir eyham,
mən indi nə deyim tale deyənə.
Arada baxışdıq:
– Daha yaxşıyam! –
təsəlli verirdi mənə o yenə.

Gözəmi gətirdik bir-birimizi,
nə bilim, biz harda, göz harda imiş?
Evdə gözləyirmiş ayrılıq bizi,
xoşbəxtlik evdə yox, yollarda imiş.

Yer verin mən orda yanım, qovrulum,
ələnim yağışla, boranla birgə.
Gərək bir saatlıq o yolu, oğlum,
bir ilə gələydik –
ananla birgə.

O üzük, mən evdə üzük qaşıyam,
üzüksüz qaşın da qiyməti olmaz:
Elə gözəl dedi:
– Daha yaxşıyam...
Bir sözdən aldığım yara sağalmaz.

AĞLAMA

Son ağlasan, mən ağlaram,
ağlama, yarım ağlama.
Nə gücüm var kömək olum,
nə ixtiyarım, ağlama.

Çölü, düzü duman alıb,
ürəyimi güman alıb.
Qış üstümü yaman alıb,
Mənim baharım, ağlama.

Payızdı, yarpaq tökülür,
uçub korpicim sökülür.
Fikirdən belim bükülür,
sınır vüqarım, ağlama.

Gül üzümə, mən də gülüm,
su olum, daşdan süzülüm.
Gül, ey mənim gülərüzüm,
Mənim ağlarım, ağlama.

TORPAQ OLDU

Bir ay evi arzuladı,
göz yummadı, oyaq oldu.
Bu evcanlım, qonaqcanlım
üç gün evdə qonaq oldu.

Dərmanlardan gəldi cana,
gül dəmləyib verdim ona.
Mən sığındım ona-buna
özü mənə pənah oldu.

Baxdı mənə, baxdı evə,
yana-yana, sevə-sevə.

Köks ötürdü neçə dəfə,
ürəyimdə bu, dağ oldu.

Xəzan oldu bağça-bağım,
açılmadı qaş-qabağım.
Həkimlərə yalvarmağım
sonra gördüm nahaq oldu.

Əhd-peyman bağladığım,
ağlayanda ağladığım,
gözüm üstə saxladığım
ayaq altda torpaq oldu.

AYRILIQ

Mən səni həyatda daşa dəyişdim,
torpağa dəyişdim, məzara döndün.
Mən öz baharımı qışa dəyişdim,
çinara dönmüşdün, hasara döndün.

Bir ana bənd imiş bu əbədiyyət,
duydum buza dönən nəfəsini də.
Anamı əlimdən alan təbiət,
gözü götürmədi, aldı səni də.

Mən bir xəcalətdən çıxa bilmədim,
bu gizli dərdimi açıq desəm də.
Sənə – sənə layiq baxa bilmədim,
səni – sənə layiq dəfn eləsəm də.

Yerə söykədilər mərmər üzünü,
yalvardım dayanın, əl saxladılar.
Mən özüm örtərdim evdə üstünü,
burda, qəbristanda torpaqladılar.

Sən getdin, dəyişdi həyatın özü,
getdi dadı-tamı, hər şeyi getdi.

Evi bəzərdin ki, gözəl görünsün,
evimin ən gözəl bəzəyi getdi.

Gedib dost-qohumun qəbri üstünə,
gül-çiçək qoymuşuq ikilikdə biz.
– Mən sənsiz ölərəm! –
demişdim sənə, –
hamısı yalanmış, yaşadım sənsiz.

Sənə sədaqətdi bütün həyatım! –
deyərdim, baxardın gülümsəyərək.
Səni qəbristanda qoyub qayıtdım,
sədaqət şüarım bu imiş demək.

Bu gün qəbristanda gecikib səhər,
üstünə nur səpir qızıl dan yeri.
Torpaq ot bitirir, ağac bitirir,
burda daş bitirir, qəbristan yeri.

Bir gözəllik itib duman içində,
dünya imtahanmış işləri ovsun.
İlahi, bu qədər insan içində,
bir insan tapmıram söz demək olsun.

Fikirli qalxıram üzüyuxarı,
nə qədər yaxınsan, nə qədər uzaq.
Təzə ot göyərib örtür cığırı,
itirmək istəyir qəbrini torpaq.

Mənsiz darıxırdın evdə hər dəfə,
dözümsüz olmuşdu gecə-gündüzün!
Gedəndə deyərdin tez qayıt evə,
bəs niyə qayıdıb gəlmirsən özün?!

Bunamı deyirdin: gələcək illər?
günləri sayırdın nə həsrət ilə.
Bunamı deyirdin: dözək birtəhər
gözəl günlərimiz daldadır hələ.

Günün işığında dünyaya baxdıq,
Səni də apardı axan ulduzlar.
Gah yaxın, gah uzaq səfərə çıxdıq,
Axırı haraymış?
Bu soyuq məzar!

Gözüm yolda qalıb, qulağım səsdə,
gedibsən, qalmışam mən qonaq kimi.
Sən yerin altında mən yerin üstə, –
biz ayrı düşmüşük kök-budaq kimi.

noyabr, 1986

GÖRÜŞ YERİ

Sarası gözünə gələr həmişə,
Hayıf, bircə dəfə evinə gəlməz.

Məzahir Hüseynzadə

Ovçuyam, mənzilim ov dərəsidi,
yola xəzəl düşür, iz itir, ay dost.
Evim bu dünyanın lal dərəsidi, –
səni çağırıram səs itir, ay dost.

Çiynimə qonmuşdu ağ göyərçinim,
bir şahlıq taxtıydı hər çiynim, ay dost.
Səni qaldıranda əyildi çiynim,
sən uçdun, qalmadın, mən neylim, ay dost.

Evdə yox, evdəki yuxulardasan, –
torpağa basdırdıq, yuxuya səni?!
Gah xəstəxanada,
gah yollardasan
Qoymuşam ağlaya-ağlaya səni.

Mənsiz kimsəsizsən, bircəsən orda,
tale qəsd elədi canına, ay dost.

Gedəydim, görəydim necəsən orda,
nə yol var, nə iz var yanına, ay dost.

Qəribə yerişin, qədəmlərin var,
harda gözləyirəm, gəlib tapırsan.
Mübarək, nə yaxşı görüş yerin var, –
ay itkin düşənim, ay sənə qurban.

TORPAĞA BÜRÜNDÜ, KÜRK ƏVƏZİNƏ

İlahi! Moskva nə soyuq idi,
əlcəyin içində donurdu əlim.
Yerin hərarəti yerdə yox idi,
dedim: Qoy kürkünü gedim gətirim.
Təzəcə almışam, geyin əyninə,
Başını buladın:
– Nə deyim sənə.
Qalxım,.. Moskvada kimdi tanıyan.
Bir az da danladın:
– Baha alıbsan.
Ehtiyac görmüşdü, ona görəmi,
qarışıq düşmüşdü, sevinci, qəmi.

Torpağa büründü kürk əvəzinə,
yer qızındı onun od nəfəsinə.
Elə bil gül əkdik məzar dibçəyə,
mən daşa dönmüşdüm, o daş çiçəyə.

Özü hayıf oldu hayıf deyənin,
sən getdin, nə qaldı mənə, əzizim.
İnsandan savayı dünyada heç nə,
heç nə hayıf olmur, heç nə əzizim!

ZÜLMƏTDƏ İŞIQ

Elə yadımdadı o axşam üstü,
elə nisgilliyəm düzü o vaxtdan, –
Bir az mürgüləyib yatmaq istədin,
işığı söndürüb çıxdım otaqdan.

Təkcə ayağımın ucunda deyil,
hisslərim üstündə yeridim, inan.
Otaqdan-otağa keçdim, elə bil
sərhədi o taya keçdim bu taydan.

Nəydi bu ehtiyat, bu keçirdiyim,
Bir ağrı var idi, bu iki canda.
Yanında – otaqda, vətəndə idim,
vətənsiz olurdum sənsiz olanda.

Qarışıq düşmüşdü gecə-gündüzün,
kaş bir də gözünü açıb baxaydın.
Ərşə çəkilmişdi yuxun iki gün,
o, göydə, sən yerdə – əlbəyaxaydın.

Çağırdın: işığı söndür, Nəriman,
getmə, yanımda dur, yox, qaçmaz yuxum.
Yenicə yatmışdın, mən sənə qurban,
təzədən oyandın, peşiman oldum.

Qabaqlar deyərdin söndür işığı,
bu ay aldığımız o ayı görsün.
İlk dəfə deyirdin yandır işığı
daha işıq kimi sönürdün özün.

Gözüm səndə idi, səndəydi hər vaxt,
dediyin ayrılıq düşdü araya.
Gözümün ağı sən, qarası torpaq,
gör harda bükdülər ağı qaraya!

Düzü mat qalmışam bu ülviyyətə,
bu necə get-gəldi belə görəsən?
Özün işıq kimi getdin zülmətə,
zülmətdə işıq var, –
desəm, o sənsən.

BƏXT

Yuxuma girmişdi, kömək istədi,
yüyürdüm, gördüm ki, yol yarı olub.
Bir az su istədi, çörək istədi,
İlahi, nə gözəl anlarım olub.

Qulluq eləyəydim ömrüm uzunu,
getdiyim yer uzaq, yol qar olaydı.
Təzədən göreydim bir yol uzunu,
vaxt özü bircə yol təkrar olaydı!

Həkim çağıraydım, dərman gəzəydim,
dadaydım tamını ağrı-acımın.
Sonuncu yarpaq tək üstə əsəydim,
Sara! – çağırdığım sərv ağacımın.

Saçını darayıb müti duraydım,
qalxıb gəzinəydi o yavaş-yavaş.
Yanında bir az da çox oturaydım,
Üzünə bir az da çox baxaydım kaş.

Mənim bəxtim idi məni səsləyən,
eşidib qalxmışdım mən bu fəryadı.
Bəxtini gözüylə görmək istəyən
baxsın qadınına –
bəxt yanındadı!

GƏLİN

Sən gəlin gələndə tək idim, lap tək –
atasız, anasız...
haradaydı bəxtim.
Sən gözəl qız idin: zərif və göyçək,
mən onda, eh, kasıb bir tələbəydim.

O zaman, nə deyim başqaydı dərdim,
sənsiz unudulmur dərd də, yara da.
Başqa oğlanlardan mən seçilirdim,
demişdin: güləşdə, boy-buxunda da.

Hələ şairliyim aşkar deyildi,
ortada qalmışdım, bir az yiyəsiz.
Şerim çap olurdu, ayda, ildə bir
o da gah yarımçıq, gah qafiyəsiz.

Bir söz eşitmişdim Vurğundan o vaxt, –
"Balıq okeanda böyüyər, inan".
Mən də balıq idim,
Gəncədə ancaq
nə dəniz var idi, nə də okean.

Hanı həsrətilə yandığım o gün,
mən səni seçmişdim qızlar içindən.
Ağappaq üzünlə Novruzgülüydün,
təzəcə çıxmışdın sən qar içindən.

Sən evdən köçəndə düşdük uzağa
hamısı yalan oldu: düz söz, doğru söz.
Getdin qaynanana gəlin olmağa, –
sənə yox, qəbrinə deyildi bu söz.

AĞLADI TELLƏR SARAMI*

Canım yandı, can ay Habil!
təzələdin bir yaramı.
Araz axdı kaman boyu,
apardı sellər Saramı.

Ələndi torpağım, daşım,
ağardı bəlalı başım.
Mən ağlayıb qurtarmışdım, –
Ağladı tellər Saramı.

Qarşımda canlı xəyalsan,
qışqırırsan, amma lalsan.
Çal, Habil, çal – belə çalsan –
kaman dirildər Saramı.

GƏNCƏ GÖZƏLİ

Nigar Rəfibəylinin xatirəsinə

Üst-üstə qoyublar iki mərməri, –
biri sinən, biri sinədaşındı.

***

Torpağa səpildi Rəfibəylilər,
çəkicli oraqla biçilmək üçün.

Müəllif

Gör harda görüşdük, Gəncə gözəli,
üstün daş, ətrafın dəmir hasardı.
– Mənim gəncliyimdi dediyin gəlin,
gözümün ilk ovu –
o da məzardı.
Sən yatan yataqda yer salmışdılar,
danırdım, qorxurdum dərdindən hürkək.

* Şeir Habilin yaradıcılıq gecəsində yazılmış və orada da oxunmuşdur (red.)

Onu görüb səni tanımışdılar,
orda... Moskvada, cərrah həkimlər.

Burda heykəltəraş gör necə duyub,
iki qəbir üstdə eyni büst qoyub.
Biri sənsən, biri sənə oxşayan,
daş deyil, həyatdı daşda yaşayan.

Yerə basdırılıb sözün gövhəri,
bu şeh – o gövhərdi, o göz yaşındı.
Üst-üstə qoyublar iki mərməri,
biri sənsən, biri sinədaşındı.

İnsan dərk eləmir öz tutduğunu,
gizlənpaç oynayır uşaqlığından.
Torpağa əliylə basdırdığını,
həyatda gözüylə axtarır insan.

Çətin əl götürür bu adətindən,
ürək də inaddı, toxunma, ağlar.
Gözləyə-gözləyə qalıbdı bəzən,
axtara-axtara yoxa çıxanlar.

Qaldıq yüz sualın bir cavabıyla
həyatın özündə həyata həsrət.
Növbəyə dururuq yaş hesabıyla,
onu da hər dəfə pozur təbiət.

PAYIZ, QAYINAĞACI

Meşə, yol kənarı, bir xəstəxana,
adını çəkmirəm, adı ağırdır.
Mən də ümidimi bağladım ona,
heyif, ümid ayrı, həyat ayrıdır.

Yatanda yuxuna girməzdi gülüm,
nə dərd səninkiydi, nə də o xiffət.
Özgənin əyninə biçib, elə bil,
sənə geydirmişdi onu təbiət.

Göylərdən gəlmişdi nə bilim, nəydi,
deyirdim, dilimdə söz alışırdı.
Amma gözündəki qəm səninkiydi,
göz qəmə, qəm gözə doğmalaşırdı.

Səndən gizlədirdi sözünü həkim,
Gedib dil tapırdım mən öz aramda.
Sənin xəstəxana artistin idim,
rolda oynayırdım ev paltarımda.

Yanına gələndə mən and içirdim,
yolda addımımı ölçüb-biçirdim.
Sayırdım düz gəlsin: otuz, əlli, yüz...
Nə danım qorxurdum bərk sevinəndə.
Ümidsiz dönürdüm, ancaq ümidsiz
yanından hər dəfə evə dönəndə.

Ev dedim, qaldığım mehmanxanaydı,
yatmağa gedirdim mən o xanamda.
Sənin ayağının altında idi, –
əslində yerim də, mehmanxanam da.

Kimə inanaydım, bilmirdim kimə,
söndürən yox idi, közərən odu.
Sən böyük Allaha, mən baş həkimə
nə qədər yalvardıq, hamsı puç oldu.

Payızdı, yollara bir duman çöküb,
səsin qulağımda qalıb o vaxtdan.
Bir qayınağacı boynunu büküb,
beləcə durmuşdun sən də o zaman.

LAYLAY

Yuxun qaçdı, evdə yata bilmədin,
torpaqda yat, torpaq quzum, a laylay.
Gizli-gizli ufuldadın, inlədin,
Oyaq qalan yuxusuzum, a laylay.

Güzgü kimi zərif idi, gül üzün,
insafdımı torpaq altda çürüsün?!
Duman gəlsin, qəbristanı bürüsün,
duman sənə örpək olsun, a laylay,
Torpaq sənə döşək olsun, a laylay.

Yanımdaydın, yaşayırdıq bir babat,
yuxularda gah doğmasan, gah da yad.
Ayılıram – nə sən varsan, nə həyat,
Yuxularda görüşənim, a laylay,
Yaxın ikən gen düşənim, a laylay.

Laylay dedim, beşik dedim məzara,
daş gətirdik, saldıq səni hasara.
Ha yalvardım, ha çağırdım, ay Sa...ra!..
Darıxanda həyanımız, a laylay,
Ayrı düşən ünvanımız, a laylay.

DAŞI SEVMƏLİYİK BİZ İNNƏN BELƏ

Gül gətirdim, çiçək qoydum üstünə,
gül sənindi, yer sənindi, sən mənim.

Yenə qəbristana düşübdü yolum,
daş yonur, qum tökür burda ustalar.
Anana başdaşı qoyurlar, oğlum,
səndən xatirədir, məndən yadigar.

Oğlundan, ərindən...
son borcumuzdu,
qalan borclarımız bir yana qalsın.
O, həyat aşiqi, o yer qızıydı,
qoy ondan yer üstə nişanə qalsın.

Həyatda bir sirr var, inan ay oğul,
bu sirr açılmayıb qədimdən bəri.
Daşdan yonulubdu, anan, ay oğul,
daşı sevməliyik biz innən belə.

Nə deyim, sağ olsun heykəltəraşı,
gör necə düz verib o gözü, qaşı.
Saçları örpəyin altından çıxıb,
tək nəfəs verməyib, yadından çıxıb.

Bu sirdi, gör necə dəyişir insan,
tanınır, tanınmır... yaxşı bax oğlum.
Mənim daş qadınım, sənin daş anan
bizi qoymayacaq daşlaşaq, oğlum.

QIZMAZ

Qadınsız ev soyuq olar,
donar o evdə can, qızmaz.
Yerdə ocaq qalasalar,
o yer qızar, tavan qızmaz.

Şirin səslim, qara gözlüm,
heç bilmirəm necə dözdüm.
İndi bildim könül dostum,
öz oduna yanan, qızmaz.

Oğul, orda kimdi yatan,
nə ün yetən, nə əl çatan.
Torpaq üstə şair atan,
torpaq altda anan qızmaz.

ÖMÜRLÜK GEYDİRDİ ONU TƏBİƏT

Bir yarımpaltoda qalıb nəzərim,
qadınlar üçündü, yumşaq dəridən.
Güzgüdə görürəm dolur gözlərim,
baxır əcnəbi qız gözaltı hərdən.

Gözəl Siciliya...
nəydi bu ovsun! –
ilk dəfə görürdüm mən bu yerləri.
Mənə yaxın gəlib qız nə soruşsun, –
mən də əcnəbiyəm ondan ötəri.

Gedib söz deməyim bəlkə də tezdi,
qadınlar həssasdı, o məni anlar.
Qızım, göz yaşını tərcüməsiz də,
gördüm başa düşür qəlbi olanlar.

Anan istəmişdi, anan bəxtikəm
demişdin dəb deyil, geymək olarmı?
– Niyə, atan alar, mən geyinərəm,
qayıdar köhnə dəb...
yadında varmı?!

Başqaydı istəyi, qəlbi, həvəsi,
əliylə yazdığı varaqda qalır.
Həyatda sevdiyin insanın səsi,
qızım, ömür boyu qulaqda qalır.

Nisgil ürəyimi sıxdı əbədi,
mən ala bilmədim istədiyini.
Ən ali bəzəyə o layiq idi, –
qızım, ən ilahi bir qadın kimi.

İtaliya, dekabr, 1986

QARAÇI QIZI

Bir qaraçı qızı neçə il qabaq
kəsib qabağımı dedi astadan:
Alsan hansı qızı, xoşbəxt olacaq,
sən də istəyincə kam alacaqsan.

Oxşadı ruhumu eşqin havası,
dedim sınayacam mən bu hikməti.
Bir "üçlük" almışdı qaraçı qızı,
"üçlük"! – üç manat da onda pul idi.

Onda inanırdıq deyilən sözə,
bir az təmiz idi köhnə adamlar.
Bizdə kül üfürmək yox idi gözə,
adamın gözünü çıxardardılar.

İnamla yaşayıb bizim babalar,
nədir şübhə, qərəz! – o pislənərdi.
Dünya inam üstdə tutsaydı qərar,
qəlbipozğunlardan təmizlənərdi.

Unutdum kədəri, unutdum qəmi,
xoşbəxtlik şirin bir qış nağılıyla, –
qaraçı qızının dediyi kimi
qapıma gəlmişdi öz ayağıyla.

Başqadır mənası qadın eşqinin,
xoşdur küsməsi də, barışması da.
Qadın məhəbbəti yoxsa
kişinin,
həyata bir yükdü yaşaması da.

Ey qəmsiz, döndərmə bu eşqi yasa,
əkiz bacısıdır qəm də sevincin.
Fikrim səndən ötrü bir qıfıl olsa,
Hər misram açardı o qıfıl üçün.

Unutdu bir şeyi qaraçı qızı,
o mənə demədi bu dünya nədir, –
iztirab – həyatda ömrün mənası,
xoşbəxtlik – ötəri bir əyləncədir.

O QƏDƏR DEDİM Kİ...

Deyirdin dözərəm yarsız,
Döz bağrı daş olan könlüm.

Tufarqanlı Abbas

Yeddi payız keçdi... yeddicə saat
evdə olmasaydın ev dağılardı.
– Gec gəlsən ayrıllam, – deyərdim o vaxt,
o qədər dedim ki, ayrıldıq artıq.

Gözlə görünməyən yara var, yara,
ağrısı olmayan bunu nə bilər!
"Mübarək" dediyim ipək paltara
onda ayıldım ki, "soxa" dedilər.

Ürək nalə çəkir bir şeyə görə,
bilmirəm heç necə gətirim dilə;
Sən sürmə çəkdiyin qara gözlərə
mən torpaq ələdim öz əllərimlə.

De, necə yatırsan məzar içində,
sən ki, qısqanırdın bir ara məni.
Bu qədər qadınlar, qızlar içində
necə qoyub getdin, ay Sara, məni?!

Qoy insan qəminə insan gülməsin,
qəlbini yoxlasın qoy bu hiss üçün.
Yerdə qar olmazdı yeri heç kəsin,
bir yastıq bəs idi ikimiz üçün.

Ayağın altında hey mürgülərdim,
bir çimir alardım, o da birtəhər.
Mən evi, eşiyi nəzir verərdim,
Allaha and olsun, qalsaydın əgər.

Gəlninə aldığın cehizlik durur,
toy niyə bilmirəm düşüb düyünə.
Əl vurma demişdin,
hamı əl vurur, –
əl dəymək istəyir göz gördüyünə.

Mən indi gördüm ki, yoxdur əvəzin,
seyrəldi yarama məlhəm qoyanlar.
Həkimlər eşidib qoy inciməsin, –
yaşadan mən oldum, öldürən onlar.

noyabr 1993

SAĞ CANIMDA AĞRIYAN YERİM

Evdə bir ocağın odu-közüydük,
soyuyub əzəlki isti yerimiz.
Evdə – tərəzinin iki gözüydük,
daş birimiz idik, pərsəng birimiz.

Bədənin bənövşə nəfəsli çiçək,
nəfəsin ətirli yaz havasıydı.
Üzün mərmər kimi, qar kimi göyçək,
qucağın yeganə eşq yuvasıydı.

Dolub-boşalıram vaxt olur hərdən,
elə bil xətrimə evdə dəyən var.
Nə gecə yatanda üstümü örtən,
nə gündüz yananda çay iç, – deyən var.

Əl-ələ yüyürdük, əl-ələ qaçdıq,
əl-ələ yaşadıq baharda, yazda.

Bağlı qapıları əl-ələ açdıq,
əlimiz üzüldü öz qapımızda.

Bilmədim üzünə kim yaman deyib,
yaxşını doyunca biz heç görmədik.
Yüz il yaşamağa and içdik, heyif,
əslində yüz saat sevinc görmədik.

Nisgilli bir ad var, sənin adındı,
könül bağlamışam mən də bu ada.
Dünyada ən böyük itki qadındı:
gördüm anamda da, qadınımda da.

Evin yiyəsiydin, indisə torpaq,
sənsən sağ canımda ağrıyan yerim.
Çöldə qalmaq olmur,
evdə yaşamaq,
nə gedən yerim var,
nə qalan yerim.

MƏNİM NİKAHIMI POZDU TƏBİƏT

Mənim nikahımı pozdu təbiət,
köklədi simləri xeyir-şər üstə.
Sənə – məzar boyda yeraltı zülmət,
Qurulu ev qoydu mənə yer üstə.

Beləcə ayırdı o, payımızı,
Pozdu bu qanuni nikahımızı.
Qoruya-qoruya saxladığımız
Axırı nə oldu? – adi bir kağız!

Arada ağlayan bir məhəbbətdir,
Yastığın müqəddəs, yerin müqəddəs.
Dövlət vəsiqəsi rəsmi sənəddir, –
Möhürü, imzası bir şeyə dəyməz.

Son mənzil deyirlər, mən orda gördüm,
Nədir sənlə gedib, sənsiz qayıtmaq.
Kağızı qorudum, səni itirdim,
İndi səni məndən qoruyur torpaq...

AXTARIRAM

Səni dəniz sahilində axtarıram,
qonşularda axtarıram.
Soruşuram, yüyürürəm, yalvarıram.
Bilirəm ki, azarlısan, yataqdasan.
Tələsirəm çatmaq üçün, görmək üçün
ya tapdığım bir dərmanı vermək üçün,
ya həkimin bir sözünü demək üçün.
Əllərimi uzadıram, əlim yetmir,
çağırıram, eşitmirsən, səsim getmir.

Evimizdə, yanımızda hələ sağsan,
deyirlər ki, tam sağalıb qalxacaqsan.
Nəzir verib qapı-qapı gəzəcəyəm,
özüm qurban kəsəcəyəm.
Yuxularda mən oyağam, qayğıdayam,
ayılanda görürəm ki, yuxudayam.

MƏNİ TƏBRİK ELƏYİRLƏR

Qapı-qapı, ev-ev gozir şerlərim,
çanta-çanta, cib-cib gəzir şeirlərim.
Telefonda oxuyurlar özüm üçün,
qonşum üçün, oğlum üçün, qızım üçün.
Dərdin belə sevildiyi olmamışdı:
məni təbrik eləyirlər
başsağlığı əvəzinə,
mat qalmışam taleyin bu töhfəsinə.

NECƏ UNUDUM

Deyirlər səbr elə, birtəhər unut,
O şirin səslimi necə unudum.
Yaş ötüb, ömrümün payız vaxtıdı,
İlk bahar fəslimi necə unudum.

Həyatdan köçəli yuxuya dönüb,
bir az bayatıya, ağıya dönüb,
Tamam hissə dönüb, duyğuya dönüb,
duyğumu, hissimi necə unudum.

Məhəbbət, ailə əyləncə deyil,
bir ömür sürmüşəm, bir gecə deyil.
Mən necə unudum, bu, məncə deyil,
əslimi, nəslimi necə unudum.

SƏNİ SEVDİM Kİ...

Mən səni sevəndə yaz havasıydı,
neyləyim, taleyin gözü tökülsün.
Həyatım əlində quş yuvasıydı,
quran özün oldun, uçuran özün.

Mən səni sevdim ki, yoldaş olasan,
həyatın ən ağır, dar yollarında.
Demədim axırda bir daş olasan,
qədim qəbristanda, yol kənarında.

Mən səni sevdim ki, yüyür, qaç, oyna,
yenə seçilməsin ətrin bahardan.
Demədim təzədən gizlənpaç oyna,
axşam yuxuma gir, səhər qaç ordan.

Yadıma nə düşür! – sənin ad günün,
biz qoca deyirdik, dünya təzəymiş.
İli yox, həyatda insan ömrünün
anı da tarixi bir hadisəymiş.

MƏHƏBBƏT

Mən sənə bağlıyam xatirələrlə,
nə bilim,
həyatda daha nələrlə.
İztirab vermişəm sənə bir zaman,
sən onu bəxşeyiş adlandırmısan.
Qatmışam gecəni gündüzünü də,
mən sənin mehriban, gül üzünü də
isti göz yaşınla naxışlamışam,
səncə, göz yaşı da bağışlamışam?
Mənim varlığımı çoxu unudub,
endirmək istəyib bəzən lap heçə.
Məni dahilərə bərabər tutub,
sən qibtə etmisən öz ürəyincə.
İnsan dahi olar insan yanında,
dahi adiləşər nadan yanında.

Yaşa, məhəbbətim, yaşa, etibar!
Sənə sədaqətlə öləcəyəm mən.
Harda mənliyimi xırdalasalar,
yanına böyüyüb gələcəyəm mən.

1979

NƏ YAXŞI

Torpaqda, səmada sənin nəfəsin,
bir yeni nəğmədi səhər, nə yaxşı!
Quşlar budağına qonub vələsin
şehi üstümüzə səpər, nə yaxşı!

Suların səsində təzə bir çalar,
yüz il ömr eləsəm, yadımda qalar.
Dərələr boyunca yer nəfəs alar,
dumanlar meh olub əsər, nə yaxşı!

Təbiət həssasdır bir ürək kimi,
yarpaqlar qızarıb çiyələk kimi.
Çəməndə gül gördüm kəpənək kimi,
payızda gül-gülü bəzər, nə yaxşı!

Mənim mehribanım axar, durular,
kədərli vaxtımda boynunu burar.
Fərəhli vaxtımda yanımda durar,
sevinər nə yaxşı, gülər nə yaxşı!

Düzdür ki, həyatda yalandır ad-san,
bir eşqə möhtacdır məncə hər insan.
Sən bütün dünyaya dəyərsən, inan,
dünya yaşamağa dəyər, nə yaxşı!

1978

QADINSIZ HƏYAT

Bir gün səndən sonra bərk xəstələndim,
canımda payızın əsən yelləri.
Sənsiz mən anasız uşaq kimiydim,
dünya yad qızıydı məndən ötəri.

Qızın küpə saldı, çay süzdü oğlun,
gördüm o çaşıbdı, ortada qalıb.
Bir qorxu hiss etdim üzündə onun,
neyləsin, yanımda tək ata qalıb.

Nəvən də gəlmişdi, sənə oxşayan
həyat dil açmışdı onun dilində.
Qırılan düyməni tapmışdı şeytan,
iynə-sap gəzirdi köynək əlində.

Baxırdım üzünə bir anlıq susub,
Məni ovsunlayan doğma səsiydi.

Birinci dəfəydi ağrıya dözüb,
susurdum, nazımı kim çəkəsiydi?!

Sənsiz dərk elədim mən bu dünyanı,
keçdi xəstəliyim bu həsb-halla.
Sənin əllərinin şəfası hanı,
ayağa qalxaydım bircə sığalla.

Mənim taleyimə sərt əsdi külək,
həyatın pis üzü mənə yad deyil.
Qadınsız çətindi həyatı sevmək,
sevgisiz həyat da bir həyat deyil.

TALEYİN SON TÖHFƏSİ

Sənin göz yaşınla,
sənin gülüşün
hərəsi dünyanın bir çalarıydı.
Biri – kölgəsiydi, biri – Günəşi,
kölgədə üşüyüb gündə yanırdım.

Göz yaşı – bir qadın çağırışıydı,
kişilərdə kişiliyə çağırış.
Gülüşün bir qəlbin yaz yağışıydı,
yaşamaq eşqiydi bəlkə bu yağış?!

Dilində şikayət, amma gülürdün,
necə qərar tutub od buz içində?!
Köhnə divar kimi hey sökülürdün,
daş bina kimiydin sən toz içində.

Dünya şirin idi, acı deyildi,
acılar, şirinlər necə təzəydi!
Göz gözün sirrini açıb deyirdi, –
biri o birinin xəbərçisiydi.

Bilmədim, bu yaşda nəydi günahım,
qarşımda bu gülüş, göz yaşı nəydi?
Pənah gətirmişdin, mənə, pənahım! –
Bəlkə bu taleyin son töhfəsiydi...

OXU ZALINDA

Mən inadcıl bir gözəllə
danışıram astadan,
bir tələbə narazıdır,
mənə baxır arabir.
Mən bilirəm:
imtahana hazırlaşır o cavan,
mən bu saat imtahanda kəsilirəm,
o bilmir...

1957

GÜL İLƏ

Sənə baxırdım, sənə...
bir dəstə gül qoydular
bu dəm stol üstünə.
Od aldı yandı könlüm.
Gül ilə ayırdılar
indi də bizi, gülüm.

1970

MÜBARƏK

Tül örpəyin mübarək!
bəyaz donun mübarək!
Medalyonun mübarək!
Boyunbağın, saatın,

gülüşün, zarafatın,
sənin bütün həyatın
mübarəkdi, mübarək.
Mübarək olsun gülüm,
sən olan dünya GƏRƏK!

HƏYAT

Niyə haqsız olur bunca təbiət,
niyə üreyinə o, dəyir sənin?
Kimsə –
camalını görməyə həsrət,
kimsə – görüşünə gəlməyir sənin.

QƏRİBLİK

Sən yatırdın... yuxudaydın hələ sən,
kim qıyardı gedib vaxtsız oyada.
Yer kürəmiz fırlanmırdı deyəsən,
zaman bir az ləngiyirdi dünyada.

Qanadımı mən üstünə *gərirdim*,
alışırdım gizli-gizli bu oda.
Mən ilk dəfə qəribliyi görürdüm,
səndən ayrı,
amma sənin yanında.

BELƏCƏ UZAN

Qoluma baş qoyub beləcə uzan,
oyansın içimdə yatan duyğular.
Belə xanım-xatın, belə mehriban,
nənəni təzədən dünyaya qaytar.

O bəlkə hardasa indi oyanır,
bəlkə ruhlarınız görüşür belə?
İçimdən bayıra günəş boylanır,
yer altdan yer üstə nur düşür belə.

Qaytar itənləri sən bir anlığa,
ilahi baxışa, duyğuya əhsən.
(Qadında gördüyün ərkyanalığa
qəbahət söyləmə, duya bilməsən).

İnsana səadət verir o varlıq,
sirli tobiət tək açır qoynunu.
Nədir yer üzündə əmin-amanlıq, –
bir qadın qoynunda gördüm mən onu.

DÜŞÜB

Günəşli, ulduzlu, aylı yer kürəm!
üzündə işıq var, üzümə düşüb.
Hayana baxıram, səni görürəm,
gözlərin eynəkdi, gözümə düşüb.

Yerdə göyərərsən, yerə atsalar,
suda içilərsən, suya qatsalar.
Dalınca yüyürüb sənə çatsalar,
kimdisə, o mənim izimə düşüb.

Solmayan gül gördüm – yanaqlarındı,
ovcumda təsbeh var – barmaqlarındı.
Bir beşik tapmışam – qucaqlarındı,
ilk dəfə öz haqqım özümə düşüb.

5 may 1992

ARTİSTLƏR

Görüşmüşdük ikimiz,
elə düşmüşdü məqam.
Tamaşaya baxırdıq
teatrda o axşam.

Oturmuşduq ikimiz
bir sırada dal-qabaq.
Guya sən məndən ayrı,
guya mən səndən uzaq.

Beləcə başlamışdı
sakit,
səssiz-səmirsiz;
bizim öz tamaşamız
tamaşadan xəbərsiz.

Mənə də pay düşürdü
alqışlardan, sənə də.
Biz – zalda oynayırdıq,
artistlərsə səhnədə.

İşıqda oynayırdı
amma səhnədəkilər.
Biz – işıqlar sönəndən,
bir də yanana qədər.

Səhnədə qəhrəmanın
qəsdi xəyanət idi.
Bizim tamaşamızın
janrı – məhəbbət idi.

Dünya qəmsiz-kədərsiz!
Artistləri biz idik
teatrın o axşam,
teatrdan xəbərsiz.

SƏNİN NƏVAZİŞİN

Oxşa saçlarımı, səpil ruhuma,
Sənə yaxın olum, dünyadan uzaq.
Qaldır dabanını,
sarıl boynuma,
qoy sükut danışsın, ikimiz susaq.
Sənə yaxın olum, dünyadan uzaq.

Beləcə sevinim qolların üstə,
özün oyat məni, silkələ məni.
Əyləndir bu axşam
xoşüzlə məni,
vermə öz əlindən bir ələ məni.
Tale əzizləsin qoy hələ məni.

Dözümüm azalır hərdən elə bil,
düşüb əriyirəm təzə qar kimi.
Sənin nəvazişin mənasız deyil, –
O çatır dadıma xilaskar kimi.

Bəzən bir həyasız girir araya
özü gündə gəzir,
məkri kölgədə.
Nə səsim, nə ünüm yetir haraya,
bir həyat işığı sənsən bəlkə də!

Əllərin şəfadır məlhəmi ilə,
nə deyim, ovsun var bəlkə canında.
Dünyanın ən böyük loğmanı belə,
müalicə etsə,
heçdi yanında.

Kimsə dodaq büzüb hardasa, səssiz
deməsin ay haray,
burda da qəm var!

Hələ az öyrədir nəzəriyyəniz,
mən dünya görmüşəm, öz təcrübəm var.

Döyüş meydanıdır qədimdən həyat,
bəzən yaralayır,
mən də insanam.
Təbibsiz-dərmansız sən məni sağalt
Əyləndir xoşüzlə məni bu axşam.
Sənə yaxın olum, dünyadan uzaq,
qoy sükut danışsın, ikimiz susaq.

SƏHƏR HƏSRƏTİ

Səhər gələcəkdir dünyaya yenə,
qızıl şölələrlə öpüşəcəyəm.
Səhərki günəşlə,
səhərki sənlə,
səhərik dünyamla görüşəcəyəm.

Yenə ordan-burdan danışacayıq,
əvvəldən-axırdan danışacayıq.
Filan müəllimdən, filan şairdən
bir az da beynəlxalq hadisələrdən,
pişikdən... sevgidən...
otdan... sonra biz,
əsl söhbət üstə çatanda... o söz.

Danış deyəcəksən, mən susacağam,
danış deyəcəyəm, sən susacaqsan.
Sənin əllərindən mən tutacağam,
mənim əllərimdən sən tutacaqsan.
Gün qabaqdan düşsə, güləcəyik biz,
üzün, gizləsən də tez yanacaqdır.
Gün arxadan düşsə,
bizim kölgəmiz
qoşa cığır kimi uzanacaqdır.

Bir yer gəzəcəyik hər yerdən uzaq,
Ürək bürünəcək sevincə, qəmə.
Yenə qolundakı saata baxmaq
yadından çıxacaq...
mənim xeyrimə.

YAŞAMAQ ÜÇÜN

Gəl görüm...
gəl görüm...
gəl görüm səni,
necə darıxmışam bir qılıq üçün.
Sonra evinizə ötürrəm səni,
qurbanın olaram yaxşılıq üçün.
Yollar naxışlansın ayaq izindən,
Yüz günün sevinci bir gündə olsun.
Bəzi adamların qaçım gözündən
təki sənin gözün üstümdə olsun.

Xətrimə dəyiblər yenə, qadası,
xətrim,
bilirsənmi,
sığal istəyir.
Mənim ürəyimdə ilham ağrısı,
ilhamsız kəslərdən macal istəyir.

Qulaq as efirdən gələn bir səsə:
"Səadət hər kəsin öz əlindədir".
Səadət hər kəsin öz əlindəsə,
bizim çəkdiyimiz iztirab nədir?!

Deyirlər, dağ çapar insan istəsə,
həyatın əzəli qanunu budur.
Biz ki, istəyirik, amma nə isə
həyatda yenə də biz deyən olmur.

Gəl, görüm...
gəl, görüm...
gəl, görüm səni.
Necə darxmışam bir qılıq üçün
sonra evinizə ötürrəm səni,
Səni görməliyəm yaşamaq üçün.

1970

YANINA GƏLMİŞƏM

Yanına gəlmişəm, təzədən küsək,
təzədən barışaq, görək olurmu?
Saat gör neçədir, bir az tələsək,
gedək, yaşıl söyüd görək dururmu?

Yağışlar islatsın, qaçaq əl-ələ,
sevin gülüşünə bal qata-qata.
Gəlmisən qayıdaq on il əvvələ,
saçına dən düşüb, qaralsın o da.
Yenə mən danışım, mənə qulaq as,
şirin sözlərinə cilvələn, bəzən,
Bir az kökəlibsən, arıqla bir az,
bir az dəyişibsən,
dəyiş təzədən.

Qaşların tarıma çəkilib yenə,
gir mənim qoluma, yenə çaş bir az.
Gözüm gözlərinə dikilib yenə,
bir az yadlaşıbsan,
doğmalaş bir az.

Sən mənim sözümdən incimə, küsmə,
illəri həsrətlə yaşayıb ürək.
Yanına gəlmişəm... evə tələsmə,
gedək, yaşıl söyüd dururmu görək.

DEYİRLƏR TANIŞ OL...

Elə dayanırsan, elə baxırsan,
elə bil qarşında quru bir daşam.
İpək saçlarını öpüb oxşayan
elə bil hardasa mən olmamışam.

Səni dostlarımla, tanışlarımla,
mən tanış edərdim nə vaxtsa bir-bir.
İndi özgələri yad ehtiramla
deyirlər tanış ol...
Nə qəribədir?

Yuxuda görərdin nə vaxtsa hər dəm,
yolumu gözlərdin yollardan uzaq.
Mən sənin yuxundan çıxıb gəlmişəm,
bu da bir yuxudur, gəl tanış olaq.

Qoluna girərdim... bu, yadındadır,
gedərdik... yolumuz, arzumuz şərik.
Qolum qollarının lap yanındadır,
toxunsa, biz indi üzr istəyərik.

Hayanda oldumsa səhər, ya axşam,
aradın sən məni, gördün sən məni.
İndi gözlərinin qabağındayam,
hayanda durum ki,
görəsən məni?

NAĞIL

Beləcə gedəydik, çıxıb gedəydik,
ikimiz hardasa gözdən itəydik.
Nə sən deyəydin ki, gecdi, get artıq,
nə mən deyəydim ki, dayan azacıq.
Nə səndən "hardasan" soruşaydılar,

nə mənim işimə qarışaydılar.
Yenə danışaydın, yenə güləydin,
mənim gözlərimdə güzgülənəydin.
Sən dərsdən qalaydın.
Mən işdən...
ancaq
dərsdə də, işdə də hamıdan qabaq,
sonin qiymətini tez yazaydılar,
mənim maaşımı düz yazaydılar.
Dünya bir azacıq
nağıllanaydı,
işıqlar yerdə yox, göydə yanaydı.
Biz yerdə itəydik... ruhu, fikri şən.
Eh, göydən üç alma düşür deyəsən,
Doğrudan nağıldı...

1973

QADIN

Pəncərəm önündə sular çağlayır,
xal düşür gecənin aydınlığına.
Qollarım üstündə bir qız ağlayır,
İnana bilməyir qadınlığına.

Başının örpəyi yana sürüşüb,
içməyib, məst olub...
Səbəbi nəydi?
Yerin çəkisizlik qütbünə düşüb,
bu qütbü nə vaxtsa o, keçməliydi.

Özü gözlədiyi bir gün gəlibdi,
indi soruşmayın, heç bilməyir o.
Qadınlıq qızlığa üstün gəlibdi,
ağlaya-ağlaya gülümsəyir o.

Açıb gözlərini indi qalxacaq,
tanımır özünü şirin röyada.
Qızlar nə deyəcək, bilmirəm, ancaq
mübarək!
Bir qadın artdı dünyada.

Bir kişi qayğısı artdı,
mübarək!
bu gecə bir qəlbə nur ələnibdi.
Nə qədər qadın var, o qədər demək
dünyaya qayğılar səpələnibdi.

Azalır o bəzən, artır o bəzən
sınanır varlığı, yoxluğu üçün.
Bəlkə mən, dünyanı sevirəm qəlbən,
qadın təbiətli olduğu üçün.

Bəzən bir eyhamla, ya baxış ilə
nə qədər istəsən söz demək olur.
Yalnız bir qadının təbəssümüylə
yüz ağlayan olsa kiritmək olur.

Köksündə gizlincə sevən ürəyi
gözündə həmişə məlum olubdu.
Kişilər önündə cəbrlə deyil,
qadınlar xahişlə məğlub olubdu.

O ən müqəddəsdi, ən mədənidi,
bəşər nəslimizə o, həyat verir.
Qadının sərvəti – öz bədənidi,
onu da kişiyə mükafat verir.

Qollarım üstündə bir göz yaşını
bir qərib gülüşü öpürəm hələ.
Özü qız saçını,
qadın saçını
üzümə dağıdır öz əllərilə.

QADINA MƏKTUB

Sizin qızınızla görüşürük biz,
gedirik gah yolla, gah kənar izlə.
Bunu mən bilirəm, siz bilmirsiniz, –
o gəlir sizin öz icazənizlə.

Tələbə yoldaşı, rəfiqəsi var,
işi də çox olur, bəzən dərsi də.
Mənəm,
qızınızın, necə deyərlər, –
"tələbə yoldaşı", "rəfiqəsi də".

Mən başa düşürəm, siz anasınız,
ürəyə sığışmır adi həyəcan.
O, evə dönüncə nigaransınız
evdə olanda da mənəm nigaran.

Bir ömrün mənzili uzun, ya qısa...
məhəbbət, doğmalıq –
hansı qədimdir?!
O, sizin adicə qızınızdısa,
o, mənim yeganə səadətimdir.

Siz də heyransınız, mən də bir qıza,
kimin qapısından o, girməlidir.
Dünya elədir ki,
biri tapırsa,
biri... təbiidir, itirməlidir.

Duruluq rəmzidir sizin qızınız,
gözündən oxunur qəlbi, istəyi.
Sizin bu sevdada uduzmağınız,
sizin borcunuzdur, mənim qismətim.

Sizin adınıza hörmət, ehtiram,
qadın qarşısında baş əyib aləm.
Mən də baş əyirəm, vidalaşıram, –
qızınız gələcək, mən getməliyəm.

1978

TƏSƏLLİ

Uçdun təyyarəylə bir yay səhəri,
bəlkə uçmaq üçün sən doğulmusan.
Yer də göylər idi səndən ötəri,
Yerdə də uçurdun sanki hər zaman.

Baxdım mən arxanca bir xiffət ilə,
dedim – göyə çıxan səadətimdir.
Yerdə də arxanca baxmışam elə,
səni sevən gündən bu, adətimdir.

Kiçilib ulduz tək sən göydə itdin,
yox, doğdun təzədən ulduz içində.
Nə fərqi – yerdə də sən ulduz idin; –
yenə seçilirdin yüz qız içində.

Bitdin öz yerində sərv ağacıtək, –
bir ötən buluda meylini salıb.
Gör harda başından açılıb örpək,
Göylərdə –
Yeganə təsəllim qalıb.

SƏNİN SÖHBƏTİN

Gizli aləmi var bu təbiətin,
mənсə, açılmayıb düyünlər hələ.
Dünən bir məclisdə düşdü söhbətin,
sənin bir tələbə yoldaşın ilə.

Pünhan sirrimizi açmadım, inan,
Könlümü versəm də hissə, duyğuya.
Güya tanıyıram səni uzaqdan,
bir az eşitmişəm haqqında... güya.

Soruşdum: necədir gülüşü, səsi?
Gördüm bambaşqadır qəsdi-qərəzi,

Gözünü görübdü, adi deyibdi,
ordakı ovsunu o, görməyibdi.

Dedi, bir partada otursunuz
fəqət, xəbərsizdi səndən o duzsuz.
Mən qulaq asdıqca danışdı yenə,
kimsə düz deyibdi,
ədalətə bax!
Düzü, aramızda hörmət xətrinə,
cavab qaytarmadım, amma heç nahaq.
Belədir həyatda qəribəliklər,
bir dünya qərq olur bəzən bir selə.
Duyğunuz yanında can qoymaq – hədər,
itir, adiləşir gözəllik belə...

VAXT

Sən gələndə yanıma,
istəyirsən daima
vaxt dayana,
vaxt dura.
Vaxt da bizə qoşula,
yanımızda otura.
Sən olsaydın, bir də mən,
bu dünyada ikimiz, –
Qoşulub oturardı
vaxt da bizə,
şübhəsiz.
Vaxt gələni gətirir,
vaxt gedəni ötürür.
Vaxt dayansa, bircə an
hardasa bir səadət
yarımçıq qalar, inan.

MƏNİM SƏADƏTİM

Qarşımda ən zərif çılpaq bir bədən,
dünya mavi dəniz, o ağ bir ada.
Nə nurdan seçilir, nə abidədən,
odur yaradan da, yaradılan da.

Yox, yox, Çakondanın varmı bənzəri,
başqa bir aləmdi bu surət, bu səs.
Dünyanın ən gözəl sənət əsəri
dünya sərgisinə qoyula bilməz.

Şirin təbəssümü dodağındadır,
Hüsnün gözəlliyi necə əzizdir.
Səadət gözümün qabağındadır,
mənim səadətim
məsafəsizdir.

ETİRAF

Gərək biz sonradan görüşməyəydik,
nə açıq, nə pünhan...
görüşməyəydik.
Quruyub daş kimi qaldım yerimdə,
qəfildən soyudu sinəmdə ürək.
Mənim xəyalımda, təsəvvürümdə
əvvəl necəydinsə, qalaydın gərək.

Təzədən mən necə dönüm geriyə?
Nə qədər uzaqdır sən dediyin gün.
Başqa bir qadının, axı, əriyəm,
Yoxdur ixtiyarım bu görüş üçün.

İndi başqalaşıb fikrim, niyyətim,
dünya da başqadır indi elə bil.

Həyata, insana münasibətim
daha dəyişibdi, sən görən deyil.

Təzədən o hissi oyada bilsən,
qaytar o illərə təzədən məni.
Qayıt, yalvarıram, qayıda bilsən,
Mənim xatirimə unut sən məni.

Əvvəlki həvəslə döyünür ürək,
indi bir həqiqət kəşf etdim, inan.
Sevməyi kişidən öyrənmək gərək,
əsl sədaqəti – ancaq qadından.

1978

GÖZƏLLİK

Mən sənin yanında səsəm-sorağam,
sevincim, kədərim, həsrətim oyan!
Mən sənin yanında səndən uzağam,
sənlə olduğumu hiss etdim, oyan!

Yolumu gözləyib qulağı səsdə,
döyünüb həsrətlə o qəlb, o sinə.
Başını söykəyib çiyninin üstə,
çiynini bir kiçik "yer kürəsinə".

Ah, necə əl vurub toxunmaq olar,
o çiynin, o əlin, o qolun üstə?!
İpək süfrə kimi sərilib saçlar,
mən "kürə" dediyim stolun üstə.

İlk dəfə seyr etdim o yuxunu mən,
nağıl görməmişdim həyatda belə.
Yuxunun gözəllik olduğunu mən
gördüm o gözlərdə
öz gözlərimlə.

BORC

Neçə ki, qız idin,
qayğısız idin,
yerin çəkisizlik tərəfindəydin.
Rezin bir şar idi elə bil torpaq,
atırdın, tuturdun... od idi qanın.
Fəlsəfi mənası yox idi o vaxt
sənin nəzərində hələ dünyanın.

Adamlar, gülüşlər başqaydı o vaxt,
həyat gah əyləncə, gah övsun idi.
İmtahan zamanı "dörd", ya "beş" almaq
bəlkə də yeganə bir arzun idi.

İndi gözlərində bir özgə qayğı,
ötən gün hardasa batan səs imiş.
Gəlinlik - ağappaq badam budağı,
bir ömrün zəriflik mərhələsiymiş.

Sənin nəfəsinin hərarətində
elə bil Günəşin od nəfəsi var.
Həya var, ismət var hərəkətində, –
qədim bir millətin ənənəsi var.

Gözümə o nuru, o baxışı da,
nənələr veribdi hey zaman-zaman.
Gəlincik bəzəyən qız uşağı da
ana ürəklidir, əslinə baxsan.

Qoy yeri gəlmişkən deyim bir sözü,
nə var yer üzündə anadan əziz?
Sənin yastığına baş qoymaq özü
cəmiyyət önündə borcdu, şübhəsiz.

Halal süd əmmişik ana döşündən,
yaşa, bu müqəddəs duyğular üçün.
Bəlkə də qadına borcludur vətən
onun böyütdüyü oğullar üçün.

DÜZ DEYİR KÖNÜL

Elə bil mən səndən uzaqlaşıram,
qulaq as, gör sənə nə deyir könül.
Yaş ötür mən amma uşaqlaşıram,
bir ana qucağı istəyir könül.

Sinəmə sığışmır bəzən təlaşım,
Sən de, necə susum, necə danışım?!
Susmaq istəyirəm, din deyir yaşım,
dinmək istəyirəm, sus deyir könül.

Namərd aramıza girmək istədi,
unudub hörməti, eşqi izzəti.
Mən yaşaram dedim, könül yox, dedi,
Mən yalan demişəm, düz deyir könül.

MƏNİM SEVİNCİM

Sən getdin həsrətin qaldı canımda,
sonradan mat qaldım, düzü, bir şeyə.
Qeyri-adi idin mənim yanımda,
getdin elə bil ki, adiləşməyə.

Sənə yalvarırdım burda bayaqdan,
eşikdə qış idi, otaqda bahar.
Sən də gedib evdə yalvaracaqsan,
gecikdiyin üçün bağışlasınlar.

Səni bağışlamaq...
dünyaya bir bax,
o qəlbi, o ruhu gərək duyasan,
Axı, səndən gərək üzr istəyəsən,
Lazımsa, sən gərək bağışlayasan.

Bir qəlbin ən əziz şahzadəsiydin,
Qulluq gözləyirdim hüzurunda mən.

Gedib evinizdə sən ona yəqin
bir qulluq göstərib çay süzəcəksən.

Getdin ürəyimi salıb tufana,
sədaqət həyatda başqa rəng deyil.
Mənim sevincimi apardın ona,
Bəlkə də ona heç bu gərək deyil.

LƏYAQƏT

Nə qədər ağırdı səndən ayrılıb
başqa bir iqlimə səfər eləmək.
Sonra da hardasa könlümü alıb
bir qəlb ağrısıyla, "darıxma" demək.

Ayrılıq qəm verir, görüş səadət,
qəmi də sən verdin səadət kimi.
Yaraşır insana mənsə, ey afət,
qəm də bir mənəvi ləyaqət kimi.

Üşüdür ruhunu nəfəsi qışın,
bəzən bir paxılın buz baxışı da.
Bəzən bir həyasız geriqalmışın
təkidlə özünə çağırışı da.

Sirli, maraqlıdır bu dünya, gülüm,
mənim ömrümdə də qışım-yazım var.
Bəzən bu dünyaya min təşəkkürüm,
bəzən bu dünyaya etirazım var.

O sənin hüsnünə yaraşıq verir, –
mənim ürəyimə od salmaq üçün.
Gülü də tikanla qarışıq verir, –
Hüsnə, xasiyyətə mat qalmaq üçün.

Susuram yanında gör nə zamandı,
ayrılıq dəmində şikayətə bax.
Yanında qalmağım guya asandı,
sən mənə səbr ver, ay ana torpaq.

GƏL, "MƏNİM YAŞIDIM"

Sevməyən kəslərin ürəyi darmış,
min il də köhnəlməz bu duyğu, bu hiss.
Mən indi bildim ki, Kərəm yanarmış,
çöllərə düşərmiş Məcnun Leylisiz.

Bizim taleyimiz, yaşımız ayrı,
boyda-buxunda da tamam ayrıyıq.
Mən bir az payızı,
sənsə baharı, –
hərəmiz bir fəsli xatırladırıq.

Dünya – sənətkardı, tarix – sərgisi,
hansı surətinsə biz əvəziyik.
Birimiz kitabın ilk səhifəsi,
birimiz yüzüncü səhifəsiyik.

Hər insan qəlbində hiss var, duyğu var,
o qəlbə, o hissə yaxın düşməsək;
dünyanın qanunauyğunluğu var,
pozulur o məncə,
biz görüşməsək.

Səni arzulardır yaşadan ancaq
məni xatirələr... hardasa bir səs.
Mən "dünən" deyirəm, sən hələ "sabah",
burda da ayrıyıq... danmağa dəyməz.

Mən səhvlər etmişəm, belədir insan,
gərək mən düzəldim,
çətindi yol-iz.

Sən səhvlər etməyə hazırlaşırsan,
qəsdən yox, əlbəttə, bəlkə xəbərsiz.

Sənin marağın çox, mənim təcrübəm,
sən hey soruşursan, mən hey deyirəm.
Sən heyrət etdiyin şeylər var hələ
mən susub sakitcə gülümsəyirəm.

Bir ürək sənindi, bir ürək mənim,
bəzən söz uzanır, aşıb-daşırıq.
Keçmiş sənin olur, gələcək mənim,
bax, burda elə bil
yaşıdlaşırıq.

Gəl, "mənim yaşıdım", bu gizli məna,
səni hey çağırır, səsləyir hər gün.
Mən "qoca dünyayam",
unutma, dünya
günün çıxmağını gözləyir hər gün.

1978

DÜNYA İŞIQDI

Mənim köməyim ol, mən dara düşsəm,
baxma uzaqlardan, gəl dindir məni.
Hardasa, nabələd yollara düşsəm,
özün qarşıma çıx, sevindir məni.

Bəzən hıçqırığım ucalır göyə,
insanam, mənim də ağrım-acım var.
Mənim, sən verdiyin bir təsəlliyə,
Sən dediyin sözə ehtiyacım var.

Adam var, neyləyim, vicdanı dardı,
onun insafına qalsaydı əgər,

mənim ürəyimi çoxdan qırardı,
adımı hər yerdən çıxartdırardı,
istəyinə çatsın təki birtəhər.

Sən eşit bunları, sıxılma fəqət,
arabir sevincin qəm qarışığı.
Yüz təqib eləsin qoy məni zülmət,
sən varsan dünyada,
dünya işıqdı.

GÖRÜŞDƏN QABAQ

Ağ çiçəklər səpilmişdi üstə çəmənin,
Elə bildim buludlardan torpaq süd əmmiş.
Gülüşünə qərq olubmuş bu dünya sənin,
Mən bu səsdən
bu dünyada xəbərsizəmmiş.
Ürəyimin ən müqəddəs hissləri sənsən,
necə əziz gülüşlərin, doğma səsin var.
Məncə, hansı rəssamınsa əsəri sənsən,
sən yeganə
şəkilsən ki, öz nəfəsin var.

Budaqları başım üstə yellər əyirdi,
yerlər, göylər sevincimə göz qoyurdular.
Günəş sənin xatirinə gülümsəyirdi,
quşlar sənin xatirinə
oxuyurdular.

Dünya bir az nağıl idi, bir az həqiqət,
Məhəbbətə səsləyirdi bu məna məni.
Belə gözəl, belə qoşəng, belə qiyamət
Nə dünyanı
mən görmüşdüm, nə dünya məni.

SİRR DEYİL

Mənim sağlığıma içdilər dünən,
dedi arzuna çat bir nəfər, dünən.
Siz çatın, mən amma çatmayacağam,
mən heç vaxt arzuma çatmayacağam.

Mənim arzum hara, daha mən hara,
xatirə söyləsəm... bu bir yığındır.
Mən arzuma çatsam bədbəxt olaram,
bəlkə xoşbəxtliyim çatmamağımdır.

Kim isə, bəlkə də burda susacaq,
nə deyim,
yox, o da müqəssir deyil...
Xoşbəxt olmaq ilə – arzuya çatmaq
mən sizi bilmirəm, mənca bir deyil.
Bu da sirr deyil.

BAX

Xəstəliyə qısqanıram,
aramıza girənə bax.
Məni sənə, səni mənə
dünyada çox görənə bax.

Heç bilmirəm bu nə şərtdi,
mənə düşən yenə dərddi.
Gör bu dünya nə namərddi, –
xeyir istə, şərinə bax.

Duman aldı dağ-daşımı,
tutub qaçdım mən başımı.
Sən silmişdin göz yaşımı,
aç, yaramın yerinə bax.

Qar ələndi qara telə,
bir ömürü verdim yelə.
Qəm axtarsan innən belə
Nərimanın şerinə bax.

dekabr 1993

SƏNDƏN ÖTƏRİ

Mənə dedilər ki, sizdə yas düşüb,
yuxuda ağladım səndən ötəri.
Dedilər, torpağa bir almaz düşüb, –
gördüm göz yaşına çoxdu bənzəri.
Yuxuda ağladım səndən ötəri.

Sənlə gözəl dünya, sənsiz qorxulu! –
Sənsənmiş dünyanın tarazlıq yeri.
Mən yuxusuz qaldım, dünya yuxulu,
yuxudan qaçdım mən səndən ötəri,
sənsənmiş dünyanın tarazlıq yeri.

Ayılıb dünyaya baxıram, belə,
Yuxuda kim yaydı bu bəd xəbəri?!
Sənlə azdanışan, ağıram belə,
Yuxuda dəliydim səndən ötəri.

Mən öz dediyimdən üzdə dönmədim, –
üzdə çəkdiyimi saldım içəri.
Səni sevdiyimi sənə demədim,
Yuxuda ağladım səndən ötəri.

SƏSSİZ

Sən məndən incimə, dünya gözəli,
bir gözəl qadını itirmişəm mən.
Sən şirin ədalı, şirin busəli,
ağzımın dadını itirmişəm mən.

Gəlib gözlərimin keçir önünə, -
Mən onu bu qədər qısqanc bilmirəm.
Açıb saçlarını tökmə çiyninə,
sonindi, onundu bu saç bilmirəm.

Onu eşidirəm sənin səsində,
sən sonsən,
ortada mən kim oluram?
Həyatın bu gizli məhkəməsində
sonra cəzalara məhkum oluram.

Qadın öz evindən əbədi köçmür,
onun nəfəsi var, ruhu var evdə.
Qayıdıb heç şeyi təzədən ölçmür,
amma bir kimsəsiz ahı var evdə.

Bəlkə bu duyğudur sossiz ağlayan,
uçub yuvası da, aşiyanı da.
Bu həsrət oduna yandın, Nəriman,
yandırma həsrətlə yaşayanı da.

OĞLUMA

Anan xəstəxanada,
mən də başıqarışıq.
Qalx, oğlum,
sənə qurban,
nə yatmışıq, yatmışıq.

Doqquzda, onda deyil,
daha bizdən ötəri, –
altıda açılacaq
bu dünyanın səhəri.

Nə qədər qayğılar var,
nə qədər fikir, oğlum.
Bir evin min dərdini
tək anan çəkir, oğlum.

Dən düşüb saçlarına,
ağırlaşıb, yorulub.
Onun qadın ürəyi
qayğılardan yoğrulub.

Adı sığal istəyir,
bəzən qadın ürəyi.
Diqqətdi, mərhəmətdi,
onun duzu-çörəyi.

Vaxt olub duymamışam,
nazını çəkməmişəm;
ona yox, özgəsinə
gedib tərif demişəm.

Bayramlarda gül alıb
deməmişəm mübarək!
Yaralanıb hardasa
o zərif, həssas ürək.

Necə qadın içində
seçilir sənin anan.
Qızılgül seçilməyək
qərənfillər yanında.

Çay dəmlə, çörək bişir,
süfrə aç, öyrən, oğlum.

Xəbərimiz yox imiş,
evdən-eşikdən, oğlum.

Köynəyimiz ütülü,
yorğan-döşək təzə-tər.
Bizə xidmət eləyib
o əllər, zərif əllər.

Elə istəyirəm ki,
anan qayıdıb gəlsin;
iki kişi bir evə
baxa bilməyib, – desin.

Elə istəyirəm ki,
evə dönək, ay oğul.
O danışsın, danlasın...
biz sevinək, ay oğul.

"ZİYAFƏT"DƏN QAYIDAN QIZ

Gecə keçib gecədən,
kəçən yoxdu küçədən.
Çəkilibdi əl-ayaq.
Ana oyaq, qız oyaq.
– Necə keçdi ad günü?
Qızım, sizin ziyafət?
– Anacan, lap qiyamət.
– Gözəl qızdı rəfiqən,
xoşbəxtdi onu alan.
– Anacan, lap doğrudan.
– Yəqin yeyib-içdiniz,
xörəkləri o ağgün...
– Anacan, löyün-löyün...

Anası gözləyir ki,
yorulub, yatsın qızı.

Qızı da gözləyir ki,
gedib yatsın anası.
Qız görüşdən qayıdıb,
düzünü deyə bilmir,
oturub yeyə bilmir.
Gözü "acam" söyləyir,
ağzı "toxam" deyənin. –
"Ziyafətdə" yeyənin
Danışırlar beləcə,
baxışırlar beləcə,
əriyib gedir gecə...

TALE

Yanında baldızı, nəzarətçisi,
boynunda, qolunda qiymətli daşlar!
Tale görüşdürdü qəfildən bizi, –
yaxşı ki, dünyada taleyimiz var.

Tanıyan o idi, tanımayan mən,
ah, onun həyata sualı nəydi?!
Bir şeyi bilmədim, – nəzarət hökmən
üstəki daş-qaşa, ya özünəydi.

Zəncir biləyində xalis qızıldan,
üzük barmağında başqa bir ovsun.
Qandal eşitmişdim,
amma heç zaman,
qandal görməmişdim qızıldan olsun.

Soruşmaq istədim mən onu ondan,
gördüm ki, özü də məəttəl qalıb.
Mənim əzizimdən, mehribanımdan
yad baxış,
yorğun səs,
soyuq əl qalıb...

Budurmu xoşbəxtlik, yaxud səadət,
budurmu dünyanın ağız ləzzəti?!
Almazın, yaqutun içində fəqət
mən ağlayan gördüm bir məhəbbəti.

Əzizdir hər kəsin eşqi, niyyəti,
Hər qəlbin ilk sözü bir ünsiyyətdir.
Kişinin ən böyük mədəniyyəti, –
bəlkə də qadına münasibətdir.

Bir müdrik misalı gətirdim yada,
sən də ər evində bir az ayıq ol.
Qızıl basdırılır, çıxarılır da,
insan basdırılır torpağa bir yol.
Bir az ayıq ol.

QIZLARDAN OĞLANLARA

Oğlanlar, qızlara hörmət eyləyin,
ya sevin qızları, ya rədd eləyin.
Aldadıb atmayın, günahdı qızlar,
sabahkı ən əziz anadı qızlar.

Səsində həya var, gözündə ovsun,
evdə dilavərdi, çöldə lal olur.
Gözünüz qızların gözündə olsun, –
o gözdə daimi bir sual olur.

Qızlar anadılar, oğlanlar ata,
kim deyir, bu işi bir əyən olmur?!
Qızların qız baxtı gözəl olsa da,
gəlinlik baxtları müəyyən olmur.

Fikirə öyrəşir, qəmə qatlaşır,
qəlbində yaşadır, sirrini təkcə.
Öz ata evində qızlar yadlaşır,
yad oğlan evinə meyl elədikcə.

Qəlbini sevdiyi oğlana deyir,
ancaq rəfiqəsi soruşsa, danar.
Özgə anasına qız ana deyir,
özgə atasına qız olan qızlar.

Qızlar aldanandı, siz aldatmayın,
aldanıb yananın qanı buz qalar.
Qolları üstündə gedib yatmayın,
yazıqdı, əbədi yuxusuz qalar.

Görüşə getməyin ürək sevməsə,
sözümü, a qızlar, ucuz tutmayın.
Ürəkdən çəkirik, nə çəkiriksə,
bunu da həyatda siz unutmayın.

"GƏZƏYƏN QIZ"

Rəsul Həmzətova

Səni görübdülər dağüstü parkda,
gün bir az aşağı əyilən vaxtda.
Kinodan çıxanda görüblər səni,
ötürüb harasa bir nəfər səni.
Sonra bir avtobus duracağında,
sonra bir metronun çıxacağında,
sonra bir taksiyə mindiyin yerdə,
sonra da evə gec döndüyün yerdə,
haraya gedibsən göz qoyubdular,
adını "gəzəyən qız" qoyubdular.

Məni gözləyibsən dağüstü parkda,
gün bir az aşağı əyilən vaxtda.
Səni o kinoya mən aparmışam,
özüm ötürmüşəm sonra qadası.
Od tutub yanağın, üzün yanmasın,
yenə görüşmüşük gedib bir axşam:

əvvəl bir avtobus duracağında,
sonra bir metronun çıxacağında,
sonra bir taksiyə oturmusan sən,
mənim görüşümə gecikdiyindən.
Özüm saxlamışdım bir dəfə səni,
bir az gec ötürdüm mən evə səni.
Gör, necə yerbəyer, necə adbaad,
məni görməyiblər,
ay dadi-bidad!

QOŞA MƏZAR

Ağstafanın Qıraqkəsəmən kənd qəbiristanlığında anamla dayım yanaşı dəfn edilib.

Bacı-qardaş yanaşıdı,
məzar məzara söykənib.
Köhnəlib iki başdaşı,
dəmir hasara söykənib.

Bu dünyaya gələn gedib,
nə əl çatıb, nə ün yetib.
Yovşanlıqda güllər bitib, –
Gülzar gülzara söykənib.

Kim daş atdı bu bacadan,
keçmədi gəncdən, qocadan.
Baxma torpağa ucadan,
torpağa Sara söykənib.

Ağstafa, 13 iyul, 1992

TƏLƏBƏLİK

Bacım qızı Fəridəyə

Durur ayrıldığım kölgəli çinar,
durur Gəncədəki bizim institut.
Xəyalım bir yerdə tutmadı qərar,
illəri andırdı bir anlıq sükut.

Neyləyim, unutmur insan ürəyi,
yaşadım dünyada könlü yanıqlı.
Düz dörd il geyindim köhnə pencəyi,
qolu gödək oldu, boynu yamaqlı.

O pencək saxladı məni soyuqdan,
doğru danışmağı çoxu ar bilir.
Əynindən çıxardıb vermişdi atan,
heç kəs bilməsə də, qonşular bilir.

Bəzən ac da qaldım, daha nə danmaq,
danışıb gülməyə könlüm olmadı.
Şerim qəzetlərdə çap oldu, ancaq
bir qəzet almağa pulum olmadı.

Lakin bu dərdimi bilmədi heç kim,
mən bildim dərdimi sevincin, qəmin.
Arabir xəlvəti baxıb sevindim,
təzə yamağına köhnə çəkmənin.

Gülmə, görməmisən o sevinci sən,
xoşbəxt böyümüsən, xoşbəxt ol, anam.
Bir də bilirsənmi mən o sevincdən,
dünyada heç kəsə arzulamıram.

Oldu sevincim də, oldu qəmim də,
bir tələbə qıza könlümü verdim.
Onun hər sözünü öz aləmimdə
seminar dərsitək əzbərləyirdim.

Deyirdim, nə qədər baha olsa da,
gərək üzük alım, bu bir adətdir.
Ancaq avtobusun keçib yanından,
piyada gedirdim dərsə arabir.

Qoy indi ağrısın vicdanı varsa,
girdi aramıza onda bir nəfər.
Bir gəncin taleyi alt-üst olursa,
ağırdı, dağılan ailə qədər.

Fikir ver hökmünə sən misalların,
deyir, su quyunun dibində olur.
Hayıf ki, ürəyi bəzi qızların
başqa oğlanların cibində olur.

Qoy bir söz də deyim çıxartma yaddan,
bu da necə deyər, bir məsləhətdi.
Çalış ki, əvvəlcə yanılmayasan,
təəssüf ikinci məğlubiyyətdi.

Ömrün yolları da pilləkan kimi,
gəndən uzaqlara lap çox baxmışam.
Mən o pillələrlə bir insan kimi
gör ki, necə gəlib, necə qalxmışam.

1964

SƏADƏT

Azərbaycan gözəlinə

Heç bilirsənmi,
səndən
Həcər olardı, Həcər
Belində gümüş kəmər,
kəmərin üstə xəncər,
çiynində bir "aynalı".

Sən bundan daha gözəl,
Bundan daha mənalı!

Sənin Nəbin olardım,
vuran qəlbin olardım.
At üstə atdanardıq,
ürəkdən şaddanardıq,
səngərə yatışardıq,
atışar, atışardıq,
qaynayıb-qatışardıq.

Necə dəmlər olardı,
Necə sevinc görərdik,
necə qəmlər olardı!
Gör, nə deyir o gözlər,
deyir: nə xoş olardı
sənlə döyüşə getmək,
görüşə getmək qədər.
Sənin qolların üstdə
yaralanmaq, sağalmaq –
ah, səadət, budur, bax!

1970

NƏRDİVAN

Bu dünya nərdivandı, –
qalxanda mehribandı,
enəndə nə yamandı...
Görüşdük pillələrdə,
yolun yarısında biz.
Sən qalxırdın bu dəmdə,
mən enirdim xəbərsiz.
Səni arzularına
qaldırırdı nərdivan.
Məni xatirələrə

endirirdi bu zaman.
Birimiz – günçıxana,
birimiz – günbatana.
Qalxa bilməzdim daha,
nə o güc, nə o taqət.
Sən də enə bilməzdin, –
haqlı, haqsız vermişdi
öz hökmünü təbiət.
Gərək ya düşməyəydi
bu görüş heç araya,
Ya sən əvvəl gələydin,
ya mən sonra dünyaya.

1978

GÖZÜ YOXDU

Küçələrə su səpmişəm,
yar gələndə toz olmasın.

Xalq mahnısı

Küçələrə qar yağıbdı,
torpağı var, tozu yoxdu.
Xəstə qalıb gözü yolda
səsi gəlir, sözü yoxdu.

İnsan dərdə layiq olar,
bəxti yatsa, ayıq olar.
Yadın evi soyuq olar,
ocağı var, közü yoxdu.

Dərdin alım, bizim dağlar!
Quyu suyu sərin saxlar.
Biri gülər, biri ağlar,
bu yazıya pozu yoxdu.

Sirri çoxdu bu dünyanın,
vay halına qul olanın.
Sən gördüyün Nərimanın
adı qalıb, özü yoxdu.

ƏLİ BALA

Uğuruma gəlib çıxdın,
sənə qurban, Əli bala.
Səni görüb xoşbəxt olsun
Atan-anan, Əli bala.

Dar günümdə çatdın dada,
qoymadın əl açım yada.
Görməmişdim həyatımda
belə tufan, Əli bala.

Bir həkimdən uzaq qaçdım,
o birinə ağız açdım.
Elə yandım, elə çaşdım,
əsdi xəzan, Əli bala.

Tale məni saldı dala,
yaman düşdüm haldan-hala.
Bu yaşda bu qeyli-qala
dözmür insan, Əli bala.

EVDƏ ARVAD OLMAYANDA

Evdə arvad olmayanda
düymə də qırılır düşür.
Yel budağı oynadanda,
Yarpaq da ayrılır düşür.

İsti nəfəs, doğma ocaq
varsa, səni qoruyacaq.
Yıxılanda xançal, bıçaq
qınından sıyrılır düşür.

Nəriman, nələr çəkirsən,
torpağa qan-yaş tökürsən.
Yam-yaşıl güllər əkirsən,
sapından saralır düşür.

17.08.2000

İMTAHAN

Sənə imtahan verib
getdi tələbələrin,
mənası dərin imiş
mübtədanın, xəbərin.
Sənin təhlil etdiyin
o sadə cümlələrin.
Var olsun, sənə qurban,
"dörd", "beş" yazan əllərin.
Xoş halına deyirəm,
qiymət alan gənclərin.
Nə vaxtdı gözləyirəm,
sənə imtahan verim,
mənə qiymət düşürsə,
can deyirsən, can verim.

26.06.03

QORXURAM "ANAMA" MƏN ANA DEYİM

– Bir qadın anama oxşayır, ata,
üzü, görünüşü, boyu-qaməti.
Gülüşü ürəkdən, yerişi asta,
bir əl yaradıbdı iki xilqəti.

Anamda görmüşdüm o baxışları,
onundu o gözlər, o qaşlar, ata.
Yuyub daramıram mən o saçları,
o ətrə bələnib bu saçlar, ata.

O necə özgədir? – deyirəm hərdən,
özgələr yanında doğmamdır, ata.
Gedənlər qayıdır bəlkə yenidən? –
o da qayıdıbdı, anamdır, ata.

Dünyanı bir qadın gözəli gəzir,
dünyada yaşayır özündən ayrı.
Get barış, o bəlkə küsülü gəzir? –
bizdən də yan keçir o səndən ayrı.

Qadınlar köyrəkdi, qəm yeyə bilər,
ilahi söz deyir o baxış, ata.
Qadınlar hər şeydən inciyə bilər,
nəvaziş gözləyir, get barış, ata.

Nə qədər həsrətdi dilim bir sözə,
nə deyim, soruşma o nədir, ata.
Yəqin, hansı qızın anası varsa,
Allah da göydə yox, yerdədir, ata.

Ədası mehriban, səsi mehriban,
ata, o, Yer olsa, mən Göyün ollam.
Mən sənin yanında o "Şeytan balan",
mən onun yanında ərköyün ollam.

Həyat gözlərimdə təzə don geyir,
arzumu, sirrimi qoy ona deyim.
Məni hər görəndə o, "qızım", deyir,
qorxuram, "anama" mən ana, – deyim.

MƏNDƏN YAMAN RAHATDILAR

Soyuq sökür kürəyimi,
ağrı didir ürəyimi.
Yatıram, buz xörəyimi
qızdırıb gətirən yoxdu.

Evdə özüm, çöldə özüm,
tokliyə öyrənib gözüm.
Andıra qal, belə dözüm,
üzümə bir gülən yoxdu.

Hərdən Gülüş yada salır,
hərdən Xətiş xəbər alır.
Hərdən Nazim bir zəng çalır,
– Gələn varmı?
– Gələn yoxdu.

Soruşmağa babatdılar,
Şükür, sağ-salamatdılar.
Məndən yaman rahatdılar,
hələ ki, bir ölən yoxdu.

2000

XƏBƏR VER O GÖZƏLDƏN

Deyərdi, danışardı,
arzuyla yaşayardı.
Tikməyi xoşlayardı,
oğlunu, bir də məni
ərk ilə danlayardı,
üzümüzdən öpərdi.
Köz üstə su səpərdi.
Ən böyük sevinci də
ilkin qız nəvəsiydi,
nənəlik həvəsiydi.
Bir də kürəkəninə
süfrə açıb bəzəmək
onun zövq mənbəyiydi.
Ürəyi geniş idi,
Hövsələsi dar idi.
Evimiz olmayandan
o hələ cvdar idi.
Teatr aşiqiydi,
musiqi vurğunuydu.
Güldümü – uğunurdu.
Ortabab şairləri,
bir də şöhrətliləri
oxumamış doyardı
və kənara qovardı.
Bax, beləcə yaşardıq,
küsərdik, barışardıq.
Su olub buxarlanıb,
quş olub uçub əldən.
Ötən bulud, əsən yel,
xəbər ver o gözəldən.

DÜŞÜB

Küsüb bir dünya gözəli,
sükutu dünyaya düşüb.
Bir yol "Ayüzlüm" demişdim,
qalxıb indi Aya düşüb.

Əlimdən bir ceyran çıxıb,
Ceyran, canımdan can çıxıb.
Mirvari dəryadan çıxıb,
təzədən dəryaya düşüb.

Onu yerbəyer eləyin,
məni dərbədər eləyin.
Məcnuna xəbər eləyin, –
Nəriman səhraya düşüb.

DÜNYA YAŞAMAQ YERİYMİŞ

Çəməndə təzə gül bitib,
bu yer köhnə bağ yeriymiş.
Dünya bir pəncərə deyil,
dünya yaşamaq yeriymiş.

Sən ey gözəllik tanrısı,
nə xoşdur ömrün mənası.
Sənin qolların arası, –
küsüb-barışmaq yeriymiş.

Gəlib çıxmırsan xeyli var,
demirsən bir gileyli var.
Əhmədlidən gələn yollar
nə yaman uzaq yer imiş...

MƏNİM YANDIĞIMI DEMƏ, YANARSAN

Xalq artisti Əminə Yusifqızına

Gör necə qarışıb qəmim qəminə,
ixtiyar sahibi, biixtiyarsan.
Mənim yazdığımı oxu, Əminə,
mənim yandığımı demə, yanarsan.

Mənə demişdilər dünya işıqdı,
yenə yolum uzaq, səbrim az oldu.
Mənim ki, bu qədər alnım açıqdı,
niyə alın yazın oxunmaz oldu?!

Sənin pıçıltında bir etiraz var,
bir göy gurultusu, bir leysan bulud.
Sözü sükutla da anlatmaq olar, –
təki söz söz olsun, sükut da sükut.

Bir sevda yoludu könül təsəllim,
kimə tanıdırsan divanə məni?!
Külə döndüyümü görəndə bildim,
necə yandırıblar Əminə, məni.

23.01.2001

XOŞBƏXTLİK

Sən mənim dərdimsən, dərdi çəkəllər,
bir yolda gözlərəm mən yüz yol səni.
Əziz olduğunu dərdin bu qədər
sən mənə öyrətdin, xoşbəxt ol səni!

İÇİMDƏ

Üzümü xoş görüb, xoşbəxt deyirsən,
ağrı içimdədi, yara içimdə.
Dərdimi soruşma, ay dərdin alım,
gəl axtar içimdə, ara içimdə.

Qapalı ümmandı elə bil sinə,
çalxanır, sığışmır öz hövzəsinə.
Qızıl balıq kimi üzür tərsinə,
ürəyi salıblar tora, içimdə.

Ürəkdən çəkirəm, ürək acıyam,
fikir dünyasıyam, söz yamacıyam.
Özüm özüm boyda dar ağacıyam,
dara çəkilirəm, dara, içimdə.

Taleyim xeyrə yox, şərə qol çəkir,
dərdi ya qız çəkir, ya oğul çəkir.
Nazim fikirlidi, gözü yol çəkir,
Xatirə yanımda, Sara içimdə.

SƏN NƏRİMAN DEYİBSƏN

Mənim evdən, mənim işdən qaçanım,
kimə doğru, kimə yalan deyibsən?
Ziyarətin qəbul olsun, əzizim,
gedib orda mənə qurban deyibsən.

Qəsd elədim mən özüm öz canıma,
tək qoymadın, gəlib-getdin yanıma.
Düşmənlərim susayanda qanıma,
can yandırıb sən mənə "can" deyibsən.

El deyəni, el qoruyub, el tutub,
köməksizi yağış döyüb, sel tutub.

Atasıza ata kimi əl tutub,
anasıza mənəm anan, deyibsən.

Ürək dostum, ürəyimə dəyiblər,
əyilənlər əyilməzi əyiblər.
Haq şairi indi kimdi deyiblər? –
Çaşmayıbsan, sən Nəriman deyibsən.

İyun, 1997
Şüvəlan, xəstəxana

SƏNİN YUXUN

Sağlığıma sən oldun
ilk dolduran qədəhi.
Əlində cingildədi
dolu şampan qədəhi.

Böyük qonaqlıq idi,
sən deyən sağlıq idi.
Dəstəyi sınıq idi,
məndə olan qədəhin.

Ürək ləkə bilmədi,
dərdi çəkə bilmədi.
Əcəl tökə bilmədi,
sən dolduran qədəhi.

29 mart, 1997,
xəstəxana

GÜL

İllər gəlib keçib... qəbir itibdi
illərə nə var ki, gəlib keçəcək.
Üstündə ən gözəl bir gül bitibdi
Ətri var, elə bil öz nəfəsin tək.

Gülün xatirinə
deyirəm, – çoban
Neçə yol sürünü qaytarıb yəqin.
O gül qoymayıbdı ayaqlanasan,
Cığır salmayıblar üstündən sonin.
Bu gülün rəngində vardı bir donun,
Hoyatı sevirdin, axı sən, ana.
Nə deyim, bəlkə də geyinib onu
Təzodən dünyaya gəlmisən, ana...

AYAQQABILAR

Qapımızın ağzında
Əvvəl ancaq ikiydi.
Onlar da mənimkiydi.
Dörd oldu sonra bir gün.
Üç il keçdi sərasər,
Gah axşam, gah da səhər
Hey açılıb örtüldü
Bizim doğma qapılar.
Bir gün də altı oldu
Həmin ayaqqabılar.
İkisi bər-bəzəkli,
Dördü bəzəksiz oldu.
Artdı ayaqqabılar
Sonra da səkkiz oldu.
Keçir günlər, həftələr,
Yaş üstünə gəlir yaş.
Kiçik ayaqqabılar
böyüyür yavaş-yavaş.

DAİM GÖZ ÖNÜNDƏ

Həyatın qəribə məqamları var,
kim isə sağlamdı, nasaz görünür.
Dərinə bənzəyir bulanlıq sular,
duru su dərindi, dayaz görünür.

Baxma bu dünyaya belə könülsüz,
dünyada nə var ki, o xoşa gəlsin.
Səadət qəm ilə şərikdi, sözsüz,
görmədim –
qış ilə yaz qoşa gəlsin.

Sən elə gözəlsən, sən elə həssas –
könlündən könlümə bir işıq düşüb.
Səni hər tanıyan yaxşı tanımaz,
yaxşılar pislərlə qarışıq düşüb.

Göyərçin kimisən daima səssiz,
dümağsan, elə bil səni qar tutub.
Geyimin gözəldi, zövqün əvəzsiz,
niyə gözlərində qəm qərar tutub?!

Vermə od sinəni hər əsən yelə,
dünya od sinənə bir inci qoyub.
Bir ömür nədir ki, onu da belə;
qəmə həsr edəsən, sevinci qoyub.

Ömürlük qalacaq amma bu duyğu;
bu ildən o ilə sirri daşımaq
nə qədər çətindi, bir ömür boyu
daim göz önündə
gizli yaşamaq.

SƏNƏ KEŞİK ÇƏKİRƏM

Sən yatırsan bu saat,
mən oyağam bu saat.
Yuxun başqa bir həyat,
özün başqa bir həyat.

Sən indi evinizdə
rahat yatırsan, nə qəm.
Mən burda, evimizdə
sənə keşik çəkirəm.

QABAQDA YAŞ VAR...

İkimiz üz-üzə – sevinc ilə qəm.
elə hey deyirəm bir dinlə məni.
Gözlərin nə deyir, başa düşürəm,
niyə çaşdırırsan dilinlə məni.

Sən olan dünyada başqadı dünyam,
məhəbbət göz ilə, qaş ilə deyil.
Yaşca böyük ikən uşaq oluram,
görünür, böyüklük yaş ilə deyil.

Gözünlə həmrəysən, dilinlə yadsan,
biri doğmadırsa, o biri yaddır.
Gah bərksən daş kimi, gah amanatsan,
bəlkə qadınlarda bu, ehtiyatdır?

Nəfəsin ətirli, özün təzə-tər,
uyuyur qoynunda yaz ilə bahar.
Sən məndən özünü gözlədin, yetər,
özündən gözlə ki, qabaqda yaş var...

QIZA "BEŞ" DÜŞÜR

Bir dünya gözəli, bir adı pünhan
görüşə qaçırdı əlində dəftər.
Bir vaxta düşmüşdü görüş, imtahan;
orda da, burda da gözləyirdilər.

Müəllim, rəhm elə çıxsa yadından,
bir az fikirləşsə, bir az macal ver.
O da imtahandı, bu da imtahan,
məhəbbət fənnindən qıza sual ver.

Elə məqam düşüb, o ürək açıb,
Çəməndə iz düşür, izə şeh düşür.
Bəlkə taleyinin dalınca qaçıb,
qız "üç"ə danışsa, qıza "beş" düşür.

Səadət diləyək gərək o qıza,
göz nurla sevinsin, ürək eşq ilə.
Oğlandan "beş" alıb, səndən "üç" alsa,
nuş olmaz müəllim, "üç"ü "beş" eylə.

O da imtahandı, bu da imtahan;
demə orda bilən, burda bilməyir.
Eşqin pedaqoji qanunlarından
Sizin fakültədə dərs keçilməyir.

İKİMİZ

"İstedad əsil-nəcabətdən artıqdır"
Volter

Sən mənim üstümdə söz götürübsən
nadan kəkələyib lovğalananda.
Sən külün içindən köz götürübsən,
yəqin zərifliyin itib o anda.

O duya bilməzdi nəydi bu ülfət,
bələdçi cildində nabələd idi.
Həqiqi ləyaqət, yalançı şöhrət
üz-üzə gəlmişdi, bir qələt idi.

Döyər sinəsinə bəzi adamlar,
qalxar arsız-arsız namus-ar deyə.
Vətəni başına çətirtək tutar
bir yaz yağışında islanar deyə.

Səni üşüdürdü soyuq nəfəsi,
gör o, ürəyini harda qırırdı.
Qadın qürurunu qəsdi-qərəzi
"kişi qeyrətinə" sığışdırırdı.

Üzr istəyəydi səndən o, gərək,
nə üz lazım idi, nə də cəsarət;
Qadın qarşısında səcdə eləmək
qadın nəzərində qalxmaqdı fəqət.

Allahın say-seçmə bir bəndəsiydi:
əsli, nəcabəti, nələr və nələr.
Eh, o da mikrofon xanəndəsiydi,
üzdə əl çalırlar, dalda söyürlər.

Baxıb ətrafına bir fənd qururdu,
mərhəmət umurdu kimdənsə yazıq.
O qalib rolunda məğlub olurdu,
sənlə mən – ikimiz tamaşaçıydıq.

YADINA DÜŞƏCƏYƏM

Deyirdin ki, birtəhər
unudaram mən səni.
Unut, birtəhər unut,
bacarsan əgər, unut.

Mən səni hər görəndə
dağ çiçəyim, deyərdim.
Çiçək görsən harda sən,
əldə, ya bazarda sən
yadına düşəcəyəm.

Yerdə maşın şütüyüb,
göydə ulduz axacaq.
Görüşdən qayıdanlar
qabağına çıxacaq,
yadına düşəcəyəm.

Başını darayanda
barmaqların əsəcək.
Daramaq istəmişəm
o saçları sənin tək,
yadına düşəcəyəm.

Axşamlar yenə çıxıb
duracaqsan yolda tək.
Səni kim gözləyəcək,
səni kim ötürəcək? –
Yadına düşəcəyəm.

Getsən bir yas yerinə
qara geyinib əgər,
ölənin sevgisindən,
eşqindən deyəcəklər.
Yadından çıxanda da,
yadına düşəcəyəm.

Deyirdin ki, birtəhər
unudaram mən səni.
Unut, birtəhər unut,
bacarsan əgər, unut...

1952

İTİRMƏ

Mənim sənə sədaqətim təmizdi,
sən də mənə etibarı itirmə.
Mənmi səni, sənmi məni tapıbsan?
tapdığını saxla barı, itirmə.

Rəfiqələr sirrimizi yayıbdı,
Gələn olar, görən olar, ayıbdı.
Sən ağlama, göz yaşların hayıfdı,
sinəmə tök, o yaşları, itirmə.

Əzab çəkmə, ufuldanma bir belə,
yaxın əyləş, sığal çəkim o telə.
Sevirsənsə, sevdiyinə rəhm elə,
oxşadığın ağ saçları itirmə.

SİRR SÖZÜ

Məni gizli imtahana çəkirsən,
lazımdımı açıq deyim hər sözü?
Qulağına pıçıldasam yaxşıdı,
qəlbinlə duy, gözünlə də gör sözü.

Demə nədir səsimdəki bu təlaş,
arxada yaş, ortada yaş, öndə yaş.
Üç söz deyim, üç tilsimdi, özün aç:
Çaylı sözü, Poylu sözü, Kür sözü.

Sərv olaydın, budağını əyəydim,
külək olub qapınızı döyəydim.
Sözarası mən sənə can deyəydim,
sözgəlişi sən də mənə: yar, – sözü.

Nə deyibsən, Tanrı sənə veribdi,
baxışların, yerişlərin zərifdi.
Sevən adam el içində qəribdi,
necə desin qərib sənə sirr sözü?

İKİNCİ ADDIM

Hər şey zarafatdan başladı bir vaxt,
Hər şey bu dünyada başqaydı bir vaxt.

Həyatda ikinci addım atırsan,
yeri ehtiyatla, get ehtiyatla.
Zarafat eləmə sən bu həyatla,
yolu cüt gəlmişdin, tək qayıdırsan.

Kömək istəyirsən darıxıb hərdən,
günahkar bəlkə də ancaq mən oldum.
Təsəlli verən də mənəm, sənə mən,
səni çaşdıran da bir vaxt mən oldum.

Düşmənəm həyatda təsəlliyə mən,
getmir təsəllinin vurduğu yara.
"Sənsiz yaşamaram" – deyə-deyə mən,
sənlə də yaşadım,
sənsiz də sonra.

Daha özünündü xeyirin, şərin,
yadında bir sözüm qalacaqdımı, –
gedirsən, ikinci addımın sənin,
birinci taleyin olacaqdımı?..

XOŞBƏXTLİK VERİRDİM

Martın səkkizində təbrik elədim,
– Bayramın mübarək,
xoşbəxt ol, – dedim.
"Xoşbəxtlik verirsən, tək istəmirəm,
mən bir vaxt demişdim... daha demirəm".
Susdum ehtiyatsız hərəkətimdən,
xoşbəxtlik verirdim, mən bədbəxt ikən.

APAR MƏNİ

Gəl yanıma innən belə,
soruş məni, axtar məni.
Ürəyində apar məni
gözlərində qaytar məni.

Mən nə məstəm, nə ayığam,
məhəbbətə mən layığam.
Sən dalğasan, mən qayığam,
eşqin atar-tutar məni.

İçimdədir odum, közüm,
köz olubdu sirrim, sözüm.
Heç bilmirəm deyim, dözüm?
intizardan qurtar məni.

Sən səhərdə bir səhərsən,
çiçək kimi təzə-tərsən.
Sonra bir gün gecikərsən,
sonra torpaq udar məni.

XATİRƏ

Bizə necə baxırdı
yanımızdan ötənlər.
Səadət yeriyirdi
küçəylə səhər-səhər.
Biri Sən, biri də Mən! –
bu sevinci duyurdum.
Bizim nikahımızı
gözlərdən oxuyurdum.
Sən mənə yaraşırdın,
mən sənə yaraşırdım.
Taleyimlə ilk dəfə
mən orda barışırdım.

Yəqin sonuncu dəfə
rəhm edirdi Allahım.
Ey yazılan taleyim,
ey pozulan nikahım,
ey ailə həyatım!
Dadınızı görmədim,
tamınızı duymadım.
Xatirəyə döndünüz,
ey yaxınlar, uzaqlar!
Qızımın adı qaldı
sizdən mənə yadigar.

***

Məhəbbət! Nə deyim bu ülvi ada,
Hamıya bir gözlə baxmayır o da.
Birinə ömür-gün yoldaşı verir,
Başqa birisinə göz yaşı verir.

1957

SƏN YAŞA

Səni daş eylədilər
o daşa qurban olum.
Qızın "Ana" çağırır, –
anaşa qurban olum.

Ağrısan ağrıyardım,
yaranı sarıyardım.
Saçını darayardım,
o saça qurban olum.

Ürəyimdə söz qalıb,
külün altda köz qalıb,

baxa-baxa göz qalıb, –
göz-qaşa qurban olum.

Baxan baxır yan gedir,
gələn pərişan gedir.
Daş qalır, insan gedir,
Sən yaşa, qurban olum.

HAQQIN ÇATARMI

Məndən inciməyə haqqın var sənin,
bəxtdən inciməyə haqqın çatarmı?
Özün ovsunladın göz bulağımı,
göz yaşı içməyə haqqın çatarmı?

Sənsiz, səndən ötrü nəzir vermişəm,
könlümü könüllü əsir vermişəm.
Sənə candan qabaq mən sirr vermişəm,
o sirri açmağa haqqın çatarmı?

Məcnun Leyli deyib dağı dolaşır,
dildə bal, ağızda ağı dolaşır.
Nəriman fikirli, ahlı dolaşır,
tək qoyub qaçmağa haqqın çatarmı?

12.01.98

OLUM

Mənə zülüm eyləyirsən,
zülm elə, qurbanın olum.
Dünya sənindi deyirlər,
sən olan dünyanın olum.

Yol kimi ayaqla məni,
həm öldür, həm ağla məni.

Hör daşla, torpaqla məni,
qoy təzə ünvanın olum.

Dilim dil olsun o dilə,
bir yol adımı çək belə.
Ver, aparsın əsən yelə,
dillərdə dastanın olum.

"Yox" demə ki, yoxa çıxım,
istidən soyuğa çıxım.
"Hə" de ki, qabağa çıxım,
"can" deyəndə, canın olum.

Nərimanı girov qoyum,
gözlərini yeyim, doyum.
Mən səni səndən qoruyum, –
yanında həyanın olum.

2 iyul 2002

QADASIN ALDIĞIM

Gözlərim bir gözə düşdü,
ortaya möcüzə düşdü.
Üz vurmadım, üzə düşdü,
çaşdı qadasın aldığım.

Doluydum – yağa bilmədim,
qalxdım ayağa, bilmədim.
Tez keçdi, baxa bilmədim,
qaçdı qadasın aldığım.

Baxdım ki, baxtım oyana,
düz gəlirdi, döndü yana.
Demə daşdı, Nərimana,
yaşdı, qadasın aldığım.

DÜNYANIN SAKİT YERİ

Yenə divanəydi şahanə könlüm,
cahanda sığmırdı cahana könlüm.
Dünyanın ən uçqar, ən sakit yeri,
qolumun üstüydü səndən ötəri.

Son dedin beləcə daşa dönəydik,
mən dedim daşa yox, quşa dönəydik.
Uçaydıq, doyunca nəfəs alaydıq,
yerə enməyəydik, göydə qalaydıq.
Üzərrik yandırıb sən duz ataydın,
qolumun üstündə bir az yataydın.

Sən dedin quş olsaq, bizi vurarlar,
daş olsaq, dəyməzlər, dinc oturarlar.
Mən dedim daş olsaq, görərlər bizi,
götürüb divara hörərlər bizi.

Yandıq bu eşq ilə, bu arzu ilə,
bu arzuya əhsən, bu eşqə əhsən.
Daşa dönmüşlərin içində hələ,
daşa dönməyəni bizik deyəsən.
Hələ məhəbbətə inanan bizik,
yanıb içimizdə kül olan bizik.
Allah, ya daş eylə: divarda qalaq,
ya bizi quş eylə, yanına qalxaq.

TALEYİN DALINCA

Sən görüşə çıxırsan,
mübarəkdi, qadası:
Ömrün ilk səhəridi,
yolun ilk astanası.

Niyə yol çəkir gözün?
o yola göz tikən var, –

o yola tələsən var,
o yola gecikən var.

Taleyiyin dalınca
gedirsən, yox xəbərin.
O qız ən vacibidi
səni gözləyənlərin,
səni istəyənlərin.

Demə, adi tanışdı,
demə, kimdir o tanış?!
Qohumdan-əqrəbadan
irəlidir o tanış,
özgə bildiyin o qız,
o gülərüz, ayqabaq.
Bəlkə anadan oziz,
bəlkə atadan qabaq.
Bu gün yox, sabah, sabah!
Dünyada tək qalanda.
Bu dünya boşalanda
və təzədən dolanda.

Qabaqda qırx var hələ,
qırxdan sonra əlli var.
Böhtan var, təsəlli var,
bir dərdin yüz həlli var.
O həllin də dərdi var.
Dostun üzü dönüyü,
qohumun namərdi var.

Təklik var yer üzündə,
kimsəsiz yaşamaq var,
kefsiz var, kef-damaq var.
Ögeylər, doğmalar var,
sıxmalar, boğmalar var.

Ədalətin adı var,
Azadlığın tərifi.

Biri yapon dilidi,
o biri çin hərifi.
Bu yollarda gərəkdi
yol gözləyən o pəri.
Arxadı, addı-sandı
o qız səndən ötəri,
həyatda bir həyatdı.
Özü gör necə zərif,
gör necə amanatdı.
Qızıl güldü, lalədi,
bənövşədi qismətin.
Qadın – möcüzəsidir,
sirridir təbiətin.

Tale aldı əlimdən
O çıxmışdı qarşıma.
Vətənsiz yaşa qardaş,
qadınsız yox, yaşama.

QIZ İDİN – SEVİNƏN, QAÇAN, GÜLƏYƏN...

Mən bu daş saçlara sığal çəkmişəm,
nə qədər öpmüşəm bu daş üzündən,
bu daş dodağından, bu daş gözündən,
arı pətəyindən mən bal çəkmişəm.

Yer üzü vətəndi, qəbir də vətən,
bu gözün ağıdı, o qarasıdı.
Bizə indiyəcən olmayıb deyən, –
bunun vətən hansı, qürbət hansıdı?!

Qız idin – sevinən, qaçan, güləyən,
mənim ürəyimə od ələyən də.
Səni mən olmuşam gəlin eləyən,
bu daşlar içində daş eləyən də.

Ayrılıq əbədi bir qəmdi, nə qəm,
nə arzuya qıyır, nə yaşa baxır.
Mən daşa baxmaqdan daşa dönmüşəm,
üz-üzə durmuşuq: daş daşa baxır.

Yetim bir uşaqdı kişi, qadınsız,
mən bir uşaq dedim... tək uşaq olmur.
Zaman qorxuludur, ömür vəfasız,
dünyada tək qalıb yaşamaq olmur.

Qızın ana deyib cavab almayır,
bilmirəm sən necə mənasan, ey daş!
Daş kimi no daşsan, O, daş olalı,
nə də ana kimi anasan, ey daş?!

1995

ÜSTÜNƏ

Yuxun gəlir, yat qadasın aldığım,
saçlarını tök sinəmin üstünə.
Gözlərimin qapağını örtərəm,
yorğan kimi əzizimin üstünə.

Nəyə gərək, soyuqdursa o yataq?
Səndə səni, məndə məni oyadaq.
Bir az mən də yuxusuzam, qoy yataq,
o üzünü, bu üzümün üstünə.

Bir mahnı var, pəncərədən daş gəlir,
ay bəri bax, xumar gözdən yaş gəlir.
Sənə qurban, ömür gedir, yaş gəlir,
ömrümüzün, günümüzün üstünə.

GƏL, YANIMA GƏL

O evdə könlünə dəysələr sənin,
Bu evdə mən varam, gəl, yanıma gəl.
Yolda ayağına bir daş dəyməsin,
Mən sənə qıymaram, gəl, yanıma gəl.

Sənə də taleyin kəsilsə qənim,
Demək, taleyimlə oxşardı mənim.
Üzdə gülürəm ki, çoxdu düşmənim
İçimdə ağlaram, gəl, yanıma gəl.

Özgənin yanında darıxdın, yetər,
Tək təkin yanına gəlsə, sevinər.
Sonra gecikərsən, dünyadı, dönər,
Köçərəm qalmaram, gəl, yanıma gəl.

Poemalar

QAFQAZ

"Qafqaz özünün ümumdünya-tarixi əhəmiyyətini bir daha nümayiş etdirdi. İran və yunan istilaları kimi, Roma yürüşlərinə də burada son qoyuldu".

T.Mommzen

Qafqaz mənim əcdadımın vətənidi,
əzabımın, fəryadımın vətənidi,
ölənimin, itənimin vətənidi.
Qafqaz mənim vətənimin vətənidi.
Tarixini xışla yazdı torpaq üstə.
Ağ çalmalı bir əsgərdi ulu Qafqaz,
dayanıbdı ayaq üstə
Sancılıbdı bayraq kimi – dağ-dağ üstə.
Şimşəklərin, pələnglərin öz adı var, öz adəti,
bir də Qafqaz təbiəti.
Bənövşənin boynubükük xasiyyəti,
burda da bir qədim Qafqaz təbiəti.
Prometeydən Şamilədək sözü bütöv, andı qəti.
Bu da Qafqaz təbiəti.

Qafqazlıyam deyə bilməz filankəslər,
o kəslər ki, Qarabağı səndən istər, məndən istər.
Qafqazımdan Qafqaz istər, vətənimdən vətən istər.
Təcavüzdü hər niyyəti,
təcavüzkar ola bilməz bizim Qafqaz təbiəti.

İsgəndərdən üzü bəri,
Pompeylərin, Sezarların ayağının izi bəri.
Neçə dilin bir əzbəri!
Vətən oldu, məhbəs oldu Qafqaz mənə,
mən azadlıq istəyəndə, qəfəs oldu Qafqaz mənə.
Məhbusu mən, vətəndaşı mənəm onun,
bəlkə Fəxri xiyabanda itən daşı mənəm onun?!
Gülüstandan, Türkmənçaydan, on birinci orduyadək,
beşiyindən ata-baba yurdunadək
Qafqaz boyda daşıdılar Qafqaz, səni,

Xəzər səni, Kürüm səni, Araz səni.
Sonra sərhəd, sonra sərhəd dirəkləri,
bu da Qafqaz hakiminin Qafqazdakı şah əsəri!

Qərbə, Şərqə saray qurub, ev tikməyi öyrədənlər,
Sonra gedib qaranquşdan yuva tikmək öyrəndilər, –
meşələrə çəkildilər,
toxum kimi səpildilər, torpaq kimi əkildilər.
Əsir Qafqaz evdə Novruz bayramını qeyd elədi,
Dağda-daşda pencər yığıb, yemlik yedi.
Qazayağı, quşəppəyi, acıtərə,
əli göyə ağız açdı, ağzı yerə.
Ot içindən ot axtardı süfrəsinə,
analar öz körpəsinə
Qafqazda qan əmizdirdi döşündən süd əvəzinə.
Görmədi bu acıları, ağrıları
rusun, farsın nəcabətli xanımları,
Fransanın, İngilisin lediləri,
amma Qafqaz sovqatıydı yedikləri.

Qafqazlılar,
Qafqazdakı azsaylılar
"quldur" oldu quldurların nəzərində,
məğrur oldu məğrurların nəzərində.
Yayda-qışda ağ kürkü qar,
əlçatmayan, ünyetməyən sıldırımlar,
adicə göy gurultusu, göydə çaxan ildırımlar
vüqarını verdi ona, həyasını verdi ona,
qəzəbini, qisasını verdi ona.
Quldur deyil, igid oldu, qoçaq oldu,
vətənpərvər oğulları vətənindən "qaçaq" oldu,
oğlu ölən qəhrəmanın yandı bağrı ocaq oldu,
yer partizan nərəsindən gecə-gündüz oyaq oldu.
Xalqlar yenə unutmayıb bu adəti,
bu da Qafqaz təbiəti.

Qanlı yanvar Qaniçəndən yadigardı,
ona – ləkə, bizə – vətən yadigardı.

O şanlı gün, o kin-qisas unudulmaz, Azərbaycan.
Gör nə deyib qoca Qafqaz Azərbaycan:
qar nə qədər çox yağsa da, yaza qalmaz Azərbaycan.

Yenə qanlı nikolaylar tərifləndir,
atamanlar, cəld alaylar tərifləndir.
Yermolovun, Paskeviçin xatirəsi əziz olub,
Qafqazı qan çanağına döndərənlər təmiz olub.
İkibaşlı bir qartalın hikkəsilə,
qanunların ikibaşlı diqtəsilə
gizlədilir çeçenlərin soyqırımı məlumatı,
bu da böyük millətlərin "demokratik" hərəkatı.
Bu da Milad bayramının bir töhfəsi,
bu da İsa peyğəmbərin tövsiyəsi,
küçələrdə itlər yeyir rus gəncinin meyitini
bir ay deyil təzə əsgər paltarını geyindiyi.
Sonuncu son xəbərlərin yarıböhtan, ya qeybətdi,
Qafqaz, bu da azadlıqdan qazandığın əsarətdi.

Aman qatil!
bu nə sirdi, danış buyur, -
mən adını çəkən kimi ağzımda söz qan qoxuyur.
Biz Allaha yalvararıq, xatırlayıb ululəri,
kölgə kimi ayaqlanır yerdə insan hüquqları.

Qoca tarix, ulu Qafqaz! Aç sinəmin yarasını,
mən deməsəm, kim deyəcək bu torpağın ağrısını.
Bir az yenə sıxlaşdırın çiyinlərin sırasını.
Mən görürəm bu rüzgarın, bu gedişin sonrasını.
Qırğın gedir, talan gedir, döyüş gedir,
dünyada yerdəyiş gedir.
Ərazimiz yad əllərdə, hələ ölüm qoxusu var,
sülh deyirik, cavabında müharibə qorxusu var.

Qafqaz oğlu, vətən oğlu, yaxşıları seç pisindən,
seç Qafqazın mərdlərini satqınından, xəbisindən,
vəzifəyə hərisindən.
Namussuzdan namusunu qoru bu gün,

süfrəmizin ruzusunu qoru bu gün.
Ocağımız sönə bilməz,
bayrağımız enə bilməz,
səngərimiz uça bilməz,
qaçqınların qaçan yeri yoxdu daha, qaça bilməz.
Bir səngərə sığar Qafqaz,
bir tabuta fəqət sığmaz.

1995

CAVİD

Şair könlüm, nə var yenə köyrəlibsən uşaq kimi,
alışırsan öz-özünə haqdan yanan çıraq kimi.
Yelmi qalxdı, göymü uçdu, sındın belə budaq kimi?
Dünya mənə zindan oldu qaranlıq bir otaq kimi.
Cavid dedim – abır-həya dustağını xatırladım,
gözü bağlı bir millətin göz dağını xatırladım.
Yada saldım papağını, eynəyini, əsasını,
gör namərdlər kimdən aldı bu torpağın qisasını.

Fikir məni öz yerimdən qoparırdı,
mən sərnişin, Zaman nəhəng bir sərnişin qatarıydı.
İllər dəmir dirəklər tək düzülmüşdü yollar boyu,
axan kimdi, batan kimdi? – axtarırdım sular boyu.
Gördüm qara vaqonlarda Cavid gedir,
öz qəbrinə doğru belə şəhid gedir.
"Yerə enməm də, səma şairiyəm!" –
deyən enib yerdə gedir.
Gizlədilir o, bəşərdən, üzündə bir pərdə gedir.
Bir saldata tapşırılıb Şekspirə bərabərim,
Şərqdə Pirə bərabərim,
"Peyğəmbər"i qoyub gedir peyğəmbərə bərabərim.
Haqq-ədalət istəyirdi, indi susub o lal gedir,
dilindən dür tökülürdü, dilində min sual gedir.
Danışmağa hüququ yox, bir haqqı yox,

qələmi yox, eynəyi yox, varağı yox,
düşüb üstə yeriməyə torpağı yox!
Azərbaycan! şair oğlun yatap gedir,
ürəyində yazılmamış neçə cilid kitab gedir.
Ortada haqq-hesab gedir.

Vətənində yer bölüşür hakimiyyət adamları,
seçirdilər niyyəti bəd adamları, –
kişiləri, qadınları
bir az avam olanları, bir az nadan olanları.
Cavid nahaq avam deyil, nadan deyil,
ipək sapdan toxunsa da təbiəti,
ipə-sapa yatan deyil.
"Millət" deyən tutulurdu millətinə düşman kimi,
rus dilində təhsil alan hörmət-izzət sahibiydi,
vətənpərvər sayılırdı, yəni izzət sahibiydi.

Orda Bığdı, burda Eynək... "sui-qəsddən" qoruyurlar,
əsən yeldən qalxan tozdan, gələn səsdən qoruyurlar.
Yerdə xalqdan, göydə haqdan, uçan quşdan qoruyurlar,
qurduqları quruluşdan qoruyurlar,
bir az Cavid Əfəndidən qoruyurlar,
buna məhbəs qoruyurlar, ona vətən qoruyurlar.

Bax, beləcə söndü yurdun ocaqları,
yəqin cəllad, ya cəlladın uşaqları
yenə yaxşı vəzifədə xumarlanır, mehribandı,
açılmayır DTK-nın qapıları nə zamandı.
Sibir qarlı, Sibir uzaq, Sibir soyuq,
xariciylə dil tapırlar, millətə dil verənlə yox.

Teatrda Cavid idi, yenə Cavid baş qəhrəman,
teatrda onu görmək: onu sevən, onu duyan
Əmirlərin, Xumarların, Knyazların* arzusuydu,
səhnədə yox, səhnəardı söhbətlərin mövzusuydu.

* Dramaturqun ədəbi personajları

Bir az asta deyirdilər,
toyda-yasda deyirdilər.
Cavid dəvət olunmurdu məclislərə, səfərlərə,
ya ədəbi axşamlara, ya ədəbi səhərlərə.
Ona qarşı qoyurdular filan-filan nəsilləri,
sərçə ilə qartal kimi, ya şam ilə tonqal kimi
görünürdü bəziləri.
Qarğa kəklik yerişini yeriyirdi,
Cavid baxıb əriyirdi.
Lakin məxfi siyahıda unudulmur, hallanırdı,
sözdən-sözə yamaq salan pinəçilər
gedib meşin qapılarda yallanırdı.

Azərbaycan Cavidindi, başqaları sahib çıxır,
Moskvanın Bakıdakı iqtidarı sahib çıxır.
Soyadı "ov", soyadı "yan" sahib çıxır,
Azərbaycan tarixinə böhtan atan sahib çıxır.
İstedadın faciəsi nə yamandı,
istedadsız kürsülərdə, meydanlarda qəhrəmandı,
asır-kəsir, tutur-yıxır,
o da gəlib Azərbaycan, burda sənə sahib çıxır.

Turan adlı bir ölkəydi istədiyi,
Turan adlı bircə qızı qaldı onun.
Yad əllərdə əlyazması qaldı onun,
"qırxı", "ili" tutulmadı, evdə yası qaldı onun.

Corabından tanıyıblar, sümüklərin üstə qalıb,
saçlarından tanıyıblar, gəmiklərin üstə qalıb.
Corabını geyindirib, başına şal bağlayıblar,
məzarını açan kəslər, təzədən yas saxlayıblar.
İndi bildim, bu ölkədə şair olmaq qorxuludur,
Peyğəmbəri daşa basır, sənətkara divan tutur.
Sonra qəbri ziyarətgah!
Bunca sevgi, bunca zülüm?!. necə rəva gördün Allah?!
Danış Həmid! o tabutda sizə sümük göstərənlər:
sizdən necə sonra üzr istədilər?

Bir dahinin taleyinə necə qıydı Zaman belə?
nə divanlar tutdu getdi, çarxı dönmüş dövran belə?!
Bir İNSANIN gözlərindən yuxu qaçdı onda belə,
o sirr açdı, düyün açdı, o göz açdı onda belə,
ünvansıza o əbədi bir ünvanı aldı belə,
"məhbusa" bir təzə Fəxri xiyabanı aldı belə.

– Mən razıyam, ruhum razı, tanrım razı, –
mən Cavidəm, Heydər, oğlum, sən Cavidin etirazı.
Sağ ol oğlum, yad torpaqda çürümədi sümüklərim,
bu da mənim son tamaşam, mənsiz keçən son əsərim.
Müəllifi sənsən oğlum, baş qəhrəman burda mənəm,
vətənindən ilk didərgin, ilk qovulan burda mənəm.

Mən Məhəmməd hümmətiykən gedib düşdüm uzaq yerə,
mən çarmıxa çəkilmişəm İsa kimi nahaq yerə.
İncimişəm yer üzündən, yer altda da yoxdu yerim,
nə bunlara bənzərim var, nə onlara bir bənzərim.
Öz yurduma qayıdıram mən dünyanın o başından,
ata-ana beşiyimə, behişt olsun atan-anan.
Açıb Sibir çöllərinin faciələr qovluğunu,
oğlum, necə cilovladın ürəyinin alovunu?
fırtınalar qucağında, necə dözdün dəryada sən?
mən dövranla üz-üzəydim, sən əsrinlə üz-üzəsən.

Dörd əl qazdı iki dustaq, qoydular məzara səni,
yeddi milyon əl çıxartdı o məzardan sonra səni.
Öz çiyinini verdi ustad, yeddi milyon dayaq kimi,
mən bir tabut görməmişdim, qaldırsınlar bayraq kimi.
Mən yas yeri görməmişdim, dönüb olsun el bayramı,
təbrik etsin bir-birini qəbristanda gedib hamı.

Turan bacım, millət bacım! məğrur yeri torpaq üstə,
keçdim Cavid küçəsindən, gedib çıxdım Ocaq üstə.
Atabəylər diyarında gördüm Cavid məqbərəsi,
mən bilirəm, sən çəkdiyin acıların yox əvəzi.
Gözəlliyin, zərifliyin, məhəbbətin,

yetim qaldı sənə qurban, onda sənin.
İlk məhəbbət məktubunun əvəzinə,
izahatmı yazdırdılar kor olmuşlar onda sənə?!
Ürəkləri soyumadı, minnətdarlıq istədilər,
kölgə kimi izlədilər.
Professor heyətinin "düşməniydi" sənin atan,
adına da qısqanırdı bəziləri; niyə Turan?!
O gedəndə səni gözdən salan "ərlər",
tabutunu gətirəndə "gözün aydın" – deyirdilər.

Bu millətin hər üzünü görən bacım,
bu millətin Turan qızı, Turan bacım.
Biz köçürük bu dünyadan, məbəd qalır,
Cavid qalır, Əcəminin yaratdığı sənət qalır.
Bu sənətə hörmət qalır,
bu hörməti unutmayan millət qalır.

Sentyabr 1995

QAÇAQ KƏRƏM

Kərəm keçdi bu dağlardan, o dağlardan ulu Tanrım!
Adı getmir ürəklərdən, dodaqlardan ulu Tanrım!
Od istədim odu sönmüş ocaqlardan ulu Tanrım!
Od içində yanan sinəm döndü buza Qaçaq Kərəm.

Rəvayətlər, əfsanələr nəsil-nəsil Kərəm deyir,
Kərəmə baş əyməyənlər nəsil-nəsil Kərəm deyir.
Azərbaycan deməyənlər nəsil-nəsil Kərəm deyir,
ya ilahi bir vergiydi, ya möcüzə, Qaçaq Kərəm.

Sinəsinin yaraşığı beşaçılan darağıydı,
bu dünyadan bir qazancı boz atıydı, papağıydı.
Can dediyi, diz çökdüyü Azərbaycan torpağıydı,
can səpmişdi dən yerinə çölə-düzə, Qaçaq Kərəm.

Qarayazı, Kür qırağı mahir ovçu bərəsiydi,
ilk İstiqlal çağırışı qaçaqların nərəsiydi,
bizim Qazax mahalıydı, bizim Dilcan dərəsiydi,
qoruyurdu bərələri kəsə-kəsə Qaçaq Kərəm.

Qayalarda kəklik kimi, dərələrdə sel kimiydi,
ürəyinin nazikliyi başındakı tel kimiydi.
Tozanaxlı – qasırğalı qəfil qalxan yel kimiydi,
rəhm etməzdi, xayin görsə, namərd görsə Qaçaq Kərəm.

Haqq yolunda yola çıxan haqq-ədalət adamıydı,
salam verib əl tutana salamı dost salamıydı.
Namus Kərəm namusuydu, qeyrət Kərəm kəlamıydı,
nəmər kimi aparardı hər məclisə Qaçaq Kərəm.

Tülküləri bəbir kimi tutan, yıxan Kərəm idi,
Türkiyədə türk paşası, İranda Xan Kərəm idi.
Qafqazda çar Nikolaydan hayıf alan Kərəm idi,
Rusiyada kömək durdu köməksizə Qaçaq Kərəm.

Düşmənin də bu dünyada namərdi var, mərdi varmış,
deyirlər ki, İsrafilin' bircə Kərəm dərdi varmış.
O İranda, bu Qazaxda – vətən, qürbət şərti varmış,
tüfəngini tuşlamazmış tanış səsə Qaçaq Kərəm.

Keçdim Poylu körpüsündən, harayladım Kərəm deyə,
Borçalıda gecələdim, qoç Kərəmi görəm deyə.
Subayların, şəhidlərin adlarını verəm deyə,
toydan-toya tələsirik, yasdan-yasa Qaçaq Kərəm.

Qaçqın gördüm, indi bildim nədir məşhər, Azərbaycan!
Həmrəy olduq, bəşər dedik, hanı bəşər, Azərbaycan?!

' İsrafil Ağa – Qaçaq Kərəmin uşaqlıq və gənclik dostu olmuş, sonralar aralarında düşmənçilik salmışlar (*Müəllif*).

Hər ana bir Kərəm doğsa, kərəmləşər Azərbaycan,
Kərəmləri çağırıram cərgəmizə Qaçaq Kərəm.

Qədim Alban kilsəsinin xaç nişanı bizimkidir,
Göyçəgölü dedikləri göy Sevanı bizimkidir,
Karvansara yerlərimiz, İcevanı bizimkidir,
Kəmərlini daşıdılar kisə-kisə, Qaçaq Kərəm.

Ayrım, Məzəm, Əskipara çəhlim yeri, yaylaq yeri,
köç yeriydi, kənd yeriydi... nə qalıbdı? Ocaq yeri.
Namərdlərə məskən oldu comərd yeri, qaçaq yeri,
imzasını miras qoydu yola-izə Qaçaq Kərəm.

Mərd oğullar arxasıydı, ağbirçəklər anasıydı,
qartal qonan qayalara sonra Kərəm qonasıydı.
Kişi kimi həyat sürmək həyatının mənasıydı,
nələr deyir, nələr deyir indi bizə Qaçaq Kərəm.

Bəyanatlar imzaladıq, nitq elədik, bəs deyilmi?!
Kimi gördük, gözəl-gözəl gün dilədik, bəs deyilmi?!
Ocaq söndü, başımıza kül ələdik, bəs deyilmi?!
Kül də yoxdu bircə torba yığa kimsə, Qaçaq Kərəm.

Xan Kərəmə Qaçaq dedim, – İsrafilə ağa dedim,
Kimdi gələn üstünüzə? – qarabağlı dığa dedim,
Dolu kimi, yağış kimi dedim, yağa-yağa dedim,
Döndü, qara yelə döndü əsə-əsə Qaçaq Kərəm.

Kərəm deyir bu yerlərin bu günü də, sonrası da,
Kərəm yatan beşik varsa, durur Kərəm laylası da.
Sahillərə güzgü tutur Dəli Kürün aynası da:
Kimdir indi içinizdən çıxsın üzə, Qaçaq Kərəm?!

SƏFİRƏ MƏKTUB

"Ya şəhid gərək, ya intiqam almaq gərək"

Füzuli

"...Keçən günlərin ədəbi məclisləri üçün çox darıxıram..."

Hafiz Paşayev

21 fevral 1995. Vaşinqton.

Məktubdan

Mən qədim bir məmləkətin şairiyəm,
kirpiyilə od götürən bir millətin şairiyəm.
Təbriz orda, Şuşa burda, –
"Döz bağrı daş olan könlüm" – yaşa burda?!
Mən bir vətən, iki torpaq şairiyəm.
Xalq adından danışıram, mən axı xalq şairiyəm.
Bir də millət vəkiliyəm, mən bir millət sahibiyəm.
Bir də bir el ağsaqqalı, bir də bu dərd sahibiyəm.

Amerika qitəsində Azərbaycan səfarəti! –
biz tarixə qanla yazdıq bu tarixi həqiqəti.
Salam yeni əsrimizin sabahına:
Azərbaycan torpağından Azərbaycan bayrağına.
O rəmzidir nəsil-nəsil şəhid olan bir millətin,
Yıxılmazı, Pirşəveri, Məmməd Əmini.
Bu əbədi ünvanlara, bu adlara salam deyək.
Yılmazlara, Cavidlərə, Cavadlara salam deyək.
Aradılar, axtardılar bu yolları,
Azərbaycan oğulları.

Var başqa bir Azərbaycan – Azərbaycan içindədir,
O can bu can içindədir,
Hər iki can bir həyəcan içindədir.
"Ermənistan" dediyimiz bir diyardan qovulanlar,
imtiyazdan qovulanlar, ixtiyardan qovulanlar.
Torpaq dərdi, vətən dərdi.
Eh, dərdimiz nə qədərdi!
Müstəntiqi seçmək olmur məhkəmədə müttəhimdən,

vətənsizi vətəndaşdan... vətən deyir, hamı vətən.
Günahkarıq sən də, mən də, hələ o da, o biri də,
günahkardı ştatların Bakıdakı səfiri də.

Biz istiqlal savaşına qalxan zaman,
humanitar yardım üçün qalxmamışdıq, sənə qurban.
Bir Azadlıq Meydanına sığışmışdı bütün şəhər,
iki dəniz çalxanırdı: biri Bakı, biri Xəzər.
Müstəqillik, suverenlik istəyirdik,
Şah oğlu Şah İsmayıl tək biz ərənlik istəyirdik.
Mənəm deyən oğullardan onda "mənlik" istəyirdik.
Bir də qisas istəyirdik əsirlərin əvəzinə,
pis nəfəslər toxunmuşdu qızların gül nəfəsinə.
Biz də xalqlar sırasında ya yetişək bir xalq olaq,
Ya əzilək nəsil-nəsil, ayaq altda tapdaq olaq.

Daxmalardan eyvanlara köçmüşdülər hələ dünən,
eyvanlardan çadırlara köçdü sonra el yenidən.
Bu – namusa, bu qeyrətə, bu şərəfə sığa bilməz,
Bir el elə sığa bilər, bir ev evə sığa bilməz.
Toyxanalar yasa döndü,
Kəlbəcərin "İstisu"yu buza döndü.
Şamil Əsgər, sənin tarix muzeyini daşıdılar,
Qubadlının güneyini, quzeyini daşıdılar.
Cəbrayılın kəhrizinə zəhər qatdı xain əli,
Zəngilanda yonca yandı, ot saraldı el köçəli.
Füzulinin üzümünü yığdırdılar bizim qadın əsirlərə,
Qisas qaldı qiyamətə, əsrlərə!
Qızıl palıd bircə nüsxə, Laçındaydı... o gədələr
baltalayıb, mişarlayıb kəpəyini ələdilər.
Hələ Ağdam... özü boyda bir ölkəydi,
təhlükənin qabağında zəhmli bir təhlükəydi.
Bayquş qondu budaqlara, bağlar indi viranədir,
Ağzın "Sona bülbüllər"in yuvasıydı, uçdu, Qədir!

Xocalıda həyət yandı, baca yandı,
uşaq yandı, qoca yandı,

sac üstündə çörək yandı, sac qarışıq ocaq yandı.
Yerdə oda düşən quşlar, uçan kimi göyə, yandı,
bir ağbirçək yandım deyə-deyə yandı.
Xatın burda yalan oldu,
inanmayın desələr ki, Xocalıdan qalan oldu.
Ermənin neçə illik məramıydı,
Xocalının soyqırımı Şamaxının davamıydı.
Ermənistan çəkdi bundan yaxasını,
Moskvaya söykəmişdi arxasını.

Rus tankları qovur hələ, qırır hələ çeçenləri,
bir məsləkə səcdə qılıb, bir haqqa and içənləri.
Dəmir yolu, quru yolu, hava yolu, dəniz yolu,
kəsilibdi sağı-solu.
Gizlədib öz ayıbını,
"Böyük qardaş" bizdən alır çeçenlərin hayfını.
Çadır soyuq, hava bulud, millət acdı, bazar baha.
Dərman baha, təbib baha, daş bahadı, məzar baha.
Görkəmini dəyişibdi indi şəhər, –
köhnə geyən ziyalıdı, təzə geyən alverçilər.
Uşaqları şirnikdirir bəzi qoçaq:
maşınların şüşəsini silirlər ki, pul yığacaq.
Zamanın bu ləkəsini sellər-sular yuya bilməz,
bunu dollar havasına oynayanlar duya bilməz.

Mir Cəlalın bir xatirə gecəsiydi,
Heç bilmirəm onda ayın neçəsiydi...
Neçə gizli göz yaşıydı o gecəyə dəvət olan,
Ürəyini boşaldırdı "gözdən xəlvət" gözü dolan.
Vaşinqton səfirinin atasıydı! –
bu səs Hafiz, Azərbaycan torpağının sədasıydı.

Bosniyada qonaq oldum xeyli qabaq,
burdan dəvət olunmuşdum mən də o vaxt.
Onda dünya şairləri səs-səsəydi, əl-ələydi.
Bu da ömrün yollarında ömrə zinət mərhələydi.
Sarayevo bir müsəlman şəhəriydi, möcüzəydi.

Ekranlarda gördüm yenə, tanklar ilə üz-üzəydi.
Dc, hardadı yerin-yurdun, Mahmud Dərviş?!
Harda gedib yuva qurdun, Mahmud Dərviş?!
Fələstinin carçısıydın, mən duyurdum o tufanı,
Ərəbistan səhrasının qum qarışıq burulğanı.
Tufan olur, vulkan olur kürsülərdə şeri, Mahmud! –
şairlərə veriləndə nazirlərin yeri, Mahmud.
Bu dünyanın Qarabağı, Bosniyası, Fələstini,
adı "qonşu" dövlətlərin başa düşüb bu qəsdini.

Danış orda, var səsinlə, unutma bu ərzi-halı,
Ruhu səndə qərar tutub ədib atan Mir Cəlalın.
Danış Hafiz, hələ burda anan Püstə,
hər gün sənə qulaq asır ürəyində, namaz üstə.
Vaşinqton hara – bura... yerlər-göylər,
Kolumbun od gəmisindən bəlkə də lap "Şatl"a qədər.
Bizə düşmən etmişdilər "dostlarımız" Ştatları,
Hindulardan gəlmədilər, qohum çıxır əcdadları...

Mən bilirəm, sən qalxdığın o kürsülər bir səngərdi,
qoy görsünlər orda səfir, burda millət səfərbərdi.
Ərazimiz toxunulmaz, başdaşları toxunulmaz,
gözü yolda qalanların göz yaşları toxunulmaz.
Şəhidlərin oğulları sabah qalxıb soruşacaq, –
hanı itən o qəbirlər, hanı vətən, hanı torpaq?!
Himnimizin bircə sətri yanılarsa, bağışlanmaz,
əsgər andı səngərlərdə danılarsa, bağışlanmaz.
Yüz il sonra doğma atan, doğma anan bağışlanmaz,
işğal olan bir torpaqda bağışlanan bağışlanmaz.
Döyüldükcə bərkiyibdi Azərbaycan dəmir kimi,
səfirlərin sırasında seçil Hafiz, səfir kimi.
Adın gəlsin müjdə verən bir səs kimi, soraq kimi,
sən bayrağın keşiyində, mən də şerin, bayraq kimi.

Bakı, 5 mart, 1995

"XARI BÜLBÜL"

"Gedək İsa bulağına,
çıxaq Qırxqız yaylağına..."
Azərbaycan qoy and içsin Azərbaycan torpağına.
Su çilənsin sinəm altda bir ocağın qor yerinə,
Tanrım, məni qoyma daha kar yerinə, kor yerinə.
Rahat gedim gor yerinə.
Bəlkə Şuşa dilə gəldi,
bəlkə huşa, dinə gəldi.
Dağ yeridi, yer yarıldı, Şuşa gəldi,
Şuşa bizə qarşı gəldi,
qurumuşdu, bəlkə bir az gözümüzün yaşı gəldi.

Şuşa qədim bir millətin Şuşasıdı,
Xan əminin Şuşasıdı,
Pənah xanın Şuşasıdı,
Nərimanın Şuşasıdı.

Yerdən çıxan "Xarı bülbül" gül dilində oxuyurmu?
gül gülü heyran qoyurmu?
Fəsillər çaşır Şuşada, mən qışda bahar görmüşəm,
qızılgülün yanağında qızılyanaq qar görmüşəm.
Qızıl qamçı şaqqıldayıb göydə şimşəklər yerinə,
kəpənəklər çiçək açıb yerdə çiçəklər yerinə.
Bal arısı kəpənəyin üstə qonub gül yerinə,
kəpənəyin qanadında göz görmüşəm xal yerinə,
düşmüşəm dünya sehrinə.
Mən möcüzələr görmüşəm.
Dilim gəlmir, yer üzündə deyim belə yer görmüşəm.

Daşaltısı darıxırmı çadır üçün?
Cıdır düzü – cıdır üçün?
At belindən at belinə atılanı görən varmı?
"Ərimgəldi" tərəflərdə yenə nəmər verən varmı?
Ağdamdan bir gələn varmı, gedən varmı?
Vətəndə bir vətən varmı?

Vaqif, sənin məqbərəni ziyarət eyləyən varmı?!
Orda Vaqif! – deyən varmı?

O vaxt orda şeir-sənət axşamıydı,
şerə hörmət, sözə hörmət axşamıydı.
Qarın belə yağdığını görməmişdim,
qarda belə el axını görməmişdim.
Qar tökürdü göy yer üstə, –
vərəqdəki,
dodaqdakı,
sinədəki – şeir üstə.
Gözlərdəki eynək üstə,
havada gül, torpaqda gül, çiçək, çiçək, çiçək üstə!
Yoxsa yanıb kül olardıq qar altında,
Heydər özü söz verirdi şairlərə
qarlı alqışlar altında.

Molla Pənah şairlərin yaşıdıydı.
Onda hələ şuşalılar Şuşadaydı,
Şuşa özü Şuşadaydı,
"Şuşa" sözü Şuşadaydı.

Dolu tökdü, qrad yağdı, mərmi yağdı.
Göydən yerə nur yağırdı, indi yerə şərmi yağdı?!
Bütün həyat, –
"Şur", "Muğamat",
şerin-sənətin mayası,
insanın eşqi-həyası,
dünyanın Şuşa dünyası
qətl oldu meydanda, şair!
Yer altdaydın, yer üstəydin onda, şair?!

Dayanaydı vaxt onda kaş!
Ah, onda kaş,
Xuramanın ağ yaylığı ağ bayrağa dönməyəydi,
beyinlərdə çaxan şimşək, ürəklərdə sönməyəydi.
Keçəl Həmzə gərək "Qırı" minməyəydi,

Qoç Koroğlu "Dür" belində
Çənlibeldən enməyəydi.

Orda rusdu,
burda farsdı,
Ermənin arxasıdı,
əmisidi, dayısıdı,
qanımızı tökəsidi, dərimizi soyasıdı.
Raketləri Şuşadadı.
Şahidləri Bakıdadı, şəhidləri Şuşadadı.
Pyotrun vəsiyyəti hələ indi üzə çıxır,
yollar gedib İstanbula, ordan da Təbrizə çıxır.
Şah vermişdi Naxçıvanı, Qarabağı,
rusun qəsdi Təbrizəydi.
İki yerə bölmüşdülər bir torpağı, –
bir millətin iki oğlu üz-üzəydi:
biri – İran vəliəhdi, müqavilə bağlayırdı,
biri – Qraf Paskeviçin tərəfini saxlayırdı.
Azərbaycan tarixinin atasıydı,
dövran ondan narazıydı, –
imza onun imzasıydı.

Rusun, farsın fərmanıyla
Həsənzadə! –
onda "ZADƏ",
onda təzə "OV" olurduq.
Üzümüzdə qürbət özü,
dilimizdə vətən sözü,
o "vətəndən" bu "vətənə" qovulurduq.
O zamandan qovhaqovdu, qaçhaqaçdı,
o zamandan bir millətin yarı toxdu, yarı acdı.
Toxlarının dili rusdu, dili farsdı.
Aclarının dilindəki – Xan Arazdı.
O zamandan orda sərhəd, burda qoruq!
Qovulduqca qırılırıq, qırıldıqca qovuluruq.
Qaçma millət!
Ölən qaldı, itən qaldı.

Neçə yerdə vətən qaldı.
Qaçma millət!
Təbriz qaldı, Dərbənd qaldı, Şuşa qaldı.
Biz tək qaldıq, qalanımız qoşa qaldı.
Göyçə qaldı, Vedi qaldı.
Qaçanların ayaq altda meydi qaldı.
Beşiyimiz orda qaldı,
məzarımız harda qaldı?!
Qaçma millət!
millət quru yerdə qaldı.

"Gedək İsa bulağına,
çıxaq Qırxqız yaylağına..."
Azərbaycan qoy and içsin Azərbaycan torpağına.
Su çilənsin sinəmdəki bir ocağın qor yerinə,
səpin məni vətənimin hər yerinə.
Səpin məni kül yerinə,
bu torpaqdan bitəcəyəm mən "Xarı bülbül" yerinə.

2003

RƏSUL HƏMZƏTOVA MƏKTUB

I

Şairə, torpağa hörmət, ehtiram,
şerim layiq olsun qoy adınıza.
Xoşdur dediyiniz hər duzlu kəlam,
əhsən sizin də öz ustadınıza.

Lakin əziz şair, başqadır sözüm,
nə deyim, bəlkə bu, adi ricətdir.
Bir qədim torpağın adından sizə
bəlkə də birinci müraciətdir.

Bilirəm siz həssas, ürəyi təmiz,
müdrik oğlusunuz bir məmləkətin.
Bir də ictimai xadimsiniz siz,
şanlı üzvüsünüz siz hökumətin.

Halal haqqınızdı, ad almısınız,
yaşayın sənətin bu vüqarıyla.
Qalxıb pillə-pillə ucalmısınız,
siz öz şerinizin misralarıyla.

Böyükdür ürəyin eşqi, diləyi,
şeir də, sənət də yerin səsidir.
Dünyada bəlkə də şair ürəyi
ən kövrək duyğular səlnaməsidir.

II

Keçdiniz bir səhər bizim Arazı,
siz ilk elçiydiniz,
rəsmi bir qonaq.
Qoca Vergilinin "Eneida"sı
Arazdan danışıb eradan qabaq.

Nə vaxtdı sərhəddi,
o, qan-qarğışdı.
sahili gül açıb bağça-bağ olmur.
Araz – bir ərimiş maye qılıncdı,
əyilib torpaqdan qaldırmaq olmur.

III

Bir şair dostum var, eşqi bir aləm,
Təbrizdə söhbəti, sözü deyilmir.
Sərhəd dirəyidir, əlində qələm,
elə hey laxladır, çıxarda bilmir.

Biriylə yanaşı eyvanımız var,
sevir bu torpağı, həyatı, şair.
Bakıda bizim bir ünvanımız var,
amma taleyimiz ayrıdı, şair.

Onların şerini çox oxumuşam,
görün bir nə deyir bu iki misra:
"İki bölünməkdən elə qorxmuşam,
çöpü də ikiyə bölmərəm daha".

O taydan bu taya pənah gətirən,
doğma anasından ayrılıb gələn
qızlar ana oldu, nənələşdilər,
fəqət istiqbaldan yoxdu bir xəbər.

IV

Oxudum mən "İran silsilənizi",
var olsun o qələm, o ilham, şair,
Amma "Azərbaycan silsilənizi"
oxumaq dilədim
danımıram, şair.

Düzü, istədim ki, siz deyəsiniz
orda Azərbaycan məmləkəti var.
Siz, Rəsul Həmzətov, söz deyəsiniz!
hər xalqın, millətin heysiyyəti var.

Bizdən siz idiniz, bir nəfər, şair,
görən bizim xalqı, qədim torpağı.
Bir də uman yerdən küsərlər, şair,
sizdən gözləyirdik, umurduq, axı.

Orda tarixi var Azərbaycanın,
xalqın zəkası nur, sinəsi dastan.
Siz də yazmısınız – qoca Xoyyamın,
bir də Firdovsinin yurdudur İran.

Əzəli hökmüdür bu, cəmiyyətin,
kimə danış deyir, kimə sus, deyir.
Əvvəldən indiyə hakim millətin
zövqü hakim olub, –
Marks düz deyir.

Xalqın tarixini o dandı, şair,
qabıqdan çıxdıqca qabarlı əllər.
Minillik ləyaqət tapdandı şair,
sübutmu göstərim, –
tufanlı illər!

Altıda* Səttarxan hərəkatı var, –
Lenin qiymət verib öz zəkasıyla.
Tarixin ayrıca hesabatı var,
Təbriz fəxr eləyib oğlu-qızıyla.

Kəsib qapısının ağzını düşmən,
xalq yenə yaşıyıb o pislik ilə.
İyirminci ildə Xiyabanidən
İran qisas aldı
acizlik ilə.

Vaqifin şerini bəyənmədilər,
"xər dili" –
gör necə böhtan dedilər?
o "xəri" sizə də ötürdü, şair,
farsın fars vicdanı götürdü, şair.
Hardaydı sizdəki sözün kəsəri?
Farslar unutmuşdu soyadlarını.
İsgəndər Daranı qoydu o yerə,
farslar türko qoyur öz adlarını.

Siz bizim Vurğunu "Ustad" saydınız,
Qaysınla birlikdə siz arxaydınız.

* 1905–1911-ci illər nəzərdə tutulur

Hələ Mustay Kərim – şair dostunuz,
hansı bir ürəyə siz toxundunuz?!

Yəqin "Yandırılan kitablarımız"*
çıxıb yadınızdan bir anlıq orda.
Yaxın qonşusuyuq qədim İranın, –
YAXŞILIQ burdadı, YAMANLIQ orda.

Burda Firdovsini sevirdik biz də,
"Şahnamə" oxuduq öz dilimizdə.
Sabiri dandılar İranda müdam,
ananın döşünü kəsdilər, şair,
oğulun başını kəsdilər, şair,
dünya şairləri susdular, şair!

Qırx beşdə təzədən millət yeridi,
dərs alıb mərd oğlu Pişəvəridən.
O da BU TƏRƏFDƏ –
düz qırx yeddidə,
maşın qəzasına düşdü "qəfildən".

Kiçik bir hekayət danışım sizə,
Düşməyib bu, "İran silsilənizə".
Soyuq səngərlərdə fədailərdən
biri yaralanır bir neçə yerdən.
Yaralı, həkimi yaxına qoymur,
Xahiş eləyirlər, başa salırlar,
yenə "yox" – bir kəlmə cavab alırlar.
Yalnız Sərdar gəlsin, deyir o cavan
Səttarxan yetişir
– Oğlum!
– Atacan,
deyin qadın gəlsin, ağırdı yaram,
o vaxt paltarımı mən soyunaram.
Oğlan geyimində, baba, qızam mən,
yerdən qalxan kimi oğlunuzam mən.

* S.Vurğunun "Yandırılan kitablar" şerinə işarədir (red.)

Sərdar "əhsən" deyib öpür alnından,
tarixə şöhrətdi o qız, o cavan.

Qoy heç kəs deməsin zaman unudur,
hələ imtahanı çoxdu zamanın.
Beləcə, qısaca tarixi budur,
bizim o Taydakı Azərbaycanın.
Mən də kitabları varaqlamışam,
bu yerlər tanınıb namus-arıyla.
Alban torpağında – öz ulu babam,
vuruşub Pompeyin ordularıyla.

Şair, eşidilir sosiniz sizin,
deyin, hər nidanız mənə əzizdir.
Həmzətov kürsüsü var şerimizin,
bu ən hərarətli nəfəsinizdir.

Gəzdiniz, gördünüz uzaq diyarı,
o günlər tarixi günlərdi, şair.
Göy Məscid,
Urmiya,
Təbriz bazarı...
Hərəsi ayrıca əsərdi, şair,
sizin şerinizi bəzərdi, şair.

Qoca Şəhriyarla söhbətinizdən,
sizin mehrinizdən, ülfətinizdən
bir dastan yaradıb el elə yayıb,
ürəyə od salır hər cümləsiylə.
Hələ bir şeriniz çap olunmayıb
"Təbriz",
ya "Urmiya" sərlövhəsiylə.

V

Burda ehtiram var daima sizə,
əziz saxlayırıq biz də bu hissi.

Nəbi yola salıb sizi Təbrizə,
özü görməyibdi hələ Təbrizi.

Vurğun qayıdıbdı Xüdafərindən
o yanıb bu odla, bu ehtiramla.
O vaxt köks ötürüb o da dərindən,
şair, qəm ekizdi burda Arazla.

Süleyman Rüstəmin şeri, qəzəli
deyir ki, əl vurma, külümdə köz var.
Qürbətdən vətənə baxdı Füzuli,
vətəndən
vətənə baxır Bəxtiyar.

Bəzən od püskürür yerin nəfəsi,
şair narahatdı, alim nigaran.
O tayla bu tayın müqayisəsi,
özünüz gördünüz: *zəmin-asiman*!

Sizə də doğmadı məncə, bu torpaq,
rəmzidir baharın, bir də ki, yazın.
"İran silsiləniz" tamamlanacaq
yeni nəğməsiylə
yalnız Arazın!

Qızınır daima ürək bu oda,
səhər – inandığım bir həqiqətdir.
Mənim bu xahişim,
bu məktubum da
sizə və tarixə müraciətdir.

NİZAMİ*

"Poylu körpüsü" poemasından fəsil

... Nizami, millət də bəzən tək qalır,
onu da tək görüb həriflləyirlər.
Unu ələyirlər, bir kəpək qalır,
unu yox, kəpəyi tərifləyirlər.

Vətənə arxadı igid oğullar,
bir ata zəhmi var oğul səsində.
Mənim ilhamımı dandı çuğullar,
ögeylər, doğmalar zəmanəsində.

Yerdə təklədilər, mən göyə çıxdım, –
məni yıxanları yıxa bilmədim.
Amma mən göründüm, kürsüyə çıxdım,
heç sətir altından çıxa bilmədim...

***

Mamoğlu yatmırdı baş ağrısından,
dilinin altında sözü "eh!" idi.
Millət sürülmüşdü yurd-yuvasından,
cavab istəyənlər cavabdeh idi.

Bir az da söyürdü o, haqtərəfi,
– haqqı tapdayırlar, axı, nə haqla?!

* Bu əsərin maraqlı yaranma tarixi oldu. Gənc dostum Nizami Cəfərovun 40 yaşı tamam olurdu. Məni dəvət etmişdi. Bir şeirlə getmək istədim. İlk gəncliyindən ürəyimdə ayrıca yeri var.

Bənzərsiz gülüşləri olan bu insanın həyatı çox da nikbin olmayıb. Mərhum atası doğma torpaqlarından zorla deportasiya edilənlərdən olub.

Mən, 1949-cu ildə Ağstafanın Hasansu (keçmiş Kirovka kəndi) orta məktəbində oxuyurdum. Bibim oğlu (biz tərəflərdə mamaoğlu deyirik) Yolçiyev Məmmədəli Ermənistandan köçürülən ailələrdən birinə öz ailəsində yer verdi, ona ev ayırdı. Ümumiyyətlə, əsər həmin illərdən bəhs edir (*Müəllif*).

Bizim Ağstafa, Qazax tərəfi,
Gəncə tərəfi də dolmuşdu xalqla.

Gördüm ki, millətin yoxdu arxası,
səsinə qəm çöküb, gözünə hiddət.
Yanında uşağı, bar-barxanası
millət qapısında qalmışdı millət!

Hamı doğma idi, hamı yad idi,
dözmür dağ adamı Aran yerinə.
Raykomda "İnsanlıq" təbliğatıydı,
insan qoyulmurdu insan yerinə.

Mamoğlu çox şeyi düz anlayırdı,
deyirdi nəydi bəs millətin suçu?!
Siyasi Büronu yamanlayırdı,
bizə dil verirdi guya "dilucu".

Ermənixasiyyət biri çaşırdı,
qarşıya çıxmışdıq çörəklə, suyla.
Erməni dilində xosunlaşırdı,
İrəvandan gələn bir qonşusuyla.

Neyləyim, dilimdə dondu sualım,
mənası başqaydı bu köçhaköçün.
Pis adam – o saat tanınır, oğlum,
yaxşıya – il gərək tanımaq üçün.

Sapand daşı kimi bir söz tulladı
arada şumladı, əkdi Mamoğlu.
Bir araq dalınca uşaq yolladı,
nəyi var, süfrəyə tökdü Mamoğlu.

Ailə içində "gəlmə" ailə,
kişiylə nərd vurdu qaş qaralınca.
Bir otaq ayırdı dil-ağız ilə,
o evdə qaldılar bir ev alınca.

Qaynadı-qarışdı evlər-eşiklər,
əkdilər-biçdilər, qaldılar orda.
Təzə yurd saldılar köhnə kişilər,
təzə qəbristan da saldılar orda.

Nizami, əminlə bu söhbət oldu,
Zəlimxan kəndində çay süzdü anan.
Ev-evə qovuşdu,
el qürbət oldu, –
köhnə el-obanı xatırlayana.

– Gərək uşaqları aparım özüm,
gəzib dolaşsınlar dərədə, düzdə.
Dolu tüfəng idi əmində dözüm,
əli tətikdəydi, gözü yol üstə.

Apara bilmədi "aparım" deyən,
Dərəniz düz oldu, düzünüz dərə.
Kirvəlik görmədi "kirvə" söyləyən,
kişilik ar gəldi bu kişilərə.

Millətin üstünə bərk düşmüşdülər,
evə buraxmışdıq biz Əhriməni.
Təbrizdən, Vedidən tökülmüşdülər,
ordan fars qovmuşdu, burdan erməni.

Bu biri "Demokrat", o biri "Köçkün",
bizim bir millətin iki adıydı.
Vedili Vediyə dönəcək bir gün,
təbrizli Təbrizə qayıtmalıydı.

Gözümdə o Sahil, bu Sahil ağlar! –
məni soraqlayın Araz, Kür boyu.
Dostundan ayrılan – yeddi il ağlar,
vətəndən ayrılan – bir ömür boyu.

Demə, Moskvaymış işləri quran,
dinib-danışanın yanırdı içi.

Erməni şovinist, fars aravuran,
biz də Kirovkada beynəlmiləlçi!

Haram süfrələrdə yeyib doyanlar,
aşağı-yuxarı boylanırdılar.
Kirovun büstünü kəndə qoyanlar,
Nərimanov deyəndə xoflanırdılar.

O il açılmışdı bir yalanımız,
amma vəziyyətdən çıxmalıydılar.
Tamam dolmamışdı yun planımız,
yunu camaatdan yığmalıydılar.

O illər beş ilə keçilməliydi,
"hey başa salırdı" başbilənimiz.
Siyasi Büroya seçilməliydi,
xalqı soymaq ilə seçilənimiz.

Biz də fəxr eləyib əl çalmalıydıq,
tərbiyə bu idi, əxlaq beləydi.
Mal-qoyun yerinə qoyulmalıydıq,
bizimki olsa da, bu xalq beləydi.

Adam göndərmişdi yun idarəsi,
döşəyin içini boşaltdı anam.
Bir kasıb qadının buydu töhfəsi,
bu da partiyaya hörmət, ehtiram.

Qatdadı döşəyin boş üzlüyünü,
əlinə keçəni yığırmış anam.
Apardı gəlninin cehizliyini,
yun yox, tük qırxırdı Düdəmə Bayram.

O axşam sıxıldı, üzü gülmədi,
dəmir məngənəymiş əli həyatın.
Mənim də üzümə baxa bilmədi,
guya günahkardı biçarə qadın.

Dan üzü Poyludan piyada çıxdım,
yollar uzandıqca, min dərd verirdi.
O gündən məktəbdə "əla" oxudum,
Anam oxuyana qiymət verirdi.

Yaşadım bu hissi şeir yazalı,
bilmədim, taleyin niyyəti nəydi.
Mənim doğulduğum Poylu vağzalı,
Kürün qırağında bir qəsəbəydi.

Çox ölkə dolaşdım, çox eli gəzdim,
Poylunun heç yerdə əvəzi yoxmuş.
"Poylu" deyiləndə ürəyim əsdi,
belə pak deyilən "P" səsi yoxmuş.

Gah sola əyilir, gah sağa yollar,
canlı xəritədi göz qabağında.
Pompeylə vuruşdu qədim poylular,
min il bundan qabaq Kür qırağında.

Gözüm yox heç kəsin ev-eşiyində,
gördüyüm o yerlər olubdu mənim.
Vağzal bələyində, Kür bəşiyində
təkərlər laylamı çalıbdı mənim.

***

Nizami, taleyin xoşbəxt sirrisən,
sirlər dünyasında yaşa sən, oğlum.
Yaşda – cavanlardan sən də birisən,
başda – Gəncəviylə yaşıdsan, oğlum.

Tarixi şifahi deyirdi əmin,
keçirdi millətin keçdiyi yolu.
Bax, adın qoyulan nizamilərin
"Xəmsə"si bu dərddən yarandı, oğlum.

Əsrin ortasında sənin millətin,
Qazax çöllərinə sürülməliydi,
sayı pambıq kimi seyrəlməliydi,
ya kal meyvə kimi tökülməliydi,
sapları çürüyüb sökülməliydi...
Buydu Moskvanın Qafqaz töhfəsi,
buydu İrəvanın iblis hiyləsi,
içi, içalatı, ödü, ciyəri,
Var ol Azərbaycan, Odlar ölkəsi.

Demirəm, tələsik get, qılınc götür,
paqonun ya məxmər, ya zərli olsun.
Əmin dediyinə sən iman gətir,
qələmin qılıncdan kəsərli olsun.

Atabəy dövləti bir ailədə,
Zəlimxan kəndində tutubdu qərar.
Qardaşın – Arslandan, bacın – Afaqdan,
sən də – Nizamidən bizə yadigar.

***

Mamoğlu sevməzdi qəmi, kədəri,
dedi zarafatım qoy yadda qalsın:
– Qulu qardaşımı sürübdülər ki, –
bizim Zəlimxandan gəlib qız alsın.

– Niyə, qız Vedidə tapılmadımı?
– Burdan aparaydın gərək adamı,
özün istəsəydin yox deyərdilər,
işi ermənilər tez eyərdilər!

Gözəllə dolsa da bütün bir ölkə,
gözəllik taledi, yazıdı bəlkə.
Savad da – qızların ən gözəliydi,
O, Kür qırağının kənd gözəliydi.

Bu da qəm içində zarafat idi,
hər nəslin taleyi bir həyat idi.
Gərək o həyatı sürəsən, oğlum,
gərək öz gözünlə görəsən, oğlum.
Nəzəri məntiqlə yaşamaq olmur,
bir taya yığırsan, bir qucaq olur.

Mamoğlu arada üzr istədi,
köhnə biliyini gətirdi yada:
– Rafael deyib ki, çəkmək istədim,
bir gözəl tapmadım İtaliyada!

Bilmədim heç hardan gəldi ağlına,
haqqın səsinəmi o qulaq asdı?!
Mən sual versəydim Mamam oğluna,
bəlkə Rafaeli o tanımazdı.

Yəqin bir söz qalıb onun yadında,
təzə söz oldumu, deyir Mamoğlu.
Gözəllik axtarır qızda, qadında, –
qələm götürəndən şair Mamoğlu.

Fikir aparmışdı Qulu kişini,
– hardan misal çəkdi belə, tanrısız?!
Mamoğlu bilirmiş yəqin işini:
– Bizim Zəlimxanda tapıldı o qız!

Milləti bir əsr necə qırdılar,
evi uçuq qaldı, qapısı bağlı.
Doğub törədilər, şükür, artdılar, –
ata Vediliydi, övlad Qazaxlı.

Onda Savad qızım cavan qız idi,
kənddə o elçisiz, filansız idi.
Nizami hardaydı, Allah bilirdi,
Nizami ordaydı, o ocaqdaydı –
Allah bilirdi,

Nizami müqəddəs bir qucaqdaydı –
Allah bilirdi.

Alim cərgəsinə qatılmamışdı,
qələm döyüşünə atılmamışdı.
Hələ olmamışdı uç deyən ona, –
Zəlimxan kəndindən Vaşinqtona.
Qədim türk dilinə yiyəlik etmək,
hələ yazmamışdı alnına fələk.
Ya Milli Məclisin gedib adından,
danış deməmişdi ulu Yaradan.
Ona istedadı hədiyyə verən,
bircə şey demişdi: daima öyrən.

***

Nizami, çoxalır "Nizami" deyən,
Möhlət istəyirəm mən də ömürdən.
Allahdan bir az da pay istəyirəm,
özüm əkdiyimi biçim, – deyirəm.
Gərək Nizami tək meydan açasan,
mənim də başımı sən ucaldasan...

Heç nə istəməyən qız

(Uşaq şeirləri)

XATİRƏ

Düz gecə yarı
qalxdı yuxudan.
Oyuncaqları
istədi şeytan:
– Qazım hardadı?
– Qazın yatıbdı.
– Quzum hardadı?
– Quzun yatıbdı.
– Əlcəyim hanı?
– Əlcək də yatır.
– Pencəyim hanı?
– Pencək də yatır,
Kəsdi sözünü,
yumdu gözünü,
yatdı Xatirə.
Şirin yuxuya
getdi Xatirə.

1960

DİŞLƏRİ MIRIQ, DÜYMƏSİ QIRIQ, ŞALVARI QISA, QARDAŞIM İSA

Xanım izahat verir,
şəkil çəkib ad verir:
– Bu, qardaşım İsadı,
şalvarı çox qısadı.
Dişi düşüb, mırıqdı,
düymələri qırıqdı.
Saçlarını daramaz,
bu, kişiyə yaraşmaz...
"Rəssam" gülür İsaya,
bu şalvarı qısaya.

UŞAQLAR

Uşaqlar küsüşdü,
uşaqlar söyüşdü,
bir az da döyüşdü.
Böyüklər qarışdı,
ürəklər bulandı.
Uşaqlar barışdı,
böyüklər utandı.

1967

HEÇ NƏ İSTƏMƏYƏN QIZ

– Ata, güllü bir corab al,
heç nə daha istəmirəm.
Sən tülkülü bir kitab al,
heç nə daha istəmirəm.
Bir plaş al, iki bayraq,
bir qara zont, bir ağ papaq...
heç nə daha istəmirəm.
– Qızım, özgə nə alım mən?
– Qırmızı lent, yaşıl qələm,
heç nə daha istəmirəm.

1965

HEYKƏL

Oynayırdı, "atışırdı" iki uşaq,
biri bizdən, biri "faşist":
– Taraq-ta-taq!..
Döyüş yeri – gəbə üstü, xalı idi,
Səngərləri – qapıların dalı idi.
tüfəngəlri – xətkeş idi, qələm idi –
qırmızı, ağ,

güllələri-özlərinin səsi idi:
– Taraq-ta-taq!..
"Faşist" vurdu bizimkini,
gizləndi də o, birtəhər.
– Yıxıl! – dedi, yıxılmadı bizim əsgər.
– Faşist vuran heykəl olur,
qəhrəmandı, –
deyib susdu,
heykəl kimi şax dayandı.

1976

YOXA ÇIXAN YEDDİ YAYLIQ DASTANI

Yaylıqlar itdi bir-bir,
Hardadı bəs, kim bilir?!
Bəzənibdi Gəlincik,
gizlənibdi Gəlincik.
Biri: başında örpək,
biri: əynində köynək
biri: belində kəmər,
biri: əlində nəmər,
biri: çiynində şarfdı,
ayağında: corafdı,
saçında: lentdi yaylıq.
Tapıldı yeddi yaylıq.

XANIMIN SƏRGİDƏ İŞTİRAKI

Xanım sərgi düzəldir,
sərgisi nə gözəldir.
Şəkil düzür: birinci –
Leonardo da Vinçi!

Sonra başqa sənətkar:
XANIM,
Tahir və Səttar! –
əsərləri yanaşı.
Təbrik etdim anaşı.

ŞEYTAN QIZ

Yataqda qardaşıyla
qucaqlaşıb yatan qız,
yuxuda qardaşıyla
söyüşür,
ay şeytan qız!

1968

AY XANIM, GƏL OYNAYAQ

– Xa... nım... – deyə sərçələr,
cik-cik edib höccələr.
Göyərçinlər, qumrular,
onu görsə, tanıyar.
Ala pişik xumardı,
işi-gücü tumardı.
Görsə ki, Xanım gəlir, –
tez gərnəşib dikəlir.
Bığlarını yalayır,
quyruğunu bulayır.
Deyə bilmirlər ancaq:
ay Xanım, gəl oynayaq.

"ARI" VƏ "ALI"

Mən deyirəm: Arıdı,
Xanım deyir: Alıdı.
Mən deyirəm: "R" de, "R".
Xanım deyir: "L", "L", "L".
Alı – insandı, insan,
Arı da – balqayıran.
Mən deyirəm: Arıdı,
Xanım deyir: Alıdı.

NAZİM

Nazim anasının
sözünə baxmır.
Anası Nazimin
üzünə baxmır.
Oturub divanda
başıaşağı,
yenə yerlə gedir
qaşı-qabağı.
Nazim, bir söz deyim,
sən mənə inan:
apar zibili at,
barışsın anan.

1980

DÜZ GÖRÜBSƏN, ATACAN

– Ekranda gördüm səni,
sən necə?
Gördün məni?
Divanda?
Harda gördün?

Əlimdə şar da gördün?
Bəs məstan pişiyimiz?
Hardaydıq biz ikimiz?
– Gördüm səni,
hayanda?
Əlində şar, divanda,
Yanında pişiyimiz,
baxırdınız ikiniz,
Nazim güldü mehriban,
– Düz görübsən, atacan.

1980

YUXUDA AĞLATDILAR

Nazim getdi yatmağa,
bal yuxuya batmağa,
yuxularda qaçmağa,
nağıllarda uçmağa.
Məlikməmməd dalınca,
Qorxaq Əhməd dalınca.
Tək səfərə çıxmağa,
qılınc, qalxan taxmağa.
Cırtdan ilə görüşə,
divlər ilə döyüşə.

Oyuncaqlar gəldilər,
yuxusuna girdilər.
Dovşanın qulağı yox,
dəvənin ayağı yox.
Ayı çənəsiz gəlib,
xoruz çarəsiz gəlib,
Atın başı itdədi,
itin başı atdadı.
Kosmonavt çılpaq qalıb,
nə o, nə bu sağ qalıb.

Dovşan dedi: qulaq ver!
dəvə dedi: ayaq ver!
Ayı dedi: çənə tap!
Xoruz dedi: çarə tap!
At başını istədi,
it başını istədi.
Kosmonavt dedi: paltar!
Hamısı dedi: qaytar!!!

Məlikməmməd eşitdi,
Qorxaq Əhməd eşitdi.
Nazimdən küsdü Cırtdan
Divlər buynuzlu gəldi,
küsdü qılınc və qalxan.
sonra toppuzlu gəldi,
Yuxuda ağlatdılar,
Nazimi oyatdılar.

1969

HƏMİN SİNİFDƏ

Nazim içdi çayını,
yedi qoğal payını.
Bir o oldu, bir də mən,
özüm tutdum əlindən.
Çantasını götürdüm,
məktəbəcən ötürdüm.
Daha ikinci sinfə
gedirdi o bu dəfə.
Əlində təzə çiçək,
təzə bant, təzə köynək.

Tamam oldu saat bir,
gördük ki, Nazim gəlir,
Gəldi... bir söz demədi,
Nazim çörək yemədi.

Qucaqladı atası.
– Nə olubdu, qadası?
Köyrəldi o bu sözdən:
– Sinifdə qalmışam mən.
Xəbər pis xəbər oldu,
hamı birtəhər oldu.
– Bütün sinif qalıbdı,
hamı "iki" alıbdı,
– Hamı sinifdə qalmaz,
Nazim, belə şey olmaz.
– Axı, həmin sinifdə
dərs keçdik bu dəfə də?!

1972

NƏZRİN
GÖR KİM OLACAQ...

Nəzrin üç yaşındadı,
fikri dağ başındadı.
Nəzrin gör kim olacaq,
Nəzrin həkim olacaq.
Ağ xalat geyinəcək,
Nəriman babasını
görəndə deyinəcək:
dərmanı iç, – deyəcək,
"Bir", "iki", "üç", deyəcək,
güləcək, güldürəcək.

AYSEL, GÜLSEL, İMAMƏT

Aysel, Gülsel, İmamət
Üç bacıdı – qiyamət.
Köynəkləri – bəzəkli,
Lentləri – kəpənəkli,

Corabları qotazlı,
Gülsel – düyməağızlı.
İmamət – Çin gözəli,
Aysel – elin gözəli.
Qaçırlar, oynayırlar,
Həyətdə qaynayırlar.

Atası dedi: gedək,
Qızları çimizdirək.
Gülsel bir az ağladı,
Hamını qabaqladı.
Aysel qaçdı birtəhər
İmaməti gördülər.
-İmamət, qızım, gedək
Evdə çim-çim eyləyək.
Ayseli də aparaq,
Gülseli də aparaq,
Evdə çimin, qayıdaq.
İmamət hönkürdü bərk,
-Ayseli tapın, gedək!
Aysel bağda gizlənib,
Lap qıraqda gizlənib.
Guya heç kimi görmür,
Ayseli tapmaq olmur,
Tapıb aparmaq olmur.
Bibi, nənə çağırır,
Ata yenə çağırır,
Toyuq-cücə çağırır,
Pişik, sərçə çağırır,
Xoruz da quq-qulu-qu, –
Aysel deyir yolboyu.
İmamət hönkürür bərk,
-Ayseli tapın, gedək!

Ayseli axtarırlar,
Tapırlar, aparırlar.

Üçü verib əl-ələ,
Gedirlər gülə-gülə.
Bir-birini sevirlər,
Bacılar sevinirlər.
Aysel, Gülsel, İmamət
Üç bacıdı – qiyamət.

2000

QIZIL LƏLƏK NAĞILI

kalmık xalq nağılı əsasında

Keçmişlərin birində,
yaşayıb kənd yerində
iki dost, iki qonşu:
Xoruzla Tovuzquşu.

Xoruz – bərli-bəzəkli,
Xoruz – ipək lələkli.
Gün çıxanda lələklər
simu-zərdi, simu-zər!
Gün batanda lələklər,
tutulardı bir qədər.
Ay çıxanda lələklər,
görünərdi təzə-tər.
Ay batanda lələklər
parıldardı bir qədər.

Lələyini görənlər,
bəzəyini görənlər
gözəl Xoruz deyərdi,
Qızıl Xoruz deyərdi.
Budaq üstdə budağı,

evə girsə, otağı,
yerdə yeri bəzərdi,
Xoruz rahat gəzərdi.
Tovuzquşu bir axşam
gəldi: – A qonşu, salam!
Lələklərin təzə-tər,
Mat qalıbdı görənlər.
Bir günlüyə ver, geyim,
Yoxdu başqa bir şeyim.
Bir qonaqlıq var, səhər,
getməsəm, inciyərlər.
Tanıyırsan son məni,
çağır, geciksəm məni.
Xoruz verdi lələyi,
verdi bəri-bəzəyi.
Tovuzquşu bəzəndi,
Altdan-üstdən düzəndi.
Çıxdı çölə-çəmənə,
Baxın, – dedi siz mənə!
Çəmən baxdı vuruldu,
Sular baxdı duruldu.
Yollar baxdı, keç dedi,
Sular – məndən iç dedi.
Kölgə saldı budaqlar,
söyüdlər və iydələr...

Xoruz qalxdı bir səhər,
gözlədi: sabah gələr.
Çağırdı: quq-qulu-qu!..
Gəlmədi Tovuzquşu.
Xoruz qalxdı obaşdan,
sökülməmiş hələ dan.
çağırdı: quq-qulu-qu!..
gəlmədi Tovuzquşu.
Xoruz axşam düşəndə,
hay-haray saldı kəndə,

çağırdı: quq-qulu-qu!..
Gəlmədi Tovuzquşu.

Oldu pipiyi al qan,
indiyəcən o vaxtdan
xoruz hər gün üç dəfə,
səs salır hər tərəfə.
Çağırır: quq-qulu-qu!..
Gəlməyir Tovuzquşu.

1967

Bu da bir zarafat

(Nəğmələr)

FİKİR ELƏMƏ

Emin Sabitoğlu bəstələmişdir

Sən fikir eləmə, gözəldir həyat,
nə qədər mən sağam, fikir eləmə.
Bu gün yanındayam, sabah hardasa,
demə mən uzağam, fikir eləmə.

Sən fikir eləmə, yeri qar alsa,
göyü bulud örtüb dumanlar alsa.
Mən odam-ocağam, fikir eləmə,
yenə yanacağam fikir eləmə.

Sən fikir eləmə heç vaxt dünyada,
mən getsəm, sən qalsan... ayağın altda
onda da torpağam, fikir eləmə,
orda da dayağam, fikir eləmə.

1978

TƏLƏSMƏ

Ramiz Mirişli bəstələmişdir

Dedim mən, sevirəm, dedi sevginən,
dedim qoşa gəzək, dedi tələsmə.
Dedim bağ içidi, dedi seyr elə,
dedim bir gül üzək, dedi tələsmə.

Dedim bir vədə ver, xəyala varma,
dedi zəhmət çəkib özünü yorma.
Dedim, qadan alım, dedi yalvarma,
dedim onda küsək, dedi tələsmə.

Dedim mən aşiqəm al yanağına,
dedi bülbül qonar gül budağına.
Dedim üzük taxım qoy barmağına,
əhdi-peyman kəsək, dedi tələsmə.

1958

QAL GÖRÜM

Ramiz Mirişli bəstələmişdir

Duman gələr, çən düşər,
dağlar məndən gen düşər.
Erkən saça dən düşər,
gülə-gülə gəl görüm.

Qara gözlər, ağ əllər,
şahid olsun bu ellər.
Oxşa məni bir qədər, –
sığal görüm, əl görüm.

Yaşıl çəmən, buz bulaq,
dünya olsun, biz olaq.
Gecə uzun, mən oyaq,
susma, susma gəl görüm.

Yana-yana od oldum,
öz-özümə yad oldum.
Gəldin, gördüm şad oldum,
getmə daha, qal görüm.

1980

SƏN BAĞIŞLADIN

Emin Sabitoğlu bəstələmişdir

Mənə üfüq boyda geniş səmanı,
göydə buludları, yerdə dumanı,
dənizdə dalğanı sən bağışladın,
bu hüsnü-mənanı sən bağışladın.

Uzanan yolların dümağ sətrini,
dünyanın ən gözəl çəmən ətrini,
qumlu sahillərdə sən bağışladın,
o zərif əllərdə sən bağışladın.

De, nədir səadət həyatda, gülüm,
bir könül xoşluğu, bir az təbəssüm.
Onu da, bunu da sən bağışladın,
dünyanı dünyada sən bağışladın.

1978

YOX DEYƏ-DEYƏ

Ramiz Mirişli bəstələmişdir

Gəldin görüşümə arabir yenə,
çıxmadın sözündən yox deyə-deyə.
Həyana getdinsə, yolun bir oldu,
getmədin gözümdən yox deyə-deyə.

Bəlkə məhəbbətin hökmü belədir,
incidin arabir, küsdün arabir.
Bildin ki, sədaqət ürəyimdədir,
qayıtdın yenə sən yox deyə-deyə.

De, niyə dolaşdı ağzında sözün,
özün tutduğuna mat qaldın özün?
Dolandı qolların boynuma bir gün,
öpdün də üzümdən yox deyə-deyə.

1963

KAŞ

Oktay Kazımov bəstələmişdir

Kaş yenə mən deyən illər olaydı,
mən oldum bir yana, illər bir yana.
Nə vaxt saçlarını daradı, yaydı
küləklər bir yana,
əllər bir yana?

Nə vaxt ürəyimi mən sənə açdım?
Əgər sən susursan, qoy illər desin.
Əvvəl vaxt tapanda yanına qaçdım,
sonra... səndən qaçdım, vaxtım itməsin.

Beləcə, yellərə verdim illəri,
aylara, illərə verdim illəri.
Mən vaxtı itirdim səndən ötəri,
mən səni itirdim vaxtdan ötəri.
İtirə-itirə pozuldu nəşəm,
özüm itirmişəm...
heç bilməmişəm.

Yaşım gör illərin harasındadı,
illər məhvərindən qoparır məni.
Ürəyim əvvəlki sevdasındadı,
dünya qayğılara aparır məni.

1970

BU DA BİR ZARAFAT

Rəşid Nəsibəyli bəstələmişdir

Eh, bir vaxt evləndik,
qaynadıq-qarışdıq,
küsüşdük, barışdıq,
sən demə, hamısı zarafat.

Dəyişdi səmtini
suların axarı,
yuxarı, aşağı,
aşağı, yuxarı.
Qarışdıq çəməndə
güllərin ətrinə.
Dəydik də arabir
sən mənim xətrimə,
mən sənin xətrinə,
küsülü yaşadıq bir evdə
üç saat, beş saat...
Axırı yenə də zarafat.
Bir evdə olmasa zarafat
dağılar o həyat,
uçular o həyat.
Qız oldu ilkimiz,
böyütdük ikimiz.
Özümüz böyüdük bir az da.
Beləcə dəyişdik
zarafat-zarafat,
sən ana, mən ata!
Sonra da oğlumuz, –
oğul da sonrakı arzumuz.
Yaşadıq gah ona,
gah buna muğayat.
Qalxdılar,
uzandı boyları maşallah,
bu da bir zarafat.
Saçlara xəlvəti dən düşdü,
Dağlara çən düşdü,
dağlardan bir duman endi də.
Tanınmaz olduq biz
tanına-tanına, –
beləcə dəyişdik indi də.
Gözəldi yaşamaq,
gözəldi bu həyat.
Hayıf ki,

hamısı xəbərsiz,
hamısı bir anlıq.
Eh səni hardasa
nənəlik gözləyir,
məni də babalıq.
Bu boyda zarafat?!

1973

AY YAŞIL SÖYÜD

Xəyyam Mirzəzadə bəstələmişdir

O, burdan gedəli
mən bura gəlmirəm.
Soruşma niyə bəs?
Bilmirəm, bilmirəm, ay yaşıl söyüd.

Gəlibmi, gedibmi
yanına o mənsiz?
Sən onsuz özgəsən,
yad olub o, sənsiz, ay yaşıl söyüd.

Yağışlar yağanda,
yığırdı ovcuna
o sənin saçını,
mən onun saçını, ay yaşıl söyüd.

Yanına qaçardı
gülüşə-gülüşə,
yıxıla-yıxıla,
sürüşə-sürüşə, ay yaşıl söyüd.

Küsülü gülüşü
düşürmü yadına?
Saçların tökülüb
ayaqlar altına, ay yaşıl söyüd.

Küləklər necə sərt
əsərmiş, ay aman!
Mənəmmi pərişan,
sənsənmi pərişan, ay yaşıl söyüd?

1973

MƏNİ BİR QIZ GÖZLƏYİR

Rüstəm Rüstəmzadə bəstələmişdir

Mən görüşə gedirəm,
Məni bir qız gözləyir.
Gün əyilir, yel əsir,
Yarpaq yarpağa dəyir.
Məni bir qız gözləyir.
Tələsirəm... bilmirəm,
Hey, niyə tələsirəm...
O qızın gülüşünü
görməyə tələsirəm...
Çənəsindən, üzündən
öpməyə tələsirəm.
Dəyişmərəm mən onu
dünyada heç bir qıza.
Gözü moruğa bənzər,
ətri təzə yarpıza.
Elə ki, axşam olur,
yarpaq yarpağa dəyir;
bir bağçada hər axşam
o qız məni gözləyir.
Mən görüşə gedirəm;
Balam məni gözləyir,
Qızım məni gözləyir.

1963

MİNNƏTDARAM MƏN

Ramiz Mustafayev bəstələmişdir

Yenə səsin gəldi qulaqlarıma,
həyata, dünyaya minnətdaram mən.
Sən orda pıçılda, eşidim səni,
özgəsi çağırsa, ona karam mən.

Sən açdın bir qəlbin məhəbbətini,
mən duydum bir ömrün səadətini.
Sənsiz hər sözünü, hər söhbətini,
sənsiz hər odanı xatırlaram mən.

Mənim bu aləmdə öz aləmim var,
sənlə sevincim var, sənsiz qəmim var.
Dünyadan qazancım bir qələmim var,
sənin xidmətində varam, varam mən.

1978

BƏXTƏVƏR OLDU

Nəriman Məmmədov bəstələmişdir

Aşkarda sevdim səni,
pünhan gəzdin hər dəfə.
Canım oduna yandı,
can demədin bir dəfə.

Yüz yol sizə buruldum,
yüz yol getdim izinlə.
Gözüm yolunda qaldı,
baxmadın bir gözünlə.

Adımız qoşa çıxdı,
hamıya xəbər oldu.
Özüm odlara yandım,
adım bəxtəvər oldu.

1960

SƏNSƏN HƏYATIM

Ələkbər Tağıyev bəstələmişdir

Ay sevgilim, çağır məni,
gəlim sizə qonaq olum.
Əsim səhər mehi kimi,
saçında daraq olum.

Sevgilim, küsmə gəl,
de, bir nədir günahım?
Ümidimi üzmə gəl,
təkcə sənsən pənahım.

Sevgilim, sevirəm,
sənsən qanadım mənim.
Sevgilim, sevirəm,
sənsən həyatım mənim.

Qələm olsam, varağım ol,
susuz olsam, bulağım ol.
Sən evim ol, otağım ol,
mən yanan çırağın olum.

Sevgilim, küsmə gəl,
de, bir nədir günahım?
Ümidimi üzmə gəl,
təkcə sənsən pənahım,
Sevgilim, sevirəm,
Sənsən qanadım mənim.
Sevgilim, sevirəm,
sənsən həyatım mənim.

1960

GÜL BİR AZ

Ələkbər Tağıyev bəstələmişdir

Mən bilirəm xatirinə dəyiblər,
unut, mənim xatirimə gəl bir az.
İşdə sənə nə deyiblər, deyiblər,
evə gəldin, danış bir az, gül bir az.

Bu dünyanın nadanı var nə qədər!
Ürəyində nə qəm olsun, nə kədər.
Torpaqdan da az tapılır incilər;
qızıl bir az, almaz bir az, ləl bir az.

Söz var, desən köçürülər, yazılar,
söz var yaxşı, söz var yaman yozular.
Ürəyimiz yaralanar, pozular
öz sözünü bilməyəndə dil bir az.

1978

ÖMRÜMÜN YAZISAN

Qənbər Hüseynli bəstələmişdir

Sən gözəl ömrümün baharı, yazısan,
bu sevən könlümün söhbəti, sazısan.

Qoy dönüm, dolanım başına yar, sənin!
düz əhdin, düz eşqin, düz sözün var sənin.

Gül, danış fərəhlə, qoy gülək, sevinək,
hər sözün, söhbətin əzizdir canımtək.

Bir hicran, bir ağrı görməsin qəlbimiz,
bu gözəl dövranda sevilək, sevək biz.

1955

LİRİK PARÇA

Sevda İbrahimova bəstələmişdir

Salsa kölgəsini yollara bulud,
yanından ötsə də, sən məni yad et.

Günəşi ağ bulud, ya qara bulud
bir anlıq örtsə də, sən məni yad et.

Qulağın qəfildən bir səsə düşsə,
o, mənim səsimdi, sən məni yad et.

Səhərin mehiylə alnın öpüşsə,
mənim nəfəsimdi, sən məni yad et.

Alışıb yanacaq üfüqdə könlüm,
o yolda, o izdə sən məni yad et.

Nə qədər səhər var, Günəş var, gülüm,
dünyada mənsiz də, sən məni yad et.

1962

NİYƏ GETDİN

Adil Bəbirov bəstələmişdir

Bir qara göz görəndə
gözünə bənzətmişəm.
Bir gülər üz görəndə,
üzünə bənzətmişəm.

Gözləməyib getdin sən,
darıxıb yandı könlüm.
Gəl, səni gözləyirəm,
de, niyə getdin, gülüm?

İndi vaxtında hər gün
mən keçirəm o yerdən.
Səni kimdən soruşum,
kimdən xəbər alım mən?

1960

YAŞATDIN ELLƏRİ

Şəfiqə Axundova bəstələmişdir

Yolunu gözlədim... xəbərin oğlum,
ləngidi yollarda, izlərdə qaldı.
Sənsiz buz bulaqlar göy meşələrdə,
ceyranlar, cüyürlər düzlərdə qaldı.

Getdin köməyinə elin, vətənin,
kəsdin qabağını dumanın, çənin.
Boy gördüm, boyuna bənzətdim sənin,
göz gördüm, gözlərim gözlərdə qaldı.

Yaşatdın ellərin hər öyüdünü,
anan halal edir sənə südünü,
Hər il yaşa dolur Qələbə günü,
adın söhbətlərdə, sözlərdə qaldı.

1978

ÜRƏKLƏR OXUSUN

Bəxtiyar Kərimov bəstələmişdir

Bahar yelləri əssin hər səhər,
yayılsın elə bizim nəğmələr.
Pıçıldaşın siz, şehli yarpaqlar,
sizin də öz diliniz var.

Sevinsin ürəklər,
çəməndə çiçəklər,
gül açsın arzular,
istəklər.

Qarışsın daim ürək-ürəyə,
külək mahnıya, mahnı küləyə,
arzu-arzuya, gülüş sevinc
qoy qarışsın dostlar, öncə.
Ay yağan yağışlar,
mehriban baxışlar,
bir gülüş min sevinc bağışlar.

Hər bulağın öz zümzüməsi var,
hər körpə quşun öz nəğməsi var.
Gəl ay körpə quş, gəl sərin bulaq,
nəğməmizi bir oxuyaq.
Bu ellər oxusun,
bülbüllər oxusun,
nəğməli ürəklər
oxusun...

1970

LAYLAY

İsmayıl Quliyev bəstələmişdir

Göy ulduz-ulduz,
göy də yuxusuz,
sən də yuxusuz, gül balam.
Mehdi, küləkdi,
ən xoş diləkdi, şirin laylam.
Yat, gülüm, yat,
bülbülüm, yat,
sünbülüm, yat.

Yatır dağ-meşə,
nərgiz, bənövşə,
qoşa yasəmən, buz bulaq.

Balaca quzum,
şəkərim, duzum,
yat, yuxusuzum, qalma oyaq.

1978

YAŞA DÜNYADA

Tahir Eminov bəstələmişdir

Yenə də gözlərim gözündə qalıb,
gördüyüm mənaya qurban olaram,
Əgər həqiqətsən, mən həqiqətə,
röyasan, röyaya qurban olaram.

Söhbətin şirindi, gülüşün təzə,
saldın ürəyimi eşqə, həvəsə.
Sən ayaq basdığın o yola, izə,
çəmənə, səhraya qurban olaram.

Çatsın hər muradın başa dünyada,
bir arzun dəyməsin daşa dünyada.
Bu dünya gözəldi, yaşa dünyada,
sən olan dünyaya qurban olaram.

1978

MƏNƏ ELƏ GƏLİR

Sevda İbrahimova bəstələmişdir

Mənə elə gəlir görüşəcəyik,
uzun sürməyəcək bu həsrət, bu qəm.
Sonra təəssüflə gülüşəcəyik,
sənə necə gəlir... onu bilmirəm.

Mənə elə gəlir, mənim çiçəyim,
gedər küsümüz də bir dəfə görsəm.
Genişdir, böyükdür sənin ürəyin,
sənə necə gəlir... onu bilmirəm.

Mənə elə gəlir, haraya getsən
gözündə, könlündə yalnız tək mənəm.
Sən məni unuda bilməyəcəksən,
sənə necə gəlir... onu bilmirəm.

Mənə elə gəlir, yaşamaq olmaz,
günəşsiz, havasız-bələdir aləm.
Həmdəmsiz çətindi... söz çox, ömür az,
sənə necə gəlir... onu bilmirəm.

1964

ANA

Mahir Tahiroğlu bəstələmişdir

Sən getdin, dəyişdi həyatın özü,
getdi dadı-tamı, hər şeyi getdi.
Evi bəzərdin ki, gözəl görünsün,
evimin ən gözəl bəzəyi getdi.

Mən sənsiz ölərəm demişdim, ana,
hamısı yalanmış, yaşadım, ana.

Nəqərat: Səni daşa dəyişdim,
torpağa dəyişdim,
dəyişdin, məzara döndün.
Səni qışa dəyişdim,
bahara dəyişdim,
dəyişdin, məzara döndün.

Mən sənsiz ölərəm demişdim, ana,
hamısı yalanmış, yaşadım, ana.

Gözüm yolda qalıb, qulağım səsdə,
gedibsən, qalmışam mən qonaq kimi.
Sən yerin altında, mən yerin üstə,
biz ayrı düşmüşük kök-budaq kimi.

Nəqərat: Səni daşa dəyişdim,
torpağa dəyişdim,
dəyişdin, məzara döndün.
Səni qışa dəyişdim,
bahara dəyişdim,
dəyişdin, məzara döndün.

Mən sənsiz ölərəm demişdim, ana,
hamısı yalanmış.
Bağışla.

KİTABIN İÇİNDƏKİLƏR

Ön söz 4

DURNALAR VURULUR QAQQILDAŞANDA

Bütün millətlərə Beynəlxalq məhkəməyə 9
Mən ki, Tanrı şairiyəm 10
Arxada uçurum, qabaqda zaman 12
Qalx 13
Dilənənlər 15
Ağrı 16
"Kimin sualı var?" – yazmışdım o vaxt,
cavabı özümdən istəyirdilər 18
Mənsiz yaşa 19
Xəbərsiz 21
Zəriflik 22
Əsa götürmə 23
Tərcümeyi-hal 24
Boş səbətlər 24
Yasin 25
Gəncə üsyanı 26
Əgər 27
Tələsməyin 28
Söyüd 28
Əzizim 29
Hələ and içir 31
Tehranda Azərbaycan səfirliyi, üçrəngli bayrağımız 31
Elə durma 32
Zirvə 33
Ankarada Məhəmməd Əmin Rəsulzadənin məzarı 34
Qız qalası 36
Cəbhə bayatıları 37
İtkin düşənlərin yeri bilinmir 39
Şəhidlər xiyabanı 40
Qanlı kitab 41
Ekran önündə 43
Kür axır 43
Hasar 44

Öldürürlər yaxşıları ... 45
Gülə-gülə ... 45
Daş ürəklər gördüm, ölü baxışlar ... 46
Əcəl gəlincə sən gəldin ... 46
Dəvə, susma ... 47
Daş vaxtı deyil ... 48
Yoxdu əvəzin, ey könül ... 48
Məsciddən kilsəyə gedir ... 49
Safruha ... 49
Şair ... 50
Sən də xiffət eyləmisən ... 51
Baxt qapın ağzında ayaq üstədi ... 52
Ala pişik ... 52
Baxta-baxtdı ... 53
Subardinasiya ... 53
Heyrət ... 54
...Yaş keçir, həkim ... 54
"Dilənçi" ... 54
Dünyanın heç kəsi yoxdu. ... 55
Sənə qul deyəni qul kimi öldür ... 56
Yerin var Şəhidlər xiyabanında ... 57
Burjua şairi ... 58
Öldü deməyin ona ... 59
Yanımda bir qadın ... 61
Məhəbbət ... 62
Oyan, şair! ... 62
Baş eylər ... 63
Dayım oğlu Bayram Məsmalıya ... 63
Xəlilin göz yaşı ... 64
Hay-küy ... 65
Dünyanın üzü toy, astarı yasdı ... 65
Mən bir ömür sürdüm ... 67
Qaratoyuq ... 68
Ayrılıq ayrılıqdı ... 69
Şeyxim ... 70
Millət öz-özünə güldü nəhayət ... 71
Yavaş de, qızım ... 71
Fəlsəfənin riyaziyyatı ... 72
Bir qəbir nəğməsən, dərdiş ... 73
Camal Mustafayev ... 74
Hamlet İsaxanlı ... 74

Bakıda "Yaşıl bağ" xəstəxanası və onun hasarı ... 74
Lalə Rasim qızına ... 75
İstiqlal laylası ... 76
Kitabxanaçı ... 78
Mir Cəlal heyy ... 80
Ürəyim ... 80
Çadralı qızlar ... 81
Səs ver Bakıya, Təbriz ... 82
Şairlər ağlayacaq ... 84
Mənim taleyimi yazan ayrıdı ... 85
Çoban Əfqan ... 86
Deyirlər "Dəyişmişəm" ... 87
Dünyada tərifli bir gün olmadı ... 88
Demir hanı Nərimanım ... 90
Sən köçdün dünyadan ... 90
"Təzə" xalq gəlir ... 91
Hacının qızı ... 92
Var ... 93
Aspirant dostum Abdulla Abbasovun qızına ... 94
Qurban Pirimovun xatirəsi ... 95
Nə qədər desək də sənsən arxamız ... 95
Məni bayraq kimi tutun yuxarı ... 96
Girov ... 96
Pənahi Makulunun dəfnində ... 97
Hazır ol ... 98
Heyrət ... 98
Qiymət ... 99
Niyə demədiniz ... 99
Məhəbbət ... 100
Səliqə-sahman ... 101
Lakin ... 101
Oğluma cavab ... 103
Ata sərvəti ... 103
Yaşamaq öyrədir təbiət bizə ... 104
Çılpaq kral ... 105
Sevin ... 105
Mənə oxşasan ... 106
Payız ... 107
Nigaranam ... 108
Belə deyirmi həyat ... 109
Yazıq fil ... 110

Aqava ... 110
Heyif ... 111
Ən şirin nemət ... 111
Müşfiqin oğlu ... 112
Yanaşı getməyimiz elə soadət imiş ... 113
Bakı ... 114
Cəngi ... 116
Dəymə ... 117
Görəsən ... 118
Qamçı vurur ... 118
Ehtiyat ... 119
Mən elə torpağam ... 119
Məhəbbət qədər ... 120
Qalan qapılardı ... 122
Mənim tarixim ... 122
Vətəndən soruş ... 123
Üreyim ... 124
Adsız bulaq ... 124
Xaricilər ... 125
Nikolay ... 126
Vaxt gəlir ... 127
"Qələm yoldaşıma" ... 127
Sınma ... 128
Fələstin nəğmələri ... 129
Möcüzə ... 130
Mən orda şeir dedim ... 131
Tacmahal ... 133
Aynur ... 134
Adət edənə kimi ... 134
Adət ... 135
Səs-səsə ... 136

"Nazim Hikmət" silsiləsindən
1. Sabah gələsiydi ... 137
2. Mən bilsəydim ... 138

Azəroğlu ... 140
Sən də ... 141
Böyük Periklin on ağır cəzası ... 141
Yaşa ... 142
Adət nədir ... 143

Həyat ... 144
Ehtiyacı var ... 144
Oxucuma ... 145
Azərbaycan ... 145
Əbədiyyət ... 146
Ağlağan ... 149
Dərddi ki, dərdlinin yoxdu yiyəsi ... 149
Şairlər tabutda böyük görünür ... 150
"İran şahı"na məktub ... 152
Cavidin ... 153
Aşıq Ədalətə ... 154
Şair taleyindən yarıya bilmir ... 155
...Ya iki ... 156
Alman əsgərinə ... 156
Vaxt ... 158
Bir az möhlət istəyirəm ömürdən ... 158
Durnalar vurulur qaqqıldaşanda ... 159
Ay haray ... 160
Getdi ... 162
Mir Cəlal misal çəkərdi ... 163
Qaçdıq qara saçdan ağ saça qədər ... 163
29 güllənin yiyəsi ... 165

YAŞA, HAYIFSAN

İsmət ... 169
Üreyim anamı istəyir, qızım ... 169
Yaşa, hayıfsan ... 170
Mən ... 171
Mənə düşməyir ... 171
Qayıt ... 172
İşığa can atsam ... 173
Yoxdu ... 174
Söz yarası ... 175
Ağlama ... 177
Torpaq oldu ... 177
Ayrılıq ... 178
Görüş yeri ... 180
Torpağa büründü, kürk əvəzinə ... 181
Zülmətdə işıq ... 182
Bəxt ... 183

Gəlin ... 184
Ağladı tellər Saramı ... 185
Gəncə gözəli ... 185
Payız, qayınağacı ... 186
Laylay ... 188
Daşı sevməliyik biz innən belə ... 188
Qızmaz ... 189
Ömürlük geydirdi onu təbiət ... 190
Qaraçı qızı ... 191
O qədər dedim ki ... 192
Sağ canımda ağrıyan yerim ... 193
Mənim nikahımı pozdu təbiət ... 194
Axtarıram ... 195
Məni təbrik eləyirlər ... 195
Necə unudum ... 196
Səni sevdim ki ... 196
Məhəbbət ... 197
Nə yaxşı ... 197
Qadınsız həyat ... 198
Taleyin son töhfəsi ... 199
Oxu zalında ... 200
Gül ilə ... 200
Mübarək ... 200
Həyat ... 201
Qəriblik ... 201
Beləcə uzan ... 201
Düşüb ... 202
Artistlər ... 203
Sənin nəvazişin ... 204
Səhər həsrəti ... 205
Yaşamaq üçün ... 206
Yanına gəlmişəm ... 207
Deyirlər tanış ol ... 208
Nağıl ... 208
Qadın ... 209
Qadına məktub ... 211
Təsəlli ... 212
Sənin söhbətin ... 212
Vaxt ... 213
Mənim səadətim ... 214
Etiraf ... 214

Gözəllik ... 215
Borc ... 216
Düz deyir könül ... 217
Mənim sevincim ... 217
Ləyaqət ... 218
Gəl, "Mənim yaşıdım" ... 219
Dünya işıqdı ... 220
Görüşdən qabaq ... 221
Sirr deyil ... 222
Bax ... 222
Səndən ötəri ... 223
Səssiz ... 224
Oğluma ... 224
"Ziyafət"dən qayıdan qız ... 226
Tale ... 227
Qızlardan oğlanlara ... 228
"Gəzəyən qız" ... 229
Qoşa məzar ... 230
Tələbəlik ... 231
Səadət ... 232
Nərdivan ... 233
Gözü yoxdu ... 234
Əli bala ... 235
Evdə arvad olmayanda ... 235
İmtahan ... 236
Qorxuram "anama" mən ana deyim ... 237
Məndən yaman rahatdılar ... 238
Xəbər ver o gözəldən ... 239
Düşüb ... 240
Dünya yaşamaq yeriymiş ... 240
Mənim yandığımı demə, yanarsan ... 241
Xoşbəxtlik ... 241
İçimdə ... 242
Sən Nəriman deyibsən ... 242
Sənin yuxun ... 243
Gül ... 243
Ayaqqabılar ... 244
Daim göz önündə ... 245
Sənə keşik çəkirəm ... 246
Qabaqda yaş var ... 246
Qıza "beş" düşür ... 247

İkimiz ... 247
Yadına düşəcəyəm ... 248
İtirmə ... 250
Sirr sözü ... 250
İkinci addım ... 251
Xoşbəxtlik verirdim ... 251
Apar məni ... 252
Xatirə ... 252
Sən yaşa ... 253
Haqqın çatarmı ... 254
Olum ... 254
Qadasın aldığım ... 255
Dünyanın sakit yeri ... 256
Taleyin dalınca ... 256
Qız idin – sevinən, qaçan, güləyən ... 258
Üstünə ... 259
Gəl, yanıma gəl ... 260

POEMALAR

Qafqaz ... 263
Cavid ... 266
Qaçaq Kərəm ... 270
Səfirə məktub ... 273
"Xarı bülbül" ... 277
Rəsul Həmzətova məktub ... 280
Nizami ... 287

HEÇ NƏ İSTƏMƏYƏN QIZ

(*Uşaq şeirləri*)

Xatirə ... 297
Dişləri mırıq, düyməsi qırıq, şalvarı qısa, qardaşım İsa ... 297
Uşaqlar ... 298
Heç nə istəməyən qız ... 298
Heykəl ... 298
Yoxa çıxan yeddi yaylıq dastanı ... 299
Xanımın sərgidə iştirakı ... 299
Şeytan qız ... 300
Ay Xanım, gəl oynayaq ... 300

"Arı" və "Alı" ... 301
Nazim ... 301
Düz görübsən, atacan ... 301
Yuxuda ağlatdılar ... 302
Həmin sinifdə ... 303
Nəzrin gör kim olacaq ... 304
Aysel, Gülsel, İmamət ... 304
Qızıl lələk nağılı ... 306

BU DA BİR ZARAFAT

(*Nəğmələr*)

Fikir eləmə ... 311
Tələsmə ... 311
Qal görüm ... 312
Sən bağışladın ... 312
Yox deyə-deyə ... 313
Kaş ... 314
Bu da bir zarafat ... 314
Ay yaşıl söyüd ... 316
Məni bir qız gözləyir ... 317
Minnətdaram mən ... 318
Bəxtəvər oldu ... 318
Sənsən həyatım ... 319
Gül bir az ... 320
Ömrümün yazısan ... 320
Lirik parça ... 321
Niyə gəldin ... 321
Yaşatdın əlləri ... 322
Ürəklər oxusun ... 322
Laylay ... 323
Yaşa dünyada ... 324
Mənə elə gəlir ... 325
Ana ... 325

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Emil Məmmədov*

Korrektor: *Ceyran Abbasova*

Yığılmağa verilmişdir 23.05.2004. Çapa imzalanmışdır 29.12.2004.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 21. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 219.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.